**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**AKADEMİK Z.M.BÜNYADOV ADINA**
**ŞƏRQŞÜNASLIQ İNSTİTUTU**

**Əbu-Osman Əmr bin Bəhr əl-Cahiz**
**(767-868)**

# "Əl-Tac fi əxlaq əl-müluk"
# (Şahların əxlaqı haqda Tac əsəri)

**Bakı – 2023**

*AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Elmi Şurasının qərarı ilə çap* olunur.

**Elmi redaktor:** akademik Gövhər Baxşəliyeva

**Tərcüməçi:** Samid Bağırov

**Rəyçilər:** F.ü.f. d. Ruhəngiz Cümşüdlü
F.ü.f. d. Ələddin Məlikov

"Əl-Tac fi əxlaq əl-müluk" (Şahların əxlaqı haqda Tac əsəri). Bakı: "Elm", 2023, – 168 s.

ISBN 978-9952-556-94-0

© *akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu*, 2023

# MÜNDƏRİCAT


**TƏRCÜMƏÇİNİN ÖN SÖZÜ** .......... 6
**MÜƏLLİFİN ÖN SÖZÜ** .......... 14
Mərhəmətli və rəhimli Allahın adı ilə .......... 14

**BİRİNCİ FƏSİL** .......... 20
Şahların hüzuruna daxil olmaq .......... 20
Əyanların daxil olması .......... 20
Orta təbəqənin şahın hüzuruna daxil olması və rəftar qaydası .......... 20
Şahın digər şahları qarşılaması .......... 21
Şahın digər şahları yola salması və onlarla vidalaşması .......... 21

**İKİNCİ FƏSİL** .......... 23
Şahlarla süfrə başına oturmaq .......... 23
Mansur Abbasi və Haşimi qəbiləsindən olan gənc .......... 24
İshaq ibn İbrahimin süfrəsi başında .......... 25
Şahlarla həmsüfrə olmaq şərəfi .......... 25
Müaviyə və Həsən ibn Əli .......... 26
II Şapur rahibi necə sınağa çəkir?! .......... 27
Şah və süfrəsində oturan qonaqlar .......... 28
Süfrə başında söhbət .......... 29

**ÜÇÜNCÜ FƏSİL** .......... 32
Həmsöhbət olmaq və nədimlərin təbəqələri .......... 32
Şahın hüzurundan mürəxxəs olmaq qaydası .......... 33
Müsəlmanlarda və farslarda nədimlərin və xanəndələrin rütbələri .......... 33
V Bəhram və adət-ənənələrin pozulması .......... 36
Əməvilər və nədimləri .......... 38
Abbasilər və nədimləri .......... 40
Mənsur Dəvaniqi .......... 41
Harun ər-Rəşid (763-809) .......... 44
Məhəmməd Əmin Abbasi (787-813) .......... 48
Abbasi xəlifəsi Məmun (786-833) .......... 49
Xoşbəxt şahın əxlaqı .......... 51

Cəzalandırmaq və onun həddi-hüdudu........................................51
Şahın ətirlənməsi və zahiri görkəmi............................................52
Şahların ənamı və minnəti..........................................................56
Əfv etmək....................................................................................56
Şah məclisdən qalxarsa ..............................................................57
Şahın söhbətini dinləmək ...........................................................58
Müaviyə və əl-Rəhavinin dastanı................................................61
Diqqətlə qulaq asmaq haqda bir neçə kəlam ..............................63
Şahla ünsiyyət.............................................................................64
Ənuşirəvan yaxın adamını xəyanətə görə cəzalandırır.................65
Harun ər-Rəşid və Bərməkilər.....................................................69
Şahın namusuna hörmətlə yanaşmaq...........................................69
Şahın hüzurunda bədən hərəkətləri .............................................70
Əgər şah məclisdə olmazsa .........................................................72
Mükafatlandırmaq adət-ənənəsi ..................................................72

**DÖRDÜNCÜ FƏSİL**......................................................................73
Şahın nədimlərinin xüsusiyyətləri................................................73
Səfər və gəzinti zamanı şaha lazım olanlar ..................................74
Oyun zamanı nədimlərin bəhrələndiyi hüquqlar ..........................75
Sasani şahı I Şapurun qumar oyunu .............................................75
Şah yuxuya gedən zaman nədimlər nə etməlidirlər?.....................77
Namazda şahın pişnamaz olması..................................................78
Şahla gəzintinin və onu müşayiət etməyin qaydası.......................79
Hakimin Sasani şahı I Qubadı müşayiət etməsi ............................80
Sərkərdə Şurahbilin Müaviyə ilə birgə at sürməsi ........................81
Hadi Abbasi və onun daruğası......................................................82
Əl-Haşiminin Əbu-Muslim Xorasaniyə dediyi şeir ......................83
Şahları ad və künyəsi ilə çağırmaq olmaz.....................................83
Şahla digərinin adı bənzəyərsə.....................................................85
Paytaxt və sarayda bu işlər yalnız şaha məxsusdur.......................85
Şaha dua etmək və başsağlığı vermək..........................................86
Şahın qəzəb və razılığı ................................................................87
Şahın sirləri .................................................................................90
Şahın namusu ilə bağlı diqqətli davranmaq lazımdır ....................91
Xosrov Pərviz müxaliflərini necə aşkarlayırdı? ...........................94
Şahlar kiçik xətaları görməzdən gəlirlər.......................................96
Şahlar bu kimi məsələlərdə aldanılmış hesab edilmirlər...............98

Vəfalı insanlara diqqət, qayğı və təşəkkür etmək........................100
Şahı dinləmək və onunla söhbətləşməyin
ədəb qaydaları...........................................................................106
Şahın söhbətinə gülmək olmaz..................................................107
Şah məclisindən haçan mürəxxəs olmaq mümkündür?...............109
Şahın qarşısında başqaları haqda mənfi danışmaq ......................110
Şahın səfirləri necə olmalıdır?....................................................111
İskəndər və yalançı səfir............................................................112
Şah ehtiyatını əldən verməməlidir..............................................113
Şahzadələrin şahla münasibəti...................................................114
Şahın kef-əhvalı olmazsa............................................................117
Ədəbləndirmə zamanı etinasızlığın faydası................................124
Şahın yaxınlarının xüsusiyyətləri ...............................................125
Şahın səxavət və mərhəməti.......................................................126
Şahın xəstələnməsi .....................................................................130
Şah tərəfdarlarının mükafatları...................................................131
Novruz və mehregan hədiyyələri................................................132
Şahların əyləncə və içkisi ...........................................................135
Şahların geyimi...........................................................................137
Şahın öz yaxın adamlarını ziyarət etməsi...................................139
Bayramlarda camaatın şah tərəfindən qarşılanması ....................141
Şahdan şikayət etmək .................................................................142
Şahın camaatın əhvalını araşdırması ..........................................146
Şahlığın müddətinin ömrünü uzadan addımlar...........................149
Təhlükəli hadisələr zamanı şahın öhdəlikləri.............................150
Şahların müharibədə hiylə və taktikaları ....................................152

**SON SÖZ**...........................................................................................162
**ƏDƏBİYYAT**....................................................................................163

# TƏRCÜMƏÇİNİN ÖN SÖZÜ

Azərbaycan Milli Elmlər Akademiyasının ak. Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Ərəb ölkələri tarixi və iqtisadiyyatı" şöbəsində işə başlayandan sonra orta əsrlərlə bağlı araşdırmalara daha çox vaxt ayırmağa başladım. Burada olduğum müddət ərzində fərqli mövzularla bağlı məqalələr yazsam da, məni qane etmir, daha sanballı bir əsərin ərsəyə gətirilməsini arzu edirdim. Orta əsrlərə aid bir neçə nəfis əsərin Azərbaycan dilinə tərcüməsi və araşdırılması ilə bağlı elm əhli ilə aparılan məsləhətləşmələr nəticəsində Cahizin "Əl-Tac fi əxlaq əl-müluk" kitabı diqqətimi çəkdi. Bu kitab mənə daha çox Azərbaycanda da elm əhli tərəfindən həvəslə mütaliə edilən Nizamülmülkün[1] Siyasətnamə əsərini xatırladırdı. Üç əsr zaman fərqilə yazılmış iki əsər arasında olan çoxsaylı oxşarlıqlar, o cümlədən yazı və təhkiyə üslubu, müzakirə edilən mövzuların yaxınlığı bunu deməyə əsas verir ki, Azərbaycanın elm əhli "Əl-Tac" əsərilə də yaxından tanış olmalıdır.

"Əl-Tac" əsərinin elmi dəyəri o qədər çoxdur ki, tərcüməçinin gördüyü işlə bağlı elə bu bir neçə cümlə ilə kifayətlənir, əsərin özü, müəllifi və tərtibatçısı barədə mühüm məqamları qeyd etməyə başlayırıq.

"Əl-Tac fi əxlaqil-müluk" əsərini araşdıran, nüsxələrini cəm edərək, çapa hazırlayan misirli ədəbiyyatçı və tarixçi alim Əhməd Zəki Paşa (1867-1934) kitabın adı və Cahizə mənsub olması haqda çoxsaylı faktları ortaya qoyur. Ona görə, Cahizin əsərləri arasında "Əl-Tac fi əxlaqil-müluk" adlı əsər mövcud olmasa da, "Əxlaqul-müluk" adlı əsər var. Necə ki, Yaqut Həmavi

---

[1] Nizamül-mülk, tam adı Əbu Əli Əl-Həsən ət-Tusi Nizamül-mülk (1018-1092), Səlcuq Dövlətinin vəziri və "Siyasətnamə" adlı kitabın müəllifi, siyasətçi, tarixi şəxsiyyət

(1179-1229) “Mucəm əl-Üdəba” əsərində və livanlı alim Corci Zeydan (1861-1914) “Tarix adab əl-lüğətil-ərəbiyyə” kitabında bu faktı qeyd etmişlər. Əhməd Zəki Paşa qətiyyətlə bildirir ki, “Əxlaqul-müluk” adlı əsər elə həmin “Əl-Tac fi əxlaqil-müluk” əsərinin özüdür.

Buradakı yazı və təhkiyə üslubunun Cahizin digər əsərlərinin üslubuna bənzəməsi iddiamızı isbat edən digər faktlardandır.

Kitabın Cahizə aidliyini isbat edən digər məsələ isə əsərin Abbasi xilafətinin əmiri Fəth ibn Xaqana[2] hədiyyə və həsr olaraq yazılmasıdır. Belə ki, Cahizlə Fəth ibn Xaqanın arasında özəl münasibətlərin olması da tarixçilərə gizlin qalmayıb. Hətta bildirilir ki, elə Cahizin özünü xəlifə Mütəvəkkilə (847-861) təqdim edən və saraya yaxınlaşdıran da Fəth ibn Xaqan olub.

**Cahiz kimdir?** Cahizin tam adı Əbu-Osman Əmr ibn Bəhr ibn Məhbub Kənanidir. O, hicri-qəməri təqvimi ilə 160-cı ildə (776) Bəsrədə dünyaya gəlib və 255-ci ildə (868) elə həmin şəhərdə dünyadan köçüb. Yüzdən çox traktatın və antologiyanın müəllifi olan Cahiz məşğul olduğu ədəbiyyat, dilçilik və tarixlə yanaşı musiqi, biologiya və zoologiya sahəsində də zəhmətlər çəkib və bu zəmində bir sıra mühüm əsərləri ərsəyə gətirib. Şərqi Afrika və bərbər əsilli olduğu deyilən Cahiz İslamda rasional cərəyan kimi tanınan Mötəziliyin və ədəbiyyatın ədəb cərəyanının nümayəndəsi hesab edilir. Onun türklərlə bağlı yazdığı “Risalə fi mənaqib əl-ətrak”, bu soyun Abbasi xilafətindəki rolundan bəhs edir və onların da ərəb və farslar kimi dövlətin quruculuğunda böyük rola və müsbət imicə malik olduğunu deyir.

Cahizin böyüyüb boya başa çatdığı Bəsrə artıq VII və VIII əsrlərdə elm mərkəzlərindən birinə çevrilmişdi. Xilafətin müxtəlif bölgələrindən alimlər, şairlər, ədəbiyyatçılar, hədis raviləri, kəlam alimləri və sairləri bura axışaraq bəhrələnməyə çalışır və özlərilə gətirdikləri elmi əsərləri təqdim etməyə can atırdılar.

---

[2] Əbu-Məhəmməd əl-Fəth ibn Əhməd bin Ğartuc (815-861), Abbasi dövlətinin tanınmış vəzir, müşavir, ədib və şairi. Mütəvəkkil, hakimiyyəti dövründə onu Misir və Afrika üzrə əmir təyin etdi. Elə Mütəvəkkillə də birgə Samirə şəhərində qətlə yetirildi.

Bəziləri o zaman Bəsrədə olan "Mürid" adlı bazarı vaxtilə cahiliyyət dövründə Ərəbistan Yarımadasında olan Ukaz bazarına bənzədirdilər. Belə ki, Ukaz bazarında cahiliyyət dövrünün tanınmış şairləri bir araya gəldiyi kimi, Bəsrənin bu bazarı da müxtəlif bölgələrdən gələn şair və ədiblərin toplaşdığı məkana çevrilmişdi. Onlar Bəsrəyə gələrək xəlifəni, onun əmirləri və digər hökumət adamlarını cəlb edə biləcək şeirlərini təqdim etməyə çalışırdılar.

Cahiz də bu mühitdə böyümüşdü. O bazarda çörəkçiliklə məşğul olsa da elm və ədəb onun ruhunda idi. Çörəkçi olmasına baxmayaraq elm və ədəbdə o qədər yetişdi ki, mötəzilə etiqadında xüsusi cərəyanın aparıcı şəxsinə çevrildi və hətta bir zamanlar Bəsrədə kəlam elmində onun tərəfdarlarına Cahiziyyə də deyirdilər.

Müəllifə belə bir ləqəbin verilməsi, onun siması, xüsusilə də gözlərilə bağlıdır. Cahiz ərəb dilində "gözləri bərəlmiş" və ya "domba göz" deməkdir. Nəql edilir ki, o simadan eybəcər idi. Müəllifin özü şeirlərində eybəcər olduğunu bildirir və bir neçə yerdə məhz bu səbəbə görə evlilikdə bəxti gətirmədiyini açıqlayır.[3]

Həmçinin nəql edilir ki, əmir Fəth ibn Xaqan Cahizi xəlifə Mütəvəkkilin yanına apardı. Mütəvəkkilin məqsədi bu idi ki, uşaqlarına təlim keçməyi Cahizə tapşırsın. Lakin onun simasını görəndən sonra fikrindən daşındı və 10 min dirhəm bəxşiş verərək, onu Bəsrəyə geri göndərdi.

Əsəri cəm edən və onun tərtibatçısı tarixçi Əhməd Zəki Paşa bildirir ki, Cahiz Əl-Tac kitabını, Bağdad xilafətin mərkəzi və islam dünyasının qibləsi olanda yazdı. Bu elə bir zaman idi ki, islam dünyasının bütün güşələrindən bilik və mərifət əhli Bağdada axışır, elm kəsb edirdilər.

Cahiz bu əsərində çalışıb ki, Abbasi xilafətinin dövrü ilə yanaşı, Əməvi xilafətinin, İslam xilafətinin ilkin çağı və əcəm şahlarının dövründə olan qanun-qaydaları və adət-ənənələri toplasın. O bu işdə bacardığı qədər istinadlara riayət edib. **Əsər,**

---

[3] Charles Pellat, "əl-Cahizu fil-Bəsrəti və Bağdad və Samirra" səh 98-103,

**əsasən xəlifə və şahların məclislərində, rəsmi toplantılarda, dövlət protokollarında, səyahətlərdə, milli və dini bayramlarında həyata keçirilən qayda-qanunlar və adət-ənənələri ehtiva edir.**

Qeyd etmək lazımdır ki, əsərin ünvanında yer alan "Əxlaq" ifadəsi Azərbaycan dilində daha çox istifadə edilən sırf "bəyənilən xüsusiyyətlər və sifətlər" deyil, həm "bəyənilən sifətlər" (əl-Əxlaq əl-məhmudə) həm də "bəyənilməyən xislətlər" (əl-Əxlaq ər-rəzilə) məfhumlarına şamildir. Hətta oxucu bu əsəri mütaliə edəndə şahidi olacaq ki, Cahiz əxlaq dedikdə adətləri də nəzərdə tutur. Xülasə, şahların əxlaqı dedikdə, onların bütün xislətləri və adətləri nəzərdə tutulur.

Digər açar söz olan "şahlar"a gəldikdə isə əsasən Abbasi, Əməvi və Sasani sülaləsinin hökmdarları nəzərdə tutulur. Maraqlı budur ki, Cahiz bu əsərində İslam xilafətinin ilk beş xəlifəsindən çox az söz açır. Sanki o, bu dörd xəlifəni şah kimi qələmə vermək istəmir və onları daha uca tutur. Hiss olunur ki, müəllif əsərində bəzi şəxsləri daha uca tutur və onların adları çəkilən kimi, "Allahın salamı olsun ona" ifadəsini qeyd edir.

Cahiz bu əsərində qayda-qanunlar və adət-ənənələrin dəyişdirildiyi və bu dəyişikliyin kimin zamanında və hansı səbəbə görə həyata keçirildiyi məsələləri üzərində də dayanır. O, "Mübəyyədə" və "Müsəvvədə"[4] zamanında hansı adətlərin kimin tərəfindən dəyişdirildiyini qeyd etmədən keçmir.

Müəllif burada oxucunu şahlar və xəlifələrin sarayda, xəlvətdə, nədimləri[5] arasında, səfirləri yanında, digər şahlar və əmirlərin yanında olan əhvalı ilə rəftarı, göftarı və kirdarı ilə tanış edir. O hətta hökmdarların geyindiklərini, yeyib, içdiklərini və istifadə etdikləri ətriyyatı da yaddan çıxarmır.

---

[4] Mübəyyədə ağ geyinənlər deməkdir və Əməvi xilafətinin adamlarına, Müsəvvədə isə qara geyinənlərdir və Abbasi xilafətinin adamlarına deyilirdi.

[5] Nədim; həmsöhbət, sirdaş, yaxın adam, həmməclis mənasındadır. Şahlar bir sıra şəxslərlə daha çox vaxt keçirirdi. Onların bir qismi şahı əyləndirir, bir qismi isə şaha öyüd nəsihət verir və ya ölkənin idarəetmə məsələlərində şahlar üçün sirdaş və yoldaş hesab olunurdular.

Əsərdə Sasani və ondan öncəki İran sülalələrinin şahlarının adət-ənənələrinə geniş şəkildə yer verməк ondan xəbər verir ki, müəllif əcəm şahlarına aid çoxlu əsərlərə baş çəkib və Abbasi xilafətinin dönəmində tərcümə edilmiş çoxsaylı əsərləri mütaliə edib.

Əhməd Zəki Paşa bildirir ki, Cahiz İran şahları ilə bağlı bilgilərinin bir qismində Ənuşirəvanın (501-579) xatirəsinə yazılmış "Əl-Tac" əsərinə borcludur.

Cahizin burada sərgilədiyi fikirlər birmənalı şəkildə qəbul edilməyə bilər. Məsələn onun, "sanki şah Allahla bəndələri arasındadır" deyimi bir qismin tənqidinə də səbəb ola bilər. O, bu kitabda "şahlar belə olmalıdır" deyil, "şahlar belə olur" reallığını çatdırmağa çalışır. Alim əsərinin heç bir yerində fikirlərinin İslam dininin təlimatı ilə uyğun olduğunu da iddia etmir.

Ə.Z.Paşa **kitabın orijinal nüsxəsi** haqda deyir:

"İstanbulda Topqapı kitabxanasından böyük cildli bir nüsxə tapdım. Bu nüsxə həqiqətən də keçmiş nəslin bizim üçün qoyub getdiyi ən qiymətli miraslardandır. Bu nüsxə üç kitaba şamil idi; 1- İbn əl-Müqəffanın (724-760) əl-Adab əsəri, 2- həmin alimin əl-Ədəb əs-Səğir əsəri, 3- Cahizin Əl-Tac əsəri.

Mən bu xəzinəni əldə edəndən sonra dərhal onun üzərindən foto çəkməyə başladım. Həmin çəkdiklərimi, digər fəxarətli ərəb yazıçıların əsərlərilə birgə götürüb, onların əsas vətəni olan Nil çayının kənarına gəldim və o zaman itmiş Yusifimi tapdım. Baxmayaraq ki, bu nüsxələrin əvvəl və sonunda verilməsi lazım olan məlumatlar yox idi."[6]

Üç kitaba şamil olan bu toplunun sonunda vurulmuş möhürdən və burada yazılmış qeydlərdən bəhs edən Əhməd Zəki Paşa bildirir ki, bu əlamətlərdən, toplunun sürətinin Hələb ya Misirdə götürüldüyü məlum olur. O əlavə edir ki, möhürdən bəlli olur ki, hicri-qəməri təqvimi ilə 894-cü ildə Yusif Hələbi adında bir nəfər onu əvvəldən sona qədər mütaliə edib. Ə.Z.Paşa əlavə edir ki, Cahizin əsərinin də şamil olduğu bu toplu Sultan Sü-

[6] Əl-Tac fi əxlaqil-müluk, Əbu-Osman Əmr bin Bəhr əl-Cahiz, səh 26, (Tərtibatçının ön sözü) Qahirə 1914, əl-Əmiriyyə mətbəəsi, birinci çap

leyman Qanuninin (1494-1566) Hələb və Qahirəni yenidən fəth etdiyi zaman əldə edilən qənimətlərin sırasında İstanbula aparılıb.

O, kitabın Topqapıda tapdığı nüsxəsi haqda deyir:

"Əl-Tac əsəri 185 səhifədən ibarət idi. Hicri-qəməri təqviminin IX əsrində Misirdə daha çox istifadə edilən nəsx xətti ilə yazılmışdı. Onun hər səhifəsi 15 sətirə malik idi. Adətən əlyazmaların əvvəl və sonunda lazımlı bilgilər və məlumatlar verilir, amma burada heç bir izahat və açıqlama yox idi. Mən məhz bu nüsxəni Əl-Tac əsərinin əsli olaraq götürdüm. İki ildən çox məhz bu məsələ üzərində araşdırma apardım. Bu müddətdə bütün fiziki bacarığımı və elmi bilgilərimi bu işə sərf etdim. Allah və dostlarım şahiddir ki, İskəndəriyyədə yayda qaldığım yerdə və Qahirədəki (Zəkiyyə adlı) kitabxanamda tarix, ədəbiyyat və lüğət sahəsi üzrə 500-dən çox kitaba müraciət etdim. Bəzən isdədiklərimə çatırdım, lakin çox vaxt bu məşəqqətli işdə əliboş qalırdım."[7]

Ə.Z.Paşa bildirir ki, Cahizlə bağlı məlumatların daha geniş verildiyi "Mücəm əl-Üdəba", "Əl-Vafi bil-vəfəyat", "Uyun ət-Təvarix", "Kəşfuz-zunun", eləcə də alimin öz əsərləri olan "Əl-Həyəvan" və "əl-Bəyan və ət-Təbyin" kitablarına baxıb, lakin orada Əl-Tac adlı əsəri görməyib. O əlavə edir ki, lakin bu kitablarda Cahizin "Əxlaqul-müluk" (şahların əxlaqı) adlı kitabının olmasına rast gəlib. Digər faktları da yanaşı qoyaraq misirli tarixçi alim vurğulayır ki, bu elə həmin Əl-Tac əsəridir.

"Daha sonra bu ehtimal məndə qətiləşdi. Çünki kitabın, "Əxlaqul-müluk" adı altında daha bir nüsxəsini İstanbulda Ayasofiya kitabxanasında gördüm. Maraqlı bu idi ki, bu nüxsədə "Əxlaqul-müluk" sözünün önündə sonradan yazıldığı bəlli olan Əl-Tac kəlməsi var idi. Təəssüflər ki, öncəki nüsxədə olduğu kimi bunun da əvvəli və sonunda müəllif barədə lazımlı bilgilər yox idi", deyə araşdırmaçı iddiasını isbat edən daha bir faktı əlavə edir.

---

[7] Öncəki mənbə

Ə.Z.Paşa "əl-Tac" sözünün "Əxlaqul-müluk"a əlavə edilməsi haqda bir sıra fikirləri qeyd edir və onları bir-bir araşdırır. Sonda o bildirir ki, Cahiz də bir çox alimlər kimi kitabını iki adla adlandırıb.[8] O əlavə edir ki, Cahiz bu adlandırma işində, əsərlərini sevə-sevə oxuduğu İbn əl-Müqəffanın "Əl-Tac fi sirət Ənuşirəvan" əsərindən təsir alıb.

Bu məqamda ərəb dilində Əl-Tac adı altında ərsəyə gətirilmiş kitabları qeyd etmək zəruridir. Bu əsərləri tarixi ardıcıllığı ilə qeyd edirik:

1- Kitab Əl-Tac fi sirət Ənuşirəvan, müəllif Abdullah ibn Muqəffa (724-760)

2- Kitab Əl-Tac (və ya Tac əd-Dibac), müəllif Əbu-Übeydə (hicri-qəməri - 213)

3- Kitab Əl-Tac, İbni Ravəndi (hicri-qəməri - 301)

4- Kitab Əl-Tac (və ya Kitab əl-Taci), müəllif İbni Sabi (hicri-qəməri – 384)[9]

5- Kitab Əl-Tac, müəllif İbni Faris (hicri-qəməri – 395)

6- Kitab Əl-Tac fi zəvaid ər-rəudə ələl-minhac, müəllif adı naməlum olan IX əsr alimi

Bu kitablar Cahizdən öncə və sonra Əl-Tac adı altında ərsəyə gətirilmiş əsərlərdir. Onların çoxusu mövcud deyil və bizim dövrümüzə yalnız onların adı gəlib çatıb.

**"Əl-Tac fi əxlaqil-müluk" Cahizin əsəridir?**

Araşdırılması lazım olan məsələlərdən biri də "Əl-Tac fi əxlaqil-müluk" əsərinin Cahizə aid olub, olmaması məsələsidir. Cahiz əl-Həyəvan adlı kitabında əsərlərinin çoxunun adını çəkir, amma orada "Əl-Tac" və ya "Əxlaqul-müluk" kitabından söz açmır. Bu məsələ bir çoxlarının zehnində şübhələrə yol açıb.

Ə.Z.Paşa kitabda olan bir sıra məqamların üstündə dayanır və bildirir ki, bu məqamlar onun məhz Cahiz tərəfindən yazıl-

---

[8] Məsələn Yaqut Həmavinin "Mücəm əl-Üdəba" əsəri həm də "İrşadul-Ərib" adlanırdı və ya Miqrizinin "əl-Məvaiz vəl-Etibar" əsəri ki eyni zamanda "Xutət Miqrizi" adlanırdı.

[9] Əbu-Reyhan Biruni, əl-Asar əl-Baqiyə əsərində (səh 38) onun haqda məlumat verib.

masının göstəricisidir. Kitabda müəllifin yazı və təhkiyə üslubu, ədəbi zənginliyi, təkrarçılığı, ərəb təəssübkeşliyi Cahizin əl işini xatırladır. Burada bəzi mətləblərin isbatı zamanı (Cahizin digər əsərləri olan) “əl-Buxəla”, “əl-Həyəvan” və “əl-Bəyan vət-Təbyin” əsərinə istinad edilir və bu istinad zamanı Cahizin adı çəkilmir. Bu isə o deməkdir ki, kitabı yazan elə Cahizin özüdür.

“Əgər bunu yazan Cahizdən qeyrisi olsaydı, onun sabiq kitablarına istinad edəndə adını çəkərdi”, deyə Ə.Z.Paşa fikrini isbat etməyə çalışır.

Cahizin əmir Fəth ibn Xaqanla hamıya bəlli olan dostluğu, əmirin Cahizə vaxtaşırı dəstəkləri və qarşımızdakı əsərin Fəth ibn Xaqana həsr edilərək yazılması daha bir tutarlı dəlil ola bilər.

Bundan savayı “Əl-Tac fi əxlaqil-müluk”dakı bəzi mövzular özündən sonra digər alimlərin əsərlərində də yer alıb və Cahizin adı da çəkilib. Məsələn, Məhasinul-Müluk[10] əsəri “Əl-Tac fi əxlaqil-müluk”da qeyd edilmiş Müaviyə (603-680) ilə Yezid ibn Şəcərənin arasında baş tutan söhbəti gətirir və Cahizin adını da iki dəfə çəkir.

Həmçinin bu əsərdə müntəzəm olaraq elə kitablara istinad edilir ki, Cahizin digər kitablarında da həmin kitablara intensiv istinadlar edilir.

Əsərin Cahizə aid olmasını isbatlamaq üçün, müəllifin ön sözünü diqqətlə mütaliə etmək lazımdır. Müəllif əsərin ön sözündə bildirir ki, mən “Qəhrəmanlar və comərdlərin əxlaqı” haqda kitab yazmışam. Cahizin belə bir kitab yazmasını Yaqut Həmavi “Mücəm əl-Üdəba” əsərində vurğulayır.

---

[10] Məhəmməd Ğənim, Məhasinul-müluk fi tarixil-xüləfai vəl-müluk, Qahirə, Mətbəətul-Ülum, 1938

## MÜƏLLİFİN ÖN SÖZÜ

**Mərhəmətli və rəhimli Allahın adı ilə**

"Göylərdə və yerdə nə varsa, hamısının sahibi olan Allaha həmd olsun! Axirətdə də həmd Ona məxsusdur. O, hikmət sahibidir, (bəndələrinin bütün əməllərindən) xəbərdardır!"[11]

Ardıcıl, davamlı nemətləri və zamanında etdiyi ehsan və minnətlərinə görə ona şükür edir, dərgahından istəyirəm ki, razı qaldığı işlərdə mənə müvəffəqiyyət əta etsin!

Şəhadət verirəm ki, oxşar və bənzəri olmayan Allahdan başqa məbud yoxdur. O, Allah ki, tərkibi və hissələri yox, bölgüsü və məhdudiyyəti mümkün olmayan və bənzəri olmayandır. O hərəkət etmək, dayanmaq, yer dəyişmək, yoxluq, halətin dəyişməsi, bir haldan başqa hala düşmək kimi məfhumlardan uzaq və onların fövqündədir. O uca və böyükdən başqa məbud yoxdur.

Şəhadət verirəm ki, Məhəmməd onun bəndəsi, elçisi, əmanətdarı və sirdaşıdır. Allah onu elə bir zamanda göndərdi ki, elçilərin və peyğəmbərlərin şəriəti məhv olmuş, peyğəmbərlərin dövranı geridə qalmışdı. Onu göndərdi ki, qəlbləri oyaq olanları Allaha sarı dəvət edib (ilahi əzabdan) qorxutsun və kafirlərə xəbərdarlığını çatdırmış olsun. Bu elə bir zamana təsadüf edirdi ki, ərəblər övladlarını diri-diri basdırır, bir-birinin qanını tökür, əmlakını mübah bilir və qarət edirdilər. Onlar "Lat", "Üzza" üçüncü də "Mənat" kimi bütlərə sitayiş edirdilər. O belə bir mühitdə Allahın əmri ilə qiyam edib, haqqı ayağa qaldırdı. Onun yolunda bütün səyini göstərdi və onları haqqa sarı çağırdı. Onlara düz yolun əlamətlərini göstərdi və elə bir kitabı gətirdi ki, "insan və cinlər bir-birinə yardım etmiş olsalar belə, onun bənzərini gətir-

[11] Qurani-Kərim, Səbə surəsi, ayə - 1

məkdən acizdirlər.”[12] Allahın salamı olsun ona və bütün peyğəmbərlərə! Allah xüsusi mərhəməti ilə onu digər məxluqatdan seçib. Elə isə Allahın bərəkəti, rəhməti və salamı ona olsun!

Amma davamında deyim ki, bu kitabı yazmağa bizi vadar edən bir neçə məna və səbəb var. O cümlədən:

İzzət və cəlal sahibi olan Allah şahları xüsusi şəkildə önəmsəməklə, səltənəti onlara ikram etməklə, ölkəni onların nəzarətinə verməklə və bəndələrinin işlərini onlara həvalə etməklə, alimlərinə də vacib qılıb ki, onlara təzim edib, böyük sansınlar və onları əzizləyib, barələrində xoş sözlər desinlər. Eləcə də onlara şahlara itaət etməyi, qarşılarında təvazökarlıq nümayiş etdirməyi vacib qılıb.[13]

Bu barədə Qurani-Kərimdə buyurulub: “Allaha, rəsuluna və özünüzdən olan əmr sahiblərinə itaət edin!”[14]

Kitabın ərsəyə gətirilməsi səbəblərindən biri də budur ki, adi insanların çoxu yuxarı təbəqə və ziyalıların bəzisi şahlarla bağlı öhdəliklərini bilmirlər. Baxmayaraq ki, onlar ümumi şəkildə itaət edirlər, lakin yenə də bu kitabda onlar üçün bir sıra örnəkləri və ədəb qaydalarını qeyd etmişik ki, onları mənimsəsinlər.

Digər səbəb budur ki, bu əsəri yazmağımızda iki növ əcr əldə etmiş oluruq; Biri budur ki, camaata şahları ilə bağlı öhdəliklərini çatdırmış və tanıtdırmış oluruq. İkinci əcr isə şahın bizim üzərimizdə olan haqları ilə bağlı addım atıb, onda olan əyriliyi düzəltmək və ondan üz döndərib qaçan şəxsi ona sarı qaytarmaqdır.

Başqa bir səbəb budur ki, şahlara ehtiram və onlara itaət etmək millətin fərdlərinin xoşbəxtliyinə gətirib, çıxarar. Ərdəşir ibn Babək[15] deyib: Rəiyyətin xoşbəxtliyi şaha itaət etməkdə, şahın xoşbəxtliyi isə Allaha itaət etməkdədir.

---

[12] Qurani-Kərim, İsra surəsi, ayə - 88

[13] Cahiz Qurani Kərimin bir sıra ayələrindən, o cümlədən Nisa surəsinin 59-cu ayəsindən belə əldə edir ki, alimlər şahlara itaət etməlidir. Lakin bu islam alimləri arasında yekdilliklə qəbul edilmir və səltənətin Allah tərəfindən şahlara ikram edilməsi kimi digər oxşar iddialar da Cahizin subyektiv fikridir.

[14] Qurani-Kərim, Nisa surəsi, ayə-59

[15] I Ərdəşir Babəkan, fars. اردشیر, lat. Artaxerxes — Sasanilər sülaləsinin ilk nümayəndəsi, şahənşah (180-262)

Həm də deyilib ki, rəiyyət bir bina, şahlar isə onun əsaslarıdır. Əsası olmayan bina dağılıb viran qalar.

Əsərin yazılmasının səbəblərindən biri də budur ki, bundan öncə igidlər və qəhrəmanların əxlaqı haqda bir kitab yazdıq, halbuki bizə yarayan bu deyil, başqa bir şey idi. Bizim təbiətimizə yaraşan bu idi ki, əməyimizi şahlarla bağlı olan öhdəliklər, onların əxlaqı, adəti və rəftarı haqda yazmağa sərf edək. Allah onları digər məxluqatından üstün tutub və onların ad və xatirəsini qiyamətdə qədər əbədiləşdirib. Məgər görmürsən ki, Allah keçmiş xalqları və dövranları yad edəndə aşağı dərəcəli və tanınmamış insanlardan söz açmır?!

Məsələn Allah-Təala keçmiş nəsillərin (qiyamət günündəki) vəziyyətilə bağlı belə buyurur:

"Onlar deyəcəklər: "Ey Rəbbimiz! Biz ağalarımıza, böyüklərimizə itaət etdik, onlarsa bizi haqq yoldan azdırdılar."[16]

Tövbə surəsində (31-ci ayə) belə buyurulub:

"Onlar Allahı qoyub alimlərini və rahiblərini, Məryəm oğlu Məsihi özlərinə tanrılar (rəblər) qəbul etdilər. Halbuki onlara ancaq bir olan Allaha ibadət etmək əmr olunmuşdu."

Əzəmət sahibi olan Allah Bəqərə surəsində (258-ci ayə) buyurub:

"(Ya Rəsulum!) Allahın verdiyi hökmranlıq üzündən (azğınlaşaraq) İbrahim ilə Rəbbi barəsində mübahisə aparan şəxsi (Nəmrudu) görmədinmi? (Və ya əhvalatını bilmirsən?)"

Əzəmət və cəlal sahibi olan Allah Maidə surəsində (20-ci ayə) buyurub:

"Bir zaman Musa öz camaatına belə demişdi: "Ey camaatım, Allahın sizə olan nemətini xatırlayın ki, sizdən peyğəmbərlər göndərdi, padşahlar təyin etdi və aləmlərdən (bəşər övladından) heç birinə vermədiyini sizə verdi."

Nəml surəsində (34-cü ayə) buyurulur:

---

[16] Qurani-Kərim, Əhzab surəsi, ayə-67

“(Bilqeys) dedi: “Hökmdarlar bir məmləkətə (zorla) girdikləri zaman orada fitnə-fəsad törədərlər. Xalqının böyüklərini də alçaldarlar. Onlar məhz belə hərəkət edərlər.”

Adları müqəddəs olan Allah Ali-İmran surəsində (26-cı ayə) buyurub:

“(Ya Rəsulum!) De: “Ey mülkün sahibi olan Allah! Sən mülkü və səltənəti istədiyin şəxsə verər, istədiyin şəxsi yüksəldər və istədiyin şəxsi alçaldarsan. Xeyir yalnız Sənin əlindədir. Həqiqətən, Sən hər şeyə qadirsən!”

Məğlubedilməz və ehtişam sahibi olan Allah Musanı, yaratdıqlarının ən zalımı, ən azğını və ən üsyankarının yanına göndərəndə belə buyurdu:

“Fironun yanına yollanın. O (Allahlıq iddiasına düşməklə), həqiqətən, azğınlaşıb həddini aşmışdır. Onunla yumşaq danışın. Bəlkə, öyüd-nəsihət qəbul etsin, yaxud (Rəbbindən) qorxsun!”[17]

Elə isə alimlər və hikmət sahibləri Allah-Təaladan bizə çatdırılmış bu möhtəşəm ayələrin mənasını dərk etməlidirlər. Həqiqətən də bu ayələr müstəsna bir hikmət, fəsahət və bəlağətli bir nəsihətdir. Oyaq qəlblilər üçün bir xəbərdarlıqdır.

Ravi dostlarımız Şəbabədən nəql edirlər və o da Vərqa ibn Əbi-Nuceyhdən, o da Mücahiddən belə bir hədis nəql edir: “Quranda, Fironla yumşaq danışın, göstərişinin verilməsi, ona, adı ilə deyil, künyəsi[18] kimi hörmət əlaməti olan xitablarla müraciət etməyin lazım olduğunu bildirir.”

Allah Fironun yanına gedən Musa və Haruna belə göstəriş verib. Onların çoxu xaliqə qarşı üsyankar olmalarına baxmayaraq, yumşaq ifadələrlə və gözəl xitablarla Allaha sarı dəvət edilməlidirlər. Əgər Allahın özü üsyankarla, rəbb iddiasında olanlarla, ayə və möcüzələri inkar edənlərlə və peyğəmbərləri düşmən sananlarla belə yumşaq danışmaq göstərişi verirsə, deməli, Allaha itaət edən şahlarla bağlı hökmən hörmətlə davranılmalı, Alla-

---

[17]Qurani-Kərim, Taha surəsi, ayə 43-44

[18] Künyə ərəb dilində bir şəxsin övladının adı ilə çağırılması, ləqəb isə onun məşhur xüsusiyyətlərindən birinə əsasən adlandırılmasıdır.

hın vacib və şəriətlərini qoruyan, peyğəmbərlərinin yerində oturan, peyğəmbərlərdən sonra höccət olan və itaəti vacib olan şahla daha çox hörmət və ehtiramla rəftar olunmalıdır.

Bütün bu gördüklərimizə əsasən deyə bilərik ki, şahların əxlaqı və xüsusiyyətləri kitabından öncə qəhrəman igidlərin xüsusiyyətləri haqda kitab yazmağımızda xətaya yol vermişik, amma indi həmin səhvi aradan qaldırmağa başladıq. Baxmayaraq ki, igidlərin əxlaqı haqda yazılan kitabda da şərafətli insanlar üçün ədəb qaydaları və əxlaqın gözəl xüsusiyyətləri haqda lazımi bilgilər var. Elə isə biz bu kitabı, möminlərin əmirinin dostu əmir Fəth ibn Xaqana həsr edirik. Çünki əmir həmişə hikmətin vurğunu və talibi olub. Onun hikmətə və həkim insanlara daima rəğbəti olub. Ona görə bu kitabı ona həsr edirəm. Qoy nə qədər ki, gecə və gündüz var onun adı və xatirəsi əbədi qalaraq, anılsın. Müvəffəqiyyət və yardım Allahdandır.

Bundan savayı bilmək lazımdır ki, bu kitabda sözümüz əsasən şahənşahdan aşağı dərəcədə olan şahlar haqdadır. Çünki biz şahənşahların əxlaq və adətlərini vəsf etməyə qadir deyilik. Əgər onların məqamına layiq izahlara başlamaq istəsək, mətləbi çatdırmaqda aciz qalarıq. Bizdən sonra da hər kim, bu işi görmək istəsə, ən dərin düşüncələrini və iti zehnini bu işə sərf etmək istəsə, tam səyini göstərsə belə, çox güman ki, nəticə onun üçün müyəssər olmayacaq. Necə ki bizim üçün də müyəssər olmadı.

Şahənşahın əxlaqının sonu yoxdur və təsəvvürə gələn deyil. Heç bir fikir onu əhatə edə bilməz. Tarixə baxanda görürsən ki, dünyanı fəth edən ilk şahın zamanından indiyə qədər onlar haqda düşünənlər getdikcə artmaqdadır. Amma bununla yanaşı hər kim şahənşahın əxlaqının son dərəcəsini vəsf etməyi bacaracağını düşünsə, bizim fikrimizə görə belə bir adam, Allah haqda təşbihə[19] yol verib, lakin nəticədə onu cisimlə təcəssüm etdirən şəxsə bənzəyir.

---

[19] Predmetin müəyyən əlamətə görə özündən daha qüvvətli başqa predmetə oxşadılmasına bənzətmə, yaxud təşbeh deyilir. İslam Kəlamı elmində isə Allah barədə vəsflərində təşbehə və cismlərə bənzətməyə yol verən zümrəyə "Müşəbbihə" və ya "Həşviyyə" deyilir.

Ola bilər biri, bu kitabda sasani və ərəb şahlarının əxlaq və adətləri haqda yazdıqlarımızı görüb, irad bildirsin ki, yazıçı özü ziddiyyətli danışır və "şahənşahların əxlaqının sonu yoxdur" kimi əsassız iddialar edir. Cavabında deyə bilərik ki, belə bir şəxs işlətdiyi kəlmələrində və ifadələrində ədalətli olmayıb və insafsız davranıb. Çünki bizim, barəsində danışdığımız şahlar onlarla müqayisədə ikinci dərəcədə və orta səviyyədə yerləşirlər. Bu fərqi əyani şəkildə müşahidə etmək və gözlə də görmək olar. Tarixi şəxslərin həyatına nəzər salan və öz şahlarının da idarə üsulunu görən şəxs belə söz deməz.

Müvəffəqiyyət Allah tərəfindəndir!

# BİRİNCİ FƏSİL

## Şahların hüzuruna daxil olmaq

### Əyanların daxil olması

Əgər daxil olan əyanlardan və yuxarı təbəqədəndirsə, gərək elə bir yerdə dursun ki, şahdan uzaq olmasın. Eləcə də çox da yaxın olmamalıdır. Gərək ayaq üstə ikən salam ərz etsin. Əgər şah onu daha yaxına çağırsa, yaxına getməli, şahın əlini-ətəyini öpməli, daha sonra qalxıb, geri çəkilməli və özünə uyğun kəslərlə bir cərgədə durmalı və daha sonra şah icazə verərsə oturmalıdır. Əgər onunla danışmaq istəsə ahəstə səslə və az hərəkətlə cavablandırmalıdır. Şah sözünü dayandıran zaman vaxt itirmədən və ikinci dəfə salam vermədən onun göstərişlərini eşitmək üçün ayağa qaxmalıdır.

### Orta təbəqənin şahın hüzuruna daxil olması və rəftar qaydası

Əgər hüzura daxil olan şəxs orta təbəqədəndirsə, şahın hüquqları bunu tələb edir ki, ayaq üstə və nisbətən uzaqda dursun. Əgər şah onu yaxına çağırsa, üç addım və onun civarında irəli getsin və sonra dayansın, əgər yenə də yaxın getmək üçün icazə alsa həmin əndazədə irəliləsin. Əlbəttə, o işarə etməklə, baş ya barmaq və sair hərəkətlərilə şahı yormamalıdır. Hətta belə bir təsəvvür yaransa belə, adət-ənənə riayət olunmalıdır, çünki bu şahlıq məqamının və o məqama təzim etməyin haqqıdır.

Əgər daxil olan şəxs, şahla yaxın və üzbəüz olan qapıdan girməli olsa - şahın sağ ya sol tərəfində hərəkətə imkan olsa- gərək o yoldan keçsin ki, şahla üzbəüz deyil və beləcə məclisə daxil olsun. Gərək dursun və salam versin və diqqəti şahda olsun.

Əgər şah sakit dursa və cavab verməsə, salamsız, kəlamsız qayıtsın. Əgər şah onu yaxına çağırsa bir neçə addım addımlasın, dursun və başını aşağı salsın, yenidən onu çağıranda bir neçə qədəm də götürsün və başını qaldırsın, şah yenidən bir işarə etməsə, elə orada şahın işarə etdiyi yerdə ayaq üstə dayansın. Ta şah ona oturmaq icazəsi verənə qədər. Əgər bu baş verərsə dizə çöksün ya dizi üstə otursun. Əgər şah onunla danışsa astadan və ən az hərəkətlə cavab versin. Şahın dediklərinə yaxşı qulaq asmalıdır. Şah sözünü bitirəndən sonra dursun və şaha arxa çevirmədən geri getsin. Əgər mümkün olsa şahın yaxınlığında olmayan bir divarın arxasına, dalan ya dəhlizə keçərək, onun gözündən itsin və o zaman istədiyi kimi istədiyi dəhlizdən yol tutub çıxsın.

### Şahın digər şahları qarşılaması

Əgər şahın hüzuruna gələn şəxs hakimiyyət, iqtidar, hörmət, yaş və sülalə baxımından onunla eynidirsə, o zaman şah gərək gələn qonaq üçün yerindən qalxa və onu qarşılamaq üçün bir neçə qədəm önə gedə, onunla qol-boyun olaraq, əlini tutub, öz yerinə oturda və özü ondan aşağıda oturmalıdır. Çünki bu elə bir addımdır ki, şah o şəxsin yanına gedib, hüzuruna daxil olanda, eyni rəftarı görməyə ehtiyac duyulur və belə bir rəftarı qarşı tərəfdən təvəqqe edir. Əgər onun haqqını əda etməsə, ona layiq olan rəftarı göstərməsə, eyni davranışı görməyə əmin ola bilməz. Onların hər ikisi bir-birilə şahın adından, adət-ənənəsindən kənar bir rəftarla davransalar, o zaman onların addımları fəsad törədər, şahlar arasında kin-küdurətə, paxıllıq və düşmənçiliyə səbəb olar. Əgər məmləkətdə bu səbəblər önə çıxsa, döyüşlərə və ölkələrin viran qalmasına səbəb ola bilər.

### Şahın digər şahları yola salması və onlarla vidalaşması

Əgər belə bir şəxs şahın hüzurundan getmək istəsə gərək şah onunla birgə ayağa qalxsın və onun miniyinin hazır edilməsilə bağlı göstəriş versin. O elə şahın gözü qarşısında miniyinə

minməlidir. Minməmişdən öncə şah onunla birgə bir neçə addım addımlamalı və ətrafındakılara da göstəriş verməlidir ki, onunla birgə bir miqdar yol getsinlər.

Sasani şahları və şahzadələrinin əxlaqı və adəti də belə idi. Ərdəşir Babəkan (160-282) onlara bu adət ənənələr barədə tövsiyələr vermişdi. Bu adət-ənənə Xosrov Pərvizə (570-628) qədər davam edirdi. O şahlıq kürsüsünə oturanda bunu dəyişdi. O cümlədən oğlu Şirəveyhin (II Qubad 590-628) ona tutduğu iradlardan biri də bu idi ki, o, (sasanilərin birinci şahı) Ərdəşirin adət-ənənəsini dəyişdirib.[20]

Dedik ki, şahın hüquqlarından biri də budur ki, insanlar onun hüzurunda çox oturmamalıdırlar. Əgər kimsə bu ənənədə xəta etmiş olsa, belə bir məqamda şah ona işarə ilə ya digər bir yolla baxarsa mürəxxəs olmağın zamanının çatdığı deməkdir. Belə bir halda həmin işarəni görüb, yerindən qalxmasa, ədəbləndirilməli insandır demək. O zaman bu kimi şəxsi şahın hüzuruna gətirən insan həm özünə həm də şaha sitəm etmiş sayılır.

---

[20] Xosrov Pərvizin keçmiş adət-ənənə və dəyərlərə hörmətsizlik etməsi tarixdə dəfələrlə təkrarlanıb. Tarixi faktlara əsasən Məhəmməd peyğəmbər Xosrov Pərvizə məktub yazdı və onu islama dəvət etdi. Lakin o məktubu dinlər dinləməz onu alıb cırdı və dedi: Mənim rəiyyətim və qullarımdan ola-ola mənə məktub yazır?! Buna görə Məhəmməd peyğəmbər onu nifrin etdi. Pərvizin Sasani imperiyasında və ətrafdakı özbaşınalığı oğlu II Qubadı da narahat edirdi. II Qubad üsyan etdikdən sonra atasını həbsxanaya atdı və bu barədə Məhəmməd peyğəmbərə məktub ünvanladı. Sonralar II Qubad atasını öldürdü və özü də altı aydan çox hakimiyyətdə qala bilmədi. İslamın ilkin əsrlərində olan müsəlman tarixçilər bu və sair hadisələri misal gətirərək, bildirirlər ki, atalarını devirib öldürən şahların özləri də altı aydan çox kürsüdə qala bilmirdirlər. Ərəb tarixçiləri bununla bağlı II Qubaddan əlavə, Yezid ibn Vəlid ibn Əbdülməliki və Müntəsir Abbasini də misal olaraq qeyd edirlər. Hətta bəzi ərəb tarixçiləri II Qubadın atası Xosrov Pərvizi öldürdüyü məkanla, Müntəsir Abbasinin atası Mütəvəkkili öldürdüyü məkanın eyni yer olduğunu bildirirlər. (Ğurər əxbarul-furus, səh 712-738, İbnul-Əsir c 1 səh 361, Məsudi c 7 səh 293)

# İKİNCİ FƏSİL

## Şahlarla süfrə başına oturmaq

Şahın hüquqlarından biri budur ki, əgər o, şahlıq məqamının əzəmət və heybətini bir kənara qoyub, kimləsə mənus olmaq və ona məhəbbət göstərib süfrə başına oturtmaq istəyirsə, belə bir şəxs gərək, süfrənin başında çox qalmasın və çox yeməsin, çünki bu işdə bir sıra mənfi məqamlar var:

O cümlədən çox yemək tamahın, görməmişliyinin, mədəniyyətsizliyin və şüursuzluğun əlaməti kimi anlaşıla bilər.

Həm də yeməyə həddən ziyadə əl uzatmaq, bir şəxsin süfrə başında çox hərəkətliliyi şaha qarşı cürət və həyasızlığın əlaməti ola bilər.

Bundan əlavə şahın hüzurunda çox yemək yeməyin bəyənilməyən anlamı var. Amma şahlarla bir süfrəyə oturan Məysərə ət-Taras və Həfsi-Kiyal[21] kimi insanlar ki, çox yediklərinə görə (və əyləncə məqsədilə) süfrə başına çağırılırlar, müstəsnadırlar. Amma mədəniyyətli, ziyalı və tanınmış comərd insanlar üçün bu kifayət edərdi ki, şah onlarla ünsiyyətdə olmaq üçün onlara belə dəyər verib və belə bir məqama yüksəldib.

---

[21] Cahizin burada misal olaraq adını çəkdiyi şəxslərdən məqsədi çox yeməkdə tanınmış bəzi şəxslərdir ki, onlar adətən əyləncə məqəsdilə şahların məclislərinə çağırılırdılar. Rağib İsfahani əl-Muhazarat əsərində (c-1,səh 392), Məsudi Murucuz-zəhəb əsərində (c-5, səh 401), Cahiz Kitabul-Buxəla əsərində (səh 215) və sair ərəb tarixçilərinin əsərlərində çox yeyən bir sıra tanınmış şəxslərin adları çəkilir, o cümlədən: Şair olmuş Əbul-Həsən bin Bəkr əl-Əllaf, Həfs ya digər adı Hatəm Kiyal, Üməyyə xəlifəsi Süleyman ibn Əbdül-Məlik, Məysərə əl-Barraş, Hilal ibn Əsər, Misir şahı əl-Adil Əyyubi, Yezid ibn Müaviyənin İraq valisi olmuş Abdullah ibn Ziyad ibn Əbihi, Üməyyə hakimiyyətinin banisi Müaviyə ibn Əbu-Sufyan, Abbasi xəlifəsi Vasiq və sair tanınmış şəxslər ki, onların çox yeməsi dillər əzbəri olmuş və yuxarıda qeyd edilən əsərlərdə adları keçmişdir.

## Mansur Abbasi və Haşimi qəbiləsindən olan gənc

Ravi deyir: İbrahim ibn əl-Sindi ibn Şahik atasından belə nəql edir ki, bir gün Bəni-Haşim qəbiləsindən bir gənc (ikinci Abbasi xəlifəsi) Mansurun (714-775) hüzuruna gəlir. Günlərin birində Mansur süfrə başına oturmağa dəvət edir. Nahar hazır olanda, gəncə, qabağa otur deyir. Gənc isə nahar etmişəm deyərək cavab verir. Mənsurun xadimlərindən olan Rəbii gəncə bir söz demir. Ravi deyir ki, mən elə bildim Rəbi o gəncin xəta etdiyinin fərqinə varmayıb. Amma elə ki, gənc qalxıb çıxanda Rəbi bir qədər ona vaxt verdi ki, pərdənin arxasına keçsin, daha sonra boynunun arxasından birin ilişdirdi. Digər xidmətçilər də bunu görüb eyni addımı atdılar və onu saraydan çıxartdılar.

Bu hadisədən sonra o gəncin əmiləri Mansurun hüzuruna gəldilər və Rəbinin etdiyinə görə şikayət etdilər. Mansur onlara dedi:

Rəbinin bir əsası olmasaydı belə etməzdi. Buna görə əgər məsləhətdirsə bu işə göz yumun və güzəştə gedin! Əgər istəsəniz bu məsələnin necə olduğunu elə sizin hüzurunuzda ondan soruşaram. Dedilər soruş!. Bu zaman Mansur Rəbini çağırdı. Onlar şikayətlərini dedilər. Sonra Rəbi dedi: Bu gənc uzaqdan salam verib keçirdi. Möminlərin əmiri onu yaxınına çağırdı. Ondan sonra salamı yaxından verirdi. Sonra möminlərin əmiri oturmaq icazəsi verdi, daha sonra xilafətin əzəmətli məqamını unudub, o gənc belə fəzilətli məxsus məqama layiq bilib dəvət etdi ki, yeməkdə onunla şərik olsun. Amma o, yemək yemişəm deyə cavab verdi. Məlum oldu ki o düşünürmüş ki, möminlərin əmiri ilə eyni süfrəyə oturmaq aclığı aradan qaldırmaq məqsədi daşıyır. Cəza olmadan belə bir şəxsi heç bir söz islah edə bilməz.

## İshaq ibn İbrahimin süfrəsi başında

Əhməd ibn Əbdürrəhman Hərrani mənə dedi: Mən, ən-Naqidi və qardaşım əl-Əbrədin oğlu Haşimlə İshaq ibn İbrahimin[22] süfrəsinin başında idik. Onun süfrəsində 30 növ quş əti saydım, amma süfrədə olan turş, şirin, isti və soyuq yeməklər o qədər çox idi ki, saya bilmədim. Buna baxmayaraq bizim o süfrədən meyl etdiyimiz bir quşun yediyi qədər idi. Çörəyi barmağımızın ucu ilə kəsirdik.

Ondan soruşdum: Bəs sizə yemək təklifi etmirdi? Cavab verdi: Hətta təklif etsəydi belə, biz yeməzdik, amma gözünün qarşısında olmayanda süfrəni qarət edirdik.

## Şahlarla həmsüfrə olmaq şərəfi

Şahların hüquqlarından biri də budur ki, kimsə onların süfrəsinə və yeməyinə tamah salmamalıdır. Məqsəd şahın süfrəsinin başında oturub, qarnı doldurub, sonra da qaxıb yola davam etmək deyil. Şahla həmsüfrə olan şəxs onun qardaşı, əmisi oğlu, övladı, əmisi və bu qəbildən ola bilər. Bu şəxslər istisnadır. Ya da o şəxslərdən ola bilər ki, yedikdən sonra şahın yanında, onun sarayında qalacaqdır. Belə bir adam yediyini də gecə-gündüz yeməyi kimi qəbul etməlidir (Yəni hər süfrəyə oturmamalıdır.) Çünki belə biri istədiyi zamanda və öz xoşu ilə hərəkət edə bilməz.

Əcəm şahları əgər birilərini öncə deyildiyi vəziyyətdə görsəydilər onları çoxyeyən görməmiş kimi qiymətləndirər, hörmətli insanların cərgəsindən kənar bilər, onları təlxəklər sırasında görərdilər. Bu zaman onlar hörmət və əzəmət məqamından təhqir və zillət dərəcəsinə enərdilər.

Əgər şah kimisə süfrəsinə çağırırsa, o şəxsin özü qarşısında və şah qarşısında haqqı budur ki, ədəbi tərk və təbiətini alçaldan

---

[22] Abbasi xəlifələri Məmunun, Mötəsim və Vasiqin dövründə Bağdadın hakimi olmuş Əmir İshaq ibn İbrahim Məsəbi. Vəfat ili 850 miladidir. Mötəsim Abbasi ona Babək Xurrəmi ilə döyüşə girməyi əmr etmişdi.

işə meyl etməsin. Tamahkarlıqla tanınan şəxs ədəbli adını qazana bilməz, görməmişliklə tanınan şəxs sayılıb seçilən olmaz.

Əgər şah özü birinin qarşısına yemək qoysa, o şəxs bilməlidir ki, o yeməyin hamısı yeyilmək üçün ora qoyulmayıb. Bəlkə də bundan məqsəd, o şəxsin ikram və ehtiram etmək və ünsiyyət bağlamaq istəyinin olmasıdır. Bəlkə də şah, meyl etdiyin yeməyin qarşısında sənin özünü tuta bilməyini yoxlamaq istəyir.

Əgər şah süfrə başında bir qidanı birinə ikram etsə, kifayət edər ki, əlini onun üzərinə qoysun, çünki bu əməl ədəb-ərkanı daha da nümayiş etdirmiş olacaq və etibarı artıracaq.

## Müaviyə və Həsən ibn Əli

Burada Müaviyə ibn Əbu-Sufyanın[23] Həsən ibn Əli (Allahın salamı olsun ona) ilə rəftarına fikir vermək lazımdır. Müaviyə süfrə başında Həsən ibn Əlinin qarşısına bir toyuq qoydu. Həsən o toyuğu götürüb, ikiyə böldü. Müaviyə ona baxıb dedi: Sənin bu toyuqla hansısa bir düşmənçiliyin olub?![24] Həsən isə belə cavab verdi: Sənlə bu toyuğun anası arasında hansısa bir qohumluq və bağlılıq olub?!

Bu iki nəfərin arasında baş verən bu olay hər ikisini rəncidə etdi. Müaviyə bunu ona görə deməmişdi ki, məsələn toyuğun onun yanında hansısa bir dəyəri olub.

---

[23] I Müaviyə və ya Müaviyə ibn Əbu Sufyan (603-680) Əməvilər hakim sülaləsinin ilk xəlifəsi, Payxatı Kufədən Şama köçürən şəxs. Tarixçilər onun siyasəti ilə yanaşı süfrələri barədə də çoxsaylı olayları qey ediblər. Yüsif bin Abdullah Əbdül-Birr "Əl-İstiab fi mərifətis-səhabə" əsərində (c 3, səh 1421) İbni-Abbasdan nəql edir ki, "bir gün Məhəmməd peyğəmbər Müaviyəni çağırtdırır ki, gəlib məktub yazsın. Bu zaman o yemək yediyi üçün gəlmədi. Məhəmməd Peyğəmbər ikinci dəfə onu çağırtdırdı. O yenə gəlməyəndə, Məhəmməd peyğəmbər dedi: Allah Müaviyənin qarnını doyurtmasın!"

[24] IX əsrin şafei alimi Şahabuddin Məhəmməd bin Əhməd Əbul-Fəth Əbşuvəyh "Əl-Müstətrəf fi kulli fənnin müstəzrəf" əsərində (c 1, səh 213) yazır ki, Müaviyə bu addımı ilə digər şahlar kimi onun şahlıq şəninin də qorunmasını tələb edirdi. Şafei alimi bildirir ki, Həsən ibn Əli də bu adət-ənənələrdən xəbərsiz deyildi. Çünki o belə adət-ənənələri Müaviyədən daha yaxşı bilirdi.

Məlumdur ki, Müaviyənin bu addımı bir toyuğa görə deyildi. Müaviyə əlaltılarına, valilərinə, eləcə də İraq üzrə valisi Ziyada[25], yoldan keçənlərə, dərvişlərə, ehtiyaclılara qidaların verilməsi haqda əmr verirdi. Bir günə 40 süfrə hazırlanırdı və Şamdakı ordusunun sərkərdələri onları öz aralarında bölürdülər. Müaviyə bilirdi ki, şahın hüquqlarından biri budur ki, onun məclisində hörmət saxlanılmalıdır. O bilirdi ki, əl uzatmaq, yeməyə və ətə çoxlu meyl etmək, çox yemək şahların qarşısında və onların hüzurunda hörmətlə uyğun gəlmir.

Əcəmlərin[26] şahları da belə idilər Ərdəşir Babəkandan (180-262) ta Yezdəgirdə (624-651) qədər.

### II Şapur rahibi necə sınağa çəkir?!

Rəvayət edilir ki, Şapur Zül-əktafın[27] zamanında baş rahib vəfat edir. İstəxr camaatından bir nəfəri baş rahibin canişini olmaq üçün ona təqdim edirlər. II Şapura bildirdilər ki, bu şəxs elm, iman və əmanətdarlıq baxımından baş rahiblik və qazilərin qazisi məqamına layiq şəxsdir. II Şapur onu hüzuruna çağırdı. O şəxs şahın hüzuruna gəldi. Şah süfrənin hazırlanması əmrini verdi və onu süfrəyə dəvət etdi. O, gəlib şahla yeməyə başladı. Şah

---

[25] Ziyad ibn Əbihi (622-673) yəni Atasının oğlu Ziyad. Müaviyənin İraq üzrə valisinin belə adlanması atasının məlum olmaması ilə bağlı idi. Bəzən onu Ziyad ibn Ubeyd əs-Səqafi adlandırırdılar. Müaviyə isə onu özünə qardaş bilər və Ziyad ibn Əbu-Sufyan adlandırardı.

[26] Əcəm; Qeyri ərəb, Ərəbistan Yarımadasında əsasən farslara deyilirdi. Qurani-Kərimdə üç ayədə qeyri-ərəb mənasında işlənib. O ayələr bunlardır: Nəhl surəsi-103, Fussilət-44 və Şüəra-198.

[27] II Şapur Sasani imperiyasının ən qüdrətli və ən çox taxtda oturan şahıdır. Sasanilərin doqquzuncu şahənşaşı 309 miladidə anadan olub və 379-cu ildə vəfat edib. Altımış ildən çox taxtda olub. Rəhbərlik etdiyi imperiyanın cənub sərhədlərini ərəblərin torpqlarına qədər uzadıb və Bəhreyn kimi bir sıra ərəb bölgələrini dəniz donanması vasitəsilə nəzarətə götürüb. Ləqəbi Zül-əktaf ərəb sözüdür və çiyinləri deşmək mənasındadır. Bəzi tarixçilər bunun ərəblərə qarşı müharibədə onlara verilən işkəncə növü olduğunu bildirirlər. Bir qism isə bu kəlməni “çiyinli” kimi tərcümə edir və şahın böyük çiyinlərə və ya böyük imperiyanı daşıya bilən çiyinlərə malik olduğu qənaətindədirlər.

bir toyuğu ikiyə bölüb, yarı onun , yarısın da öz qarşısına qoydu. Sonra yeməyi göstərib, dedi: Bundan ye və digər yeməyi buna qarışdırma, qoy sənə nuş olsun, mədən də yüngül qalsın. Şapur qarşısında olan yarı hissəni elə adəti üzrə yeməyə başladı. Amma o kişi Şapur bitirməmişdən öncə öz payını bitirdi və digər yeməyə əl atdı. Bu zaman Şapur onu görürdü.

Süfrə yığışdırılanda Şapur ona dedi: Vidalaş və şəhərinə qayıt!, bizim şah olmuş dədə-babalarımız deyərdilər ki, şahların qarşısında yeməyə görə tamahını saxlaya bilməyən şəxs, rəiyyətin, yoxsulun, bazar adamının və zəiflərin əmlakına daha çox hərris olar.

II Şapur buna görə həmin şəxsi hüzuruna çağırdığı məqama layiq görmədi.[28]

## Şah və süfrəsində oturan qonaqlar

Şahın hüquqlarından biri də budur ki süfrədə yemək vaxtı kimsə ona baxmasın. Adətlərdən biri də budur ki, şahın hüzurundakı süfrədə hər qonaq üçün ayrı qab qoyulsun. Həmin qablarda şahın qabağına qoyulan yeməklərdən qoyulmalıdır. İstər, maye və qeyri-maye, istərsə də soyuq və ya isti yeməklər. Şah özü üçün qonaqların qarşısında olmayan özəl yeməkdən gətizdirməməlidir. Çünki bu şahlıq məqamına yaraşmaz. Belə bir addım şahlıq məqamını aşağılayır. Bundan savayı belə bir addım həm də inhisarçılıq xüsusiyyətindən xəbər verir.

Şahların hüquqlarından biri də budur ki, saray adamlarından, özəl şəxslərdən, və tərəfdarlardan kimsə əlini şahın hüzurunda yumamalıdır. Amma qonaqların arasında hörmət baxımından, sülalə, nəsil və yaş baxımından şahla eyni dərəcədə olan şəxslər istisna edilirlər. Öncədən bildirdik ki, belə bir insanlarla necə davranmaq lazımdır.

Ədalətə görə, şah gərək, hüzurunda olanların hər birinə və hər təbəqəyə haqları çatdığı qədərində əta etsin və dəyər versin.

[28] Tənbihul-Müluk vəl-Məkayid səh: 26 - 27, Məhasinul-Müluk səh 29 -30

Gərək şahın qəlbində və təbiətində iman məsələsi kimi ədalət hissi də olsun. Şah dini vacibatı və müstəhəb əməlləri yerinə yetirdiyi və onların davamiyyətin təmin etdiyi kimi, süfrə başında da qonaqlarına xoş üz göstərməli, onları süfrə başında yeməkləri meyl etməyə dəvət etməli, və beləcə şahlarla orta təbəqə və millətin fərdləri arasında bərabərliyi bərqərar etməlidir.

Şahların əxlaq və adəti millətin digər fərdlərinin əxlaqı və rəftarı kimi deyil. Onlar bir kimsəyə və ya bir şeyə bənzəmirlər. Bilmək lazımdır ki, onların qarşısında çox yemək kimi əməllər şayan deyil. Amma dostlar arasında, bir-birilə həmdəm olanlar, ali ya aşağı rütbələrdə eyni olanların arasında belə işlər pis sayılmaz. Amma şahlar belə sifətləndirmələrin fövqündədirlər. Belə bir halət onlara yaraşmaz.

Şahın hüquqlarından biri budur ki, əlini yeməkdən çəkəndə onunla həmsüfrə olanların hamısı yeməyi dayandırıb, qalxsınlar. Bu zaman hamı şahın yanından kənara, hansısa bir divarın və ya pərdənin arxasına keçib, gözündən itsinlər. Əgər kimsə şahın məclisindən durmaq istəsə elə dursun ki, kimsə onu sezməsin. Əgər yenidən onlara qatılmaq istəsə daxil olmaq üçün yenidən icazə almalıdır.

Şahlara aid adətlərdən biri də budur ki, süfrə üstündə onun üçün qoyulan dəsmal, onun xüsusi əl-üz dəsmalı qədər təmiz və bəyaz olmalıdır. Həmin dəsmalı yenidən süfrəyə qoymazlar. Əgər onu yenidən yusalar bu zaman mümkündür.

### Süfrə başında söhbət

Şahların süfrəsi başında zarafat olsun ya ciddi söhbət etmək olmaz. Əgər süfrə başında şah özü sözə başlasa, onun istifadə etdiyi sözlər kimi sözlərlə qarşılıq vermək olmaz. Çünki belə məqamda şahla həmsüfrə olanlar yalnız başlarını aşağı salıb, şahı dinləməlidirlər.

Hansısa bir səbəbə görə, sasani şahları süfrə salınanda dualar oxuyar və zümzümə[29] edərdilər. Süfrə götürülənə qədər heç kim danışmırdı. Əgər kimsə bir söz deməyə məcbur qalsaydı, fikrini çatdırmaq üçün işarə ilə ya göz-qaş hərəkətləri və qeyrisi ilə kifayətlənərdi.

Onlar deyirdilər: Dünyanın həyat enerjisi bu qidalardadır. Elə isə insan süfrə başında diqqətini qidaya və yeməyə cəmləməlidir. Beləliklə o bütün bədən üzvlərini ona, yəni qidalanmaya yönəltməlidir ki, hamısı bəhrələnsin. Qoy qəlbdə yerləşən heyvani ruh və ciyərdə olan təbiət o qidadan tam qidalanıb bəhrələnsin və İnsanın təbiəti onu tam şəkildə qəbul edib canına alsın.

Süfrə başında söhbəti tərk etməyin fəzilətləri çoxdur və onları açıqlamağa ehtiyac yoxdur. Çünki onların hamısını bir-bir açıqlamaq bizim kitabımızın üslubuna uyğun deyil.

Ravilərin bir qismi mənə rəvayət edib dedilər: Əmirlərdən biri – gərək ki, o Bəsrənin əmiri Bilal ibn Əbi-Bərdə olsun - Əbi-Nofəl əl-Carud ibn Əbi-Səbrədən soruşur: Siz Əbdül-Əla ibn Abdullah ibn Amir ibn Kurayz Qurəşinin hüzurunda olanda nə edirsiniz?

Cavab verdi: Biz bu zaman gözəl sözlər eşidirdik. Onun hüzurunda bizim istəklərimizi gözəl şəkildə dinləyirlər. Sonra aşpaz xidmət göstərmək məqsədilə gəlib durur, Əbdül-Əlanın qarşısında. Əbdül-Əla ondan soruşur: Meyl etməyə nəyin var?

Aşpaz cavab verir: Filan növ yemək, filan növ quş və filan şirni.

Bilal ibn Əbi-Bərdə deyir. Əmir bunu aşpazından niyə soruşur?

Əbi-Nofəl əl-Carud cavab verdi: Bunu aşpazdan soruşur ki, Qonaqlar onlar üçün yetərli olandan və iştahası çəkəndən sifariş versinlər. Bəzən görürsən süfrə hazırlanır, bir insan gah sıxılır, gah genəlir, gah əlini çəkir, gah da yeməyə can atır. Yeməkdə

---

[29] Əl-Tac kitabının tədqiqatçısı Əhməd Zəki Paşa bildirir ki, zümzümə qeyri əcəmlərin süfrə başında dodaqaltı mızıldamasıdır. İbni-Əsir ən-Nihayə əsərində yazır ki, zümzümə məcusilərin və atəşpərəstlərin yemək zamanı ahəstə mızıldamasıdır. Məsudi Murucuz-Zəhəb əsərində (c 2, səh 108-109, Paris) yazır ki, ilk dəfə I Keyumars yemək vaxtı danışmamaq dəbini qoyub.

ehtiyacını aradan qaldırdığını düşünən zaman erkək dəvəquşu kimi qanadlarını açıb, yıxılır süfrənin kənarına və sonra da soyuqlamış şəxs kimi yeməyi davam etdirir.

Nəql edilir ki, İbnul-Carud həmin məşhur deyimin müəllifidir: Pis əxlaq yaxşı əməli aradan aparar, necə ki, sirkə balı xarab edər.

## ÜÇÜNCÜ FƏSİL

### Həmsöhbət olmaq və nədimlərin təbəqələri

Şahların adətlərindən biri də müxtəlif səviyyəli həmsöhbətlərilə vaxt keçirməsi və onları rütbələrə bölməsidir. O bəzi həmsöhbətlərini xüsusi məclislər üçün, bəzilərini isə ümumi məclislər üçün nəzərdə tutur. Bu həmsöhbətlərdən bir qismi daha yaxın, bəziləri uzaq, bəziləri yuxarı rütbəli, bəziləri isə aşağı rütbəlidirlər. Çünki bu həmsöhbətlər də müxtəlifdirlər və hərənin öz rütbə və müstəvisi var.

Müşahidə edirik ki, şah, şücaətli və mübarizə ruhiyyəli insanı ruh yüksəkliyi və döyüş ruhiyyəsi üçün istəyirsə, yüngül xasiyyətli insanlara da əyləncə məqsədilə ehtiyacı var. Şahın öyüd-nəsihət almaq üçün müdrikə və abidə ehtiyacı olduğu kimi, gülməli və təlxək insana da ehtiyacı var. Şah belə birinin sərgüzəştlərilə əylənir. Şahın ciddi və ağıllı insanlara ehtiyacı olduğu kimi, məzhəkəçilərə də ehtiyacı olur. Şah məlumatlı və təcrübəli alimə ehtiyaclı olduğu halda xanəndəyə və avazxana da möhtacdır.

Şahların əxalqı budur, hüzurlarında hər təbəqənin nümayəndəsi olur. Bəzən ciddilikdən zarafat halına düşür, bəzən gülüşdən ölüm anını yada salmaq halına keçir, bəzən də əyləncədən öyüd-nəsihət eşitmək istəyi halına adlayır. Bu həmsöhbət təbəqələrinin hər biri bir dəfə müstəvisi qalxa bilər bəzən də düşə bilər. Bəzən bir təbəqəyə əta olunar, bəzən də məhrum olunarlar. Amma tanınmış hörmətli insanlar və alimlər istisna olunurlar. Bu iki təbəqə madam ki, itaətkardır şəni həmişə hörmətlə anılmalıdır. Bu şəxslərlə sayılıb seçilmiş insanlar kimi insaf və hörmətlə davranmaq lazımdır.

## Şahın hüzurundan mürəxxəs olmaq qaydası

Zəruri ehtiyacını aradan qaldırmaqdan başqa heç bir vəchlə şahın məclisini tərk etmək olmaz. Bu şahın hüzurunda həyata keçirilən vacib adətlərdəndir. Əgər kimsə zəruri ehtiyacını aradan qaldırmaq məqsədilə məclisdən çıxmaq istəsə şaha baxmalı, əgər şah sakit durarsa yerindən qalxmalı, onun qarşısında durmalı və ona baxmalıdır. Əgər şah ona baxarsa, zəruri ehtiyacını aradan qaldırmaq üçün çıxa bilər. Qayıdanda da şahın qarşısında ayaq üstə durmalıdır. Ayaq üstə durması nə qədər çox çəksə belə davam etməlidir. Şah oturmaq icazəsini verənə qədər belə olmalıdır. O zaman iki dizi üstə oturmalı və ya da dizə çökməlidir. Şahın ona yenidən baxması oturmağa icazə verməsi deməkdir.

Şahın hüzurundakılar və ya onunla həmsöhbət olanlar içəcəkləri içkinin növünü və miqdarını təyin edə bilməz. Buna yalnız şahın haqqı çatır. Eyni zamanda şahla həmsöhbət olan şəxs də, ondan, halını nəzərə almağı və haqqında insafa riayət edilməsini istəyə bilər. O, istəyə bilər ki, içməklə bağlı gücü çatmayacağını ondan istəməsin. Əks təqdirdə çox içki qəbul edən həddi-əndazəni aşa bilər və belə olan halda şah onun sağlamlığını qorumaq əvəzinə, ona ziyan vurmuş olar.

Səadətli şahın əxlaq əlamətlərindən biri də budur ki, özünə fikir verdiyi kimi tərəfdarlarının sağlamlığını da diqqətdə saxlasın. Çünki şahın səltənətini və ölkəsini onlar saxlayır.

## Müsəlmanlarda və farslarda nədimlərin və xanəndələrin rütbələri

Sözün yeri gəlmişkən burada nədimlərin və xanəndələrin üç rütbəsi haqda bir sıra məsələləri qeyd etmək lazım gəlir. Baxmayaraq ki, bu məsələlər əl-Əğani[30] əsərində müəyyən edilib və de-

[30] Nəzərə alsaq ki, Cahiz hicri-qəməri təqvimi ili ilə 255-ci ildə vəfat edib, deməli onun istinad etdiyi bu əsər Əbul-Fərəc əl-İsfahanın məşhur "əl-Əğani" əsəri deyil. Çünki Əbul-Fərəc əl-İsfahanı hicri-qəməri təqvimi ilə 356-cı ildə vəfat edib. Bu o deməkdir ki, Cahizin istinad etdiyi əl-Əğani öncədən yazıl-

yilib, amma burada da deyilməsi lazımdır, çünki bu şahların adət ənənələrinə aid olan mövzulardandır.

Yerinə düşər ki, əcəm şahlarından başlayaq, çünki onlar bu adət-ənənələrdə öncül olublar. Biz səltənətin və ölkələrin idarə edilməsilə bağlı qanunları, adətləri, xüsusi və seçilmiş insanların və kütlənin sair təbəqələrinin sıralandırılmasını onlardan almış, siyasəti, rəiyyətlə işləməyi, hər təbəqənin layiq olduğunu özünə vermək kimi məsələləri o şahlardan öyrənmişik.

Ərdəşir Babəkan nədimləri təbəqələrə bölən və onların idarəçiliyilə məşğul olan ilk şəxs idi. Şah onları üç təbəqəyə bölmüşdü. Şahların övladları və sərkərdələr birinci təbəqədə idilər. Bu təbəqənin oturduğu yer şahın pərdəsindən 10 zira[31] aralıqda yerləşirdi. Sonra ikinci təbəqə gəlirdi. Bu təbəqə birincidən 10 zira geridə əyləşirdi. İkinci təbəqə saray əhlindən, sirdaşlardan, hörmətli ədiblər, şairlər və alimlərdən təşkil edilirdi. Üçüncü təbəqə də ikincidən 10 zira aralıqda yerləşirdi. Bu təbəqədəkilər, məzhəkəçilər və təlxəklər idilər. Amma üçüncü təbəqədə, şəxsiyyətcə aşağı insanlar, şəxsiyyəti naməlum, ruhi və fiziki qüsurlu, həddən artıq ucaboy, həddən artıq qısa boy, fasid, ata-anası məlum olmayan, keçmişi pis olan, aşağı səviyyəli işi özünə peşə edən, məsələn hicamət və saç kəsmək kimi işlərin sahibləri, münəccimlik deyib, falabaxanlıq edən kimi şəxslər və sairlər idi.

Ərdəşir belə deyərdi: Şahlar üçün, şəxsiyyətcə alçaq və yüngül xasiyyətli insanlarla həmsöhbət olmaq qədər ziyanlı iş yoxdur. Çünki insanın təbiət və nəfsi, şərafətli, mədəniyyətli, xoş xasiyyətli camaatla həmsöhbət və həmdəm olmaqla islah olursa, eləcə də, şəxsiyyətcə aşağı insanlarla həmsöhbət və həmdəm olmaq da, bir o qədər insanı korlayır və onun fəzilətlərini

---

mış başqa bir əsərdir. Həmçinin Əbul-Fərəc isfahanı əl-Əğani əsərinin müqəddiməsində eyni adlı əsərin öncədən yazıldığı barədə məlumat verir.

[31] Məsafəni müəyyənləşdirmək üçün ölçü vahididir. Normal boylu və çəkili insanın dirsəyindən orta barmağının ucuna qədər olan məsafədir və onun təqribən 52 sm uzunluğunda olduğu deyilir. Şeyx İbrahim Amili Bəyazi "əl-Əuzan və əl-Məqadir" əsərində orta əsrlərdə müsəlman coğrafiyasında yayılan bu və sair ölçü və çəki vahidləri barədə müfəssəl məlumatlar verir.

aradan aparar. Necə ki, külək ətirli bir şeyin üzərindən əsəndə onun ətrini yayar, canlara ruh gələr və insanın əzası güc alar, eləcə də üfunətli bir şeyin üzərindən əsərək onun iyini yayar, canları sıxar və ona zərər vurar.

Əcəm şahları camaatı dörd təbəqəyə bölər və hər təbəqənin fərdlərini o təbəqədə məhsur edərdilər. Birinci təbəqədə şahzadə və sərkərdələr idilər. İkinci təbəqədə rahiblər və atəşkədələrin herbedləri, üçüncü təbəqədə həkimlər, katiblər və münəccimlər, dördüncü təbəqə isə əkinçilər və oxşar peşə sahibləri idilər.

Ərdəşir deyərdi: Ölkədə hakimiyyətin sürətlə əldən ələ keçməsi və onun viran qalmasına səbəb olan amillər arasında, təbəqələrdəki fərdlərin layiq olduğu yerini dəyişdirmək, aşağı mərtəbədəkinə şərafət verib qaldırmaq, yuxarıdakı şərafətlini aşağı mərtəbəyə endirmək səbəbi qədər səbəb ola bilməz.

Şahın həmməclisləri onun hüzurunda müəyyən sıra ilə əyləşirdilər. Şahzadə və sərkərdələrlə üzbəüz oturanlar birinci dərəcəli və məharətli xanəndə və avazxanlar idilər. Onlar birinci təbəqə ilə üzbəüz otururdular.

Şahın həmsöhbətlərindən ikinci təbəqədə olanlarla üzbəüz əyləşənlər isə  ikinci dərəcəli xanəndə və musiqiçilər idilər.

Üçüncü təbəqə yəni məzhəkəçilər və təlxəklərlə üzbəüz əyləşənlər isə ney çalan, simli saz növü olan tənbur və qaval çalğıçıları idilər.

Adət belə idi ki, məharətli ney çalğıçısı yalnız məharətli xanəndə üçün çalırdı. Əgər şah onun digər dərəcəli xanəndə ilə çalması barədə əmr etsə idi, şaha müraciət edib, etiraz edə bilərdi.

Əcəm şahları çox nadir hallarda ney çalana, öz dərəcəsindən aşağı olan xanəndə ilə çalmağı əmr edirdilər. Çünki onların, aşağı dərəcəli bir musiqiçini yuxarı dərəcəli biri ilə bir yerdə çalmağa vadar etməyə adətləri yox idi. Bəzən şah məst olar, təbii halətindən çıxar, ikinci və üçüncü dərəcəli ney çalğıçısına, birinci dərəcəli xanəndəni müşayiət etmək haqda göstəriş verərdi. Bu zaman ney çalğıçısı bəzən də qəbul etmirdi. İş bəzən elə yerə gəlib çatırdı ki, xidmətçilər belə bir çalğıçını yelpiklə və milçək qovanla vururdular. Çalğıçının da özünə görə üzrü var idi və de-

yirdi: Əgər məni vurmanız şahın göstərişi əsasındadırsa, o özünə gələndən sonra məndən razı qalacaq, çünki mən öz dərəcəmə uyğun addım atmışam.

Ərdəşir iki ağıllı xidmətçini müəyyən etmişdi ki, badə məclisi zamanı və həmsöhbətlərilə bir araya gələn zaman onun sözlərini yazsınlar. Xidmətçilərdən biri şahın sözlərini imla edir, digəri isə imla edilən sözləri kəlmə-kəlmə yazırdı. Onlar bu işə, məstliyin şaha qalib gəldiyi zamanında, başlayırdılar.

Şah oyanıb üzünü yuyandan sonra katibi ona məclisdə dediklərini oxuyurdu və bu, şahı yenidən yuxu aparana qədər davam edirdi. Elə ki, ney çalğıçısına verilən göstərişdən və çalğıçının şahın bu göstərişinə əməl etməməsindən söz araya gəlir, şah dərhal çalğıçını çağırtdırır və ona xələt verib, ondan razı qaldığını bildirirdi. Şah ona deyirdi: Sən öz addımında doğru, şah isə öz göstərişində səhvdə olub. Al bu da sənin doğru addımının əvəzi!. Əlbəttə səhv edən də cəzasını çəkməlidir. Mənim də cəzam budur ki, bu gün arpa çörəyi və pendirdən başqa heç nə yeməyəm. Şah dediyi kimi həmin gün dediyindən başqa yemək yeməzdi.

Bu kimi davranış, adət-ənənələrə hörmətlə yanaşmanın mühüm olmasını göstərmək, camaatı bu adətlərə riayətə təşviq etmək, riayət edilmədiyi təqdirdə isə cəzalandırmanın və digər lazımlı tədbirlərin həyata keçirilməsinin mümkünlüyü üçün idi.

### V Bəhram və adət-ənənələrin pozulması

Əcəm şahları adət-ənənələri bu şəkildə qoruyurdular. Amma V Bəhram Gur Yezdəgird oğlu (406-438) şah olandan sonra şahzadələrin, əyanların, atəşkədələrin rahib və herbedlərinin dərəcəsini olduğu kimi saxladı, lakin iki qrup xanəndə, həmsöhbət və musuqiçilərin dərəcəsini eyniləşdirdi. Şah, aşağı dərəcədə olsa belə, onu daha çox əyləndirib, xoşhal edənə və ürəyi daha çox yatana, çoxlu ənam verərək, yuxarı çəkərdi. Onun göstərişinə əməl etməyənləri isə aşağı dərəcələrə endirərdi. O, Ərdəşirin ayinlərini, xüsusilə də xanəndələr və musiqiçilərlə bağlı idarəçi-

lik üslubunu aradan apardı. Bu metod ta I Xosrov Ənuşirəvana (501-579) qədər davam etdi və o hər təbəqənin adamını öz yerinə qaytardı.

I Ərdəşir Babəkandan (180-262) Yezdəgirdə qədər şahlarla saraya gələn nədimlər arasında pərdə olurdu. Şahla birinci təbəqə nədimlərinin arasında 20 zira olurdu. Çünki şahdan pərdəyə qədər 10 zira idi. Həmçinin pərdə ilə birinci təbəqənin nədimlərinin əyləşdiyi yer arasında 10 zira məsafə var idi. Pərdəçi şəxs də ordu sərkərdələrindən birinin övladı olmalı idi. Onu Xorrəmbaş[32] adlandırırdılar. Əgər bu kişi vəfat etsəydi, sərkərdə övladlarından başqa biri bu işə təyin edilərdi. Yenə həmin adla adlandırılardı. Şah nədimlərlə bir araya gəlmək istəyəndə, Xorrəmbaş bir nəfərə, şah sarayının ən uca yerinə çıxıb nida etməyi əmr edərdi. Həmin şəxs sarayın ən uca məkanından hamının eşidə biləcəyi tonda, "ey dil özünü qoru, sən şahla eyni məclisdə oturursan!" deyə, səslənib aşağı düşərdi.

Şah hər gün öz nədimlərilə bir araya gəlmək və əylənmək istəyəndə, bu həyata keçirilirdi. Pərdə açılmayana qədər, o məclisdə Allah bəndələrindən heç kimin cürəti çatmazdı dilinə yaxşı və ya pis söz gətirsin. Pərdəçi aldığı hər göstərişi yerindəcə həyata keçirir və deyirdi: Filani sən belə et!, Ey xanəndə sən də elə et və filan nəğməni oxu!.

Belə bir zamanda, əyanlardan, şahzadələrdən qardaşlar, əmilər, əmi oğullarından tutmuş aşağı təbəqədə olan şahın bütün nədimlərinə qədər hamı başını aşağı salar, təvazökarlıq nümayiş etdirər, tam sakit və hərəkətsiz halda eyni vəziyyətdə olardılar.

Ərdəvan əl-Əhmər[33] hakimiyyətə gələnə qədər əcəm şahlarının işi belə idi. Bu şah nədimlərlə həmsöhbət olmamışdan öncə

---

[32] Xorrəm baş; Fars dilində şad ol deməkdir. Sasani saraylarında bu kimi pərdəçi şəxslərə və sarayda oxşar təşrifat işlərilə məşğul olan şəxslərə hacib, salar, dərbəz, təgərbəz və sair deyirdilər. (İran dər zəmane Sasaniyan, Artur Emanuel Kristensen, c 2, səh 417)

[33] Cahiz Əl-Tac əsərində şahın adını Ərdəvan əl-Əhmər yazır. Halbuki, Sasani hökmdarları arasında bu adda şah olmayıb. Parfiya hakimiyyəti dövründə Əşkanilər arasında bu adda dörd hökmdar olub. Bu o deməkdir ki, ya Cahiz

deyirdi: Sizdən kimin nəyəsə ehtiyacı varsa mən məşğul olmamışdan öncə bir kağıza yazıb versin. Yazıb versin ki, mən oxuyum, bilim və fikrimi toparlayaraq, düzgün məntiqlə lazımi göstərişi verim. Sizdən hər biriniz digərinin vaxtına girib bir şey istəsə boynu vurular. Bu şah ilk şəxs idi ki, qeyd edilən metodu dəbə saldı. O heç bir ehtiyaclını naümid etməz, eyni zamanda da plansız müraciət edənə bir şey verməzdi.

Bu üslub deyildiyi kimi Yezdəgird oğlu Bəhrama qədər (406-438) davam etdi. O öz nədimləri və həmməclislərinə deyirdi: Sərxoş olduğumu və qeyri-ciddiliyə keçdiyimi görəndə də ehtiyaclarınızı mənə deyə bilərsiniz. O, xadim və pərdəçiyə deyərdi ki nədimlərin istəkləri ilə məşğul olsunlar. Buna görə, camaat, şahın məstliyi nümayan olanda da məktublarını təqdim edirdilər. Pərdəçi xadim onları alar şaha çatdırardı. Şah məktubları əlinə alıb bükər, onun içindəkini oxumamış, yerə atıb deyərdi: Bu məktubda istənilənlərin hamısını yerinə yetirin!. Bəzən bu xahişlər ərazi və mal-mülk, borcun ödənilməsi, milyonu keçən bəxşişin istənilməsi ilə bağlı ola bilərdi. Amma bunu da bilmək lazımdır ki, bu növ məclislər intensiv baş verməzdi.

Amma hər kəs məktubunda özünə münasib olmayan istəyi irəli sürəndə və həddini aşıb, çox istəyəndə ehtiyacı aradan qaldırılmazdı. Belə bir şəxs cahil adlandırılar, onun müraciəti daha qəbul edilməzdi.

## Əməvilər və nədimləri

İran şahları və ərəb xəlifələri nədimlərin təbəqə və dərəcələrinə, onların özlərinə məxsus imtiyazlara riayət edirdilər. Bu Yezid ibn Əbdülməlikə qədər davam etdi. O yuxarı və aşağı təbəqələri bir rütbədə tutdu. Təbəqə və dərəcələri ləğv etdi. Eyş-işrət və əyyaşlıq ona qalib olmuşdu. Ölkə idarəçiliyini diqqətdə sax-

---

səhv edib, ya da kitabın nüsxələrinin yığılması, köçürülməsi və yazılması zamanı səhvə yol verilib. Araşdırmaçı Əhməd Zəki Paşanın qənaətinə görə bu şəxs Ərdəşirin devirdiyi, Əşkanilərin son hökmdarı "Ərdəvan əs-Səğir" ləqəbli IV Ərdəvan və ya III Artabanusdur. O miladi tarixi ilə 81-ci ildə vəfat edib.

lamayaraq, onu aradan apardı. Məclisdə nədimlərə, gülüb-danışmaq, həddən-ziyadə zarafat və yüngüllük etmək, hökmdara cavab qaytarmaq imkanı yaratmışdı. Yezid ibn Əbdülməlik xəlifələrdən ilk şəxs idi ki, qarşısında durub barəsində istehza edici şeir deyirdilər.

İshaq ibn İbrahimdən[34] soruşdum: Əməvi xəlifələri nədimlər və xanəndələrlə oturanda pərdəsiz otururdular?

Cavab verdi: Müaviyə ibn Əbu-Sufyan, Mərvan, Əbdülməlik, Vəlid, Süleyman, Hişam, Mərvan ibn Məhəmməd nədimləri-lə bir araya gələndə pərdədən istifadə edirdilər. Buların məclisində nədimlərdən heç biri xəlifələrin nə etdiyini bilmirdilər. Hətta hansısa bir avazdan ləzzət alıb, vəcdə gəlib, durub çiyinlərini oynadıb, rəqs etsələr və üryan olsalar belə xüsusi kənizlərdən başqa onları kimsə görməzdi. Əgər pərdənin arxasından avazın səsi ucadan gəlsəydi, şənliyin səsi yüksəlsəydi və ya rəqsin, hərəkətin və mahnının səsi əndazədən çox eşidilsəydi, o zaman pərdəçi deyərdi: Ey kəniz bəsdir daha yetər, artıq etmə dayan!. Bu minvalla nədimlərə eşitdirilərdi ki, bu hərəkətə yol verən kənizdir, xəlifə deyil.

Amma digər əməvi xəlifələri oynamağa, üryan olmağa, nədimlərinin və musiqiçilərin qabağında lüt soyunmaqdan çəkinməzdilər. Amma yenə də heç biri Yezid ibn Əbdülməlik və Vəlid ibn Yezid kimi deyildilər. Çünki bu ikisi nədimləri qarşısında çirkin işlər görməkdə, söyüşdə, yava danışmaqda və lütlənməkdə sayılıb, seçilirdilər. Bunlar hər işə əl atırdılar və heç nəyə əhəmiyyət vermirdilər.

Soruşdum ki bəs Ömər ibn Əbdüləziz haqda nə deyirsən?

İshaq ibn İbrahim cavab verdi: O xilafət kürsüsünə oturandan ölənə qədər qulağına xanəndə səsi dəymədi. Amma Mədinənin əmiri olmamışdan öncə müğənnilərə qulaq asırdı və bununla

---

[34] Mosullu İshaq ibn İbrahim (766-889), Abbasi xilafəti dövründə ən tanınmış musiqişünasdır. Eyni zamanda o şair, ədəbiyyatçı və fiqhi dərindən bilən idi. Musiqi barədə 7 əsəri var ki, onların ən tanınmışı xəlifə Vasiq üçün yazdığı “əl-İxtiyar minəl-Əğani lil-Vasiq əl-Xəlifə” və nəğmələr barədə yazdığı”əl-Əğani əl-Kəbir” əsəridir.

yanaşı ondan nalayiq hərəkət görünmürdü. Bəzən ola bilərdi ki, müğənni oxuyanda əl çalsın, və ya olduğu yerdə hansısa hərəkətləri etsin, ayağını yerə vursun və ya müəyyən mənada vəcdə gəlsin. Amma şənlik edərək, yüngül hərəkətlərə yol verməsi, xeyr bu olmayıb.

## Abbasilər və nədimləri

İshaq ibn İbrahimdən, Abbasi xəlifələrinin nədimlərilə necə rəftar etmələri haqda soruşdum. O dedi:

"Əbul-Abbas Səffah[35] əvvəllər nədimlərinin qarşısına çıxırdı, amma bir ildən sonra pərdə arxasına keçdi. Useyd ibn Abdullah Xuzai[36] ona bu addımı atmağı tövsiyə etmişdi. Səffah musiqi səsindən vəcdə gələr, şənlik edər və pərdənin arxasından xanəndəyə deyərdi: Afərin! Bu mahnını bir də oxu!. Mahnı təkrarlananda yenə, birdə oxu, deyərdi. Səffahda başqasında olmayan bir üstünlük var idi. Onun yanına girən nədim, müğənni və məzhəkəçilər, çox olsun ya az, ənam və xələt almadan çıxmazdılar.

O yaxşı iş görənin mükafatını sabaha saxlamaz və deyərdi: Mən təəccüb edirəm o kəsə ki onu şad edib sevindirələr, şadlığı qənimət bilib, şənlik edib bəhrələnə, amma şad edənin mükafatını sonraya saxlaya!.

Səffah hər gün və hər gecə məclis təşkil edirdi və heç kim o məclislərdən şad və xürrəm olmadan çıxmazdı. Bu bəzlü-bəxşiş və bu növ rəftar ondan öncə heç bir ərəb və əcəm şahından görünməmişdi. Yalnız V Bəhramdan buna oxşar rəftarlar nəql edilir."

---

[35] Abbasilər xilafətinin ilk xəlifəsi, Məhəmməd Peyğəmbərin əmisi oğlu Abdullahın nəticəsi Əbul-Abbas Abdullah əs-Səffah 721-ci ildə dünyaya gəlib və 754-ü ildə vəfat edib.

[36] Əbu-Müslim Xorasaninin sərkərdələrindən biri olan Useyd Xuzai, daha sonra Abbassi xəlifə sarayının əsas əyanlardan biri oldu. Xorasanın əmiri olub və hicri-qəməri təqvimi ilə 156-cı ildə elə Xorasanda da vəfat edib.

**Mənsur Dəvaniqi**

Amma Əbu-Cəfər Mənsur[37] heç vaxt pərdə olmadan nədimlərinin qarşısına çıxmazdı. Heç kəs onu sudan başqa bir içki içməsini görməyib. Həmişə Mənsurla pərdə arasında 20 zira, eləcə də onun hüzurunda nədimlərlə pərdə arasında 20 zira məsafə olub. Əgər hansısa xanəndənin avazı ona xoş gəlsəydi, kənizlərə işarə edər və onlar da pərdəni tərpədərdilər. Bu zaman Mənsur onun yanına gələn pərdəçiyə deyərdi: Bu xanəndəyə yaxşı oxuduğunu de və de ki, Allah işinə bərəkət versin!

Bəlkə də o əl də çalırdı, lakin o bunu, məclisdən kənarda xanımlarının birinin hücrəsinə daxil olaraq edirdi. O nədimlərinin heç birinə və qeyrilərinə bir dirhəm verməzdi. Divanda onlar üçün müəyyən məbləğlər nəzərdə tuturdu. (Sair şahlar kimi) Əyləncəni, məzhəkəni və təlxəkliyi daha çox nümayiş etdirənə hansısa bir yeri və ərazini bağışlamazdı. Bir dəfə verdiyini düz 20 il yadda saxlayar və onu verdiyi adama xatırladardı.

Əbu-Cəfər Mənsur həmişə deyərdi: Hər kəsi gördüyü iş qədərində mükafatlandırın, yaxşını yaxşı ilə cavablandırın. Mükafatı çox verən təşəkkürə layiqdir. Təşəkkür edən də (verən kimi) kəramətlidir. Hər kəs bilsin ki, nə edibsə özü üçün edib. Əgər təşəkkür etmək təxirə salınsa, gərək mükafatı verənin təvəqqesi olmasın. Onlardan çox məhəbbət gözləmək olmaz. Özün üçün, adın, sanın və namusun üçün gördüyün işin təşəkkürünü gözləmə. Bil ki, bir şeyi istəyib, ehtiyacını sənə bildirən şəxs sanki öz hörmətini saxlaya bilməyib və sən də onu rədd etməməklə öz hörmətini qoru!

---

[37] Abbasilərin ikinci xəlifəsi Əbu-Cəfər əl-Mənsur 714-cü ildə dünyaya gəlib və 775-də dünyadan köçüb. Qardaşı Səffah yaşda ondan kiçik olsa da, böyük qardaşları İbrahimin vəsiyyəti ilə birinci xəlifə oldu. Çünki Səffahın anası ərəb, Mənsurun anası isə varvar tayfasından idi. Bağdad onun tərəfindən 149-ci ildə inşa edilib və sonra bu şəhər "Mədinətus-Salam" yəni Sülh şəhəri adı ilə adlanıb. Bağdadda "Beytul-Hikmət" elmi mərkəzini təsis edib. Ləqəblərindən biri də Dəvaniqidir. Bu ləqəb xəsis olduğuna görə ona verilib. (Xızrı, Əhmədrza, Tarixe Xilafəte Əbbasi, 1384 hicri-şəmsi)

Məhəmməd ibn Mənsur və ya Mehdi Abbasi (744-786) nədimlərlə rəftar qaydalarında özünü atası Mənsur Abbasiyə oxşadırdı və bu müddətdə özü ilə nədimləri arasında pərdə var idi. Amma sonralar pərdəni aradan qaldırdı. Əbu-Oun[38], ona nədimlərlə özü arasında pərdəni saxlamağı təklif edəndə, sərt cavab verib dedi:

"Ey nadan bəsdir daha! Şənlik o zaman olur ki, səni xoşhal edəni görüb ona yaxın olasan. Amma pərdə arxasından və uzaqdan eşitməkdə nə ləzzət ola bilər?! Az da olsa dostların qarşısına çıxmağın faydası var və fayda budur ki, onlara şadlıq bəxş edirəm və onlar da öz sənət və peşələrindən mənə fayda verirlər."

Mehdi Abbasi çox bəxşiş edirdi. Onun yanına gedib ehtiyacını aradan qaldırmayan az adam olub. Xoşxasiyyət, xoşrəftar və xoşsöhbət insan idi. Yatağa az girərdi. Heç bir həmsöhbəti yormaz, yalnız naçar olanda həmsöhbətini tərk edərdi. Acıdil və söyüşcül deyildi. Məclisdə oturanlarla səbirli davranırdı. Həmişə gülərüz və əziyyətsiz insan idi. Nalayiq söz-söhbətlərə köklənməzdi.

Hadi Abbasi (Musa ibn Mehdi ibn Mənsur 762-786) tündxasiyyət və kobud rəftarlı insan idi. Nadir hallarda səhvə və xətaya göz yumardı. Bədbin biri idi. Hadi, onun əxlaqına bələd olanlardan çox az adamın ehtiyacını aradan qaldırıb. Onun nəzərində ən pis şey, söhbətini bir şey istəməklə başlamaq idi. Amma müğənni və xanəndəyə çox əta edərdi. O dərəcədə ki, əta olunan şəxs özü-özündə deyərdi: Deyəsən bu sondu, daha verməz.

Amma elə olurdu ki, Hadi bir neçə gün sonra yenə həmin adama həmin miqdarda verərdi.

Deyilir ki, günlərin birində İbni-Came, İbrahim Mosuli və Məaz ibn Təbib onun hüzurunda idilər. Məaz ibn Təbib birinci dəfə idi ki, onun hüzuruna gəlmişdi. Məaz tanınmış musiqişünas idi. Hadi dedi: Sizdən hər biriniz bu gün məni vəcdə gətirsəniz, istədiyini ona verəcəyəm. Birinci İbni-Came bir nəğmə oxudu,

---

[38] Əbu-Oun Əbdül-Məlik ibn Yezid Xorasani Əzdi adlı sərkərdədir. Əbu-Müslim Xorasanının sərkərdələrindən olan Əbu-Oun daha sonra Mehdinin zamanında Misir valisi ömrünün sonunda isə Xorasan valisi oldu. 794-cü ildə vəfat edib.

amma xəlifəyə təsir edib, onu hərəkətə gətirə bilmədi. İbrahim xəlifənin nə istədiyini anlamışdı və ona görə avazını aşağıdakı bu şeirlə davam etdirdi:

“Səlimə hicran və uzaqlaşmaq qərarını verib – Səncə indi o haradadır?!”

Hadi bundan sonra o qədər vəcdə gəldi ki, yerindən qalxıb uca səslə dedi: Sən Allah bir də oxu, bir də!, təkrarla!

İbrahim mahnını təkrarladı. Hadi dedi: Sən, istədiyim adamsan. İndi ürəyin istədiyini de!

İbrahim dedi: Ey möminlərin əmiri! Əbdülməlik ibn Mərvanın Mədinədəki xurma bağı və axar bulağını istəyirəm.

Bunu eşidən Hadinin gözləri bərəldi və qəzəbindən alovlanıb İbrahimə dedi: Natəmizin balası! Sən istəyirsən ki camaat məni vəcdə gətirdiyini eşitsin və sonra desinlər ki, mən də sənin istədiyinə əməl edib sənə ərazi verdim?! Allah and olsun belə bir zamanda nadanlıq məntiqə və ağıla qalib olsaydı, başının bədənindən ayrılması haqda göstəriş verərdim.

İbrahim sonra deyirdi: Mən həmin zaman xəlifə ilə öz aramda ölüm mələyini görürdüm ki, edam hökmünü gözləyir.

Bu hadisədən sonra Hadi Abbasi İbrahim Hərranini çağırıb dedi: Bu cahilin əlindən tut apar beytul-mala, istədiyi qədər oradan götürsün.

İbrahim dedi: Hərrani mənim əlimi tutub, beytul-malın xəzinəsinə apardı və sonra dedi:

Nə qədər götürəcəksən?

Dedim: Yüz bədrə[39]. Cavab verdi ki, qoy ondan göstəriş alım.

Dedim onda doxsan ver gedim. Cavab verdi ki, ona deməliyəm.

Dedim onda səksən ver gedim. Yenə yox dedi və bu işin baş tutması üçün xəlifəyə müraciət etməyin lazım olduğunu bildirdi.

Amma mən onun nə demək istədiyini başa düşdüm və dedim: Yetmiş ver özümə götürəcəm, 30-u da sənin. Götür dedi.

---

[39] Bədra keçi dərisindən hazırlanmış pul kisəsidir. Bir bədrənin içində min dirhəm olur. Amma Cahizin fikrinə görə Abbasi dönəmində bir bədrədə 10 min dirhəm olurdu.

İbrahim deyir: Bu yolla mən yeddi yüz minlə oradan çıxdım və ölüm mələyi də oranı tərk etdi.

**Harun ər-Rəşid (763-809)**

İshaq ibn İbrahim dedi: Rəşidin əxlaqı Əbu-Cəfər Mənsurun əxlaqı kimi idi. Hər şeydə ona bənzəyirdi. Amma ənam və bəxşiş məsələsində fərqli idi. Çünki Rəşid bu zəmində Əbul-Abbas və Mehdi Abbasiyə bənzəyirdi. Hər kəs desə ki, Rəşid sudan başqa bir içki içib, inanma və belə bir iddianı edən adamı yalançı bil! Çünki o mey içsəydi də yalnız xüsusi kənizləri görə bilərdi. Bəzi hallarda Rəşid hansısa bir avazdan vəcdə gəlirdi, amma yenə bədənini hərəkət etdirməzdi. Yalnız kiçik bir hərəkətlə özünə təkan verərdi.

Rəşid o Abbasi hökmdarlarındandır ki, müğənni və xanəndələri dərəcələrə bölərdi. Rəşid onları I Xosrov Ənuşirəvanın və Ərdəşir ibn Babəkanın təbəqələrə ayırdığı kimi ayırardı. Onun zamanında İbrahim Mosuli, İsmayıl Əbul-Qasim ibn Came və ud çalan Zəlzəl Mənsur[40] birinci təbəqədə yer almışdılar. Zəlzəl musiqi alətlərilə çalırdı. O iki nəfər isə oxuyurdular. Onların hər üçü birinci dərəcədə idilər.

İkinci təbəqədəkilər Səlim ibn Salam Əbu-Abdullah əl-Kufi, Əmr Qəzzal və onlar kimilər idilər. Üçüncü təbəqədəkilər isə ney çalan, qavalçılar və tənbur çalğıçıları idilər. Onlar təbəqələri və dərəcələrinə uyğun mükafatlandırılırdılar. Əgər birinci dərəcədəkilərdən birinə böyük ənam verilsəydi eyni təbəqədə olan digər iki nəfərə də ondan mənfəət çatırdı. Hətta aşağıdakı iki təbəqənin üzvlərinə də o böyük ənamdan nələrsə çatırdı. Amma aşağı iki təbəqədə bir nəfər yaxşı ənam alsaydı, yuxarıdakılar

---

[40] Mənsur bin Cəfər bin Zəlzəl Razi Abbasi xəlifələri dövründə simli alətlər, xüsusilə də ud aləti üzrə tanınmış çalğıçı idi. Rəşidin və ondan öncəki xəlifələrin dövründə sarayda ifa etməyə həmişə dəvət alırdı. 791-ci ildə vəfat edib. İraqda qazıb vəqf etdiyi quyulara görə, simli musiqi alətləri üzrə ilk dəfə ərsəyə gətirilən "Vüsətayi Zəlzəl" kəşfinə görə və avazlarına görə dillər əzbəri olub. Onun adı ərəb və fars şeirlərində çox keçib.

ondan bir dirhəm belə qəbul etməzdilər. Ümumiyyətlə aşağı dərəcədə olan şəxs əldə etdiyi mükafatdan yuxarıya təqdim etməyə cürəti də çatmırdı.

İshaq ibn İbrahim deyir: Günlərin birində Harun ər-Rəşid ney çalan Bərsumaya dedi: Ey Əbu-İshaq İbni-Came barədə fikrin nədir?! Bərsuma başını tərpədib dedi: O, (İraqın bölgələrindən biri olan) Qətarbilin şərabına bənzəyir. Adamın əl-qolunu bağlayır və ağlını başından alır.

Harun ər-Rəşid İbrahim Mosuli haqda soruşanda Bərsuma dedi: O bir bağdır ki, orada şaftalı, armud, alma, hətta buynuz ağacı meyvəsi və tikanlı meyvə da var.

Xəlifə soruşdu: Bəs Səlim ibn Salam haqda nə deyirsən? Cavab verdi: Elə gözəl rəngləyir ki!.

Harun ər-Rəşid Əmr əl-Qəzzal haqda soruşanda o dedi: Onun elə gözəl barmaqları var ki gəl görəsən!

Nəql olunur ki, ud çalan Mənsur Zəlzəlin pəncəsi kimi gözəl ifalar ərsəyə gətirən pəncə yaradılmamışdı. O əlini uda aparanda, Əhnəf kimi ağır xasiyyətli və vüqarlı bir insan onu eşidən kimi özünü saxlaya bilmir və vəcdə gəlirdi.

İbrahim Mosuli deyir: Bir gün Zəlzəl ud çalırdı və mən oxuyurdum. O məndən səhv tutdu. Mən şahın hüzurunda olan pərdəçiyə dedim. Allaha and olsun ki o səhv çaldı. Pərdəçi pərdəni kənara çəkib dedi: Möminlərin əmiri deyir ki, Allaha and olsun elə sən özün səhv etdin. Bu zaman Zəlzəl də narahat oldu və dedi: İbrahim sən mənim səhv etdiyimi deyirsən?! Allaha and olsun ki, istənilən xanəndə ağzını açan kimi məqsədini bilirəm. Mən necə səhv edə bilərəm axı?! Pərdəçi Zəlzəlin dediklərini xəlifəyə çatdırdı və Harun ər-Rəşid dedi: Ona de ki doğru deyirsən! Sən elə dediyin kimisən!. Yalan deyən İbrahimdir və səhvi o etdi.

İbrahim Mosuli deyir ki, mən bu hadisəyə görə çox narahat olmuşdum və ona görə pərdəçiyə belə dedim: Ağam və sərvərim möminlərin əmirinə deyin ki, Fars bölgəsində Suneyd adlı bir kişi var ki, Allah onun kimi ud çalğıçısı xəlq etməyib. Heç kimin mizrab çalan əli onunku kimi ola bilməz. Əgər möminlərin

əmiri onu gətizdirə bilsə, məharəti və üstün olmasının şahidi olar. O zaman mən onun çalması ilə oxuyacağam. Çünki baxıram ki, Zəlzəl mənimlə düşmənçilik edir, mənimlə sanki meymun oynadan və nağılbaz kimi rəftar edir.

İbrahim sözlərinə belə davam edir: Möminlərin əmiri həmin kişini gətirmək üçün adamlar göndərdi və onu Bağdada gətirdilər. Bu iş Zəlzəli narahat və qəmgin etmişdi. Fars bölgəsindən olan kişi saraya gətizdirildi, biz də xəlifənin hüzuruna getdik və hərə öz yerində oturdu. Udları nizamlayıb hazır vəziyyətdə məclisə gətirdilər. Xəlifənin məclisində adət belə idi ki, udlar və tənburlar köklənmədən çalğıçılara verilməzdi. Bu ona görə idi ki, şahın hüzurunda sazların nizama salınması və köklənməsinə ehtiyac qalmasın. Udların zir və bəm simləri əvvəldən nizamlanar və səhv olmasın deyə köklənərək hazırlanardı. Udu həmin kişinin qarşısına qoyanda, Mənsur Zəlzəl ona baxdı və bu zaman üzü güldü və rəngi özünə gəldi. Fars bölgəsində olan kişi çalmağa başladı və İbrahim də onun çalması ilə yanaşı oxudu. Sonda pərdəçi Zəlzələ üzünü tutub dedi: İndi isə sən mizrabını vur! Mənsur Zəlzəl əlini udun tellərinə toxundurdu. Fars bölgəsindən olan kişi dözməyib durdu və icazəsiz yerindən qalxaraq, Zəlzələ yaxınlaşdı. Onun əl-üzünü və başını öpüb, dedi: Canım sənə fəda olsun! Sənin kimi ustad sınaq edilməz, yalnız pərəstişə layiqdir.

Xəlifə Harin ər-Rəşid təəccüb içində idi və artıq Zəlzəlin həmin Fars çalğıçısının üzərində olan üstünlüyünün və məqamının şahidi olmuşdu. Xəlifə o kişini mükafatlandırılması ilə bağlı göstəriş verdi və onu şəhərinə geri göndərdi.

Mənsur Zəlzəl camaatın ən kəramətli və ən səxavətlilərindən idi. Nəql olunur ki, səfərlərinin birində zəkata və yardıma ehtiyacı olan bir tayfanın yaşadığı yerdə istirahətə dayandı. Amma zaman gəldi Zəlzəl öləndə həmin tayfanın imkanı o qədər artmışdı ki, zəkat vermək şəriət baxımından onlara vacib olmuşdu.

Amma İshaq Bərsuma ikinci təbəqədən idi. Nəql olunur ki, bir gün Harun ər-Rəşid onun ney çalmasından vəcdə gəlmişdi. Pərdəçi ona, İbni-Camein avazı ilə çalmasını istədi. O, çalmayacağını bildirəndə, pərdəçi dedi: Əmirəl-möminin buyurur ki, o mənim

əmrimə əməl etmir?! İshaq Bərsuma belə cavab verdi: Əgər birinci dərəcəli xanəndələrin avazı ilə çalmağım gərəkdirsə, onda mən də gərək birinci dərəcəyə qalxım. Əks təqdirdə çalmaram.

Bundan sonra Harun ər-Rəşid pərdəçiyə dedi: Onu birinci təbəqəyə qaldır və sonra məclisdən qalxdıqdan sonra oradakı xalçanı ona ver.

İshaq yuxarı təbəqəyə layiq görüldü və xalçanı da hədiyyə olaraq aldı. Xalçanın qiyməti iki min dinar idi. Onu evinə aparanda anası və bacısı çox sevindilər. Nəbati[41] tayfasından olan anası həm də pəltək idi.

İshaq Bərsuma sonra bir sıra işlərə görə evdən çıxıb getdi. Qonşu qadınları gəlib, digərlərinin deyil, yalnız Bərsumanın layiq görüldüyü bu hədiyyəyə görə anasına təbrik deyib, dua etdilər. Ana əlinə bıçaq alıb, qonşu qadınların hər biri üçün bir hissə kəsib ayırdı. Ana bu minvalla xalçanın çoxunu kəsib doğrayıb payladı.

Bərsuma qayıdanda, anasının xalçanı tikə-tikə etdiyini gördü və dedi: Vay olsun! Ana sən nə etmisən?! Anası cavab verdi: Mən bilmirdim. Düşünürdüm ki, yəqin belə bölmək lazımdır. Bərsuma sonra bu məsələni xəlifəyə dedi. Harin ər-Rəşid bunu eşitcək güldü və ona başqa bir xalça bağışladı.

Səid ibn Vəhəb rəvayət edir ki, İbrahim Mosuli əmirəl-möminin Harun ər-Rəşid üçün bir nəğmə oxudu. Harun o qədər vəcdə gəldi ki, qanad açıb uçmaq istəyirdi. Harun gecəni səhərə qədər o mahnını dinlədi. İbrahim Mosuli də durmadan təkrarlayırdı. Oxuduqca Harun ona deyirdi: Mən bu musiqi kimi vəcdə gətirən və peşəkar musiqi incəsənətini göstərən nəğmə görmədim.

İbrahim xəlifəyə dedi: Əgər biri əmirəl-mömininə yüz min dirhəm bağışlasaydı və ya əmirəl-möminin yerdən yüz min dirhəm tapsaydı, bu mahnını eşitməkdən daha xoş olmazdımı?

Harun dedi: Allaha and olsun mən bu mahnı ilə daha çox xoşhal oluram, nəinki min- min, min-min (iki milyon) dirhəmlə.

---

41 Nəbatilər (ərəb. الأنباط, Əl-Ənbaṭ) İosif Flavi zamanında Fərat çayından Qırmızı dənizə qədər uzanan və Suriya ilə Ərəbistan arasında sərhəd bölgəsindəki vahələrdə məskunlaşan və “Nəbatə” adı verilən bölgədə yaşayan qədim samilər, cənubi İordaniyalı, Kənanlı və şimal Ərəbistanlı ərəbləridir.

İbrahim dedi: Beytul-malın pulundan yüz min dirhəm itirmək əmirəl-mömininə daha çox ağır olardı yoxsa bu mahnıdan məhrum qalmaq?

Harun dedi: Min-min, min-min dirhəmi itirmək bu mahnıdan məhrum qalmaqdan daha asandır.

Bu zaman İbrahim dilə gəlib dedi: Elə isə onda niyə əmirəl-möminin, qarşılığında iki milyon dirhəmin dəyəri olan bir şeyi gətirən şəxsə yüz ya iki yüz min dirhəm əta etmir?!

Bunu eşidən Harun müğənni İbrahim Mosuliyə iki yüz min dirhəmin əta edilməsi göstərişini verdi.

## Məhəmməd Əmin Abbasi (787-813)

İshaq Mosulidən, kənarlaşdırılmış[42] şəxsin, nədimlərilə necə rəftar etməsi haqda və sözügedən şəxslərlə hansı şəkildə davranması haqda soruşdum. O dedi:

Onun bütün işi qəribə idi. Yüngüllük hər cəhətdən bəlli idi. O dərəcədə ki, kiminlə və harda oturacağına əhəmiyyət vermirdi. Əgər onunla, nədimləri arasında yüz pərdə də olsaydı yenə yırtıb, onların yanına gedərdi. Qızıl gümüşün bəxşiş edilməsində kimsə ona çatmazdı. Camaatın əliaçığı idi. Avazı eşidib vəcdə gələndə pulu səpələyərdi və bu işdə kimsə ona çatmazdı. Mən şahid oldum, gecələrin birində göstəriş verdi tayfasının adamlarından birinin[43] qayığını qızılla doldurdular və o şəxs hamısını

---

[42] Məxlu vəzifəsindən kənarlaşdırlmış və xəl edilmiş şəxsə deyilir. Burada kənarlaşdırılmış şəxsdən məqsəd Abbasi xəlifəsi Məhəmməd Əmindir. Məhəmməd Əminlə eyni və yaxın əsrlərdə yaşamış tarixçilər onu öz əsərlərində “Məxlu” deyə adlandırırdılar.

[43] Bu şəxs xəlifə Əminin əmisi İbrahim ibn Mehdi (779-839) olub. O da sarayın müğənnilərindən biri idi. Onu Abbasi sülaləsinə mənsub olan ən məşhur müğənni hesab etmək olar. Bəzən onu kəniz anası Şəklanın adı ilə adlandırar və İbni-Şəkla deyə çağırardılar. Əmin Məmun tərəfindən Mərvdə öldürüləndə o Bağdadda idi. Məmun, səkkizinci imam Əli ibn Musa Rzanı Mədinədən Mərvə gətizdirib, vəliəhd elan edəndə, abbasilərin şahzadələri etiraza qalxdılar və Bağdadda İbrahim ibn Mehdi ilə beyət etdilər. Daha sonra Məmun Bağdada döndü və İbrahim qaçıb canını qurtara bildi. İbrahimin müğənniliyi

özü ilə apardı. Yenə gecələrin birində mənim özümə 40 min dinarın verilməsi haqda göstəriş verdi. Mən evimə gedəndə o pulları qarşımda daşıyırdılar. Günlərin birində Mehdinin oğlu İbrahim Əmin üçün bir mahnı oxudu. Əmin onu bəyənməsə də, durub, onun alnını öpdü. İbrahim ayağa qalxdı və Əminin ayağının altında xalçasını öpdü. Həmin gün xəlifə göstəriş verdi ki, iki yüz min dirhəm ona versinlər.

Günlərin birində Əmini hüzurunda qulamları ilə birgə gördüm. Əmin qulamlardan birinə üz tutub dedi: Vay olsun sənə!, əynində olan bu paltarlar yuyulmalıdır, get 30 bədrə[44] al və paltarlarını yu!

Bir dəfə Əlləvəyh əl-Əsər mənə Əmin haqda danışdı və dedi: Əmin mühasirəyə düşmüşdü və mancanağın daşları sarayın içinə çatırdı. Daşlardan biri sarayın içində xalçanın üzərinə düşəndə, kənizlərdən biri mahnı oxuyurdu və onun bəzi hissələrini saxladı və mahnını tam oxumadı. Əmin ona qışqırıb dedi: Ey zinakar mənim hüzurumda mahnını səhv oxuyursan? Çıxarın onu çölə!.

Kənizi çıxardılar və biz bir də onu görmədik.

### Abbasi xəlifəsi Məmun (786-833)

İshaq Mosulidən Məmunun nədimlərlə rəftarı haqda soruşdum. O dedi:

O Xorasandan gələndən sonra 20 ay ərzində heç bir mahnıya qulaq asmadı. Ondan sonra atası Harun ər-Rəşid kimi pərdənin arxasından musiqi dinləyərdi. Yeddi il belə oldu. Amma ondan sonra nədimləri və xanəndələri qarşısında göründü və pərdəni aradan qaldırdı.

İshaq deyir: Məmun musiqi dinləmək, məclisi öz gözü ilə görmək və nədimləri qarşısına çıxmaq istəyəndə, onun ailəsi, qardaşları və övladları bu işi alqışladılar.

---

və mədh edən şeirləri qanının arasına girdi və Məmun onu bağışladı. (İbni-Xəlləkan, Əhməd bin Məhəmməd, Vəfəyatul-Əyan, c 1, səh 39-42)

[44] Klassik mətnlərdə Bədrə keçi dərisindən hazırlanmış pul kisəsidir. Yuyucu toz mənasında da ola bilər. Ərəb dilində bütün toz növlərinə bədrə deyilir.

Deyilir ki, Məmun bir gün məclisdə olmayan İshaq Mosuli barədə soruşur. Məclisdə olanlardan biri İshaq haqda gileylənməyə başlayır və deyir: O, xüdpəsəndlikdən əl çəkmir və indi də elə bununla məşğuldur. Bunu eşidən Məmun onun adını çəkmədi.

Günlərin birində Zərzər İshaqın yanında olanda, xəlifə Məmunun hüzuruna gedəcəyini dedi. İshaq ona dedi: Elə ki sənə oxumaq üçün icazə verildi, bu şeiri onun üçün oxu:

“Ey su kənarında bitən sərh[45] ağacı, səndən gələn arxlar bağlıdır. Susuzluqdan hərəkətsiz qalanın sənə doğru gəlməyə açıq bir yolu yoxdurmu?! O suya çatmağın yolun axtarır, amma qarşısı alınıb və uzaqlaşdırılıb.”

Zərzər bunu avazla oxuyanda onun çox xoşuna gəldi. O vəcdə gəldi və təkrarlanmasını istədi. Üzünü xanəndəyə tutub dedi: Vay olsun sənə bu kimdi belə?

Xanəndə cavab verdi: Ey mənim sərvərim bu cəfa görmüş və uzaqlaşdırılmış İshaqdır.

Məmun dedi: Dərhal o hüzuruma gəlməlidir.

Xəlifənin elçisi çatanda artıq İshaq hazırlaşmışdı. İshaq bilirdi ki, o şeir və avazı xoş səsli, sənətkar və ustad biri xəlifə üçün oxuyarsa, dərhal onu hüzuruna çağıracaq. Belə də oldu, çünki elçi İshaqı aparmağa gəlmişdi.

Mənə (Cahiz burada özünü nəzərdə tutur) bildirildi ki, İshaq Məmunun hüzuruna daxil olanda, xəlifə əlini ona uzadıb, dedi: Yaxınlaş mənə.

---

[45] Ərəbistan Yarımadası və Şimali Afrikada bitən tikansız və kölgəli bir ağac. Onun budaqlarından dişləri təmizləmək üçüb “misvak” qismində istifadə edirlər. Bədəvi ərəblərin və heyvanlarının günün istisində geniş şəkildə istifadə etdikləri ağacdır. Klassik ədəbiyyatda “Sərh” qadın mənasında işlənib. Belə ki, birinci xəlifə Ömər ibn Xəttab şeirlərdə qadınların vəsf edilməsini və təmsilini qadağan etdiyinə görə bir çox şairlər Sərh yazaraq qadını hədəfdə tuturdular. Ərəbistan Yarımadasında bu ağacların olduğu və bu bitkinin adı ilə adlanan çoxsaylı bölgələr var. (Yaqut Həmavi, Mucam əl-Buldan, c 2, səh 503)

İshaq Məmunun əl-ayağına düşdü. Məmun onu ağuşuna alıb özünə sıxdı və xoş üzlə onu qarşıladı. Bütün vücudu ilə İshaqı dinlədi və hüzuruna gəlməsindən də xoşhal idi.

## Xoşbəxt şahın əxlaqı

Xoşbəxt şahın əxlaqlı olmasının əlamətlərindən biri də nədimlərilə həmsöhbət olan zaman qaş-qabağlı və kobud olmamasıdır. Qəzəbini nadir hallarda nədimlərinə göstərməlidir. Xüsusilə də əgər onlardan hansısa (içkiyə görə) ağlını itiribsə və ya başqa bir səbəbə görə. Bu şəxslərlə münasibətdə daha dözümlü olmalıdır.

Əlbəttə məstliyin də həddi və əndazəsi var.[46] Əgər hər hansı bir nədim məlum həddi aşsa belə anlarda şahın məramına layiq olan budur ki, onu cəzalandırmasın. Belə olan anda qeyri-ixtiyarı ağzından bir söz çıxsa və ya xatirələrini yadına salıb, hansısa səhvə yol versə, ona cəza verilməsin və tənbih edilməsin. Əlbəttə, bu o hala və o vəziyyətə aiddir ki, (məst olmuş) özünün və digərlərinin nə dediyini anlamasın və həyata keçirə bilməsin, belə ki onu öz başına buraxsan, özünü uçurumdan da atar və ya kimsə onun paltarını əynindən çıxarmaq istəsə mane ola bilməz.

## Cəzalandırmaq və onun həddi-hüdudu

Əgər (məst olmuş) şəxs dedikləri və etdiklərinə agahdırsa və ya biri onda olanı almaq istəyəndə müqavimət göstərə bilirsə və ya söyüləndə cavab verirsə, yaxud da heç bir kəkələmədən artıq-əskik danışmayıb, fikrini açıqlayırsa, belə olan halda şah onu təqsiri miqdarında cəzalandıra bilər. O şərtlə ki, etdiyi iş biləkdən həyata keçirilib. Bu halda cəzalandırılma həyata keçi-

---

[46] Qurani-Kərimin Bəqərə surəsinin 219-cu ayəsi və Maidə surəsinin 90-91-ci ayələri, eləcə də çoxsaylı məşhur hədislərə əsasən məst edən içkini içmək haram və qadağandır. Tarixi faktlara əsasən xəlifəliyi dövründə aşkar şəkildə şərab içən ilk şəxs Əməvilərin ikinci hökmdarı Yezid ibn Müaviyə olub. (əl-Bidayə vən-Nihayə, İbni-Kəsir, c 8, səh 235-236, Beyrut: Dar İhya ət-Turas əl-Ərəbi 1408)

rilməsə, şahlıq məqamının iqtidarı və hörməti camaatın gözündə düşmüş olar.

Şah gərək bu kimi günahkarları cəzalandıranda həmin işin xüsusi cəzasını aşmasın. Çünki hər günahın öz cəzası var. İstər şəriətdə, istər ayinlərdə, istər ürfdə ya da istənilən ictimaiyyətdə hər günah üçün xüsusi cəzalar müəyyənləşib. Hər kəs, günaha müəyyən edilən cəzanı verməsə, sanki günahsızı cəzalandırıb. Cəzalandırma lazım olanda onu tərk etməklə, günahsızı cəzalandırmağın arasında bir fərq yoxdur. Allah şahları bu uca məqamlarda yerləşdirib ki, bütün əyrilikləri düzəltsinlər və doğruluqları qorusunlar.

## Şahın ətirlənməsi və zahiri görkəmi

Şaha məxsus adət-ənənələrdən biri də budur ki, o nədimlərin və xüsusi adamlarının istifadə etdiyi ətriyyatdan və gülablardan istifadə etməsin. Çünki bu məsələlərdə şahla digərləri arasında fərq olmalıdır. Həmçinin şahın xüsusi adamları və yaxınları da onun istifadə etdiyi ətriyyatdan istifadə etməsinlər. Ətriyyat yemək və içmək kimi bərabərliyin riayət edilməsi vacib olan bir məsələ deyil.

Əgər şah bir işi, xüsusi adamları və qoruyucularına deyil, yalnız özünə məxsus edirsə, əxlaq bunu tələb edir ki, digərləri bu məsələdə özünü onunla bərabər bilməsinlər. I Xosrov Ənuşirəvan və Müaviyə ibn Əbu-Sufyan[47] haqda da bu nəql olunub. Elm əhlindən bəzisi də buna yaxın fikiri Harun ər-Rəşid haqda nəql edirlər. Bundan savayı şahlara yaraşan budur ki, özünə məxsus içəcəyi və hava ala biləcəyi yer olsun və bunlar yalnız şahlıq məqamında olana məxsus olsun. Çünki onun hörmət, izzət və əzəməti bunu tələb edir.

[47] Müaviyə ibn Əbu-Sufyan özünü ərəblərin ilk şahı adlandırırdı. Hakimiyyət üslubu İran şahlarının metoduna bənzəyirdi. Özündən öncəki İslam xəlifələrinin əksinə olaraq, monarxiyanı və şahlığın adət-ənənələrini İslama qatıb. (Tarixul-Yəqubi c 2, səh 232. əl-Müsənnəf, ibn Əbi-Şəyba, c 11, səh 147, Muxtasar Tarix Diməşq, İbni-Mənzur, c 25, səh 43-45)

Məgər müşahidə etməmisiniz ki, sabiq şahlar üçün ən sevimli bu idi ki, elə bir iş görsünlər ki, rəiyyət onu edə bilməsin?! Yaxud da elə bir geyimi geyinsinlər ki, rəiyyət onu geyinə bilməsin. Ərdəşir ibn Babəkan da belə idi. O Sasanilərin ən baxımlı şahı idi. Tacı başına qoyanda məmləkətdə heç kim başına ağac budağı və reyhandan düzəlmiş tacı qoymazdı ki, ona bənzəməyə cürət etmiş olmasın. Əgər xüsusi paltarla miniyə minsəydi həmin paltardan kimsə geyinməzdi. Əgər üzük barmağa taxsaydı camaat o qaşlı üzüyü və ona bənzəri taxmağı özlərinə haram bilərdilər.

Bunlar şahlara məxsus məsələlərdir. Onların yüksək rütbəsi və məqamı bunu tələb edir. Camaatın itaətkarlıq xüsusiyyəti də bunu tələb edir ki, şahlıq məqamı üçün özəl olan geyimlərə, xüsusiyyətlərə və halətlərə keçməsinlər. Əks təqdirdə, baş verməsi lazım olmayan, ola bilər.

Bununla bağlı ərəblərdən misal gətirməli olsaq Əbu-Uhayha Səid ibn Asın adını çəkmək olar. O Məkkədə başına elə bir əmmamə qoyurdu ki, heç kəs ondan qoymazdı.

O cümlədən Həccac ibn Yusif[48] (661-714) ki, başına özünəməxsus uzun papağını qoyanda Allah bəndələrindən kimsə həmin papaqdan başa qoyub əmirin hüzuruna daxil olmağa cürət etməzdi.

---

[48] Əməvilər xilafətinin sərkərdələrindən biri və İraq üzrə valisi. Əməvilər onun vasitəsilə İraqda və İranda çoxsaylı qiyamları amansızçasına yatızdıra biliblər. Məsudi “Mürucuz-zəhəb” və İbn əl-Əsirin "əl-Kamil fit-tarix" kitablarında yazılmışdır: “Elə ki Həccac ibn Yusif İraqın hakimi vəzifəsinə təyin olunaraq öz hakimiyyətinin qərargahı olan Kufəyə daxil oldu, ilk nitqini (müraciətini) bismillahsız, qorxutma, çoxlu hədə ilə başladı və bununla da özünün qaniçən olduğunu göstərdi. İlk nitqində işlətdiyi cümlələrdən biri də bu idi: “Ey İraq xalqı! Ey təfriqəçi, nifaqçı və ən pis sifətlərə malik olanlar! And olsun Allaha ki, mən sizin aranızda ucalmış boyunlar və biçilmək vaxtı yetişmiş çoxlu başlar görürəm! Və bu mənim işimdir! Ey İraq əhalisi! Bilin, and olsun Allaha mən nə sizin səhvinizi bağışlayacağam, nə də sizin üzrünüzü qəbul edəcəyəm.” (Məsudi, Mürucuz-zəhəb c 3. səh 134. İbn Əsir, Əl-Kamilu fit-tarix c 4. səh 34)

Həmçinin Əməvi xəlifəsi Əbdülməlik ibn Mərvan (646-705) sarı rəngli ayaqqabı geyinəndə heç kim həmin ayaqqabıdan geyinməzdi və ya geyinmiş olsaydı hökmən çıxarardı.

Eləcə də, bizim zamanımıza yaxın dövrdə yaşamış xəlifə Mehdinin oğlu İbrahim. Bir gün o, Əhməd ibn Əbu-Duad ibn Əlinin[49] yanına getdi. İbrahimin əynində rəngli libas var idi. Bu libas yer üzünün ən nəfis və ən gözəl paltarlarından idi. Başında qara dəridən, əmmaməyə bükülmüş uzun bir papaq var idi. Papağın qabağı və arxası çıxmış və sallanmış halda idi. Ayağında sarı rəngli ayaqqabı, əlində abanoz ağacından qızıla boyanmış əsası, barmağında də yaqut qaşı göz oxşayan üzük var idi. İbni Əbi-Duad ağzını açıb ona baxırdı və gözünü ona dikmişdi. İbrahim həm də bədənli bir adam idi. İbni Əbu-Duad üzünü ona tutub dedi: İbrahim sən elə bir görkəm və paltarda mənim yanıma gəlibsən ki, o cür geyim Allahın yalnız bir məxluquna layiqdir.

Bunu eşidən İbrahim qayıdıb getdi və ölənə qədər onunla görüşmədi.

Fəqih Əbu-Həssan Ziyadi, vəzir Fəzl ibn Səhli (770-818) yada salıb, onun Allah dərgahında əfv olunmasını dilədi və mənə bir hadisəni danışdı:

Gecələrin birində yatağa girmək istəyirdim ki, Fəzl ibn Səhldən qasid gəldi və mənə dedi: Zürriyasətəyn[50] buyurur ki, sabah xilafət sarayına gələndə başına əmmamə bağlama!. Bu sözə görə fikirə daldım və məqsədin nə olduğunu başa düşmədim. Səhər mən və digərləri xilafət sarayına getdik. Hər təbəqə öz yerində oturdu. Bu zaman Hüseyn ibn Əbi-Səid çıxıb hüzzara de-

---

[49] Əhməd ibn Əbu-Duad (776-854) xəlifə Məmun, Mötəsim və Vasiq dövründə yaşamış və sarayda nüfuzu olan mötəzilə alimi idi. Məmunun dövründə başlayan inkvizisiyayanın, yəni əqidələrin təftişi ilə bağlı addımların baş qaldırmasına səbəb olan əsas şəxslərdəndir. O və sairləri Quranın xəlq olması məsələsini daha çox gündəmə gətirməklə, tarixdə "mehnət dövrü" kimi adlanan inkvizisiya dövrünün başlamasına səbəb olublar.

[50] Abbasi və Fatimilərdə həm vəzir həm də ordu başçısı olan və ya iki mühüm dövlət postunu öhdəsinə götürən dövlət adamlarına verilən ad. Fəzl ibn Səhl Sərəxsidən əlavə 5 siyasətçi bu ləqəblərə layiq görülüb.

di: Bu gün möminlərin əmiri sizlə oturacaq və başına papaq qoyacaq. Buna görə siz əmmamələrinizi çıxaracaqsız.

Dostlarımızdan bir qismi (Məmunun yaxın adamlarından olan) Həsən ibn Qureyşdən belə nəql ediblər:

Harun ər-Rəşidin oğlu Qasim öləndə Məmun bir qasid göndərib məni çağırtdırdı. Hüzuruna gedəndə, məndən Qasimin ailəsi və əmlakı haqda soruşdu. Bu zaman Məmun Qasimdən gileylənərək, o belə edirdi, o elə edirdi, dedi. Həmçinin Məmun dedi ki, Qasim həmişə Mərvdə ata minəndə (mənə məxsus olan) "Rəsafiyyə" papağından qoyurdu.

Şahın adət-ənənəsi bunu tələb edir ki, nədimlərindən hər hansı birinin bəs qədər içdiyini görəndə və görəndə ki, çox içmək onun sağlamlığına ziyandır, şərabın ondan uzaqlaşdırılmasını tələb etsin və gücü çatmadığını ondan istəməsin. Çünki rəiyyət, xüsusi adamlarının haqqında ədaləti riayət etməyən şahın insafına ümid bağlamazlar.

Şahın hüquqlarından biri də budur ki, nədimlərdən heç biri, şah sözə başlamadan, danışmasın və ondan bir şey istəməsin. Əgər kimsə bu məsələdə vəzifəsini bilmirsə, onu məlumatlandırmaq lazımdır. Yenə səhvi təkrarlasa sarayın baş xidmətçisi onu ədəbləndirməlidir və xilafət sarayına girməyə icazə verməməlidir. Bu, şahın onun ədəbsiz hərəkətilə bağlı töhmət verməsindən daha yaxşıdır. Ya da baş xidmətçi ona tutduğu postdan məhrum qalacağı ilə bağlı və şah məclisinə bir də ayaq basa bilməyəcəyilə bağlı xəbərdarlıq etməlidir.

Xosrov Pərvizin oğlu II Kavad (590-628) deyirdi: Saray əhli və yaxınlar öz tələb və xahişlərini o zaman şaha ərz edə bilərlər ki, sıxıntı və çətinlikdə olsunlar və ya şahlarından hansısa bir cəfa görüblər. Ya da onlardan biri ölə, yaxud da davamlı problemlə üzləşsələr, belə olan halda gərək şah o şəxsə diqqət yetirsin, onun və əmsalının işlərini yoluna qoysun və ehtiyaclarını aradan qaldırsın. Amma ehtiyacsız və asayişdə olsalar, rifahlı və fərahlı həyatları olsa, ənam, məvacib baxımından lazımi şəkildə bəhrələnirlərsə, belə olan halda onlardan biri hansısa yuxarı post və məqam üçün ağız açsa, deməli tamahkarlıqdandır ya da ki-

minləsə rəqabətə girmək istəyir. Bu iki xüsusiyyət birində özünü büruzə versə yaxşı olar ki, vəzifəsi əlindən alınsın və digərinə verilsin. Olduğu təbəqə və dərəcədən aşağı salınmalı, inəklərin arxasına düşməli ya da gedib yer şumlamalıdır.

### Şahların ənamı və minnəti

Şahların əxlaqından biri də budur ki, bağışladığı bir şeyə görə kimsəyə minnət qoymasın. Bəxşiş verdiyi şəxs əgər itaətkar və xidmətdə davamlıdırsa, həmin bəxşişdən araya söz salmasın. Əgər itaətdən boyun qaçırıb, üsyan edərsə, şahın idarəçilik ənənəsi budur ki, öz bəxşiş və yaxşılıqlarını ona xatırlatsın, şahın yanındakı məqamına görə ona minnət qoysun, naşükürlüyünü və vəfasının az olduğunu ona desin. Əgər nəticə verməsə növbə cəzaya çatır və cəzalandırma, günah və təqsirin kiçik və böyüklüyünü nəzərə alaraq həyata keçirilməlidir.

Məhəmməd ibn əl-Cəhm[51] və Davud ibn Əbi-Davud belə dedilər: Həsən ibn Səhl Nəim ibn Xazimi[52] qəbul etmək üçün camaatın ibadət etdiyi məkanda oturmuşdu. Nəim baş-ayağı açıq, onun yanına gəlib dedi: Günahım səma və asimandan böyük, sudan daha çoxdur. Həsən ibn Səhl ona dedi: Sakitləş! Sən öncədən itaətkar adam olubsan, indi isə işin tövbədir. Bu ikisinin arasında günah qalmır. Bundan savayı sənin günahın əmirəl-möminin əfvindən böyük ola bilməz.

### Əfv etmək

Xoşbəxt şahın əxlaqi xüsusiyyətlərindən biri də budur ki, qəzəbli olan halda cəzalandırmasın. Çünki bu qəzəb haləti elə bir haldır ki, həmin zamanda həddini aşmaqdan özünü sığortala-

---

[51] Cahiz "əl-Heyvan" və "əl-Bəyan və ət-Təbyin" əsərində bu şəxsə davamlı şəkildə istinadlar edib.

[52] Harun ər-Rəşid Məmunu Mərvə göndərəndə Nəim ibn Xazim də onunla birgə idi. Məmun xəlifə olanda bu şəxs yüksək rütbəli dövlət adamlarından oldu və nədimlər arasında birinci təbəqədə yer aldı.

maq çətindir. Şahın qəzəbi soyuyanda və təbii halına qayıdanda, elə bir cəza təyin edər ki, şəriət, qanun və dində yer alıb və nəql edilib. Əgər qanunda və adət-ənənədə müəyyən günah üçün cəza təyin edilməyibsə, o zaman ədalət tələb edir ki, nə sərt və nə də yumşaq olmayan normal cəza təyin edilsin. Əmr verən zaman sərtlikdən kənar olsun və eyni zamanda qisası da nəzərə alsın. Amma günah və qanun pozuntusunun cəzalandırılması (ictimaiyyət tərəfindən) şahdan tələb edilərsə, əfv etmək olmaz.

Məlumdur ki, şahın hüzurunda baş verən günah və qanun pozuntusu ilə bazar adamları qarşısında baş verən günah arasında fərq var. Həmçinin müdrikin qarşısında olan günahla, nadan birinin qarşısında həyata keçirilən günah eyni deyil. Sanki şah Allahla onun bəndələri arasındadır. Günah onun qarşısında həyata keçirilsə haqqı çatır ki, cəzalandırmanı həyata keçirtsin. Bunu etsin ki, rəiyyət xaos və fitnə-fəsaddan çəkinsin.

**Şah məclisdən qalxarsa**

Şahın haqlarından biri budur ki, qalxmaq istəyəndə yanındakılar və xüsusi adamları ondan öncə dursunlar. Əgər onlara məclisi tərk etməmək işarəsini versə, onda durduqları yerdə dayansınlar və şah uzaqlaşıb gözdən itənə qədər oturmasınlar.

Şahın haqlarından biri də budur ki, çıxanda, eləcə də qayıdanda onları ayaq üstə görsün və əyləşməmiş oturmasınlar.

Şah onlara baxıb, oturmaq icazəsini verəndə, hamı birdən oturmasın. Belə ki ilk oturanlar birinci təbəqə olsun. Bu təbəqənin bütün üzvləri oturanda, ikinci təbəqənin adamları oturacaqlar. Onlardan sonra da növbə üçüncüyə çatır. Məlumdur ki, hər təbəqənin də öncülü və sonda gedəni var. Elə isə hər təbəqə daxilində də birinci öncüllər davamında sonrakılar oturmalıdır.

Şahın haqlarından biri də budur ki, istər böyük, istər kiçik yaşlı, ona paltarı paltarına dəyəcək dərəcədə yaxınlaşmaq olmaz. Ata-anası tanınmış və əsilli-nəcabətli şəxsiyyətlər istisnadır. Tanınmamış şəxslər bu qədər yaxınlaşa bilməz. Əgər şah tanınmayan və aşağı rütbəli biri ilə yaxından danışmağa və onunla üzbə-

üz olmağa məcbur qalsa – bu nəsihət vermək məqsədi daşıya bilər və ya o şəxs hansısa bir iş barədə xahiş edə bilər – belə olan halda üstü yoxlanılmadan yaxına buraxılmamalıdır. Bu zaman iki nəfər biri sağdan bir solda o şəxsin qolundan tutacaqlar. İstədiyi məsələni şaha deyəndən sonra, o zaman şah ona yaxşılıq edib mükafatlandıra da bilər, əgər ehtiyacı varsa, diqqətdə saxlayacaq. Bu əməl xoş niyyətli insanları da təşviq edəcək ki, öz faydalı fikirlərini şaha bildirsinlər və ona yaxın olsunlar.

### Şahın söhbətini dinləmək

Şahın haqlarındandır ki, danışanda hüzzarın fikri-zikri onda olsun. Əgər şahdan eşidilən söz biri üçün təkrar olsa və ya bildiyi məsələdirsə, yenə də elə dinləməlidir ki, elə bil onu əsla eşitməyib və bilmir. Şahın sözlərindən faydalandığını büruzə versin və eşitdiyindən xoşhal olduğunu göstərsin. Çünki bu məsələdə iki məqam var. Biri ədəbi nümayiş etdirmək. İkinci də budur ki, gözəl dinləməklə şahın haqqını ödəmiş olub və sanki öhdəsində olan vacibə əməl edib. Əgər şahın dediyini öncədən eşitməyib və bilməyibsə, daha çox ləzzət alacaq, çünki insanın qəlbi bazar adamları və oxşarlarının sözləri ilə müqayisədə, şahların söhbətlərini dinləməyə daha çox hərisdir.

Əmr verilirsə və söz deyilirsə məqsəd başa salmaq, başa düşmək, tələb etmək və əmin olmaqdır.

Əmr ibn As[53] deyir: Mən bu üç şeylə heç vaxt yorulmaram. Məni anlayan yar və yoldaşım, bədənimi örtən paltarım və məni daşıya bilən miniyim.

Bir gün əş-Şəbi bir qism insanların adlarını çəkib dedi: Mən bu adamlar kimi, məclisdə güclü mübahisə zamanı bir-birini yaxşı anlayan və yaxşı danışan görməmişəm.

---

[53] Əmr ibn As (577-664) hicri-qəməri təqvimi ilə səkkizinci ildə İslamı qəbul edib. Bir və İkinci xəlifə dövründə Şam uğrunda gedən döyüşlərdə müsəlman ordusunun sərkərdəsi, daha sonra isə müsəlmanların ilk Misir valisi olub. Əməvilərin birinci hökmdarı Müaviyə ibn Əbu-Sufyanın vəziri olub. Daha çox Suffeyn döyüşündə işlətdiyi hiylə və məkrlə tanınır.

Məmunun yaxın adamlarından olan Səid ibn Səlim Bahili möminlərin əmirinə dedi: Allaha təkcə buna görə şükür etsəm kifayət edər və bu mənim üçün bəs edər ki, möminlərin əmiri mənə minnət qoyaraq söhbət üçün işarə edərək, məni çağırır və sözlərini mənə deyir. Bu nemətə görə şükürlər olsun. Bu, qanunda və hürriyyətdə olan böyük bir məqamdır. Məmun cavab verdi: Allaha and olsun ki, möminlərin əmiri danışanda sənin yaxşı anladığını və sonra yaxşı anlatdığını bilir. Keçmiş zamanlarda belə birini görməmişəm. Bundan sonra da düşünmürəm ki, beləsi gələ.

Mövzu ilə bağlı I Xosrov Ənuşirəvandan (501-579) da bəzi hekayələr nəql olunur. Deyilir ki, kimsə onunla birgə atla yanaşı gedə bilməzdi. O həmişə atla tək gedirdi. Minik vaxtı yanındakı böyük şəxslər, əyan və əşraf təbəqə və dərəcələrinə uyğun olaraq arxadan gedirdilər. Sağa baxanda qoruyucular qvardiyasının sərkərdəsi yaxınlaşardı. Sola baxanda rahib yaxınlaşırdı. Belə bir zamanda şah onunla yanaşı getməyə kimi istəsəydi çağırılardı. Səfərlərin birində şah sağa baxdı və xüsusi qvardiyanın sərkərdəsi yaxınlaşdı. Şah ona, filankəsi yanıma çağır dedi.

Cangüdənlərin sərkərdəsi həmin şəxsi gətirəndə I Xosrov Ənuşirəvan ona dedi: Babəkan oğlu Ərdəşirin Xəzər şahı ilə döyüşü haqda danış:

O şəxs bu dastanı bir dəfə Ənuşirəvanın öz dilindən eşitmişdi. Özünü bilməməzliyə vurdu. Özünü elə apardı ki, guya heç eşitməyib və bilmir. Buna görə Kəsra[54] özü o dastanı əvvəldən deməyə və həmin kişi də diqqətlə qulaq asmağa başladı.

Hər ikisi atlarını çayın kənarı ilə sürürdülər. O kişinin diqqəti şahda olduğu üçün, yoluna baxmır və atın ayağının altından qafil idi. Bu zaman atının ayaqlarının biri sürüşdü və kişini çaya atdı. At da suya düşdü. Yanındakılar və şahın xidmətçiləri ona tərəf tələsdilər, atı kişinin üstündən qaldırıb, onu da çəkib sudan çıxartdılar.

---

[54] İranda Sasanilər sülaləsinə mənsub olan şahlara verilən ümumi addır. “Xosrov” sözü də etimoloji cəhətdən bu adla bağlıdır.

Ənişirəvan bu hadisəyə görə narahat oldu, atdan düşüb, orada onun üçün bir xalçanın sərilməsini əmr verdi. Onlar nahara da orada qaldılar. Şah göstəriş verdi ki, xüsusi xələt və paltarlarından onun üçün gətirsinlər və onu geyindirsinlər. O naharı şahla birgə yedi.

Şah ondan soruşdu: Atın ayağının altını görməkdən niyə qafil oldun?

O kişi cavab verdi: Ey şahənşah! Allah bəndələrindən birinə nemət verəndə onunla yanaşı çətinlik və giriftarçılıq da verir. Məlumdur ki, çətinliklər və giriftarçılıqlar, verilən nemətin qədərində olur. Bu gün Allah mənə iki nemət əta etdi; Biri budur ki, şahənşah bu qədər insanın içindən məni çağırtdırıb, inayət etdi. İkinci budur ki, Ərdəşirlə Xəzər şahının dastanını mənə danışmaqla məni faydalandırdı. O qədər bundan həzz aldım ki, əgər onu eşitmək üçün gün çıxana və ya gün batana getmək lazım olsaydı gedərdim və yenə faydalanardım. Elə ki bu böyük iki nemət bir anda mənə üz gətirdi, giriftarçılığa düçar oldum. Əgər şahənşahın atlıları və qulamları olmasaydılar və şahın inayəti halıma şamil olmasaydı, həlak olardım. Amma yenə də əgər boğulsaydım, həyatdan gedərdim və şahənşah mənim adımı yer üzündə yaşadar və əbədiləşdirərdi. O zaman gecə gündüz adım dillər əzbəri olardı.

Şah bu sözlərdən məmnun qaldı və dedi: Sənin ağıl və zəkanı bu dərəcədə bilmirdim.

Sonra şah əmr verdi ki, onu təpədən dırnağa qədər gövhər və ləl-cəvahiratla bəzəsinlər. Şah onu öz yaxınlarından və xüsusi adamlarından biri təyin etdi. İşi o qədər rövnəqlənmişdi ki, ölkənin işinin çoxu onun əli ilə idarə olunurdu.[55]

---

[55] Bu dastanı Məsudi də Murucuz-Zəhəb əsərində (cild 6, səh 124-126) cüzi fərqlə nəql edib. Bildirilir ki, bu şəxsin adı Pendar ibn Xorşid olub.

## Müaviyə və əl-Rəhavinin dastanı

Əbu-Şəcərə Yezid ibn Şəcərə ər-Rəhavidən bir hekayə nəql edilir və deyilir ki, o, Müaviyə ibn Əbu-Sufyanla miniklə yol gedəndə, Müaviyə, sərkərdəsi Əbu-Şəcərəyə Xəzaə, Bəni-Məxzum və Qureyş tayfalarının savaşları haqda söhbət edib bunu dedi: Bu savaş hicrətdən öncə baş verib və çox şiddətli idi. O dərəcədə ki, hər iki tərəf qırılıb bitmək üzrə idilər. Əbu-Sufyan özünü çatdırdı. Dəvəsi ilə bir təpənin üstünə çıxıb, paltarının iki tərəfi ilə döyüşən tərəflərə işarə etdi və onlar döyüşü dayandırdılar.

Deyilir ki, Müaviyə bu hekayəni danışanda birdən Yezid ibn Şəcərənin üzünə naməlum tərəfdən bir daş dəyir. Daş onun üzünü yaraladı və qan onun üzünə və paltarına axmağa başladı, amma o üzünü təmizləmirdi.

Müaviyə ona dedi: Allah səni saxlasın! Məgər görmürsən ki başına nə gəlib?!

Yezid ibn Şəcərə dedi: Ey möminlərin əmiri məgər nə olub?

Müaviyə dedi: Üzündən paltarına axan o qanı görmürsən?!

O cavab verdi: Əlimdə olanın hamısını Allah yolunda bağışlayaram (bu söhbətə görə). Əmirəl-mömininin söhbəti mənim fikrimi aldı və valeh etdi deyə yaraya vaqif olmamışam. Möminlərin əmiri məni sanki oyatdı.

Müaviyə dedi: Sənin məvacibini min dirhəm təyin edən adam və sənə mühacirlərin[56] övladları, döyüşçülər və Suffeyn[57]

[56] Mühacirlər 622-ci ildə Məhəmməd peyğəmbərlə birgə Məkkədən Mədinəyə köçərək bura sığınmış şəxslərə deyilir, Mədinədə bu şəxslərə sığınacaq verənlər isə Ənsar adlanır. Birinci, ikinci və üçüncü xəlifələrin dövründə, eləcə də Müaviyənin zamanında müsəlmanların məvaciblərinin ödənilməsində meyar hesab edilən qaydalardan biri də islam dininə tez iman gətirmək idi. Belə ki, birinci ildə iman gətirənlər ikinci ildə iman gətirənlərdən daha çox məvacib alırdı. Bu qayda Əli ibn Əbu-Talibin dövründə ləğv edildi.

[57] Suffeyn və ya Siffiyn Suriyanın şərqində Fərat çayı sahilində xəlifə həzrət Əlinin rəhbərlik etdiyi ordu ilə xilafətin üsyana qalxmış Şam üzrə valisi Müaviyə ibn əbu-Sufyanın rəhbərlik etdiyi orduların üz-üzə gəldiyi bölgədir. Bu müharibə 657-ci ildə üç ay davam edib və sonda atəşkəs elan edilərək, tərəflər müharibəni dayandırıblar. Müharibədə məğlubiyyət astanasında olan

mücahidləri dərəcəsində yer verməyən adam sənə zülm edib. Müaviyə bunu dedi və sonra göstəriş verdi ki, ona 500 min dirhəm versinlər və həmçinin əmr etdi ki, məvacibini daha min dirhəm artırsınlar. Müaviyə onu özünə yaxınlaşdırdı.

Əgər kimsə desə ki, Yezid ibn Şəcərə bu məsələdə Müaviyəni aldadıb, demək lazımdır ki, Müaviyə aldanan insanlardan deyil və o bu kimi hiylələrə uymaz. Əgər deyilsə ki, Yezid ibn Şəcərə bu hadisə zamanı o qədər hissiyyatsız olub ki, diqqəti özündə olmayıb və o elə vəsf etdiyi kimi olub, belə olan halda deməli beş yüz min dirhəmə və məvacibinin daha 1000 dirhəm artırılmasına layiq biridir. Əgər həqiqətən də Yezid ibn Şəcərə təzahür edibsə, təsəvvür etmirəm ki, Müaviyə onun təzahür etdiyini bilməmiş olsun. Çünki digər bir tərəfdən Yezid ibn Şəcərə də Müaviyənin hörmətini saxlayıb.

Müaviyədən belə bir söz nəql olunur: Səxavətin və comərdliyin əlamətlərindən biri də budur ki, özünü bilməməzliyə və görməməzliyə vurasan.

Əbu-Bəkr əl-Həzli[58] haqda bir hekayə nəql olunur və bildirilir ki, o, Abbasi xəlifəsi Abdullah Əbul-Abbas Əs-Səffahla (721-754) söhbət edirdilər. Əbul-Abbas Əs-Səffah farslara aid bir dastanı danışmağa başladı. Bu zaman külək əsdi və damdan bir teşt gəlib əs-Səffahın məclisinə düşdü. Məclisdəkilərin hamısı diskindi, lakin Əbu-Bəkr əl-Həzli yerindən belə tərpənmədi və gözlərini Əs-Səffahın gözlərinə dikmişdi. Xəlifə ona dedi: Həqiqətən də qəribə adamsan! Bizi diskindirən şeyə görə diskinmədin?!

---

Müaviyə ibn Əbu-Sufyanın ordusu nizələrin başına Quranları vuraraq, özlərini müsəlman kimi göstərib və bu addımla həzrət Əlinin ordusunda döyüşün məqsədilə bağlı çaşqınlıq yaradıblar. Bundan sonra həzrət Əlinin ordusundan “Xəvaric” adında bir qrup ayrılaraq, ona qarşı üsyana qalxdılar.

[58] Adı Süleyman ibn Abdullahdır. Hicri-qəməri tarixi ilə 67-ci ildə vəfat edib. Bəsrəlidir və Əl-Səffahın xüsusi nədimlərindən biri idi. O və İbni-Əyyaş Məntufun Əl-Səffahın hüzurunda baş tutan mühüm bir münazirələri var ki, bir sıra tarix kitablarında nəql edilib. O, bu münazirədə Bəsrə və xalqının, İbni-Əyyaş Məntuf isə Kufə və camaatının üstünlüyünü isbat etməyə çalışırdılar. (İbnul-İmad əl-Hənbəli, Şəzəratuz-Zəhəb, c 1, səh 293)

Cavab verdi: Ey möminlərin əmiri Allah bir adamın sinəsində iki qəlb yerləşdirməyib. Kişinin yalnız bir qəlbi olur. Əgər Allah o qəlbi möminlərin əmirinin sözlərilə məşğul etsə, daha onda başqa heç bir iş üçün yer qalmaz. Əgər Allah bir kəraməti birinə məxsus edirsə və adının onunla qalmasını istəyirsə, həmin o kəraməti peyğəmbərinin dili və ya onun canişinin dili ilə o bəndəyə çatdırır. Bu həmin kəramətdir ki, mənə məxsus edilib, diqqətim ondadır və fikrimi də özünə məşğul edib. Əgər göy yerə gəlsəydi belə, möminlərin əmirinin mənə verdiyi göstərişlərdən başqa heç bir şeyi hiss etməz və qorxmazdım.

Əbul-Abbas Əl-Səffah dedi: Əgər qalsam, sənə elə bir məqam verəcəyəm ki, heç kim üçün əlçatan olmayıb.

## Diqqətlə qulaq asmaq haqda bir neçə kəlam

Abbasi xəlifəsi Mənsurun yaxın adamlarından olan Abdullah ibn Əyyaş əl-Məntuf deyirdi: Camaatın şahlara yaxınlaşması üçün, əmrlərə itaət etməkdən yaxşı vasitə yoxdur. Qulamların yaxınlaşması üçün keyfiyyətli xidmətdən, nədimlərin və xüsusi adamların şaha yaxınlaşması üçün sözlərini diqqətlə dinləməkdən yaxşı vasitə ola bilməz.

Əbu-Zürə Ruh ibn Zinba ibn Ruh ibn Sələmə əl-Cuzami[59] deyir: Əgər şahın sənin sözlərinə qulaq asmasını istəyirsənsə, gərək o danışanda sən də diqqətlə onu dinləyəsən.

Kufənin səxavətli şəxslərindən olan Əsma ibn Xaricə Fəzari (vəfat ili 715) deyirdi: Yaxşı dinləyən adam qədər, mənim qəlbimə girən və mənə hakim olan şəxs yoxdur.

Müaviyə deyirdi: Şah iki şey qarşısında elə məğlub olur ki, hətta yüyənini ələ ala bilərsən; Biri onun qəzəbi qarşısında dözümlü olmaq, digəri sözlərini diqqətlə dinləmək.

---

[59] Mürtəza əz-Zubeydi Tacul-Ərus əsərində bildirir ki, hədis ravilərindən hər hansı birinin adında Ruh kəlməsi varsa, Ruh deyil Rəvh oxunur. O bildirir ki, Ruh ibn əl-Qasim bu qaydadan istisnadır. Əbu-Zürə Ruh ibn Zinba ibn Ruh ibn Sələmə əl-Cuzami Əməvilərin dövründə Fələstin üzrə vali olub.

## Şahla ünsiyyət

Şahın xüsusiyyətlərindən biri də budur ki, bəzən birini özünə yaxınlaşdırır ki, onunla zarafatlaşsın və gülüşsün. Belə bir şəxs sonra şahın yanına daxil olanda elə etsin ki, sanki aralarında heç bir ünsiyyət olmayıb və şaha hörmətini, onun şənini uca tutması və təvazökarlığı öncəkindən daha çox olsun. Çünki şahların əxlaq və xüsusiyyəti müdam eyni halətdə olmur.

Şahlarla bağlı adət belədir ki, gərək onların xüsusiyyətləri çox bəlli olmasın, çünki onlar nümunə olaraq göstərilməli və digərləri ona uyğun hərəkət etməlidirlər.

Buna görə, bəzən görünür ki, şah öz qoruyucularından birinə və ya ailə üzvlərindən, xüsusi adamlarından birinə müəyyən bir əmlakla bağlı cinayətə görə və ya şahlıq məqamına qarşı xəyanətə görə, qəzəblənir və eyni zamanda onun cəzalandırılmasını uzun bir zaman üçün təxirə salır. Bu zamanda şahdan həmin şəxsi qorxudacaq bir addım görünmür. Həmin günahkar şəxs və sairləri bədgüman olmasınlar deyə, şah o qədər özünü saxlayır ki, qəzəbin əlamətləri rəftarında görünmür və zamanında cəzalandırma baş tutur.

Amma adi insanların əxlaq və xüsusiyyətləri belə deyil. Hamımız bilirik ki, adi insanlar günah baş verən anda qəzəblənir və qisasa əl atırlar. Həmin səbr, təmkin və dözüm ki, şahın vacibi əxlaqi xüsusiyyətlərdəndir, onlarda yoxdur.

Ümumiyyətlə şah və şahzadələrin davranış qaydalarını digərlərinə tətbiq etmək və meyar qərar vermək mümkün olmur. Şahların bəzən o qədər (siyasət) bacarığı olur ki, ən qatı düşmənlərini belə xüsusi adamları kimi qəbul edir və onlara qucaq açırlar. Hətta onlarla uzun müddət yaxşı rəftar edir, kin-küdurət və düşmənçiliyi illərlə sinələrində gizlədir və büruzə vermirlər. Şahlar üçün fərqi yoxdur ki, cinayətkarı elə ilk qanun-pozuntusunda cəzalandırsın ya da 20 il səbr edib, sonra cəzalandırsınlar. (O qədər özgüvəni və qətiyyətləri var ki) İntiqamdan və ölkənin idarəçiliyində yarana biləcək zəiflikdən qorxmurlar.

## Ənuşirəvan yaxın adamını xəyanətə görə cəzalandırır

I Xosrov Ənuşirəvanın əxlaqı və davranış metodu haqda deyilir ki, bir gün onun yaxınlarından biri cinayət törətdi və şah bundan xəbər tutdu. Lakin həmin kişi şahın xəbərdar olduğunu bilmirdi. Qanunda həmin cinayətin cəzası ölüm idi. Şah bu adamı necə öldürəcəyini bilmirdi. Şah onun öldürülməsinə əsas ola biləcək münasib bir bəhanə tapa bilmir, eyni zamanda onun etdiyi əmələ görə öldürülməsini və bunun ictimailəşməsini hakimiyyəti və idarəçiliyi üçün eyib bilirdi. Onun gizlində öldürülməsinin də tərəfdarı deyildi. Çünki bu metod onların ayinində və əcdadının adətlərində yox idi. Bir il keçəndən sonra şah onu yanına çağırdı və təklikdə onunla söhbətə başladı;

Çox çətin bir məsələ məni narahat edir və müddətdir ki, məni özünə məşğul edib. Bu, Rum şahının sirlərilə bağlı olan məsələdir ki, mənim o məlumatlara ehtiyacım var. Mən o sirləri bilmək istəyirəm. Bu məsələdə səndən başqa heç kimə güvənmirəm. Sən mənim qəlbimdə ən yaxşı məqama sahibsən və hamıdan çox mənə yaxınsan. Belə məsləhət görürəm ki, sənə sərmayə verib, səni Ruma göndərim və sən bu sərmayə ilə orada ticarətə başla. Bir müddət orada qal, apardığın malları satıb, oranın əmtəələrindən alarsan və bura qayıdarsan. Orada olduğun müddətdə, xəbərləri izlə, bizim ehtiyacımız olan sirləri əldə et və bizə faydası dəyəcək, işlər barədə maraqlan!

O kişi dedi: Şahənşah hökmən belə edəcəyəm. Ümidvaram bu xidmət yolunda şahın razılığı və məhəbbətini əldə etmiş olam!

Şah o kişiyə bir sıra malların hazırlanıb verilməsi barədə göstəriş verdi. Kişi ticarət məqsədilə yola düşdü və Rum ölkəsində məskunlaşdı. Alqı-satqı etdi və onların dilini başa düşməyə və danışmağa başladı. Oranın şahının sirləri barədə də məlumatlar əldə etdi. Sonra Ənuşirəvanın yanına qayıtdı. Şah onun gəlişini sevinclə qarşıladı. Və onu mükafatlandırdı. Şah yenidən ona Ruma getməyi əmr etdi. Əmr etdi ki, bu dəfə çox qalsın orada, ticarətlə məşğul və göz-qulaqda olsun. O kişi belə də etdi və

onların dilini yüksək səviyyədə bildi. O, burada tanınmış şəxs və adlı-sanlı biri oldu.

Bu vəziyyət altı il çəkdi. Yeddinci ildə Şah Ənuşirəvan əmr etdi ki, Ruma gedən kişinin şəklini badələrindən birinin üzərinə çəksinlər. Əmr etdi ki, onun şəklini şahın şəkili ilə yanaşı çəksinlər. Sanki o burada başını əyərək şaha xitabən nəsə demək istəyir və şah da əli ilə işarə edərək, məmləkətinin adamlarının içindən onu seçib.

Badə hazır olandan sonra şah onu xadimlərindən birinə verib, dedi: Adətən şahlar bu kimi badələri xoşlayırlar. Əgər bunu satmaq istəsən Ruma ticarətə getmək istəyən filankəsə sat. O da bunu yaxşı pula satmaq istəsə oranın şahına, mümkün olmasa oranın vəzirinə, saray adamlarından və ya qoruyucularından birinə satsın.

Şahın xidmətçisi gecə ikən Ruma gedən kişinin yanına gəldi. Ruma gedən kişi yola düşmək üzrə idi ki, badəni ona verdi və dedi ki, bunu oranın şahına satsın.

Xidmətçi Ənuşirəvanın yaxın qulamlarından və ona ən yaxın saqilərindən idi. Buna görə xidmətçinin təklifini qəbul etdi. Ruma gedən kişi, badəni öz xəzinədarına verdi və tapşırdı ki, onu qorusun və Rum şahına təklif ediləcək malların arasında qoysun.

Badə Rum hökmdarının əlinə çatanda Ənuşirəvanın təsvirini onun üzərində gördü. Sonra bu kişinin görkəminə baxdı və onun görünüşünü dəqiqliklə incələdi. Üzünü ona tutub dedi: İstəyirəm ki sən məni məlumatlandırasan və deyəsən ki, badənin üzərinə şahla aşağı dərəcəli insanın təsvirini çəkərlərmi?!

O, mən belə birisini tanımıram və görməmişəm, deyə cavab verdi.

Rum hökmdarı yenidən soruşdu: Səncə şahın badəsinin üzərində əsilsiz-nəcabətsiz birinin təsvirini və namünasib bir şəkil çəkərlər?!

Özünü ticarətçi kimi göstərən kişi dedi: Xeyr hökmdar belə bir işi görməzlər.

Rum hökmdarı yenidən soruşdu: Şahın sarayında bir-birinə bənzəyən və birini digərindən ayırd etməsi mümkün olmayan insanlar varmı?!

Kişi cavab verdi: Mən belə bir şəxsləri tanımıram.

Rum hökmdarı ona, ayağa dur, dedi. O ayağa duranda şah ona diqqətlə baxdı. O Ayaq üstə ikən üzünə baxdı və ona dedi: Fırlan!

Kişi çönəndə, kənardan onun üzünə baxdı və yenidən badənin üzərindəki təsvirə baxdı. Sonra dedi, Qabağa gəl!

O kişi qabağa gələndə Rum hökmdarı yenə onun üzünə və badənin üzərindəki təsvirə baxdı. Rum hökmdarı onun bütün halət və hərəkətlərini sanki badənin üzərində görürdü. Rum hökmdarı gülməyə başladı. O kişi məsələdən baş açmadı və gülüşün səbəbini bilmədi. Həm də Rum hökmdarının məqamının əzəmətinə görə soruşmağa da cürət etmirdi.

Rum hökmdarı ona üz tutub dedi: Qoyun necə də insandan daha ağıllı olarmış! Çünki o heyvan başını kəsəcək bıçağı torpağın altında basdıra bilir.[60] Amma sən başını kəsəcək bıçağı özün öz əlinlə peşkəş etmisən.

Rum hökmdarı yenidən ona dedi: Sən yemək yemisənmi? O, yox deyə cavab verdi.

Rum hökmdarı göstəriş verdi ki, onun üçün yemək gətirsinlər. Bu zaman kişi dedi: Əziz şah mən aşağı dərəcəli və rüsvay olmuş biriyəm. Məni kimi qullar şahın hüzurunda yeməyə layiq deyillər.

Rum hökmdarı dedi: Sən madam ki, Rum hökmdarının sarayındasan, onun işlərilə maraqlanır, sirlərini bilmək üçün çalı-

---

[60] Qoyunun, başını kəsəcək bıçağı torpaq altında gizlətməsi və ya ağzı ilə götürüb quyuya atması bir dastandır. Miqrizi "Xitət" əsərində yazır ki, bir gün bir qəssab iki qoyunu kəsmək istəyirdi. Birini kəsib, su başına gedəndə ikinci qoyun bıçağı ağzı ilə götürüb quyuya atdı. Uzaqdan bunu görən bir qulam bunu kənd camaatına danışdı. Bu bu dastan dillər əzbəri oldu. Həmin quyunun yanında məbəd tikildi. "Əhməd ibn Əli ibn Əbdülqadir Miqrizi, əl-Məvaiz vəl-İtibar bi-zikri-xitəti vəl-asar, c 2, səh 293)

şırsan, belə olan halda bir qulsan, amma sən Fars ölkəsinə qayıtsan bir şahsan ya da şahın nədimisən.

Sonra yenə ona yemək verin dedi.

Ona yemək verdilər. O qədər şərab içirtdilər ki, məst oldu. Yemək və şərabı bitirəndən sonra Rum hökmdarı ona dedi: Bizim şahların adəti belədir ki, casusları ən hündür yerdə öldürürlər. Amma onları ac və susuz halda öldürmürlər. Sonra Rum hökmdarı əmr verdi ki, bütün şəhərin göründüyü hündürlüyə qaldırsınlar. Orada başını bədənindən ayırdılar. Bədənini aşağıya atdılar, başını da asdılar ki, hamı görsün.

Xəbər I Xosrov Ənuşirəvana çatanda qvardiyanın sərkərdəsini çağırdı və əmr verdi ki, şəhər gözətçisinə, qızıl zəngin çalınması ilə bağlı göstəriş versin. Əmr verdi ki, hərəmxanalardan, şahın qadın və kənizlərinin qaldığı saraylardan keçəndə belə deyilsin:

"Hər kəs ki, öldürülməsi lazım olsa elə yerdə öldürülər. Lakin şahın hərəminə təcavüz edən birinin cəzası isə göydə öldürülməkdir."

Ənuşirəvan ölənə qədər ölkə camaatından heç biri bu deyimin mənasının nə olduğunu bilmədi.

Yer üzündə şahlar kimi insanlar yoxdur ki, düşmənçilik və kin-küdurət qarşılığında illərlə dözüm göstərsin və uzun bir müddət ərzində səbr və hövsələli olsunlar. Ona görə onların xüsusiyyətləri ilə heç nəyi müqayisə etmək olmaz, əks təqdirdə batil hesab edilər. Hər halda ağıllı və təcrübəli insanlar biliblər ki, o xüsusiyyətlərə və əxlaqa əsasən davranmalı, öz tərəfdarlarını o metodla uyğunlaşdırmalıdırlar ki, əməllərində nizam -intizam olsun.

Əməvi hökmdarı Əbdülməlik ibn Mərvanın (646-705) vali Əmr ibn Səid əl-Əşdəqlə (vəfat ili: 689) rəftarı barədə bir hekayə nəql olunur. Bildirilir ki, Əbdül-Məlik bir neçə il əl-Əşdəqlə keçindi, dəfələrlə onu qətlə yetirmək istədi, amma təxirə salırdı və nəhayət sonda onu ən faciəvi şəkildə qətlə yetirdi.

## Harun ər-Rəşid və Bərməkilər[61]

Mədinə üzrə vali olmuş Qəsəm ibn Cəfər ibn Süleyman mənə dedi:

"Məsrur Xadim bildirdi: Allah şahiddir ki, Mən Harun ər-Rəşidlə birgə idim. O qədər ona yaxın idim ki, libasım onun libasına dəyirdi. Həmin zaman o Kəbənin pərdəsindən tutaraq sallanmış və dua edərək deyirdi: İlahi (Bərməki) Cəfər ibn Yəhyanın öldürülməsi haqda mənə bir yol göstər!"

O bu duanı etdikdən beş ya altı il sonra onu öldürdü.

## Şahın namusuna hörmətlə yanaşmaq

Şahların hüquqlarından biri də budur ki, onun məclisinin nədimləri və yaxınları şahın möhtərəm bildiyi müqəddəslərinə və onun namusuna göz dikməsinlər. İstər əhəmiyyəti az olsun ya çox, istər kiçik olsun istər böyük. Fillərin ayağının altında qalıb, əzilənlər və bağırsaqları çölə çıxanlar az olmayıb. Həmçinin yırtıcılar tərəfindən parçalanan və sümükləri sındırılan əziz və hörmətli insanlar az olmayıb. Öz ailəsində əziz olan, onlardan hörmət görən, sonra isə balıqlara və quşlara yem olan xanım və kənizlər də az deyil. Eləcə də, bir çox insanlar olub ki, xidmətdən bəhrələnib, xoş qoxulu ətirlərlə ətirlənib, sonda isə səhrada düşüb qalıb və cəsədləri torpaqda itib batıb. Hamısı da pis işlərə, övliyaların hörmətini saxlamamaq, qulamların hüquqlarını tapdalamaq və qadınlara görədir. Şeytan qadınla vəsvəsə etdiyi kimi digər vasitə ilə insanı belə ələ ala bilmir. Çünki şeytan müşa-

---

[61] Bərməkilər - Abbasilərin vəzirləri, tanınmış Fars soylarından biri. Bərməkilər öz soyadlarını Bərməkdən alıblar. Bərməkilər Abbasi xəlifələrinin zamanında Bərməkilər sülaləsindən olan vəzirlər Harun ər-Rəşid (786-809) xəlifə olanda Yəhya ibn Xalid əl-Bərməkiyi vəzir təyin etdi. Bərməkilər Abbasilər xilafətində 17 ildən artıq vəzirlik etdilər. Xəlifə Harun ər-Rəşidin vəziri olmuş Cəfər Bərməkidir, hansı ki adına məşhur "Min bir gecə" nağıllarında təsadüf edirik. Xızı mahalının əhalisinin tərkibi xuzi dilli bərməkilərdən ibarət idi.

hidə edir, görür ki, insan çölə çıxmış, batmış ətə və bədən üzvlərinə meyli var. Bu ən yaxşı yoldur və onunla hiylələrini işə sala bilər. Bu yolla o, insanın azdırılması arzusuna çatır. Bu yol ən incə və hiss edilməyən tələ və ən gözəl surətdir ki, insanın qarşısında cilvələndirilir və zinətləndirilir.

Müdrik və aqil insan sağ qalıb, yaşamaq istəyirsə, gözəl abu-hava ilə tənəffüs alıb, saf qandan bəhrələnmək istəyirsə, həyatının davamiyyətini əlçatan vasitələrlə təmin etsin. İnsan canının, sağlamlığının qorunması və fiziki ehtiyaclarının aradan qaldırılması üçün iki iş görməlidir. Biri sağlamlığına səbəb olan addımları atmaq, digəri isə onun fiziki və mənəvi baxımdan həlaka və bəlaya aparan işlərdən çəkinmək. Bunu istəyən xəyanətə, pis işə və alçaqlığa meyl etməməlidir. Çünki bu sağlamlıq ola bilməz. Bunu ancaq qiyamət gününün peşmançılığı və əfsusu adlandırmaq olar.

O qədər pis və çirkin işlər olub ki, onların üstünün açılması üçün uzun zaman keçib və o işlə xoşhal və nikbin olan adamı sonda məhv edib. O dərəcədə ki bu dünyada sanki, belə birisi olmayıb.

**Şahın hüzurunda bədən hərəkətləri**

Şahın hüquqlarından biri də budur ki, əgər bir şəxslə ünsiyyət bağlasa və ya kimləsə danışıb-gülsə, zarafatlaşıb-əylənsə, yaxud da öz sirlərindən ona desə və onu hakim sülalənin digər adamlarından üstün tutsa, belə olan halda şahın hüzuruna başqa biri gələndə də bu şəxs ədəbə riayət edib, özünü ciddi aparmalı, daxil olan şəxsə hörmət etməli, şahlıq məqamına hörmət etməli, başını aşağı salmalı, gözünü şahın üzünə zilləməməli, şah güləndə gülməməlidir. Əgər şah bir məsələ barədə təəccübünü bildirsə, onun yaxını bunu təkrar etməsin. Şaha yaxın olan şəxsin vəzifəsi bundan ibarətdir ki, başını aşağı salıb, qulaq assın və hərəkətsiz olsun.

Şahın hüququndan digəri budur ki, kimsə onun hüzurunda səsini yüksəltməsin. Çünki Şaha hörmət və təzim bunu tələb edir ki, qarşısındakı və məclisindəki şəxs astadan danışsın. Bu hər bir şahın layiq olduğu məsələdir.

Aləmlərin rəbbi Peyğəmbərin (Allahın salamı ona və ailəsinə olsun) səhabələrinə ədəbi belə təlim edib. Aləmlərin rəbbindən göstəriş gəldi ki, Peyğəmbərin hüzurunda səsinizi ucaltmayın;

"Ey iman gətirənlər! Səsinizi Peyğəmbərin səsindən artıq qaldırmayın və bir-birinizlə ucadan danışdığınız kimi onunla ucadan danışmayın! Yoxsa, özünüz də bilmədən, əməlləriniz puç olar."[62]

Aləmlərin rəbbi bu xəbəri verərək bildirdi ki, səsini Peyğəmbərin səsindən yuxarı yüksəldən biri ona əziyyət vermiş sayılır. Ona əziyyət verən, Allahı qəzəbləndirir və Allahı qəzəbləndirənin yaxşı əməli puç olur.

Bir dəfə Bəni-Təmim qəbiləsinin avara və səfeh adamları Peyğəmbərlə görüşməyə gəldilər və qışqırmağa başladılar: Ey Məhəmməd evindən çıx çölə və bizim yanımıza gəl, söhbət edək!

Bu əməl Peyğəmbəri narahat etdi və onların ədəbsiz hərəkətindən incidi. Mütəal Allah bu ayəni nazil etdi;

"(Ya Peyğəmbər!) Şübhəsiz ki, səni otaqların arxasından çağıranların çoxusunun ağlı kəsmir!"[63]

Aləmlərin rəbbi bu ayədən sonra Peyğəmbərin hüzurunda səsini azaldan şəxsi mədh etdi və buyurdu:

"Həqiqətən, Allahın Peyğəmbəri yanında astadan danışanlar (səslərini asta çıxardanlar) o kimsələrdir ki, Allah onların ürəklərini təqva üçün imtahana çəkmişdir (möminliyə layiq etmişdir). Onları (günahlardan) bağışlanma və böyük mükafat (Cənnət) gözləyir!"[64]

Elə isə şaha təzim və ehtiram etməyin şərtlərindən biri də budur ki, onun hüzurunda astadan danışmaq lazımdır. Hətta şah artıq məclisi tərk etmiş olsa belə. Bu ona görədir ki, şaha aid məsələlərdə istər kiçik olsun ya böyük, hər hansı bir nöqsan baş verməməlidir.

---

[62] Qurani-Kərim, Hücurat, 2
[63] Qurani-Kərim, Hücurat, 4
[64] Qurani-Kərim, Hücurat, 3

## Əgər şah məclisdə olmazsa

Əcəm şahları deyirdilər ki, şahın olmadığı məclis, ehtiram və ədəb-ərkanı qorumaq baxımından hazır olduğu məclislə eynidir.

Bu şahların sanki məclislərində gözləri və izləyiciləri var idi. Bu göz və gözətçilər onlar olmayanda məclislə maraqlanırdılar. Ona görə məclisdə olanlar ani hərəkətdə, söz deməkdə, işarə etməkdə, yaxşı söz deməkdə, ədəb-ərkanda və hətta nəfəs almaqda şahın hüzurunda olduğu kimi rəftar edirdilər. Belə birini bir üzlü adlandırırdılar. Amma şah olmayanda əxlaq və rəftarını dəyişənləri ikiüzlü adlandırır, saxtakar, riyakar və nöqsanlı insan deyirdilər.

## Mükafatlandırmaq adət-ənənəsi

Şahın adətlərindən biri də budur ki, onu xoşhal edəni mükafatlandırsın və xələt versin. İstər şəxsən şahın özünü xoşhal etsin və ya ölkəyə xidmətlə bağlı sevindirsin. Əgər şəxsən şahın özü xoşhal edilibsə, belə olan halda mükafatlandırma şahın sarayında, saray əhlinin, tərəfdarların və xüsusi adamların qarşısında həyata keçirilsin.

Əgər ölkəyə xidmətlə bağlıdırsa onda mükafatlandırma xalqın qarşısında olmalıdır ki, həmin şəxs yaxşı ada layiq görülsün, mükafatlandırmada niyyətlər yaxşı olsun, insanlar ölkənin və dövlətin təməllərinin möhkəmləndirilməsi üçün rəğbətli olmalı və təşviq edilməlidirlər.

Belə bir şəxsə təkcə xələt vermək ədalətdən deyil. Təbii ki, əgər xələt və hədiyyə şahın süfrəsinə oturmaq və onunla həmsöhbət olmaqdırsa bu başqa məsələ. Amma yuxarıda deyildiyi kimi iki haldan biri olsa, ədalət bunu tələb edir ki, xidmət göstərənə təkcə xələt deyil, bununla yanaşı ona ənam, aylıq və ya bir vilayətin rəhbərliyi, bir ərazi vermək, aylıq əmtiələrlə təmin etmək, əsir və məhbusu azad etmək, qan pulunu öhdəyə almaq, borcunu ödəmək və ya digər hər hansı bir yaxşılıq ki onun nəsibi ola bilər.

# DÖRDÜNCÜ FƏSİL

## Şahın nədimlərinin xüsusiyyətləri

Şahın nədimi gərək mülayim və orta təbiətli, əxlaqi və fiziki baxımdan sağlam olsun. Bu şəxs o qədər sağlam olmalıdır ki, bədənində öd problemi onu çox hərəkətə vadar etməsin, öskürək və boğazdan gələn bəlğəm onu girinc etməsin, sidik, ağız suyu və əsnəmək əndazədən çox olmamalı, yuxulayan və çoxyatan olmamalıdır. Beyindəki qara maddə onu çox yormamalı, problemlərlə bağlı fikri-zikrini artırmamalı, arzuları uzun-uzadı və xamxəyallı olmamalı, təbiəti və məzacı[65] xarab olmamalıdır. Amma qanlı məzaclı (sanqvinik) bu hallarda məzəmmət edilmir. Çünki

---

[65] Dörd məzac; İnsan orqanizmində dörd maye hərəkət edir: qan (sanguis), sarı öd (chole), selik (phlegma) və qara öd (melanos chole). Mayelər insan bədənində əlverişli nisbətdə olan zaman, insanın məzacı mötədil (tarazlı), əks halda isə qeyri-mötədil sayılır. Bu nəzəriyyəni Qədim Roma alimi Qalen (I əsr) daha da inkişaf etdirmişdir. Dörd mayedən biri üstünlük təşkil edir. Ona görə də insanları dörd məzaca (yunanca - temperamentə) bölürdülər. Orqanizmində qanı çox olanı - sanqvinik , ödü çox olanı - xolerik, seliki çox olanı – fleqmatik və qara ödü çox olanı – melanxolik adlandırırdılar. Azərbaycanca bu temperamentləri (məzacları) müvafiq olaraq qanlı, ödlü, selikli və qara ödlü adlandırmaq olar. Əski Azərbaycan qaynağında, anatomiya üzrə “Risaleyi-tibb” əsərində deyilir: "Bil ki, Allah-təala insanı dünyanın ən şərəfli məxluqu olaraq qandan, selikdən, öddən və qara öddən yaratmışdır... Onlar da öz növbəsində dörd ünsürdən - su, od, hava və torpaqdan - ibarətdir”. Bu nəzəriyyəyə əsasən müxtəlif məzaca malik insanlar fiziki quruluşuna və xasiyyətinə görə də bir-birindən fərqlənirlər. Sanqvinik normal xasiyyətli olur (tez aktivləşir və tez sakitləşir), xolerik çılğın və əsəbidir (tez aktivləşir və gec sakitləşir), fleqmatik passivdir (gec aktivləşir və tez sakitləşir), melanxolik bədbindir (gec aktivləşir və ləng sakitləşir). Mənbə: Fərid Ələkbərli. Şərq təbabətinin min bir sirri, səh.5. http://www.alakbarli.aamh.az/index.files/160.htm 2006. // "ELM" Tarix və Mədəniyyət saytı.

belə bir məzacı olan şəxsin orqanizmasının sağlamlıq üçün qana ehtiyacı var.

Şahın, onunla nədimlik etmək iftixarını əldə etmiş yol yoldaşlarının üzərindəki haqlarından biri də budur ki, bu şəxslər yolları, yolların üzərindəki yaşayış bölgələrini və onların arasındakı məsafələri yaxşı tanımalıdırlar. Onlar gərək, fərqli yollar haqda, onların üzərindəki əlamətlər və su mənbələri barədə məlumatlı olsunlar. Yolda olan zaman əsnəməməli və yuxuya dalmamalıdırlar. Öskürək və asqıraq davamlı olmamalıdır. Mötədil məzaclı, sağlam orqanizmalı və güclü immunitetli olmalıdırlar. Onların bəyanı xoş və sözləri şirin olmalıdır. Əyləndirməyi elə bacarmalıdır ki, gecə və gündüz şaha qısa gəlsin. Müxtəlif xalqların sərgüzəştlərini, onların əxlaq və adət-ənənələrini, dillər əzbəri olmuş atalar sözlərini, zərif və nadir şeirləri bilməlidir. Hər bir incəsənət növündən bir şeylər bilməlidir. Yaxşı və pisi bilməli, axirətdən və cənnət əhlinə veriləcək nemətlərdən danışmalıdır. O, şaha, Allahın itaət edən bəndələrə vəd etdiyi savablardan deməli, onu Allahın nemətlərinə rəğbətləndirməlidir. Həmçinin cəhənnəm atəşindən və ona sürükləyən məsələlərdən danışmalı, bir dəfə ilahi əzab barədə xəbərdarlıq etməli, digər vaxtda isə ilahi nemətlər barədə müjdə verməlidir. Şahın, belə xüsusiyyətləri olan insanlara daha çox ehtiyacı var. Əgər belə bir şəxs tapılarsa, layiqdir ki, şahın yanında olsun və şah onu əldən verməyərək, özündən uzaqlaşdırmasın. Bu o haldadır ki, xüsusiyyətləri qeyd edilən şəxs xəyanət və cinayət edib, cəzalandırılanlardan olmasın.

### Səfər və gəzinti zamanı şaha lazım olanlar

Şahın haqqı var ki, səfərə və ya gəzintiyə çıxanda geyim üçün libaslarını, mükafatlandırmalar üçün mallarını, xətakarları ədəbləndirmək və üsyankarları cəzalandırmaq üçün qırmanc və zəncirini, düşmənləri dəf etmək üçün silahını və sairi özü ilə götürsün. Bir qrup gözətçi öndən və arxadan getməlidir. Onunla ünsiyyətdə olan həmsəfəri olmalıdır ki, sirləri ona bildirsin. Ya-

nında müdrik və alim biri olmalıdır ki, baş verə biləcək hadisələrlə bağlı məsləhət alsın və ya şəriət hökmləri və adət-ənənələrlə bağlı ondan soruşsun. Həmçinin şahın başını qatacaq biri də olmalıdır ki, gecənin tez keçməsini onun üçün təmin etsin və səfəri faydalı etsin. Bütün Əcəm şahlarıının adət-ənənəsi belə idi. Ərəb şahları da bu adət-ənənəyə əməl edirlər.

## Oyun zamanı nədimlərin bəhrələndiyi hüquqlar

Şahın nədimləri və səfərdə onu müşayiət edənlər bəzən zərurətdən irəli gələrək, onunla eyni hüquqlu olurlar. Bu bərabərlik şaha bir nöqsan gətirmir və ya məqamını aşağı salmır. O anlardan biri də çövgən oyunu, ovlamaq, atıcılıq, şahmat və buna bənzər oyunlardır.

Şahın öhdəliyində olan haqlardan biri də budur ki, dediyimiz növ oyunlarda insafı və bərabərliyi tələb edən məsələlərə mane olmasın. Oyunçunun haqqı var ki, məsələn çətin oyunlarda mübarizliyini və müqavimətini sona qədər davam etdirsin, qarşı tərəfə fürsət verməsin, bərabərliyi tələb etsin, qarşı tərəfin oyunu udmağına mane olsun, bacardığı qədər oyunda haqqını əldə etsin. Amma deyilən bu haqlar, əsassız iddialara, nalayiq rəftara gətirib çıxarmamalı, rəqabət o həddə olmamalıdır ki, şahın məqamına xələl gəlsin. Orada şahın səsindən üstün qışqırıq və fəryad çəkmək olmaz. Dişi qıcıtmaq, söyüş söymək və əndazədən kənar işləri görmək olmaz.

## Sasani şahı I Şapurun qumar oyunu

I Şapur (215-272) barədə nəql edilən hadisələrdən biri də, onun dostlarından biri ilə qeydsiz-şərtsiz qumar oynamasıdır. Uduzan udanın, öncədən müəyyən edilməyən, istənilən tələbini yerinə yetirməli idi. Şapur bu qumarda dostuna uduzur. Şah onda deyir: Ürəyin nə istəyir? Cavab verir: Sənin belinə minəcəyəm və qəsrin qarşısında camaatın keçdiyi yerə qədər məni belində aparacaqsan.

Şapur deyir: Mən səni heç tanımamışam! Əbəs yerə sənə etibar edib, dost olmuşam. Başqa bir şey istə məndən!

Şahın dostu, bundan başqa heç bir şey dilimə gəlməyəcək, deyib, durdu.

Təəssüf etməkdə olan Şapur narahat halda durdu və üzünü örtmək üçün bir örtük istədi və onu başına atdı. Daha sonra əyildi ki dostu minsin. Dostu şahlıq məqamının əzəmətini nəzərə alaraq, minmədi.

Bir il sonra Şapur göstəriş verdi ki, carçı xalqa çatdırsın ki, heç kim ürəyi istəyən və naməlum şərt əsasında qumar oyunu oynaya bilməz. Göstəriş verildi ki, bu növ qumara girən öldürüləcək.

Amma oyunda rəqabət aparmaq, imtiyaz əldə etmək üçün canfəşanlıq etmək, yaxud da müşairə, müdrik kəlamlarla deyişmə olarsa və ya qarşı tərəfin yaxşı oynaya bilməməsini çatdırmaq məqsədi olarsa, bunun iradı yoxdur. Bu kimi üslublarla şaha demək və onunla rəqabətə girmək olar. Amma Şapurun dostu kimi əndazədən ötüb, ədəb sərhədini keçib həddini aşarsa, belə olan halda xətakar hesab edilər və onun nadanlığa yol verdiyi deyilər. Belə bir şəxs şah qarşısında həddini aşmış hesab edilir və rəiyyətdən heç biri bu haqqa malik deyil.

Şahla çövgən oynayanın haqqı çatır ki, atını şahın atından öndə çapsın. O, oyunda olan haqqının əlindən çıxmaması üçün çalışmalı, müsabiqə zamanı, onunla at çapmaq zamanı, hədəfi vurmaq və son nöqtəyə qədər qabağa keçmək məsələsində imkanı çatdıqca geridə qalmamalıdır. Qısası o oyunun bütün imtiyazlarından yararlana bilər. Hədəfə doğru atıcılıqda, ovu, təqib etməkdə, şahmat oyununda da eyni hüquqları var.

Məhəmməd ibn Həsən ibn Musəbdən eşitdim və o belə deyirdi:

“Bəni-Məxzum qəbiləsindən bir dostum var idi. O şahmatçı idi. Bir dəfə onun haqda Abbasilərin ordu sərkərdəsi və Xorasan üzrə valisi olan Əbul-Abbas Abdullah bin Tahirə (790-840) danışdım. Əmir dedi: Onu hüzuruma gətir! Mən Məxzumi qəbiləsindən olan dostuma dedim ki, Əbul-Abbasla görüşə hazır ol!. Dostum şair və ədib idi. Səhər onu Əbul-Abbasın hüzuruna apardım. Qəsrə girəndə Abul-Abbas uzaqdan ona baxan kimi,

onunla danışmadan, məclisdən çıxdı və mənə dedi: Bu şair və ədibdir, onu yenidən sabah bura gətir və mənim hüzurumda onunla şahmat oyna, qoy mən onu sınağa çəkim. Əbul-Abbas mənə dedi ki, oyun zamanı onunla o qədər zarafat edim ki, əsəbləşib, əndazəsini aşsın. O dərəcədə ki, söyüşə keçsin. Biz oyuna başlayanda ona ilk taktiki zərbəni vurub dedim: Al bu da sənə (Xorasanın) Puşəng şəhərinin qulamı tərəfindən bir zərbə!. Amma o sakit və təmkinli idi. Oyunda daha bir zərbəni ona endirib, dedim: Al bu da sənə Məxzum qəbiləsinin başçısı tərəfindən zərbə!. O yenə sakit idi. Üçüncü zərbəni vuranda ona dedim: Ey Məxzumun oğlu! Al, bu da Məxzumun filan yerinə olsun!. Yenə dinmədi.

Bu zaman Əbul-Abbasın məclisinin xüsusi adamlarından olan Əbdül-Məlik ibn Salehin ailə üzvlərindən birinin daxil olması üçün izn istənildi. Bu şəxsə daxil olmaq izni verildi. Haşimi qəbiləsindən olan bu şəxs əmirin hüzuruna daxil olub oturdu. Şahmatçı Məxzumi mənə üzünü tutub dedi: Sənin şərəfin yoxdur və o qədər hörmətin yoxdur ki, səninlə öyünə bilim. Sən Puşəng bölgəsindən olan birisən ki, bir dirhəmə də dəyməzsən. Amma bax bu Haşimiyə deyə bilərsən ki mənimlə yoldaş olmaqla öyünsün. Sən kimsən ki, səninlə yoldaşlıq etməyə görə öyünüm?!

Əmir Əbul-Abbas bunu eşidib, güldü, o dərəcədə ki, ayağını yerə çırpırdı. Əmir əmr verdi ki, o Məxzumu Şahmatçıya 500 dinar versinlər. Əmir onu yaxınlarından biri kimi qəbul etdi və onunla ünsiyyət yaratdı.

### Şah yuxuya gedən zaman nədimlər nə etməlidirlər?

Şahın nədimlər üzərində olan haqlarından biri də budur ki, onu yuxu aparарsa, məclisdə olanların hamısı kiçik olsun ya böyük, sakitcə və dinməz durub oranı tərk etsinlər. Amma məclisə yaxın olmalıdırlar ki, şah oyananda ətrafda olsunlar. Onlardan heç biri, şah oyanarsa məni çağırmaz, deyə düşünməsin. Onlardan heç biri belə düşünməsin ki, şahın yuxusu uzun çəkəcək və

ya yatar, ayılandan sonra başqa bir işi olar. Belə düşünmək böyük xəta hesab edilir.

Şahlardan bəzisi sırf bu kimi səhvlərə görə kimlərisə qətlə yetiriblər.

Məlumdur ki, aqil və bilikli biri özünü şahın iradına tuş gətirərsə və ya özünə qarşı şahın əlinə bəhanə vermiş olarsa bu adama uzaqgörən deməzlər. Hətta etdiyi xətadan sonra şahın comərdliyi və seçilmiş xüsusiyyətlərinə görə danlaqdan və ədalətin icra edilməsindən qurtula bilərsə, yenə də baş vermiş bu nadanlıq və həddini aşmaq şahın ürəyində qalacaq. Şah o şəxsin kinəsini ürəyində saxlayacaq. Yerinə düşər ki, ədalət belə bir şəxs barədə icra edilsin və məsələ danlaqsız qalmasın.

### Namazda şahın pişnamaz olması

(Ədalətli) Şah namaza qatılarsa haqqı çatır ki, pişnamaz və imam olsun. Bu bir sıra xüsusiyyətlərə görədir; Birinci budur ki, o xalqın rəhbəridir. Xalqın fərdləri ona tabedirlər. İkinci budur ki, o sərkərdə və ordu başçısıdır, xalq isə rəiyyətdir. Üçüncüsü o, sarayındadır və öz evində digərlərindən üstündür, Allahın bəndələrinin ən zahidi və ən əməl əhli olanı məclisə gəlsə belə.

Şah namaza duranda adət budur ki, onunla arxadakı namaz qılanlar arasında 10 zira (təqribən 5 metr) məsafə olsun[66]. Təkbir deyəndə, rükuda, səcdələrdə və namazın qiyamında kimsə ondan önə keçməməlidir.

Önə keçməmək kimi məsələlər bütün pişnamazlarla bağlı vacibdir, tanınmış olsun ya tanınmamış, əyanlardan olsun və aşağı rütbəli olsun. Amma bu məsələlər şahla bağlı olanda yerinə yetirilməsi daha vacib olacaq.

---

[66] Camaat namazında imamla məmum arasında fasilə barədə fərqli nəzərlər mövcuddur. Əksər əhli-sünnə fiqh məzhəbləri məsafənin önəm kəsb etmədiyini bildirirlər. Lakin Cəfəri fiqhində bu məsafənin iki ziradan, yəni bir addımdan çox olmasının camaat namazına xələl gətirdiyini bildirirlər. (Seyid Əli Sistani, Təvzihul-Məsail Came, Məsələ-1710)

Şah namazın salamını verib, onu bitirəndə, gərək ona iqtida edənlər ayağa qalxsınlar. Çünki belə anlarda iqtida edənlər, şahın nafilə namazı qılacağını, ailəsinin yanına gedəcəyini və yaxud da elə məclisdə qalacağını bilə bilməzlər. Əgər şah nafilə namazına başlasa camaat ona qoşulmağa məcbur deyillər. Bu kimi anda da arxadakı insanlar şahın qeyri-vacib olan nafilə namazını hansı sürətlə qılacağını bilmir və namazın ortasında bir iş çıxarsa onun namazı yarıda qoyub gedəcəyini də təxmin edə bilməzlər. Bundan savayı şah nafilə namazını arxadakılardan daha tez bitirə bilər və belə olan halda şah oturmuş onlar isə arxada ayaq üstə namaz halında ola bilərlər. Hər halda arxadakılar gərək vacib və fərz namazları bitəndə ayaq üstə olsunlar və şahın sonra nə edəcəyindən əmin olsunlar. Əgər namazdan sonra şahın oturduğunu görsələr, tədricən o hiss etmədən gözdən itsinlər və sonra nafilə namazlarını qıla bilərlər. Əgər şahın yenidən namaza başladığını görsələr, olduqları yerdə dayanıb namaza başlaya bilərlər.

### Şahla gəzintinin və onu müşayiət etməyin qaydası

Bundan öncə dedik ki, kimsə şahdan icazəsiz onunla müşayiətə və gəzintiyə çıxmamalı və ondan önə keçməməlidir. Baxmayaraq ki, şahla gəzintiyə çıxan şəxs şan-şöhrət baxımından tələb edilən məqama layiqdir. Belə bir şəxs şahı müşayiət etmək istəyirsə, olduğu yerdə dursun ki şah onu görsün və əgər şah işarə etsə, önə gəlsin və şahla yanaşı at sürsün. Əgər dəvət almasa və işarə edilməsə, bilməlidir ki, ona yaxınlaşmağa hələ icazə yoxdur.

Şahı müşayiət etməyin qayda və adətlərindən biri budur ki, şəxsin paltarı şahın libasına dəyməməli, miniyi şahın miniyinə yaxın olmamalıdır. Ehtiyatlı və diqqətli olmalıdır ki, atının başı şahın atının yəhəri ilə bərabər olsun və önə keçməsin. Həmişə diqqətinin şahda olması hökmən deyil. Söhbəti ilk başladan olmamalı və sözlərində də şahı önə keçməməlidir.

Əgər şəxs atını ram edəcəyindən xatircəm olmayacaqsa və onun yüyənini tutub idarə edə bilməyəcəksə, istədiyi zamanda, is-

tədiyi istiqamətdə sürə biləcəyindən əmin olmazsa, onda yaxşı olar ki, elə əvvəldən şahla at sürməkdən imtina etsin. Çünki belə bir at sürməkdə və müşayiətdə ona və şaha irad gələr. Belə anlarda gərgin hərəkətlər olacaq, özünü də yoracaq, miniyini də. Belə olan halda ədəb-ərkan və nizam-intizam qaydalarından da kənar çıxa bilər. O bu vəziyyətdə istədiyinə də nail ola bilməyəcək.

Amma qeyd edilən vəziyyətin şaha ziyanı budur ki, bu halət məmləkətin idarəçiliyi işinə də xələl gətirər. Çünki müşayiət zamanı şah geridə qalanın miniyini səbr edib, gözləməyə məcbur qalarsa, doğru olmaz. Məmləkətin idarəçiliyində belə şey yoxdur ki, rəhbər özündən aşağısının addımlarını gözləməli olsun.

Buna görə Sasani dövründə böyüklər, sərkərdələr, katiblər, rahiblər və digər xüsusi və yaxın adamlar şahla birgə ova, gəzintiyə və ya digər bir məqsədə doğru gedəndə əvvəl atlarını şahın heyvanlarına baxan şəxsə göstərərdilər. Çünki şah onların hər birini at sürmək və ya bir söz demək üçün yanına çağıra bilər. Bu anda ata görə geridə qala bilər, ya at hürkə, sürüşə və ya ram edilməsi mümkün olmaya bilər ki, nəticədə əziyyət verə və problem yarada bilər. Belə olan halda şahın pisinə gələ və o şəxs üçün də yaxşı nəticələnməyə bilər. Ona görə onlar miniklərini heyvanlara baxan şəxsə göstərər, atlara təlim keçər, bəyəndiklərini şahın həmin yaxın adamlarına verərdilər. Minik üçün yararlı olmayan atlardan isə imtina edərdilər.

Həmçinin riayət edilməsi vacib olan qaydalardan biri də budur ki, şahı müşayiət edənin atı gərək, həmin zaman (davamlı) sidiyə və peyinə çıxmasın, kişnəməsin, şahın atına yanaşmasın və ya öndəki atların belinə qalxmasın. Əgər heyvan bunu etmək istəyərsə gərək qarşısı alınsın.

### Hakimin Sasani şahı I Qubadı müşayiət etməsi

Əcəmlərin şahları haqda nəql olunur ki, bir gün I Qubad (473-531) hakimlə birgə at sürürdü. Birdən hakimin atı peyinə çıxdı. Şah bunu gördü və hakim də narahat oldu.

Qubad söhbət əsnasında hakimdən soruşdu: Bir adamın ağılsızlığına dəlalət edən başlıca məsələ nədir? Hakim cavab verdi: O adamdır ki, sabahısı gün əlahəzrətlə at sürəcək olduğu halda gecədən atına ot və arpa verə.

Qubad elə güldü ki, arxa dişləri də göründü. O dedi: Necə də alim və ağıllısan! Atın gördüyü işi elə gözəl sözlərlə ifadə etdin ki...! Həqiqətən də şahlar səni layiq olduğuna görə önə çəkiblər və sən layiq olubsan ki, hökm vermək işini sənə həvalə ediblər.

Qubad bunu deyib dayandı və göstəriş verdi ki, şahın xüsusi atlarından birini gətirsinlər. Şah dedi: Bu xətakar heyvanın üzərindən düş, sənə ram olacaq bu heyvana min!

**Sərkərdə Şurahbilin Müaviyə ilə birgə at sürməsi**

Yuxarıdakı hadisəyə bənzərini Müaviyə və onun sərkərdəsi Şurahbil ibn əs-Samt (vəfat ili: 664) haqda da nəql edirlər. Bir dəfə Şurahbil Müaviyə ilə birgə at sürəndə onun atı peyinə çıxdı. Müaviyə bunu gördü. Atın bu işi Şurahbili narahat etdi. Şurahbil hündür boylu və başı yekə biri idi. Müaviyə ona dedi: Deyirlər ki, başın yekəliyi beynin böyüklüyünə və ağıla dəlalət edir!

Şurahbil cavab verdi: Bəli ey möminlərin əmiri!, amma bu mənə aid deyil. Çünki başım yekə, amma ağlım azdır.

Müaviyə güldü və bu sözün səbəbini soruşdu:

Şurahbil dedi: Çünki mən, anasının belinə qalxan bu heyvana dünən iki qab arpa vermişəm.

Müaviyə gülüb dedi: Görürəm ki, söyüş söyürsən, halbuki belə etməzdin.

Müaviyə sonra göstəriş verdi ki, onu xilafətin miniklərindən birinə mindirsinlər.[67]

Şahlarla at sürənlər bütün səylərini göstərsinlər ki, onların gözlərinə pis gələn işlərdən çəkinsinlər. Çünki şahlarla birgə at sürməyin şərtləri var, bu şərafətə nail olmaq istəyənlər gərək, o

[67] Məhəmməd Ğənim, Məhasinul-mülük fi tarixil-xüləfai vəl-mülük səh-82-82,

şərtləri öyrənsinlər və riayət etsinlər. Onlar ehtiyatı əldən verməməlidirlər. Çox nadir hallarda olub ki, şahla at sürmək istəyən və bu iftixara nail olmaq istəyən biri, müşayiət etməyin qaydalarını və adətlərini öyrənməmiş olsun.

Amma əcəmlər şahlarla birgə at sürməyi elə də xoşlamırdılar. Onlar bunu yaxşıya yozmurdular. Şah da həmişə yaxınlarından eyni adamla at sürmürdü. Şah həmçinin əcəmlərin bu işi pisə yozduqlarını və bu işi elə də sevmədiklərini bilirdi.

### Hadi Abbasi və onun daruğası[68]

Nəql edilir ki, Mosul valisi Səid ibn Silm əmirəl-möminin Musa Hadi ilə at sürmək iftixarına nail olmuşdu. Xəliəfinin daruğası və baskakı olan Abdullah ibn Malik Xəzai də əlində qılınc öndə gedirdi. Külək öndə gedən atın ayaqları altından çıxan toz-torpağı Hadi Abbasinin üzünə çırpırdı. Amma Abdullah etdiyi bu işdən hali deyildi. Hadi Abbasi tozdan qaçmaq üçün nə qədər kənardan gedirdi, Abdullahın atı önün önü ilə gedir, toz-torpağı qaldıraraq onu əziyyətə salırdı. Bu iş davam edirdi və sonda xəlifə Hadi yoruldu və üzünü Səidə tutub dedi:

Görürsən də bu xainə görə başımıza nələr gəlir?!

Səid cavab verdi: Ey əmirəl-möminin Allaha and olsun ki, o səyini əsirgəmir, amma yenə işində müvəffəq ola bilmir.

Buna bənzər hadisəni Abdullah ibn əl-Həsən, Abbasi xəlifəsi Əbul-Abbas Səffah barədə də nəql edir:

Bir gün Əbul-Əbbas Səffah əl-Ənbar şəhərinin kənarında atla gəzirdi. Tikdirdiyi binaların birinə baxırdı. Üzünü Abdullah ibn Həsənə tutub dedi: Ey Məhəmmədin atası bu barədə nə deyə bilərsən?!

Səffahın məqsədi bu idi ki, o bir beyt şeir deyib, onları feyzyab etsin. Abdullah dedi:

---

[68] Monqol və Elxani dövlətlərində xanın işğal edilmiş ərazilərdəki nümayəndəsi. Yerli hakimlərin fəaliyyətinə nəzarət edir, vergilər toplayır, mükəlləfiyyətləri icra etdirirdilər. Ona bəzən baskak da deyilirdi.

“Məgər Bəni-Bəqilə tayfasına fayda verən o binanı inşa edən mülkədarı görmürsənmi?!

Ümid var ki, o Nuh qədər ömür etsin, halbuki Allahın ölüm hökmü hər gecə həyata keçir.”

Əbul-Abbas yarı qəzəbli halda gülüb, dedi: Əgər bilsəydim belə şeir deyəcəksən, yola çıxmağın şərtlərini sənə deyərdim.

Abdullah dedi: Ey möminlərin əmiri bu tələsgənlikdən və qocalıq yaddaşının zəifliyindəndir.

Səffah dedi: Yaxşı bunu keç, başqa şeydən de!

## Əl-Haşiminin Əbu-Muslim Xorasaniyə dediyi şeir

Mədayini bildirir ki, sərkərdə Əbu-Muslim Xorasani (718-755) xəlifə Əbu-Cəfər Mənsurla görüşməyə getmişdi. Bu həmin görüş idi ki orada öldürüldü. İsa ibn Musa onunla birgə idi və at sürürdü. İsa aşağıdakı beyti dedi:

“Keçmiş nəsilləri aradan aparan, Ad və Cərhum tayfalarına bəla nazil edən, gücdə, iftixarda və habelə ordu və idarəçilik baxımından səndən daha böyüyünə gələn, sənin sorağına da gələcək.”

Bunu eşidən Əbu-Muslim dedi: Mənə verilən möhlət və xəbərdarlıq onda budur?!

İsa cavab verdi: Əgər dediyimi sənə həsr etmiş olaramsa, malik olduğum qulların və pulların hamısını azad edib, paylayaram. Bu dediyim yalnız ona görədir ki, ani zehnimə gəldi və məqsədli şəkildə deyilmədi.

Əbu-Muslim dedi: Allaha and olsun ki, zehninə çox pis şey gəldi.

## Şahları ad və künyəsi ilə çağırmaq olmaz

Şahın hüquqlarından biri də budur ki, istər ciddi halda, istərsə də zarafat ya əyləncə zamanında o adı və künyəsilə çağırılmasın. Baxmayaraq ki, keçmiş şairlər şeirlərində şahların künyə və adını qeyd edər və bu işi icazəli bilirdilər. Əgər keçmişdə şairlər arasında belə bir adət olmasaydı, kimsənin cürəti çatmaz-

dı onları adı və künyəsilə çağırsın, yoxsa cəza və işgəncəyə məruz qalardılar.

Buna baxmayaraq Sasani şahlarının hüzurunda onların adları dilə gətirilməz, camaat onları künyələri ilə çağırmazdılar. Sasanilər dönəmində şeirlərdə, xütbələrdə və mədhlərdə də şahların ad və künyələri keçməzdi. Amma Hirə[69] şahlarının adları qeyd edilirdi.

Əgər xətiblər və şairlər öz şeir və xütbələrində şahın ya xəlifənin adını çəkərək ona xitab edirlərsə, bu nadanlığın göstəricisidir və ədəbdən də kənardır. Keçmiş şair və alimlər şahların adının çəkilməsini bizə qadağan etməyiblər. Əks təqdirdə bu addımı əsas vacib əməllərdən hesab edərdik.

Mən bilmirəm niyə qədimdəki insanlar şahın ad və künyəsini deməyi icazəli biliblər və həmçinin mən bilmirəm niyə şahlar bu işi icazəli bilib, onunla razılaşıblar?! Çünki şahların məqamı həmişə bu məsələdə və buna bənzər halətlərdə üstün olub.[70]

Bədəvi ərəblər malik olduqları kobudluqlarına görə, Məhəmməd Peyğəmbərin yanına gələndə, onu ad və künyəsilə çağırardılar. Amma səhabələr onu Allahın elçisi, Allahın peyğəmbəri deyə çağırardılar. İslam xəlifələrinin hüquqları bunu tələb edir ki, xitab zamanı onları “Xəlifətullah”[71], “Əminullah” və ya “Əmirəl-möminin” deyə çağıraq.

---

[69] İraqda hazırki Nəcəf şəhəri yaxınlığında olmuş tarixi şəhər, Sasanilər dönəmində bölgənin ən məhsuldar, əkinçiliyin inkişaf etdiyi və heyvandarlıq üçün yararlı olan bölgə.

[70] Müsəlman xəlifələri arasında ilk dəfə Əməvi xəlifəsi Vəlid ibn Əbdül-Məlik qeyd edilən məsələ ilə bağlı göstəriş verdi. O, göstəriş verdi ki, şahlar və xəlifələr ad və künyələrilə xitab edilməməlidirlər. Amma Əbdülməlikdən qabağ müsəlman şairləri xəlifənin adını çəksələr də onun ailəsi, bacı, ana, həyat yoldaşı, qızı və sair məhrəmlərini adla çağırmaz və qeyd etməzdilər. (əl-Əğani, cild 5, səh 174)

[71] Birinci xəlifə Əbu-Bəkr ibn Əbu-Quhafə özünü Peyğəmbərin xəlifəsi adlandırmağa razı olmazdı, qalmışdı ki, “Allahın xəlifəsi” adı olsun. – (Lisanul-Ərəb, c 10, səh 437)

## Şahla digərinin adı bənzəyərsə

Şahın hüquqlarından biri də budur ki, hüzuruna daxil olan şəxsin adı, şahın adı ya xüsusiyyətlərindən birilə eyni olsa, bu zamanda şah onun adını soruşsa, atasının adı və ya künyəsilə özünü tanıtdırsın. Necə ki, Səid ibn Murrə əl-Kindi də Müaviyənin hüzuruna daxil olanda belə etdi; Müaviyə ona dedi: Səid (hərfi tərcüməsi: Xoşbəxt) sənsən? Cavab verdi: Xeyr Səid möminlərin əmiridir, mən İbni-Murrəyəm.

Həmçinin Seyyid ibn Ənəs əl-Əzdi də Abbasi xəlifəsi Məmunun hüzuruna daxil olanda xəlifə ona dedi: Seyyid (ağa) sənsən? Cavab verdi: Xeyr Seyyid mən deyiləm, möminlərin əmiridir, mən İbni-Ənəsəm.

Peyğəmbərin əmisi Abbas ibn Əbdül-Müttəlib haqda da oxşar hadisə nəql olunur; Ona deyirdi: Sən böyüksən yoxsa Peyğəmbər? Cavab verdi: O, məndən böyükdür və mən ondan öncə doğulmuşam.

Məgər Abbas ibn Əbdül-Müttəlibi görmürsən (Allah ona rəhmət eləsin) necə ədəb-ərkana riayət edir?! Bax bu minvalla şahları xitab etmək lazımdır. Çünki onlara xitab etməklə adi insanları xitab etmək fərqli məsələlərdir. Ərdəşir bin Babəkan da digər şahlara nəsihətnaməsində belə tövsiyələr vermişdi.

## Paytaxt və sarayda bu işlər yalnız şaha məxsusdur

Şahın haqqı çatır ki, paytaxtında və sarayında bu üç məsələdə tək olsun. Bu üç məsələdə heç kim onunla birgə olmamalıdır. Biri hicamət etmək, ikinci qan almaq, üçüncü isə dərman qəbul etmək. Şahın xüsusi adamları və paytaxtın adi adamlarının heç biri, şah bu üçündən birini edən gün, həmin işi görməməlidir. Əcəm şahları belə bir işi şahla eyni zamanda görməyi qadağan etmiş və riayət etməyəni cəzalandırırdılar. Onlar deyirdilər: Əgər şah qan alarsa, həmin gün heç kimin qan almaq haqqı yoxdur. Onlar bu gündə şahla bərabər ola bilməzlər. Xüsusi adamlar və camaatın digər fərdləri də gərək, şahın vəziyyətindən xəbər-

dar olsunlar, onun sağlamlığı üçün dua etsinlər, müalicəsinin nəticəsini və sağalıb, sağalmadığını diqqətdə saxlasınlar.

Şaha itaətkarlığında və xoş niyyətli olmasında şək-şübhə olmayan bir adamın bu və bənzər işlərdə şaha təqlid etməsi çabası da yersiz işdir. Çünki belə bir adamın şaha təqlid etmək çabası, əslində şahı və məmləkəti aşağılamaqdır.

Bir sıra işləri şahla birgə həyata keçirən şəxs, əgər həmin işləri təxirə sala bilərdisə və ya onun üçün başqa vaxt tapa bilərdisə, amma etməyibsə, deməli belə birisi asidir və məmləkətin qayda-qanununu pozub.

Deyilir ki, Ənuşirəvan Xosrov çox vaxt şənbə günü qanını alırdı. Hər şənbə səhər carçı qışqıraraq deyirdi: Ey itaətkar camaat gərək yadınızdan çıxarmayasız ki, bu gün qan almamalısız! Ey hicamət edənlər, bu gün özünüzü ailənizə və paltarlarınızı yumağa həsr edin!

Şah hicamət edəndə və dərman içəndə də belə addım atılırdı.

### Şaha dua etmək və başsağlığı vermək

Şah asqıranda kimsə ona dua etməzdi. O dua edəndə kimsə amin deməzdi. Əcəm şahları deyərdilər: "Əməli yaxşı olan hökmdara yaraşan budur ki, Allah dərgahında rəiyyəti üçün dua və ibadət etsin. Amma rəiyyətin, saleh əməlli şah üçün dua etmələri də zəruri deyil. Çünki Allahın dərgahına ən yaxın dua və namaz ədalətli şahların dua və namazıdır."

Deyilir ki, şahların hüquqlarından biri də bu idi ki, onun yaxınları, tərəfdarları, qulamları, ailə üzvləri və qohumları müsibət baş verəndə ona başsağlığı verməzdilər. Çünki başsağlığı məclisdə hazır olana deyil, uzaqda olana verilir. Yaxud da başsağlığı o adam verə bilər ki, güc, iqtidar, hörmət və məqam baxımından şah və ya ona yaxın rütbəyə malik olmuş olsun. Bu səviyyədə olmayanlar və ya bundan aşağıda olanların başsağlığı verməsi qəti qadağan olunurdu.

Əməvi hökmdarı Əbdülməlik ibn Mərvan (646-705) haqda da nəql olunur ki, onun kiçik övladı vəfat etmişdi və oğlu Vəlid

gəlib ona başsağlığı verdi. Əbdülməlik dedi: Oğul!, səndə gördüyüm bu müsibət, sənin ölən qardaşına görə düşdüyüm müsibətdən daha böyükdür və sən harda görmüsən ki, oğul ataya başsalığı versin?!

Vəlid dedi: Ey möminlərin əmiri anam mənə belə göstəriş verib.

Əbdülməlik cavab verdi: Mənim müsibətimə dözmək daha asandır. Canıma and olsun ki, sənin düşdüyün bu müsibət qadınlarla məsləhət-məşvərət etdiyinə görədir.

### Şahın qəzəb və razılığı

Şahın tez qəzəblənməsi və hirsinin gec soyuması onun xüsusiyyətidir. Tez qəzəblənməsi buna görədir ki, şah, rəiyyətin göstərişlərə itaət etməsinə adət edib. Şah hakimiyyəti dövründə rəiyyətin itaətkarlığı barədə qulağına pis xəbər gəlməyib. Əgər onun nəfsi qeyd edilən daimi iqtidara və gücə adət edibsə, bu onun ayrılmaz xüsusiyyətinə çevriləcək. Belə ki, nəfsin adət etdiyinin əksini göstərən şey baş verərsə sürətlə özündən çıxar, qəzəblənər və əvvəlki məqamı və vəziyyətini bərpa etməyə çalışar.

Amma şahın razı qalması və güzəştə getməsi tez başa gələn deyil. Gec əldə edilir. Çünki onun nəfsi və xüsusiyyəti ona mane olur. Güzəşt elə bir şeydir ki, onda bir növ təvazökarlıq var ki, şahlar onu bəyənməzlər. Ümumiyyətlə tez razı olmaq adi camaatın xüsusiyyətidir, şahın deyil.

Abbasi xəlifəsi Əbul-Əbbas Səffah haqda nəql olunur ki, o bir gün, adını unutduğum bir adamına qəzəblənir. Gecələrin birində dastan danışanlardan biri həmin adamın adını onun yanında çəkir və sonra deyir: Ey möminlərin əmiri, o adamın ən qatı düşmənini görsəniz yəqin rəhm edərsiniz və ürəyiniz ona yanar.

Səffah soruşur: Nə üçün? Cavab verir: Ona görə ki, qəzəbiniz o adamı tutub.

Əbul-Əbbas Səffah deyir: Yox artıq! Onun günahı bu qədər də cəzalandırmağa gətirib çıxarmaz.

Səffahın yanındakı şəxs deyir: Ey möminlərin əmiri, elə isə ona minnət qoyaraq əfv edin!

Əbul-Əbbas Səffah deyir: Xeyr onu əfv etməyin zamanı hələ çatmayıb.

Səffahın yanındakı şəxs yenidən xəlifəyə xitabən deyir: Bilirsiz ey möminlərin əmiri gördüm ki, onun günahını kiçiltmək və görməzdən gəlmək istəyirsiz, ona görə mən də əfv edilməsini istədim.

Bunu eşidən Səffah deyir: Bir adamın qəzəbə tuş gəlməsilə əfv edilməsi arasında uzun müddət olmasa bağışlanmağa layiq deyil.

Şahların xüsusiyyəti, rəftar və kirdarı belə olub.

Həmçinin Haruş ər-Rəşidin, daruğası və baskakı olan Abdullah ibn Malik Xəzaiyə qəzəblənməsi də belə oldu və xəlifə onunla da belə rəftar etdi. Harun ər-Rəşid göstəriş verdi ki, bütün ailə üzvləri, ardıcılları və qohumları ondan uzaqlaşsınlar və onunla danışmasınlar. Heç kim ona yaxınlaşmadı və onun yanına getmirdi. Ta ki bir gün özəl dostlarından olan Məhəmməd ibn İbrahim Haşimi gecə yarısı dostunun görüşünə getdi. Haşimi ona dedi: Ey Əbul-Abbas, sən mənə elə yaxşılıqlar etmisən ki, onu yaddan çıxara bilmərəm. Mənə elə yaxşılıqlar etmisən ki inkar etmək mümkün deyil. Möminlərin əmirinin sənin haqda verdiyi göstəriş barədə də məlumatım var. Buna baxmayaraq, sənin ixtiyarındayam, sənin qarşında durub, nə göstərişin varsa eşitmək istəyirəm. Allaha and içirəm ki, canımı sənin üçün sipər edib, onu sənin yolunda çətinliyə və problemə salmağa hazıram.

Abdullah ona təşəkkür etdi və əmirəl-mömininin qəzəblənməsinin səbəbini açıqladı. Məhəmməd söz verdi ki, bu məsələ ilə bağlı möminlərin əmiri ilə danışsın və onun əfv edilməsini istəsin.

Elə səhər açılar-açılmaz, əmirəl-möminin qasidi gəldi və Məhəmmədi xəlifənin hüzuruna çağırdı. Məhəmməd miniyinə minib yola düşdü. Xəlifənin hüzuruna daxil olanda Harun ər-Rəşid soruşdu: Bu gecə harda idin və hardan gəlirsən?

Cavab verdi: Möminlərin əmirinin qulu Abdullah ibn Malikin yanından. Ey möminlərin əmiri artıq o qadınlarını boşamaq,

qullarını azad etmək, öz əmlakını sədəqə vermək barədə and içib və 20 dəfə ayaqyalın Allahın evinə getmək nəzrini boyun almaq və möminlərin əmirinin hakimiyyətindən çıxmaq istəyir. Əgər həqiqətən də Abdullah haqda möminlərin əmirinin qulağına çatan məsələni Allah eşidibsə (əgər deyibsə hökmən eşidib, çünki Allah hər şeyi eşidən və biləndir) və ya Abdullah dediyini bilə-bilə və qəsdən dilə gətiribsə, bir şeyi gizlədibsə və ya aşkar edibsə, onda o vəd verdiyini edəcək (və özünü təcrid edəcək.)

Harun ər-Rəşid başını aşağı salıb, fikrə daldı. Məhəmməd nigaran idi, amma görürdü ki, xəlifənin siması açıq və parlaqdır. O dərəcədə ki, üzünün turşudulması yoxa çıxdı. Çünki Məhəmməd saraya girəndə görmüşdü ki, xəlifənin rəngi narahatçılıqdan tutulub.

Harun ər-Rəşid sonra başını qaldırıb dedi: Hesab edirəm ki, düz deyib. Ona de ki, hüzuruma gəlsin.

Məhəmməd dedi: Ey möminlərin əmiri mən də onunla birgə gəlim?

Cavab verdi: bəli.

Məhəmməd Abdullaha sarı geri döndü və işi ilə bağlı müjdə verdi. Birgə şahın hüzuruna daxil oldular. Abdullah Harun ər-Rəşidi görən kimi üzü qibləyə səcdəyə getdi. Sonra başını qaldıranda Harun ər-Rəşid onu yaxına çağırdı. Abdullah, gözlərinin yaşı axa-axa yaxınlaşdı və əyilib, onun əl-ayağını və xalısını öpdü. Sonra üzr diləmək üçün izn istədi. Harun ər-Rəşid ona dedi: Üzr istəməyə ehtiyac yoxdur. Çünki sənin üzrünə vaqifəm.

Ravi deyir: Bu hadisədən sonra Abdullah həmişə Rəşidin hüzuruna daxil olanda, xəlifəni özünə nisbət qaşqabağlı görürdü. Abdullah bu diqqətsizliyə görə bir dəfə gileyini Məhəmməd ibn İbrahimə bildirdi.

Məhəmməd xəlifəyə dedi: Abdullah möminlərin əmirinin diqqətsizliyinin davamiyyətindən giley-güzar edir. O, daha çox mehrü-məhəbbət və diqqət gözləyir.

Harun ər-Rəşid dedi: Ey Məhəmməd biz şahlar əgər öz tərəfdarlarımızdan birinə qəzəblənsək, sonra ondan razı qalsaq be-

lə, o qəzəbin təsiri qalır. O dərəcədə ki, gecə-gündüzlərin gəlib keçməsi onu qəlblərdən silib apara bilmir.

## Şahın sirləri

Şahın haqqı çatır ki, sirlərini, atasından, ana, qardaş, həyat yoldaşı və dostundan gizlətsin. Çünki şah eyblərə və nöqsanlara dözə bilər, amma üç şəxs qarşısında dözüm göstərə bilməz; Onlardan biri o şəxsdir ki, şahın ölkəsini və ölkənin idarəçiliyi ilə bağlı pis danışsın və tənə vursun, ikincisi, şahın sirlərini aşkarlayan və yayan şəxs, üçüncü isə şahın namusuna xəyanət edən şəxs.

Bu üç haldan qeyrisində şahların xüsusiyyətləri budur ki, öz yaxınlarını və xüsusi adamlarını malik olduqları eyb-irad və nöqsanlarla bigrə qəbul edə bilirlər. Əgər qeyd edilən üç nöqsan olmasa onların sözlərini də dinləyirlər.

Sasani şahı Xosrov Pərviz deyirdi: Xoşbəxt şah gərək, bütün səyini səfərbər edib, bu üç xüsusiyyətlə bağlı adamlarını sınasın. Çünki ölkə idarəçiliyi və onun təməlləri buna bağlıdır.

Xosrov Pərvizin, sirlərin yayılması ilə bağlı cəzalandırması qəribə idi. O bu cəzalandırmada ədalət həddini aşar və işi zülm halını alardı. Amma bəziləri də deyə bilərdi ki, onun bu növ cəzalandırması, hikmətli şahların gördüyü bir tədbir olub.

Şah iki tərəfdarı və xüsusi adamı arasında hər bir məsələdə dostluq və səmimiyyət görəndə, ikisindən birilə xəlvətə çəkilər, digəri barədə bir sirr açardı. Ona deyərdi ki, digərini öldürmək niyyətindədir. Sonra deyərdi ki, sirri qəti şəkildə heç kimə deməsin. Daha sonra sirrin üstü açılacağı təqdirdə cəzalandıracağı ilə bağlı təhdid edərdi. Şah sonra digər dostun rəftarından bilərdi ki, birinciyə dediyi sirrin üstü açılıb ya yox. O bunu ikinci ilə görüş zamanı elə onun simasının vəziyyətindən bilərdi. Şah ikincinin öncəki vəziyyətdə olduğunu və dəyişmədiyini gördükdə, birincinin sirri açmadığını əldə edirdi. Bu zaman onun sir saxlayan olduğunu anlayar, onu özünə yaxınlaşdırar, sirdaşı edər, rütbəsini qaldırar, yaxşılıq edib, bəxşiş verərdi. Şah sonra onunla təklikdə əyləşib deyərdi: Mən filan şəxsi öldürmək istəyirdim,

çünki onunla bağlı mənə xəbərlər çatırdı, bu xəbərləri araşdırdım, yalan və əsassız olduğunu gördüm.

Şah bundan sonra əgər ikinci şəxsin küskünlüyünü, uzaqlaşması və kənarlaşmasını görsəydi, bu yolla da birinci şəxsin sirri açdığını əldə edərdi. Buna görə birincini özündən uzaqlaşdırar, ona diqqət göstərməzdi. Əgər bu şəxs rütbəlilərdəndirsə rütbəsini aşağı salar, nədimlərdən biridirsə məclisə buraxılmaması göstərişini verərdi. Əgər dövlətin icra nümayəndələrindəndirsə, işlərin ona tapşırılmaması tapşırığını verərdi. Əgər atəşgahların rahiblərindəndirsə, kənarlaşdırılması göstərişini və aylıq məvacib və payının kəsilməsi əmrini verərdi. O deyərdi: "Şahına layiq olmayan, özünə görə də xeyirsiz adamdır. Özünə xeyri dəyməyən adam da faydasız və yararsızdır."     O yenə deyərdi: "İki ürəyin biri-birinə şahidlik etməsi, dil ilə şahidlik etməkdən daha açıq-aydın olur. Çox nadir hallarda olur ki, qəlbdə bir şey olsun, amma gözdə özünü göstərməsin. Çünki, bədən üzvləri və əməllər bir-birilə müştərək, həmahəng və bağlıdırlar."

## Şahın namusu ilə bağlı diqqətli davranmaq lazımdır

Xosrov Pərvizin kimisə namus və iffətlə bağlı sınağa çəkməsi, belə idi ki, kimsə onun ürəyinə yatsaydı, məsələn alim və mənəvi adam olduğunu desəydi, onu sınağa çəkərdi. Məsələn şah düşünürdü ki, belə bir şəxsi camaatın malı və namusu ilə bağlı əmanətdar bilmək olar. Digər ifadə ilə desək, şah, zahiri əməli saleh görünənlərin batinini də sınağa çəkmək istəyirdi. Xosrov Pərviz belə bir adamların köçüb, sarayda qalması göstərişini verirdi. Şah onun üçün yaxınlığında bir neçə otağın nəzərdə tutulmasını tapşırar, onunla heç bir xanımının, cariyənin və kənizin saraya gətirilməsi icazəsini verməzdi. Şah saraya gətirdiyi yaxın adamına deyirdi: Mən istəyirəm ki, gecə-gündüz sənlə oturub-durum. Əgər məhrəm qadınların sənlə bir yerdə olsalar, bizi bir-birimizdən uzaqlaşdıracaqlar. Sən yalnız beş gecədən bir gedib qadınlarına baş çəkə bilərsən. Belə bir adam sarayda qal-

mağa başlayandan sonra şah vaxtının çoxunu onunla keçirər, sonda yatmağa onu buraxardı və bu proses bir ay çəkərdi.

Xosrov Pərviz bir dəfə xüsusi adamlarından birini bu şəkildə sınağa çəkdi. Günlərin birində xüsusi kənizlərinin birini, hədiyyələrlə birgə xüsusi hörmətlə onun otağına göndərdi. Kənizə tapşırdı ki, birinci gedişdə onun yanında oturmasın və hədiyyələri verəndən və hörmətini bildirəndən sonra qayıtsın. Kəniz şahın tapşırdığı kimi edib, hədiyyələri verdi və oturmadan qayıtdı. Şah ikinci dəfə kənizi göndərəndə ona tapşırdı ki, azacıq otursun, üzünü və gözəlliklərini azacıq nümayan etsin. Kəniz belə etdi və gözəlliyi kişini cəlb etdi. Şah üçüncü dəfə kənizi göndərəndə tapşırdı ki, yanında çox otursun, onunla söhbət etsin və əgər çox qalmağını istəsə, bir müddət yanında qalsın.

Kəniz belə də etdi. Kişi ona cəzb olmuş, söhbətlərini şirin-şirin dinləyirdi. Məlum idi ki, onun nəfsi, belə şirin söhbətlərdən və həmnişin olmaqdan sonra istəyini əldə etməyə çalışırdı. Kişi istədiyini deyəndə, kəniz cavab verdi: Bizim bu işimizi biləcəkləri barədə qorxuram. Yaxşı olar ki, mənə vaxt verəsən və mən elə plan hazırlayım ki, istədiyimiz baş tutsun və rüsvay da olmayaq.

Kəniz bunu deyib getdi və aralarında baş tutan söhbəti və olanları şaha dedi. Şah  xüsusi kənizlərindən digər birini hədiyyələrlə və təmtəraqla kişinin yanına göndərdi.

Kişi gələn yeni kənizə dedi: Bəs o biri hardadır, nə edir? Cavab verdi: Xəstədir.

Bunu eşidəndə kişinin rəngi tutuldu və narahat oldu. Kəniz hədiyyələri verib getdi və çox oturmadı.

İkinci dəfə gələndə birinci dəfəkindən çox oturdu, üzünü açdı və gözəlliklərinin bir qismini nümayan etdirdi. Kişi yenə gözünü ona dikdi.

Üçüncüdə daha çox oturdu və kişi ilə deyib, gülüşdü. Kişi bu kənizi də birinci kimi sandı və nəfsinin tələb etdiyini ona dedi.

Kəniz dedi: Mən şaha yaxınam. Otağım onunkundan bir neçə addım aralıda yerləşir. Onunla bir sarayda yaşayıram. Şah üç gün sonra filan yerdə yerləşən bağına gedəcək və orada qalacaq. Əgər səni də özü ilə aparmaq istəsə, özünü xəstəliyə vurarsan.

Əgər səni, xanımının yanına getməklə, sarayda qalmaq seçimi arasında buraxsa, yol gedə bilmədiyini deyib, burda qalmaq istəyirəm, deyərsən. Əgər sözünü qəbul etsə, gəlib, gecənin əvvəlindən sonuna qədər yanında qalaram.

O axmaq bu məhəbbətə və ünsiyyətə etibar etdi. Kəniz şahın yanına gedib, aralarında olan bütün söhbəti açıb dedi. Kənizin bildirdiyi kimi, şahın bağına getməsi zamanı gəlib çatanda, qasid göndərildi və kişi şahın hüzuruna çağırıldı. Kişi qasidə dedi: Şaha mənim xəstə olduğumu deyərsən.

Qasid qayıdıb, kişinin sözünü şaha çatdıranda Pərviz gülümsədi və dedi: Bu, bəlanın ilk əlamətidir.

Xosrov Pərviz kişi üçün kəcavə[72] göndərdi. Kişi kəcavəyə oturub, başı bükülü halda gəldi. Uzaqdan bükülmüş başı görən şah yenə güldü və dedi: Başın bükülməsi bəlanın növbəti mərhələsidir. Kişi şaha çatanda qarşısında səcdə etdi. Şah soruşdu: sənin narahatlığın haçandan başlayıb? Ötən gündən, deyə cavab verdi. Şah dedi: Mən qayıdana qədər sənə qulluq etsin deyə, gedib öz ailən və xanımının yanında qalmaq istəyirsən, yoxsa, elə burda qalmaq istəyirsən?

Kişi dedi: Ey şahım! Hərəkət etməyim və get-gələ düşməyim deyə, bura mənim üçün daha yaxşıdır.  Şah təbəssüm edib dedi: Xeyr! Doğru danışmadın! Əgər səni burada saxlasam, evindəkindən daha çox hərəkət edərsən!

Şah ondan sonra göstəriş verdi ki, zinakar insanların cəzalandırılmasında istifadə edilən zina əsasını gətirsinlər. Kişi bəlanı artıq gözü ilə görmüş oldu. Şah əmr verdi ki, bu hadisə kəlmə-kəlmə yazılsın və insanlara oxunsun. Əmr verdi ki, kişini ölkənin ən uzaq sərhədlərinə sürgün etsinlər. Göstəriş verildi ki, getdiyi hər yerdə həmin əsa onunla olmalı, getdiyi yerdə əsa ni-

---

[72] Yaxın Şərqin bir sıra ölkəsində mövcud olmuş minik vasitəsi. Üç tərəfi və üstü bağlı, bir tərəfi isə pərdə ilə örtülü olan kəcavə, əsasən, dəvə (bəzən fil, at və ya qatır) belinə qoyulurdu. Keçmişdə 4 adamın (əsasən qulların) çiynində apardığı kəcavə növü (hakim sinif nümayəndələrinə məxsus) də olmuşdur. Kəcavədən uzaq yola çıxarkən qadın və uşaqların, həmçinin gəlinin aparılmasında da istifadə edilirdi.

zənin üzərinə taxılmalıdır ki, hamı görsün və o kişidən uzaq olsunlar, xüsusilə də onu tanımayanlar.

Onu Mədaindən[73] çıxarıb üzü Fars istiqamətdə aparanda əlin atıb, gözətçilərin birinin bıçağını götürdü və kişilik alətini kəsib atdı və dedi: Bədənin kiçik üzvünün tabeliyində olan şəxs, digər böyük və kiçik üzvlərini də zay etmiş sayılır. Kişi elə bu anda da öldü.

## Xosrov Pərviz müxaliflərini necə aşkarlayırdı?

Şah pis niyyətli insanları və hökumətini pisləyənləri sınayıb, aşkarlamaq üçün, xüsusi bir adam təyin etmişdi. Təyin edilən bu adam mənəvi insan olduğunu göstərər, daima camaatı tərki-dünyalığa və axirətə çağırar və onlardan istəyərdi ki, şahların qapısına getməsinlər. Bu adam insanlara ibrətli dastanlar danışar, insanların qəlbini ələ almaq üçün onları kövrəltməyə çalışar, bununla yanaşı söhbətlərinin əsnasında şahın səhvlərindən deyərdi. Deyərdi ki, şah əcdadının yolunu, dinini və adət-ənənəsini unudub.

Xosrov Pərvizin təyin etdiyi bu adam, onun süd qardaşı və uşaqlıq dostu idi. Pərviz bu kişiyə qeyd edilən şəkildə danışmaq əmrini verməklə əslində öz xüsusi adamlarını sınamağa çalışırdı.

Bu adamın etdikləri haqda Pərvizə şikayət ediləndə o deyirdi: Mən onu tanıyıram, ağlı çatmır. Əgər siz deyən kimidirsə, qəlbi təmizdir, məni və hökumətimi məqsədyönlü şəkildə pisləmək niyyətində olmayıb.

Şah bu şəkildə onun etdiklərini görməzdən gəldiyini göstərər və onunla bağlı xatircəm olduğunu nümayiş etdirərdi.

Şah yenə şikayət edən adamların gözü qarşısında onu çağırmaq üçün qasid göndərər, lakin o adam gəlməz və deyərdi. Mən yalnız Allahdan qorxuram, Yalnız Allahdan qorxan birinin baş-

---

73 Mədain və ya Ktesifon (yun. Κτησιφῶν (Ktēsiphōn), pəhl. Tyspwn, fars. تیسفون (Tisfun), ərəb. قطسيفون (Qaṭaysfūn) — Azərbaycan tarixi ədəbiyyatında Mədain kimi xatırlanır. Bu şəhər əvvəlcə Parfiyanın, sonra Sasanilər imperiyasının paytaxtı idi. İndi xarabalıqları İraqın şərqində yerləşir.

qasından qorxması yaxşı deyil. Hökuməti pisləyənlər, bu olanları eşidəndən sonra gizlində ona baş çəkməyə başlayırdılar. Müxaliflər gizlində bu adamla görüşəndə şahın hakimiyyəti haqda müzakirələrə başlayırdılar. Birinci mərhələdə özünü abid və mənəvi insan kimi göstərən (şahın casusu) şəxs, şah və onun hakimiyyəti haqda tənqidə başlayardı. Xain də söhbətə qoşular və ona dəstək verərdi. Özünü abid və mənəvi insan kimi göstərən (şahın casusu)  deyərdi: Diqqətli ol və sənin sözlərini bu zalım eşitməməlidir. O, mənim sözlərim qarşısında dözüm göstərsə də sənin sözlərinin qarşısında dözüm göstərməz. Birdən qanının tökülməsinə səbəb olar! Özünü qoru!

Bu sözlərdən sonra ikincinin birinciyə etimad və etibarı artırdı. Özünü mənəvi insan kimi göstərən (casus) şəxs, müxalifin, edama məhkum edilməsinə səbəb ola biləcək şaha qarşı addımlarını görən kimi, planı dəyişər və deyərdi: Mən sabah bir toplantı təşkil edib, orada çıxış edəcəyəm. Sən də gəl ora! Çünki sən sevimli, xoş niyyətli, təmkinli və kifayət qədər tanınmış adamsan. Camaat səni mənim məclisimdə görsələr, işimizlə bağlı onlarda yaxşı fikir formalaşar və dediklərimizi daha tez yerinə yetirərlər. Bunu eşidən kişi deyərdi: Hər halda mən bu zalımdan qorxuram, mən sənin məclisində olan zaman şahdan danışma!

Müxalifin tanınması üçün, Xosrov Pərvizlə casusunun təyin etdikləri əlamət bu idi ki, məclis zamanı şah tənqid ediləndə müxalif durub məclisi tərk etməlidir. Eyni zamanda Xosrov Pərviz məclisdə casuslarını da yerləşdirmişdi ki, orada olan müxalifi aşkarlayıb, müəyyənləşdirsinlər. Məclis başlayardı, özünü mənəvi və abid şəxs kimi göstərən casus, tərki-dünyalıqdan, axirətə meyil etməkdən danışardı. Məclisə həmin müxalif və xain də gələrdi. Məclisi aparan, söhbətini bitirib, keçərdi şah barədə danışmağa. Bu zaman müxalif kişi durub çıxardı. Pərvizin məclisdə olan adamları da olanları görər, hamısını şaha xəbər verərdilər. Pərvizin o müxalif barədə şək-şübhəsi təsdiqini tapandan sonra onu uzaq bölgələrin birinə göndərərdi. Ondan qabaq həmin bölgədəki nümayəndəsinə yazardı: Mən sənin yanına birini göndərirəm, o mənim bu məktubumdan sonra çıxıb gəlir və bu

kimi xüsusiyyətləri var. Onunla yaxşı davran, ünsiyyətdə ol, ona etimad etdiyini göstər, elə ki, onda xatircəmlik yarandı, öldür. Sənin bu addımın elə bil sönmüş atəşgahı yenidən yandırmaq və sanki Nobəhar[74] atəşgahına ehtiram etməkdir. Çünki, məmləkətin adi və xüsusi adamlarından hər biri niyyəti xarab olsa, heç bir vasitə ilə düzələn deyil.

## Şahlar kiçik xətaları görməzdən gəlirlər

Şahın bəyənilmiş xüsusiyyətlərindən biri də budur ki, dövlətə zərəri olmayan xətalara göz yumsun, dövlətin əmlakına, xəzinəsinə, kimsənin mal-mülkünə, şəxsiyyəti və hörmətinə zərər vurmayan və bağışlanması şahlıq alicənablığını artıran kiçik xətalardan keçsin. Sasani şahlarının da xüsusiyyəti belə idi.

V Bəhram Gur (406-438) haqda nəql olunur ki, bir dəfə ova çıxmışdı. Hürkmüş atı onu səhrada bir ağacın altına qədər apardı. Orada bir çoban yatırdı. Şah ehtiyacını aradan qaldırmaq istəyirdi. Çobana, atımın yüyənini tut ki, ehtiyacımı aradan qaldırım, dedi. Çoban atı tutdu və şah endi. Çoban atın yüyənini əlinə aldı. Onun üzərində qızıldan qaşlar zinətlər var idi. Çoban şahın məşğul olduğunu görüb, bir bıçaq çıxarıb, yüyəndən bir neçə qızıl ayırdı. Bu zaman Bəhram başını qaldırıb, onun nə etdiyini gördü, amma utandığından bir şey demək istəmədi. Şah yenidən başını aşağı salıb, işini daha da uzatdı ki, çoban qoparmaq istədiyini qoparsın. Çoban da onun işində gecikməsinə görə şad idi.

Şah artıq biləndə ki, çoban istədiyini əldə edib, qalxdı və dedi: Çoban atı gətir, gedim. Bu əsən külək toz-torpağı üz-gözümə elə töküb ki görə bilmirəm.

Bəhram gözlərini yumdu ki çoban, şahın, yüyəni nəzərdən keçirib, yoxladığını sanmasın. Çoban atı gətirdi və şah ata min-

---

[74] Hazırda Əfqanıstanın Bəlx şəhəri ərazisində yerləşən qədimi Nobəhar (Niva Vihara) atəşgahı, Sasanilər dönəmində atəşpərəstlərin qibləgahı olub. Bərməkilərin dövründən bəri "Doqquz gümbəzli məscid" adı və statusu verilib.

di. Dönüb gedəndə, çoban uzaq bir yerin adını çəkib dedi: Ey alicənab filan yerə necə gedə bilərəm?

Bəhram dedi: Orada sənin nə işin var? Niyə oranın yolunu məndən soruşursan?

Çoban dedi: Evim oradadır. Mən bura birinci dəfədir gəlmişəm, bir də bura qayıtmaram.

Şah Çobanın məqsədini anladı və gülümsəyib dedi: Mən də bir müsafirəm, bundan sonra bura heç gələn deyiləm.

Şah sonra öz yolunu tutub getdi və çatanda tövlə işinə baxana dedi: Yüyənin üzərindəki zinət əşyalarını yolda qarşılaşdığım bir yoxsula bağışladım və sən nəbada oğurlanıb deyə kiməsə böhtan atasan!

I Xosrov Ənuşirəvan (501-579) barədə nəql olunur ki, Mədaində (Ktesifon) Taqi-kəsra sarayında Novruz bayramı ilə əlaqədar süfrələr açdırdı və camaatın müxtəlif təbəqələri saraya gəlirdilər. Süfrə qulluqçuları onlara xidmət üçün ayaq üstə durmuş, şah da insanları müşahidə edirdi. Yeməyi bitirəndən sonra camaat üçün gümüş və qızıl badələrdə içkilər gətirildi. Sərkərdələr və yuxarı təbəqənin nümayəndələri qızıl badələrlə içdilər. Camaat dağılışanda və süfrələr yığışdırılanda bəziləri qızıl badələri əba-qəbalarının altında gizlədərək, özlərilə apardılar. Ənuşirəvan da bunu görürdü. Şah üzünü başqa səmtə tutub, bunu görməzdən gəldi.

Şərab paylayan həmin badələri saydı, az olduğunu anladı və ucadan dedi: Heç kim, üstü yoxlanılmadan sarayı tərk etməməlidir.

Xosrov ənuşirəvan ona dedi: Kimsə ilə işin olmasın!.

Bundan sonra camaat oranı tərk etdi. Şərab paylayan saqi dedi: Ey şahənşah axı qızıl badələrin bəzisi yoxdur!

Ənuşirəvan dedi: Doğrudur, onu aparan artıq geri qaytarmaz və həm də əgər aparanı bir kəs görübsə onun eybini açmaz.

Beləcə o kim idisə qızıl badəni özü ilə apardı və kimsə o işin üstünü açmadı.

Müaviyə ibn Əbu-Sufyan da bir dəfə bayram zamanı belə etdi. Camaat oturmuş, süfrələr sərilmiş, dirhəm-dinar kisələri də hədiyyə və mükafat məqsədilə gətirilmişdi. Camaatın başı ye-

məyə qarışan zaman, biri gəlib, kiçik dinar kisələrinin birinin üzərinə oturdu. Xidmətçilər onun başına qışqırdılar: Uzaqlaş burdan, bura sənin yerin deyil.

Bunu eşidən Müaviyə dedi: Dəyməyin, qoy harda istəyir otursun.

Ona toxunmadılar. O şəxs qızıl kisələrindən birini götürüb, şalvarının içinə saldı və qalxıb getdi. Kimsə də cürət edib, ona yaxınlaşmadı.

Bu zaman xidmətçilərdən biri dedi: Allah möminlərin əmirinin işini islah, özünü də xoşbəxt etsin!. Qızıl kisələrinin biri getdi!

Müaviyə dedi: Sən narahat olma mən götürmüşəm, sənin hesabında bir şey əskik yazılmayacaq.

Şahların xüsusiyyəti kitablarda və tarixlərdə deyildiyi kimi belə olub. Bu kimi işlərin üstünə düşən və onu araşdıranlar şahlardan qeyriləridir. Amma şahlar bu kimi məsələlərin fövqündə və qeyd edilən işlər onların nəzərində cılız məsələlərdir.

### Şahlar bu kimi məsələlərdə aldanılmış hesab edilmirlər

Camaat bu kimi rəftarı başqa cürə yozurlar. Bu növ yozumu sanki şeytan onlara təlqin edib, ürəklərinə və dillərinə salıb. Camaat yuxarıda deyilən məsələ barədə əsasən də satıcı və alıcı münasibəti barədə məşhur deyimi deyirlər; "Aldanan şəxs, nə mədh edilər, nə də itirdiyinin əvəzi ona verilər." Bu düşüncədə olanlar cahil insanları satıcılarla höcətləşməyə təşviq edir, bazar adamları ilə səfilləri bir-biri ilə deyişməyə, rəiyyətlə aşağı səviyyəli insanları bir-birini söyməyə, hətta "bir dənə" və "bir gilə" söhbətini etməyə, tərəzinin gözləri və daşlarını ələ alıb tez-tez yoxlamaq qədər cılızlaşmağa sövq edirlər.

Yuxarıda deyilən deyimin əksinə olaraq, yaxşı olar ki, aldanmış adamla həmrəylik nümayiş etdirilsin və ona dəstək verilsin. Əgər, "gəlin məni aldadın", deyirsə heç.

Hətta əgər biri müəyyən hərəkətilə "aldat məni", desə belə, bu alicənablığa, fəzilətə, yaxşı əmələ və nəcabətli sülalədən olmasına işarədir.

Buna görə ərəblər deyərdilər: "Göz yummaq və özünü bilməməzliyə vurmaq ağalıq və alicənablıqdır."[75]

Qeyri mümkündür, çıxanda bilə-bilə malını qoyub gedən birini görəsən, mümkün deyil ki, kimsə alqı-satqı zamanı bilə-bilə aldansın və ya malı-pulu az veriləndə bilərəkdən araşdırma aparmasın. Əgər belə bir adam görsən, hökmən qəlbində ona qarşı hörmət və sayqı formalaşar ki, o hissi qəlbindən çıxara bilməzsən. Peyğəmbərimiz (s.ə) də bizə ədəbi belə təlim edib. O buyurub: "Allahın rəhmət və mərhəməti olsun asan alana, asan satana, asan mühakimə edənə və asan borc verib, alana."

Bu ədəb qaydası yuxarıda deyilən, "aldanan şəxs, nə mədh edilər, nə də itirdiyinin əvəzi ona verilər", deyimin fövqündədir. Müaviyə də buna oxşarını deyib: Mən paltarımın ətəyini hiylələrin üzərinə çəkirəm (və onları görməzdən gəlirəm.)

Həsən ibn Əli (ə) deyib: Mömin alqı-satqıda xırdaçı və israrçı olmaz.

O cümlədən Əməvi hökmdarı Süleyman ibn Əbdülməlik (674-717) haqda nəql olunur ki, atasının hakimiyyəti dövründə gəzməyə çıxmışdı. Səhrada onun üçün palaz saldılar və yoldaşları ilə birgə nahar etdi. Getmək zamanı gələndə xidmətçilər yükləri yığırdılar. Birdən bir bədəvi ərəb gəlib, onların xəbərsiz olduğunu sanıb, Süleymanın palazını götürüb, atdı çiyninə. Süleyman da onu gördü.

Xidmətçilərdən biri onu görüb, qışqırdı; Çiynindəkini at yerə!

---

[75] Abbasi Xəlifəsi Əbul-Abbas Səffah deyirdi: Alicənab insanın yaxşı xüsusiyyətlərindən biri də özünü bilməməzliyə vurmaqdır. Şairlərdən biri bu haqda deyib:
"Qövmü arasında qafil və nadan olan ağa deyil – Qövmünün ağası odur ki, özünü qafilliyə vursun"
(İbnul-İmad əl-Hənbəli, Şəzəratuz-Zəhəb fi əxbarin min zəhəb, c 1, səh 215)

Bədəvi ərəb dedi: Canıma and olsun onu yerə qoyan deyiləm. Səndə alicənablıq deyilən şey yoxdu?!. Bu, əmirin mənim üçün saxladığı xələtdir.

Süleyman gülüb dedi: Doğru deyir, o, mənim verdiyim xələtdir.

Bədəvi ərəb əsən güclü külək kimi uzaqlaşdı.

Bu mövzu ilə bağlı ən yaxşısını Cəfər ibn Süleyman ibn Əli[76] elə yaxın günlərdə edib. Onun qiymətli bir daşı var idi. Elə gözünün önündə onu oğurlamışdılar. Nə qədər axtardısa onu tapa bilmədi. Sonra bir kişini tapdılar ki, eyni bu qiymətli daşdan Bağdad bazarında satıb. Oğurlanan qiymətli daşın xüsusiyyətlərini daş-qaş alverçilərinə demişdilər deyə, satıcı ələ keçdi və Cəfərin hüzuruna gətirildi. Cəfər bu adamı görəndə, onu cəzalandırmağa utandı və dedi: Məgər sən o şəxs deyilsən ki, bunu məndən istəmişdin və mən də onu sənə vermişdim?!

(Oğru kişi) Bəli, deyə cavab verdi.

Cəfər dedi: Buraxın!, ona toxunmayın!

Kişini azad etdilər və o gedib, qiymətli daşı 200 min dirhəmə satdı.

### Vəfalı insanlara diqqət, qayğı və təşəkkür etmək

(Ədalətli) Şahın əxlaqı xüsusiyyətlərindən biri də, vəfalı insanlara diqqət və qayğı göstərmək, yaxşılıq etmək, onlara etimad etmək, xüsusi adamlarından və ümumi camaatdan, yaxında və uzaqda olanlardan üstün tutmaqdır.

Çünki insanlarda vəfadarlıqdan böyük fəzilət, böyük qədr-qiymət və ondan xalis və səmimi əməl yoxdur. Vəfadarlıq təkcə dildə təşəkkür etmək deyil, əməldə təşəkkür etməkdir. Dildə təşəkkür etməyi hamı bacarır və zəhməti də yoxdur.

Vəfadarlıq dedikdə bu xislətlər nəzərdə tutulur:

---

[76] Abbasi xilafəti dönəmində Mədinə və Bəsrəyə əmir təyin edilmiş Cəfər ibn Süleyman ibn Əli ibn Abdullah ibn Abbas. Hicri-qəməri təqvimi ilə 174-cü ildə vəfat etdiyi bildirilir. “Şəmsuddin Zəhəbi, Siyər Əlam ən-Nübəla – 32,728)

Bu xislətlərdən biri budur ki, yaxşılıq edən adamın adı hallansın, istər şahın hüzurunda olsun, istər o olmayan yerdə. Əgər şah, yaxşılıq etmiş bu adam haqda bədbindirsə, vəfadarlıq bunu tələb edir ki, şahın bədgüman olması ona təsir etməsin və şahla bu məsələdə həmrəylik nümayiş etdirilməsin. Əgər bir şəxs şahın qılınc və şallağından qorxarsa, onda yaxşı olar ki, yaxşılıq görmüş şəxsin haqqında mənfi və müsbət mənada hələ bir şey deməsin.

Vəfalı olmağın əlamətlərindən biri də budur ki, malın və mülkün bölgüsündə, onunla özünü bərabər tutsun. O yerə qədər ki, bir dirhəmi ona, bir dirhəmi özünə, paltarın birin özünə, digərini ona, ayaqqabı cütünün bir təkini özünə, digərini isə ona versin.

Vəfadar şəxsin digər əlaməti budur ki, dostu olmayanda nə qədər ki, dünyadadır və yaşayır, onun ailəsinə baxsın. O dərəcədə ki, sıxıntı və rifah zamanı öz ailəsilə dostunun ailəsinin vəziyyəti fərqli olmasın.

Vəfadarlığın əlamətlərindən (ən adisi isə) dillə, işarə ilə və eyhamla təşəkkür etməkdir.

Əcəm şahları əvvəlindən tutmuş sonuncusuna qədər, öz xüsusi adamlarının və ya camaatın, yaxşılıq gördükləri şəxslərin təşəkkür və yad etmələrinə və onları tərifləmələrinə mane olmazdılar. Hətta bu şəxslər qanuna əsasən ölümə məhkum edilmiş və ölkə başçısının qəzəbinə düçar olmuş şəxslər olsa elə. Hətta bundan ziyadə, şahlar vəfadarlığa sadiq qalan belə birini görsəydilər, onlara mükafatın verilməsi və qayğının göstərilməsi haqda əmr verərdilər.

Nəql olunur ki, I Qubad (473-531) dövləti pisləyən bir kişinin edamı haqda göstəriş verdi. O kişi öldürüldü. Qonşularından biri gəlib qəbri üzərində durub dedi: Allah sənə rəhmət eləsin! Mən bilirdim ki, sən qonşuya yaxşılıq edərdin, qonşunun əziyyət-azarına dözərdin. Ehtiyaclılara dəstək olardın və çətin işləri həll edərdin. Təəccüb edirəm necə oldu ki, şeytan sənə necə nüfuz etdi və səni necə şahına üsyana vadar etdi?! Sən onun vacib buyurulmuş itaətindən çıxıb, üsyana qalxdın!. Amma əzəldən

belə olub ki, şeytan səndən güclü və səndən sübatlı adamları da tovlaya bilib.

Bunu eşidən təhlükəsizlik qüvvələrinin başçısı onu həbs etdi. Söhbət gedib I Qubada çatdı. O əmr verdi ki, yaxşılıq görmüş və bu yaxşlığa görə təşəkkür edən şəxsə yaxşılıq edilsin, rütbəsi qaldırılsın və aylığı artırılsın.

Əməvilərin son hökmdarı II Mərvanın (684 – 750) başı Kufədə Əbul-Abbas Səffahın qarşısına gətiriləndə Səid ibn Əmr ibn Cədə ibn Hubeyrə əl-Məxzumi[77] də belə etdi. Əbul-Abbas Səffah bu münasibətlə bir məclis təşkil etdi və başı ora gətirdilər. Bunu görən Səid durdu və bir müddət bədəndən ayrılmış başın yanında ayaq üstə qaldıqdan sonra dedi:

"Bu, Əbu-Əbdülməlikin başıdır, bizim dünənki xəlifəmiz. Allah ona rəhmət eləsin!"

Bunu eşidən Əbul-Abbas Səffah yerindən qalxdı və onun sinəsinə birini vurdu. Səid elə ordan öz evinə getdi. Camaat onun rəftarı haqda danışırdılar, övladları və yaxınları onu danlayırdılar. Ona dedilər: Sən bizi də, özünü də pis vəziyyətə saldın!

Səid cavab verdi: Kəsin səsinizi!, Allah sizi zəlil eləsin! Dünən siz deyildiniz ki, Hərranda mənə məsləhət verirdiniz ki, Mərvana yardım etməyim?!. Mən o zaman elə bir iş görsəydim, vəfadar insanlara və təşəkkür əhlinə yaraşmazdı. Əlbəttə o işin arını və zillətini, mənin etdiyim bu işdən başqa heç nə aradan apara və yuya bilməz. Mən artıq ahıl qoca adamam. Bu gün xilas olsam, onsuz da sabah öləcəyəm.

Deyilir ki, həmin gecə Səidin övladları gözləyirdilər ki, elə gecə ikən Səffahın adamları gələcək. Səhər oldu, kimsə gəlmədi və sabahısı gün Səlim ibn Mücalid gəldi.

O, qocanı görcək dedi: Ey İbni-Cədə, istəyirsənmi möminlərin əmirinin müsbət baxışı haqda sənə müjdə verim?!. O, sənin dünənki rəftarını yada salıb dedi: Allaha and olsun ki, qocanın dilindən belə bir sözün çıxmasına yalnız vəfadarlıq səbəb ola bi-

[77] Əməvilərin son hökmdarı Mərvan ibn Məhəmməd əl-Cədinin yaxın silahdaşlarından olub. Zab döyüşündə II Mərvanın ordusunda döyüşüb.

lər. Səid qohumluq baxımından Mərvanla müqayisədə bizə daha yaxındır. Ona yaxşılıq etsək, bizə qarşı da vəfalı olar.

Səlim ibn Mücalid əlavə etdi: Bəli elə belə də dedi.

Qeys ibn Səd ibn Ubadə[78] də Müaviyə ibn Əbu-Sufyanla qarşılaşanda eyni addımı atdı. Müaviyə Səd ibn Ubadədən, Əli ibn Əbu-Talibdən ayrılmağı və ona qoşulmağı istədi. Qeys ibn Səd Müaviyəyə belə yazdı:

"Ey büt oğlu büt!, Sən mənə yazırsan ki, Əli İbni Əbu-Talibdən ayrılıb, sənə itaət edim?! Sən məni, camaatın onun ətrafından dağılışıb, sənin ətrafında toplaşmaları ilə qorxudursan?! Ondan başqa məbud olmayan Allaha and olsun ki, Əli üçün məndən başqa, mənim üçün Əlidən başqa bir kəs qalmasa belə sənlə anlaşmayacağam. Nə qədər ki, sən onun düşmənisən, sənə itaət etməyəcəyəm. Mən heç vaxt Allahın düşmənini dostundan və şeytanın partiyasını Allahın partiyasından üstün tutmaram. Vəssalam!"

İskəndər Zülqərnəyn Fars istiqamətdə yürüş edəndə, oranın sərkərdələrindən bir dəstəni gördü. Gördü ki, şahlarının başını əllərində tutublar. Onlar bu işlə İskəndərə yaxınlaşmaq istəyirdilər. Lakin İskəndər göstəriş verdi ki onların hamısını öldürsünlər. Çünki onlar, təşəkkür etmək əvəzinə onlara çörək verən şahlarını öldürmüş, şahlıq məqamını ayaq altına atmışdılar. Məlumdur ki, öz şahına xəyanət edən, başqasına hökmən xəyanət edər.

Həmçinin II Kavad haqda deyilir ki, bir gün o döyüş meydanından qayıdanda camaatdan biri onun qarşısında durub dedi: "Həmd olsun Allaha ki, Pərvizi sənin əlinlə öldürdü və səni, ondan daha layiq olduğun bir məmləkətin rəhbərliyinə çatdırdı. Sən Sasani ailəsini onun sərt siyasətindən, simicliyindən, zülm

[78] O, Məhəmməd Peyğəmbərin tanınmış səhabələrindən biri, Hicazın tanınmış Xəzrəc tayfasının rəhbəri, ilk xəlifələr dönəmində isə Misir üzrə vali olub. Cəməl, Suffeyn və Nəhrəvan döyüşlərində İmam Əli ibn Əbu-Talibin yanında olub. Onun şəhid edilməsindən sonra oğlu Həsən ibn Əli (ə) ilə beyət edib. Buxari və Tirmizi öz əsərlərində onun fəzilətlərini nəql edərkən səhabə Ənəsdən maraqlı hədis nəql edirlər. Bu hədisdə deyilir: "Sanki Məhəmməd Peyğəmbər əmir idi, Qeys də onun polis rəisi." (Buxari, Səhih, Hədis-7,155)

və cəfasından qurtardın. Çünki o çox xırdaçı idi, insanları bədgüman olan kimi və töhməti eşidən kimi öldürürdü. O günahsızı qorxudar, daima öz meyli və istəyi ilə hərəkət edirdi.

Şah xidmətçidən, o adamın yaxına gətirilməsini istədi. O adamı gətirdilər və şah dedi:

-Pərvizin zamanında sənin ərzaq payın nə qədər idi?

-Yaşamaq üçün kifayət edirdi.

-Bəs ondan sonra sənin payın nə qədər artırılıb?

-Ərzağıma heç nə artırılmayıb.

-Məgər Pərviz sənə zülm etmişdi və ya sənin payından nəsə kəsmişdi ki, bu eşitdiklərimi dilinə gətirirsən?!

-Xeyr, bu işi görməyib.

-Onda onu aşağılamağının səbəbi nədir?! Halbuki sənin ruzini kəsməyib və sənə zülm etməyib. Rəiyyət kimdir ki, öz şahlarına dil uzatsınlar.

Bundan sonra şah, onun dilinin boynundan çıxarılması əmrini verib, dedi: Yaxşı deyiblər ki, dilsiz qalmaq, rəva olmayan sözü deməkdən daha yaxşıdır."

Ədib Səbah bin Xaqan mənə bir hədis dedi:

"Atam bildirdi ki, bir gün Abbasi xəlifəsi Əbu-Cəfər Mənsurun qarşısına İbrahim ibn Abdullahın[79] başını gətirdilər. Ravəndi bölgəsindən biri əlindəki çubuğla həmin başa vurdu.

Bunu görən Mənsur Müseyyibə[80] göstəriş verdi ki, həmin kişinin sifətinə birini ilişdirsin. Müseyyib onun burnuna birini yapışdırdı.

Sonra Mənsur onun başına qışqırıb dedi: Ey zinadan əmələ gələn!, Sən mənim əmim oğlunun başına elə bir halda vurursan ki, özünü müdafiə etməyə qadir deyil, sən onu çubuğunla vurursan?!. Sən bu işi elə görürsən ki, elə bil indi durub məni öldürə-

---

[79] İbrahim ibn Abdullah ibn əl-Həsən (əl-Müsənna) ibn əl-Həsən ibn Əli ibn Əbu-Talib. O, Abbasi xilafətinə qarşı üsyana qalxmış, üsyanı yatızdırılmış və hicri-qəməri təqvimi ilə 145-ci ildə öldürülmüşdü.

[80] Müseyyib ibn Zuheyr Zəbiyyi Abbasi xəlifəsi Əbu-Cəfər Mənsurun qaravul dəstəsinin başçısı idi. Daha sonra Xorasan üzrə vali oldu.

cək və sən də guya onu məndən uzaqlaşdırmaq istəyirsən?! Allahın lənətinə gələsən, çıx burdan!.

Deyilir ki, bir gün Əbu-Cəfər Mənsur Əməvi xəlifəsi Hişam ibn Əbdülməlikin (691-743) yaxın adamlarından olmuş bir qocanı hüzuruna çağırtdırır. Mənsur bu qocadan Hişamın vaxtilə xəvariclə[81] apardığı müharibələr haqda soruşur.

Qoca Hişamın etdiklərilə bağlı danışdı və dedi: Allah ona rəhmət eləsin, elə etdi, belə etdi...

Mənsur dedi: Dur Allah sənə lənət eləsin! Mənin büsatımın üzərində oturub, düşmənimə rəhmət diləyirsən?!.

Kişi qalxdı və gedə-gedə dedi: Düşməninin verdiyi paylar boynumda olan bir boyunbağıdır ki, onu yalnız mürdəşir məni yuyanda boynumdan açıb, götürə bilər.

Bunu eşidən Mənsur dedi: Qoca qayıt görüm!

Mənsur sözünə belə davam etdi: Mən şahidlik edirəm ki, səni azad bir qadın dünyaya gətirib. Sənin hörmətli və izzətli kökün var. Həmin sözünü bir də təkrar et!

Qoca dediyi sözü təkrarladı. Sözünü bitirəndə Mənsur göstəriş verdi ki, ona ənam versinlər.

Qoca dedi: Ey möminlərin əmiri Allaha and olsun mənim buna ehtiyacım yoxdur.

Az öncə xeyirlə yad etdiyim şəxs öləndə elə bir iş gördü ki, mən kimsənin qapısına düşməyə möhtac olmadım. Əgər möminlərin əmirinin izzət və ehtiramı və onun göstərişlərinin hər şeydən üstün tutulması məsələsi olmasaydı mən kimsədən minnət qəbul etməzdim.

Mənsur dedi: (Artıq cənnətliksən) Əgər istəsən ölə bilərsən. Çox qəribə insansan!. Əgər nəslində səndən başqa adam olmasa belə, bu sənin sülalənin əbədi olaraq, adlı-sanlı olması üçün kafidir.

Deyilir ki, bu kişi Şeyban qəbiləsindən idi.

---

[81] Əsasən də Əli ibn Əbu-Talibə (ə) qarşı üsyana qalxmış, ifratçı və radikal firqəyə deyilir. Əməvi və Abbasilərin dönəmində isə daha çox barışmaz mövqe sərgiləyən və xaos tərəfdarı olan dini-siyasi cinaha deyilirdi.

## Şahı dinləmək və onunla söhbətləşməyin ədəb qaydaları

Şahın hüquqlarından biri də budur ki, dastan və hekayə danışanlar məclisə gələndə Şahdan qabaq heç kim ağzını açıb, danışmasın. Onun deyəcəyi söz nə qədər bəyənilən olsa belə şahın sözünün arasına girib əlavələr etməkdən çəkinsin. Hamının məqsədi bütün vücudla onu yaxşı dinləmək olmalıdır. Şah sözünü bitirib, dinləyicilərdən birinə baxsa, o deməkdir ki, həmin nağıldan danışmağını istəyir. Şahın işarə etdiyi adamın haqqı yoxdur ki, digər mövzuya aid danışsın.

Ümumiyyətlə şah üçün çıxış edən adam pis anlaşılan və hörmətsiz hesab edilən kəlmələrdən istifadə etməməlidir. Məsələn "Məndən eşit bunu", "Ey sən", "Məgər görmürsən?!" kimi ifadələri işlətməməlidir. Çünki bu kimi ifadələr danışanın bacarıqsızlığı, rahat danışa bilməməsi, istidlal zəifliyi, kobudluğu və ədəbsizliyinə dəlalət edir.

Belə bir şəxsin danışığı asan anlaşılan, pərakəndəlikdən uzaq və cəlbedici olmalı və lazımsız ifadələrdən çəkinməlidir. Bu şəxs mövzu ilə bağlı olan hekayəni bitirəndə, hətta şirin və bəyənilən olsa belə növbəti dastana keçməməli, yalnız şahın diqqətinin onda olmasını biləndə növbəti dastana keçməlidir.

Əgər şahın nəsə başqa işlə məşğul olduğunu hiss etsə, söhbəti davam etdirməsin. Əgər bunu görüb söhbəti davam etdirsə, şah diqqətini hekayə danışana yönəltməli olacaq və məcbur qalacaq ki, iki işlə məşğul olsun. Belə bir vəziyyət əslində dastan danışanın öz işini dəyərsiz edəcək, həm də bir növ ədəbsizlikdir. O bu vəziyyətdə sakit durub başını aşağı salsın. Şahın digər işlə məşğul olması davam etdikcə dinməsin. Şah diqqətini dastan danışana yönəldərsə, bu artıq icazə deməkdir və sözünü təkrarlaya və ya onu bitirə bilər.

## Şahın söhbətinə gülmək olmaz

Şah danışarkən söhbətinə gülmək olmaz. Çünki şahın hüzurunda onun söhbətinə gülmək, ona qarşı cürət və hörmətsizlikdir. Onun söhbətinin faydası olub olmamağı barədə təəccübə dalmağı da izhar etməzlər. Çünki digərinin söhbətinin faydası barədə tərəddüd etmək yalnız şaha məxsus olan imtiyazdır. Əgər şah bir söhbətə gülsə və xoşhallıq nümayiş etdirsə, deməli söhbətin hədəf və qayəsi hasil olub. Əgər sakit qalsa, deməli söhbətdə ona xoş gələn, fayda verən və onu vəcdə gətirən bir şey olmayıb. Amma şah nə gülərsə və nə təəccübə dalarsa deməli söhbətdə eyb və irad olmayıb.

Həmçinin bir söhbəti şah üçün iki dəfə təkrar danışmazlar. Arasında nə qədər vaxt keçsə və nə qədər günlər olsa belə bir söhbəti şaha təkrarlamaq olmaz. Amma şah özü yada salmağı istəyərsə, olar. Bəli, əgər şah özü xatırlatmağı istəsə bu təkrarlamaq üçün iznin olması deməkdir.

Əməvi xilafətinin daruğa və polis rəislərindən olmuş Ruh ibn Zinba deyirdi: Əbdülməlik ibn Mərvanla (646-705) 17 il bir yerdə qaldım. Heç bir söhbəti ona təkrarlamadım.

Tanınmış fəqih Əş-Şabi (641-723) deyirdi: Bir kişiyə bir söhbəti iki dəfə heç vaxt deməmişəm.

Əbul-Abbas Səffah deyirdi: Əbu-Bəkr əl-Həzli kimi məlumatlı adam görmədim. O heç vaxt bir söhbəti iki dəfə danışmayıb.

Tanınmış fəqih İbni-Əyyaş (vəfat ili: 809) deyirdi: Mənsura 10 mindən çox hədis danışdım. Gecələrin birində Ziqar[82] döyüşünün söhbətini edəndə mənə üz tutub dedi: Deyəsən təkrarlamağa məcbur qalıbsan!

İbni-Əyyaş dedi: Ey möminlərin əmiri bu deyilən söhbətlərdən deyil.

---

[82] Hazırda İraqda əyalət adı. Lakin tarixdə 604-cü ildə ərəblərlə iranlıların arasında Kufə yaxınlığında Ziqar adlı bir gölün kənarında baş vermiş döyüşə deyilir.

Mənsur cavab verdi: İldırım çaxan və yağış yağan gecə yadında deyil?! Onda Ziqar savaşı haqda danışırdın və mən onda sənə dedim ki, Ziqar döyüşü bu günümüzdən çətin deyildi.

Amma Şərqi ibn əl-Qutama[83] öz söhbətlərini təkrarlayırdı. Çünki söhbətləri adətən, gülməli və duzlu-məzəli olurdu. Abbasi xəlifəsi Mehdi bu söhbətlərdən xoşu gəlirdi deyə, o da təkrarlayırdı.

İsa ibn Dəb[84], Abbasi xəlifəsi Musa ibn Mehdi ibn Mənsura (762-786) söhbət edəndə onu növbəti gündə də təkrarlayardı. Hətta o dərəcədə ki, onu əzbərləyə bilirdi.

Deyilir ki, xəlifələrə söhbət edən və dastan danışanlar arasında İsa ibn Dəb kimi layiqincə nədimlik edən, şirin və cəlbedici danışan, gözəl nitqə malik olan, zarafatcıl və əyləndirən, fəsahət və bəlağətə riayət edən, hörmətli və qədr-qiymətli nədim olmayıb. İsa ibn Dəb möminlərin əmirinin məclisində mütəkkəyə söykənən adam idi.

Belə bir imtiyaz heç kimə verilməyib. Yalnız bir istisna var və deyilir ki, Ruh ibn Zinba xəstələnəndə Əbdülməlik ibn Mərvan onun üçün mütəkkənin gətirilməsi göstərişini verdi.

Şah qarşısında danışan adam söhbətində tələsməməli, sözlərini tam və kamil formada deməli, əllərilə çox işarə etməməli, başını çox tərpətməməli, yerində çox hərəkət etməməli, oturuş tərzini tez-tez dəyişməməli, yüksək səslə danışmamalı, sağa-sola baxmamalı və yalnız diqqəti şahda olmalıdır. Madam ki, söhbət şah üçün edilir, sözləri və fikrini digərinə eşitdirmək və çatdırmaq niyyətində olmamalıdır.

---

[83] Əsl adı Vəlid ibn Həsin Kəlbi, ləqəbi isə Şərqi idi. Abbasi xəlifəsi Əbu-Cəfər Mənsur onu oğlu Mehdiyə müəllim təyin etmişdi. Kufənin ədiblərindən idi. Nəsəbşünaslıq elmini, tarixi və şeir divanlarını yaxşı bilirdi. Adətən maraqlı dastanlar danışırdı. Buna baxmayaraq peyğəmbərin hədislərinin nəql edilməsində və hədis ravilərinin silsiləsində zəif və etibar edilməz şəxs kimi tanınırdı. (Kitabul-Əlam, Xeyruddin Zərkili, c 8, səh 120). Yaqut Həmavi "Mucam əl-Buldan" əsərində (c 3, səh 791) onun haqda məlumat verir.

[84] Yaqut Həmavi "Mucam əl-Udəba" əsərində (c 5, səh 214) onun haqda geniş məlumat verir. Yaşadığı dövrdə Hicazın ən tanınmış ədiblərindən olan İbni Dəb hicri-qəməri tarixilə 171-ci ildə vəfat edib.

**Şah məclisindən haçan mürəxxəs olmaq mümkündür?**

Şah əsnəyəndə, yelpik vurana işarə edəndə, əl-ayağını uzadanda, mütəkkəyə söykənəndə, bu onun yorğun olmasına və artıq durmağın vaxtı olduğuna işarədir. Belə olan halda məclisdə hazır olanların hamısı qalxmalıdır.

Şahın gözlərini ovuşdurması məclis əhlinin getməsinin zamanın çatması deməkdir.

I Yezdəgird (vəfat ili: 420) "Şəb beşod" (Gecə oldu) deyən kimi dastan danışanlar dağılışırdılar.

V Bəhram Gur (406-438) "Xorrəm Xoftar" (Şirin yuxular) deyən kimi həmsöhbətləri dağılışırdılar.

II Kavad başını səmaya qaldıranda həmsöhbətləri durub gedərdilər.

II Şapur (309-379) "Bəsdir ey insan" deyəndə həmsöhbətləri durub gedərdilər.

Ənuşirəvan "gözləriniz aydın" deyəndə həmsöhbətləri qalxardılar.

Ömər ibn Xəttab (585-644) "Namaz" deyəndə, həmsöhbətləri durub gedərdilər. O İşa namazından sonra həmsöhbət olmağı və dastan danışmağı qadağan etmişdi.

Osman ibn Əfvan (574-656), "əl-İzzətu lillah" (İzzət Allaha məxsusdur) deyəndə həmsöhbətləri durub gedərdilər.

Müaviyə ibn Əbu-Sufyan "Gecə keçir" deyəndə həmsöhbətləri və məclisdə olanlar durub gedərdilər.

Əbdülməlik ibn Mərvan əsasını atanda, məclis iştirakçıları qalxardılar.

Amma Vəlid ibn Əbdülməlik məclisin bitməsilə bağlı belə işarə verərdi: "Sizi Allaha tapşırıram".

Abbasi xəlifəsi Hadi "Salam olsun sizlərə" deyəndə məclis iştirakçıları qalxardılar.

Harun ər-Rəşid, "Sübhanəkə Allahummə və bi-həmdik" deyəndə həmsöhbətləri qalxardılar.

Abbasi xəlifəsi Mötəsim (794-842) ayaqqabıçıya baxanda, məclisdəkilər qalxıb gedərdilər.

Abbasi xəlifəsi əl-Vasiq (812-847) əlini üzünə aparıb, əsnəyəndə, nədimlər durub gedərdilər.

Məmun özünü yatağa atanda məclis iştirakçıları durub gedərdilər.

Amma bəzən başqa işarələrdən və əlamətlərdən də istifadə edirdilər. Burada deyilənlər, onlar tərəfindən daha çox istifadə edilən işarələr və eyhamlardır.

## Şahın qarşısında başqaları haqda mənfi danışmaq

Şahın hüzurunda başqası haqda mənfi danışmaq olmaz. İstər yüksək rütbəli insan olsun, istərsə də kiçik. Amma şahların xasiyyəti belədir ki, öz nədimləri və tərəfdarları arasında ixtilaf salar, onları bir-birinə qarşı bədbin edərlər.

Şahların bəziləri belə edirlər, çünki siyasət və ölkə idarəçiliyi bunu tələb edir. Deyilib ki, şahın sarayında iki nəfər məqamda, rütbədə, hörmətdə və şahın diqqətində olma baxımından bərabər olsalar, və belə birilərinin aralarında dostluq, qardaşlıq, həmrəylik və anlaşma olsa, ölkə idarəçiliyi işlərinin süstləşməsinə səbəb ola bilər. Çünki həmrəy və yekdil olsalar, xüsusilə də belə adamlar şahın vəziri olsalar, istədikləri zaman şahın möhkəmləndirdiyi işi süstləşdirə bilərlər və bağlanılmış əhdi-peymanları sındıra bilər və aradan apara bilərlər. Çünki onlar bir-birilə müttəfiq və yekdildirlər. Amma aralarında ixtilaf olsa, o həddə ki, bir-birilə höcətləşsələr, bu zaman onların ixtilafı ölkənin idarəçiliyi üçün faydalı və təsirli olar. Çünki biri bir səhv addımı atanda digəri əksini edəcək. Aralarında ixtilaf var deyə, şaha daha çox vəfadar olduqlarını göstərəcək və şaha itaət etməyi nəfsinə itaət etməkdən üstün tutacaq. Bu minvalla şah ölkə idarəçiliyində daha müvəffəqiyyətli olacaq və istədiyi də baş tutacaq.

Bu hamısına aid deyil, şahlardan bəziləri vəzirləri arasında ixtilafı o məqsədlə salmır. Onlar bəzən bunu yaxın adamlarının qüsurlarının ortaya çıxması üçün edirlər. Şahın bu qüsurları bilməsi, vəzirlərin sərbəstliyinin qarşısını alır və nəticədə onlar şahla hesablaşırlar.

## Şahın səfirləri necə olmalıdır?

Şahın səfirləri xoş təbiətli, sağlam, gözəl bəyanı olan, söz deyib, cavab verməyi bacaran olmalı, şahın xəbərini kəlməsi və mənası ilə çatdıra bilməli, doğru danışan olmalı, eyni zamanda da tamahkar, tündxasiyyət olmamalı və ona tapşırılanı qoruya bilməlidir.

Şah gərək öz səfirini uzun bir müddət ərzində sınağa çəksin və sonra onu səfir göndərsin. Əcəm şahları digər şahların məmləkətinə göndərmək üçün adamlarının içindən səfir seçəndə onu sınağa çəkərdilər. Əvvəl ona elə bir mesaj və məlumat verərdilər ki, elə şahın yaxınları və saray adamlarından birinə aparsın. Onun üzərində bir casus da təyin edərdi. Təyin edilən bu şəxs səfirin orada dediklərini eşidib yazar, qayıdanda da səfirin dediyi ilə casusun eşitdiyi müqayisə edilərdi. Əgər mənası eyni olardısa, şah bu səfirin dürüstlüyü və ağlına vaqif olardı. Sonra onu düşmənlərindən birinin sarayına casusla birgə göndərərdi. Səfirlə birgə göndərilən şəxs, onun göndərilən yerdə dediyi sözləri yazıb və ya əzbərləyib şaha çatdırardı. Əgər onun sözləri casusun dedikləri ilə eyni uzlaşsaydı, şah bunu əldə edərdi ki, səfiri, şahın düşmənin sözünü düzgün çatdırıb, eləcə də əldə edilərdi ki, onun dediyi və çatdırdığı iki şahın və iki məmləkətin arasında düşmənçiliyi artırmayıb. Şah səfirini bu minvalla sınayandan sonra ona etimad edər, digər şahların yanına elçi olaraq göndərərdi. Bundan sonra şah onun dediyinə etibar edər və onu sözünü yəqin bilərdi.

Babəkan oğlu Ərdəşir deyirdi: Səfirlərin tökdüyü o qədər nahaq qanlar var ki! Səfirlərin xəyanəti və yalanlarına görə, o qədər qətliam edilmiş ordular, məğlub olmuş hərbi qüvvələr, təcavüzə məruz qalmış namuslar, qarət edilmiş mal-mülklər, pozulmuş əhdi-peymanlar var ki!...

O deyirdi: Əgər şah digər şaha səfir göndərirsə, başqa bir səfir də göndərsin. Əgər bu ikisinin ardından daha ikisini də göndərmək imkanı varsa göndərsin. Əgər bu qədər səfirin fərqli yolla getmələri mümkünsə, yolda görüşməyəcəklərsə, sözlərini

bir yerə qoymayacaqlarsa, bunu da etsin. Bir səfir sevindirici və ya narahat edici mesaj gətirərsə, şah gərək dərhal reaksiya verməsin və digər bir səfirin vasitəsilə birinci mesajın doğruluğuna kəlmə və məna baxımından əmin olsun. Ola bilər səfir, işlədiyi səfirlikdə arzuladığına nail ola bilməyib və istədiyindən də məhrum olub və buna görə də göndərilmiş məktubda saxtakarlıq edərək, yalanla iki şahı bir-birinə qarşı təhrik edib.

## İskəndər və yalançı səfir

Nəql edilir ki, bir dəfə İskəndər şərq şahlarından birinə səfir göndərdi. Səfir bir müddət sonra qayıtdı və mesaj gətirdi. İskəndər mesajın bir kəlməsilə bağlı şəkk-şübhəyə düşdü. İskəndər ona dedi: Vay olsun sənə! Naçar qalmış şahların müşavirləri və məsləhətçiləri olur ki, səhv edəndə ona doğru yolu göstərirlər. Amma sən mənim üçün mesaj gətirmisən, kəlmələr onda doğru görünür və məna da anlaşılandır. Lakin orada bir kəlmə işlənilib ki, deyilən kəlmələri və ifadələrin ziddinədir. Sən bu kəlmənin doğruluğuna yəqinin var yoxsa tərəddüddəsən?

Səfir dedi: Mənim o kəlmə ilə bağlı yəqinim var.

İskəndər o səfirin mesajını kəlmə-kəlmə yazmaq göstərişini verdi, sonra ikinci bir səfiri şahın yanına göndərdi. İkinci səfir bu yazılmış mesajı şahın yanına apardı ki, onun üçün oxusun. Məktub şaha oxunanda, elə həmin kəlməyə çatanda dedi ki, bu mənim işlətdiyim deyil.

Şah mütərcimə dedi. Mənim barmağımı bu kəlmənin üzərinə qoy.

Şah barmağını o kəlmənin üzərinə qoyanda göstəriş verdi ki, o kəlməni məktubun üzərindən bıçaqla silsinlər. Şah İskəndərə belə yazdı:

Məmləkətin təməli şahın doğruluğudur və onun niyyəti də elçisinin düz danışması ilə ifadə edilir. Çünki o elçinin dili ilə danışır. Bıçaqla mənə aid olmayan kəlməni silib, götürdüm. Sənin səfirinlə bağlı haqqım çatmır deyə dilini kəsə bilmərəm.

Səfir İskəndərin yanına qayıtdı və məktubu ona verdi. İskəndər sabiq elçisini çağırdı və ondan soruşdu:

Nə səbəb olub ki, sən belə bir kəlməni işlətdin və iki ölkə arasında gərginliyə səbəb oldun?

Bunu görən səfir etiraf etdi ki, o şahdan gördüyü qüsura görə özündən əlavə kəlmə artırıb. İskəndər dedi: Bu o deməkdir ki, özünə xidmət etmisən bizə yox. Sən elə ki, bəzi arzularınla bağlı nakam qaldığını gördün, istədin ki, böyük şəxslər və yüksək rütbəli insanlar vasitəsilə intiqamını alasan!.

Sonda İskəndər göstəriş verdi ki, onun dilini boynunun arxasından çıxarsınlar.

## Şah ehtiyatını əldən verməməlidir

Şahın gecə və gündüz istifadə etdiyi yatağın yeri məlum olmamalıdır. Kimsənin qəsd edib, yaxınlaşa biləcəyi yerdə olmamalıdır. Çünki şahların canlarını həmişə hədəfə alanlar olur. Onlara bəzən hücumlar edilir. Adətən onun yatan vaxtını və digər xəbərsiz olan anlarını gözləyirlər.

Deyilir ki, Sasani şahlarından heç birinin yatan yeri və hətta gündüz mürgüləmək üçün istifadə etdikləri yatağın yeri məlum deyildi.

Əcəm şahları Ərdəşir, Şapur, Bəhram Gur, Yezdəgird və Xosrov Pərviz üçün 40 fərqli yerdə 40 fərqli yataq salınırdı. O dərəcədə ki, bu yataqların hər hansı birini görəndə onun şah yatağı olduğunu bilmək olmurdu. Hətta mümkün idi ki, şah onların heç birində olmasın. Ola bilərdi şah bu 40 yataqdan daha sadəsində və başqa yerdə yatmış olsun. Bəlkə də tam fərqli yerdə oturduğu halda başını qolunun üstünə qoyub yatıb.

Bizim şahlarımızın öz yataqlarını gözdən qulaqdan gizlətmələri haqda ən tutarlı dəlil peyğəmbərimizin (Allahın salamı olsun ona) etdiyidir. Baxmayaraq ki, peyğəmbərin Allah yanında hamıdan uca məqamı var idi, o Allahın amanında, Ruhuləmin də onun gözətçisi idi, amma yenə o yatağını gizli saxlamışdı. Şahlar da onun etdiyini edə bilərlər.

Müşriklər onu öldürmək istədilər. Cəbrayıl (Allahın salamı olsun ona) bu barədə ona Allahdan xəbər gətirdi. Peyğəmbər Əli ibn Əbu-Talibdən (Allahın salamı olsun ona) onun yerində yatmağı istədi. Əli onun yerində yatdı. Peyğəmbər isə başqa yerdə yatdı. Müşriklər evə basqın edib, yataqda Əlini görəndə çıxıb getdilər.[85]

Peyğəmbərin bu rəftarında bizim dediyimizlə bağlı gözəl və aşkar bir dəlil var. Çünki məmləkət üçün şahların canı səmanın kölgə saldığı və yer üzərində olan canlardan daha mühümdür.

Əcəm şahları deyirdilər ki, onların yataqlarını valideynlərindən başqa heç kim bilməməlidir. Valideynlərdən qeyrilərinə gəldikdə isə ehtiyat və uzaqgörənlik bunu tələb edir ki, onlardan çəkinmək lazımdır və etimad etmək olmaz. Bu ehtiyat ölkənin siyasəti, ayin və qanunları üçün daha münasibdir.

## Şahzadələrin şahla münasibəti

Şahzadənin şahla münasibəti, xidmətçinin şahla münasibəti kimi olmalıdır. Bu şahın haqqıdır. O, şahın izni olmadan onun otağına girə bilməz. Hətta şahla digərləri arasında olan örtük və pərdə nədimlər və tərəfdarla müqayisədə şahzadəyə daha sərt tətbiq edilməlidir. Bu ona görədir ki, övladlığı nəzərdə tutub, əndazədən çıxmasın və hüdudlarını aşmasın.

Nəql olunur ki, bir dəfə Yezdəgird oğlu Bəhramı elə bir məkanda gördü ki, orada olmamalı idi. Yezdəgird ondan soruşdu: Sən pərdəçi və xidmətçini keçib bura gəlmisən? Bəli, deyə cavab verdi. Şah yenidən soruşdu: Xidmətçi sənin içəri girməyindən xəbərdardır? Bəli, deyə cavab verdi.

---

[85] Qurani-Kərim, Bəqərə, 207. Hakim Nişaburi "əl-Müstədrək ələs-Səhihəyn" əsərində (c 3, səh 5) bildirir ki, həmin gecədə Əli Peyğəmbərin yerində yatdı və bu ayə onun barəsində nazil oldu. Ayə belədir: "İnsanların eləsi də vardır ki, Allahın razılığını qazanmaq yolunda (Allah rizası üçün) öz canını fəda edər. Allah öz bəndələrinə qarşı çox mehribandır!". İbni-Hənbəl "Fəzailus-Səhabə" əsərində (c 2, səh 484) də eyni sözü deyir.

Yezdəgird dedi: Onda qayıt get və o xidmətçiyə 30 şallaq vur və onu kənarlaşdırıb, daha qətiyyətli birisini ora qoy!

O zaman Bəhramın 13 yaşı var idi. O atanın dediyini etdi. Xidmətçi də şahın ona uşağa görə qəzəbləndiyini bilmədi.

Bundan sonra Bəhram atasının yanına gəlmək istəyəndə yeni xidmətçi onun sinəsindən elə vurub itələyərdi ki, ağrı verərdi. Xidmətçi bu minvalla onu pərdəyə yaxınlaşmağa qoymaz və uzaqlaşdırardı. Şahın pərdəçisi olan bu işçi və xidmətçi deyərdi: Əgər səni yenə də burda görsəm, 60 şallaq vuracağam. Otuzu, həmin o pərdəçiyə vurulan şallağa görə, otuzu da buna görə ki, bundan sonra mənim üstümə gəlməyəsən.

Bu söhbət gedib Yezdəgirdə çatdı. O, pərdəçini çağırıb, xələt verib yaxşılıq etdi.

Nəql olunur ki, Yezidlə atası Müaviyə arasında bir qapı var idi. Atasının otağına girmək istəyəndə orda olan kənizə deyərdi: Bax gör atam ordadır yoxsa gedib?!

Bir dəfə kəniz gəlib qapını açdı və bu zaman otaqda Müaviyəni əlində Quran, oturmuş halda, qarşısında da bir cariyəni gördü ki, ona Quran oxuyur. Kəniz qayıdıb, vəziyyəti Yezidə dedi. Bunu eşidən Yezid qalxıb, Müaviyənin olduğu otağa daxil oldu. Müaviyə üzünü oğluna tutub dedi: Oğul, mənlə sənin aranda qapı qoyulub. Eləcə də mənlə camaat arasında qapılar və pərdələr var. Sən indiyə qədər görmüsən ki, camaat mənim yanıma gələndə iznsiz daxil olsunlar?!

Yezid dedi: Xeyr görməmişəm.

Müaviyə dedi: Bura üçün məxsus edilmiş qapı da bunun üçündür. Bu qapı haçan döyülsə onda sənə daxil olmaq üçün izn veriləcək.

Həmçinin bizə nəql edilib ki, bir dəfə Musa əl-Hadi atası Abbasi xəlifəsi Mehdinin olduğu otağa iznsiz daxil oldu. Mehdi ona qəzəbləndi və dedi: Bundan sonra nəbada belə iş görəsən! Əks təqdirdə öz qapılarını da qoy açıq qalsın!

Nəql edilib ki, bir dəfə Abbasi xəlifəsi Məmunun, xəstəlikdən ağırısı şidətlənəndə, övladlarından biri pərdəçidən istədi ki, atasının yanına daxil olmağa icazə versin. Pərdəçi dedi: Allaha

and olsun! Yox olmaz!. Amma istəsən bir yerdən baxıb görəsən və o səni görməsin, elə isə qapı arasından və deşiyindən bax!

Məmunun övladı gəlib qapının deşiyindən baxaraq, atasını görüb, getdi.

Bizə nəql edilib ki, bir dəfə İtax[86] xəlifə Mötəsimin zamanında, onun oğlu Vasiqi, olması lazım olmayan yerdə gördü. İtax ona sərt cavab verib, dedi: Uzaqlaş burdan! Əgər bu sənə ikinci xəbərdarlığım olsaydı, səni əsa ilə yüz dəfə kötəkləyərdim.

Şahın övladı onun qarşısında itaətkar, təvazökar və təslim halındakı qul kimi olmalıdır. Varislik və ya övladlıq mövqeyindən də istifadə edə bilməz. Bu kimi adətlər orta və onlardan da aşağı təbəqələrin xasiyyətidir və onlara rəva hesab edilə bilər. Lakin şahlar camaata icazəli olan məsələlərin fövqündədirlər və bu kimi məsələlər onların şənində deyil.

Şahın övladı (qisas hökmü və ya digər cəza növü məqsədilə) qan tökə bilməz. Hətta qanun və milli adət-ənənələr buna icazə versə belə, olmaz. Əgər şah icazə verərsə və bu haqda onun rəyi varsa, olar. Bu kimi işləri şah dura-dura övlad etməməlidir. Ona görə ki, şahın icazəsi olmadan övlad bu kimi işləri görsə hökmdar o hesab edilər, şah deyil. Bu, şahı gözdən salar və məmləkətin zəifləməsinə səbəb olar.

Həmçinin şah dura-dura övladı halal-haram məsələlərində, namus məsələlərilə bağlı mövzularda hökm verə bilməz. Hətta vəliəhd, varis, və itaəti vacib hesab edilən məmur olsa belə. Əgər şahın bu haqda göstərişi varsa, olar.

Əgər şahzadə şahla eyni sarayda yaşayırsa, yalnız o yeməyə oturanda yeyib içməlidir və yalnız o yatanda yatağa girməlidir.

[86] İtax əl-Xəzəri Mötəsimin aşpazı olub. Qul kimi satın alınıb, Abbasi xilafətində mətbəxdə işə cəlb edilən bu şəxs 849-cu ildə vəfat edib. Əvvəl aşpaz sonra isə ordu sərkərdələrindən biri təyin edilib. Bu həmin şəxsdir ki, Babək Xürrəmi Bizans imperatoru Feofilə məktub yazanda demişdi ki, "bu Mötəsim az qala öz aşpazını da mənim üstümə göndərsin." (İbn əl-Əsir, VI, səh. 339), (Ət-Təbəri, III, səh. 1231, 1235)

Sarayda bütün sevindirici və narahatedici məsələlərdə onunla bir olmalı, onu gözləməli və görəcəyi hər işi şah etdikdən sonra etməlidir.

Şahzadələr barədə deyilənlər, saray əhlinə, nədimlərə və digər tərəfdarlara aid deyil. Çünki şahzadə şahın bədənin bir parçası və bir hissəsidir. Şah kökdür, şahzadə budaq. Həmişə budaq kökdən asılı və ona möhtac olur. Amma kök budağa möhtac deyil.

Şahın övladı, atasının qəzəbləndiyi şəxsdən razılıq nümayiş etdirə bilməz. O şəxs günahsız və təqsirsiz olsa belə. Çünki haqq-ədalət bunu tələb edir ki, atasının düşmənlərilə düşmən, dostları ilə dost olsun. O bu məsələdə nəfsinə və iradəsinə baxmamalıdır. Əgər belə etsə şahın hüquqlarını tapdalamış olacaq. Belə məqamda şahın qəzəbləndiyi və şahzadənin razı olduğu şəxs saraya nüfuz edib, onu öldürə də bilər. Adi camaatın bu məsələdə münasibəti də belə olmalıdır.

**Şahın kef-əhvalı olmazsa**

Bəzən şahın halında bir yorğunluq baş verir ki, onun səbəbi də yeni abu-havanın təmin edilməməsi və yeni dostun və həmsöhbətin olmaması ilə bağlıdır. Belə olan hallarda şahla həmsöhbət olan adam onun kimi rəftar etməməli, şahdan hər hansı bir qəzəbli addım və kobudluq görsə cavab olaraq oxşarını etməməlidir. Əgər belə etsə niyyəti əsla düz olmaz, itaətkarlığı itaətsizlik kimi, yoldaşlığı isə düşmənçilik kimi qələmə verilər. Şahla düşmənçilik edən adam, elə bil özü ilə düşmənçilik edib, həm də sanki öz yerini də pis edib.

Həmsöhbət, adətən şahlarda qaçılmaz olan bir (bəd) xasiyyəti öz şahından görərsə, onun diqqət və məhəbbətini cəlb etməyə çalışsın. Bunun asan vasitələri var. O cümlədən şahla təklikdə olanda ona maraqlı söhbətlər, gülməli dastanlar, bilmədiyi nadir atalar sözləri desin və onun üçün naməlum və üstüörtülü qalmış bir sıra məsələləri açıqlasın.

Əcəm şahlarının həmsöhbətləri və dastançıları da belə edirdilər. Nəql edilir ki, əcəm şahlarından biri dastançılarından biri-

nin yanında narahatlığını hiss etdirdi və ona xoş üz göstərmədi. Bunu görən dastançı gedib, itin hürməsini, canavarın ulaması, ulağın anqırması, xoruzun banlamağını və atın kişnəməsi öyrəndi. O sonra çalışırdı ki, özünü şahın oturduğu və yatdığı yerin yaxınlığına çatdırsın və orada gizlənsin. Orada gizlənib, it kimi hürməyə başladı. Yaxınlıqda itin və it balasının olduğunu güman edən şah dedi: Bir baxın görün bu it hardan gəlib, bura çıxıb?!

Şahın həmsöhbəti olmuş şəxs həmin anda canavar kimi ulamağa başladı. Şah taxtından yerə atıldı. O növbəti mərhələdə ulaq kimi anqırmağa başladı. Bunu eşidən şah oradan qaçdı. Şahın xidmətçiləri səsə tərəf getdikcə və ona yaxınlaşdıqca başqa bir səs eşidilirdi. Bu səsləri eşidən xidmətçilər də dayandılar. Amma sonda hamısı yığışıb, səsin çıxdığı tərəfə hücum çəkdilər. Onu gizləndiyi yerdə lüt-üryan vəziyyətdə aşkara çıxartdılar. Xidmətçilər bunu görüb, şaha dedilər ki bu Təlxək Mazyardır. Şah gülməkdən az qala özündən gedə. Şahın halı yerinə gəldi və Mazyara dedi: Vay olsun sənə! Səni bu işə nə vadar etdi?!

Təlxək dedi: Şah mənə əsəbləşəndə, Allah məni it, canavar, ulaq formasına saldı.

Bunu eşidən şah ona xələtin verilməsilə bağlı və əvvəlki rütbəsinin ona qaytarılması haqda göstəriş verdi.

Deyilən bu metodlar aşağı təbəqənin işlətdiyi vasitələrdir, lakin əşraf və əyanların şahın ürəyini ələ almaq üçün metodları öz dəyərləri qədərində fərqli növdə olur.

Əməvi dövründə Fələstin üzrə vali olmuş Ruh ibn Zinba da belə etdi. O ərəblərin dahilərindən idi. Bir dəfə Əbdülməlik ibn Mərvanın ondan üz döndərdiyini, narazı olduğunu hiss etdi. O, Vəlidə dedi: Məgər sən, möminlərin əmirinin məndən üz döndərdiyini görmürsən?! Onun bu qəzəbi mənə elə təsir edib ki, elə bil yırtıcılar mənə hücum üçün ağızlarını açıb, caynağlarını üzümə vururlar!

Vəlid ona dedi: Onda çalış elə bir dastan de ki, o gülsün!

Ruh ibn Zinba dedi: Yaxşı elə isə məclisdə olanda mənə “Abdullah ibn Ömər[87] zarafat edirdi?, Ondan xoşu gələr və qulaq asardı?”, deyə, sual soruşarsan.

Vəlid dedi: Yaxşı məclisdə olanda soruşaram.

Vəlid öndən məclisə daxil oldu, Ruh ibn Zinba da onun arxasıyca daxil oldu. Məclisdə hərə öz yerində oturandan sonra Vəlid üzünü Ruha tutub dedi: Abdullah ibn Ömər zarafata və gülməli dastanlara qulaq asardı?

Ruh dedi: İbni Əbi-Ətiq[88] mənə dedi ki, xanımı Əbdürrəhman qızı Akitə onun haqda belə bir həcvamiz şeir deyib:

“Allah yaşayışını təmin edən hər şeyi əlindən aldı və sən bu gecəni elə itirdin ki?!”

“Sən əmlakını necə gəldi hər fahişə qadının və şərabın yolunda xərclədin”

Ruh söhbətini belə davam etdi: İbni Əbi-Ətiq zarafatcıl və baməzə biri idi. Həmin o iki beyt şeiri bir parçanın üzərinə yazıb, özü ilə götürdü. Yolda Abdullah ibn Öməri gördü və ona dedi: Ey Əbu-Əbrurrəhman bir bu şeirə nəzər sal və fikrini de!

İbni-Ömər onu oxuyub dedi: İnna lillah və inna iləyhi raciun! (Biz Allahdanıq və Allaha sarı da dönəcəyik)

İbni Ətiq yenidən ondan soruşdu: Məni belə həcv edən şəxs barədə nə deyə bilərsən?

Abdullah ibn Ömər dedi: Məsləhət görürəm ki, onu bağışlayasan!

İbni Ətiq dedi: Ey Əbu-Əbdurrəhman Allaha and olsun əlim bu şeiri deyənə çatsa necə lazımdı ondan cinsi bəhrə alacağam.

Bu sözü eşidən Abdullah ibn Ömər diskindi və rəngi qaçmış halda İbni-Ətiqə dedi: Belə bir günah sözü dilinə gətirməkdən xəcalət çəkmirsən?!

---

[87] Abdullah ikinci xəlifə Ömər bin Xəttabın oğludur. Səhabələrdən hədislərin nəql edilməsilə məşğul olan əsas mühəddislərdən biridir. Hicri-qəməri tarixi ilə 10-cu ildə dünyaya gəlib və 73-cü ildə vəfat edib.

[88] Abdullah ibn Əbi-Ətiq ibn Əbdürrəhman birinci xəlifə Əbu-Bəkr ibn Əbu-Quhafənin nəvəsidir. Şən təbiətli və baməzə dastançılardan idi.

İbni-Ətiq, “Allaha and olsun elə dediyim kimi də edəcəm”, deyib, Abdullah ibn Ömərdən ayrıldı.

Bir neçə gün sonra qarşılaşanda, Abdullah ibn Ömər üzünü ondan döndərdi. Bunu görən İbni-Ətiq dedi: Səni and verirəm bu qəbirə (peyğəmbərin qəbrini göstərdi) və orada olana!, bir məni dinlə!

Abdullah ibn Ömər İbni-Ətiqin verdiyi andı eşidəndə qorxdu və dayandı. Amma yenə üzünü ona sarı tutmadı.

İbni-Ətiq dedi: Ey Əba-Əbdurrəhman mən bu şeiri deyənlə görüşdüm və ondan cinsi bəhrə aldım. Abdullah ibn Ömər qəzəbdən sanki ildırım kimi çaxdı. İbni-Ətiq onun bu qəzəbini gördü və yaxınlaşıb qulağına dedi: Bu mənim arvadımdır.

Abdullah ibn Ömər qalxdı və onun alnından öpdü.

Bu hekayəni eşidən Əməvi xəlifəsi Əbdülməlik ibn Mərvan elə güldü ki, az qalırdı yeri ayaqları ilə qazsın. Əbdülməlik üzünü, həmin bu hekayəni danışan Ruh ibn Zinbaya tutub dedi: Ölməyəsən!, Nə baməzə hekayə danışdın?!.

Əbdülməlik sonra əlini (vaxtilə üstünə qəzəbləndiyi) Ruh ibn Zinbaya tərəf uzatdı. Ruh dizə çöküb, onun ayaqlarını öpdü və dedi: Ey möminlərin əmiri!, Məndən bir günah görmüsünüzsə ona görə sizdən üzr diləyim, yoxsa sizin mənə olan qəzəbiniz hansısa bir yorğunluqdan baş verib? Əgər belədirsə onun yaxşı bitəcəyinə ümidvar ola bilərəm?

Əbdülməlik dedi: Allaha and olsun yox, bizim pis sandığımız bir şey olmayıb.

Əbdülməlik ondan sonra Ruh ibn Zinbaya yaxşı münasibət bəsləməyə başladı.

Buna oxşar hadisə Cərir ibn Ətiyyə əl-Xətfanın[89] Əbdülməlikin sarayına daxil olması zamanı baş verib.

Cəriri, Əbüdlməlik ibn Mərvanın yanına (Əməvilərin İraq üzrə valisi) Həccac ibn Yusif Səqəfi göndərmişdi. Həccacın oğlu

---

[89] Əməvi dövründə tanınmış saray şairlərindən olan və Bəni-Təmim qəbiləsinə mənsub Cərir ibn Ətiyyə əl-Kəlbi əl-Yarbui ət-Təmimi (650-728)

Məhəmməd birinci saraya daxil oldu və Cərirə dedi ki, sən sonda girərsən.

Cərir daxil olanda, Məhəmməd dedi: Ey möminlərin əmiri bu sənin şairin və məddahın Cərir ibn əl-Xətfadır.

Əbdülməlik dedi: Xeyr! O, mənim deyil, Həccac ibn Yusif Səqəfinin şair və məddahıdır.

Cərir dedi: Əgər möminlərin əmiri izn verərsə onun haqda bir mədhiyyə deyərəm.

Əbdülməlik dedi: Xeyr, Həccac ibn Yusif Səqəfi haqda de!

Şair Cərir belə bir şeir dedi:

"Ey Əbi-Əqilin oğlu dinin qorunması yolunda nəfsinə səbr aşıladın.

İndi sən bunun qarşılığında verilən əcri necə görürsən?

Xəlifə müharibə atəşini alovlandıranda, görər ki, Həccac o alovun ən güclüsüdür."

Şeiri eşidən Əbdülməlik, doğrudur, dedi.

Cərir əlavə edib deyir: Əbdülməlik mənim şeirimdən sonra arxamda duran Əxtəldə üz tutub, qalx bizim haqqımızda mədhiyyə söylə!, deyə səsləndi.

O qalxıb çox bəlağətli və əla bir mədhiyyə dedi.

Əbdülməlik Əxtəlin şeirini eşidəndən sonra ona dedi: Bax sən bizim şairimiz və məddahımızsan! Qalx min onun (Cəririn) belinə!

Cərir deyir ki, bu dəm xristian Əxtəl paltarının ətəyini yığdı və üzünü mənə tutub dedi: Ey Mərağənin[90] oğlu əllərini dizinə qoy və əyil!.

Amma Əbdülməlikin bu hərəkəti, orada olan əl-Mudriyyə qəbiləsinin adamlarının acığına gəldi və onlar dedilər: İslam dininə gələn müsəlmanın belinə kimsə minməməlidir. Bunu eşidən Əbdülməlik işindən əl çəkdi.

Cərir ibn əl-Xətfa sözünü belə davam etdi: Həmin gün Allahın ən rüsvay olmuş məxluqu kimi sarayı tərk etdim. Mən görür-

---

[90] Cərir ibn əl-Xətfanın anası Mərağə, bəzi şairlər ona həcvamiz şeirlər yazanda atası deyil, anasının adı ilə çağırardılar.

düm ki, möminlərin əmiri məndən üz döndərib və düşməninə üz gətirib. Bir müddət keçdi, ayrılmaq və görüş vaxtı çatanda yenidən saraya getdim. Qrupda saraya son daxil olan mən idim. Məhəmməd ibn Həccac yenidən səslənib dedi: Ey möminlərin əmiri bu Cərirdir və onun möminlərin əmiri haqda mədhiyyəsi var.

Əbdülməlik yenə, o bizim deyil Həccacın şairidir, dedi.

Mən ona, sizin şairinizəm dedim. O, isə xeyr, dedi.

Mən onun mənfi fikrini görəndə belə bir beyt qoşdum:

"Ayılırsan yoxsa qəlbin hələ ayıq deyil?!"

Əbdülməlik dedi: Ayılmayan qəlb sənin qəlbindir.

Mən daha bir beyt dedim və sonda onun xoşuna gələn beytə gəlib çatdım:

"Siz mübarizə üçün atlara qalxan ən yaxşılar deyilsiz?! Məgər siz bütün dünya əhlinin ən əliaçığı deyilsiz?!"

Əbdülməlik buna qədər mütəkkəyə söykənmişdi, bu beyti eşidəndə dikəlib, dedi: Bəli biz beləyik! O şeiri bir də təkrarla!

Mən şeiri təkrarladım. Rəngi-ruhu açıldı və xoşhal oldu. Qəlbində mənə qarşı olan hissi aradan getdi. Sonra üzünü Məhəmməd ibn Həccaca tutub dedi: Yüz dəvə, Həzrənin anasını[91] doyuzdurub sevindirə bilər?

Mən isə dedim: Ey möminlərin əmiri xüsusilə də Kələb bölgəsinin zəkatından olsa daha yaxşı olar. Əgər doymasa, Allah da onu doydurmayacaq.

Cərir belə davam edir: Əbdülməlik göstəriş verdi ki, zəkatdan mənə 100 dəvə versinlər. Əbdülməlikin qarşısında 4 qab gümüş var idi ki, ona hədiyyə etmişdilər. Əlimi qablara sarı uzada-uzada deyirdim: Ey möminlərin əmiri bu qabları neyləmək lazımdır?!

Bunu deyib qabların birini götürdüm. Bu zaman Əbdülməlik dedi: Götür apar ümidvaram ki bərəkətli olmaz!. Mənsə, möminlərin verdiyində bərəkət olur, deyib götürdüm.

---

[91] Həzrə Céririn qızıdır və Cəririn künyəsi də Əbu-Həzrədir.

Əbdülməlik ibn Mühəlhəl əl-Həmədani də elə son zamanlarda bu şəkildə Süleyman ibn Əbi-Cəfərin[92] etinasızlığı və cəfası ilə qarşılaşmışdı. Bir dəfə günorta istidə onun sarayına getmişdi. Pərdəçidən daxil olmağı istədi, lakin pərdəçi, əmirin hüzuruna getməyin vaxtı olmadığını bildirdi.

İbni-Mühəlhəl, pərdəçidən, mənim gəldiyimi əmirə bildir, deyə xahiş etdi.

Pərdəçi gedib, xəbər verdi və əmir Süleyman dedi: Ona deyərsən ki elə oturmadan salamlaşıb, tez getsin!

Pərdəçi qayıdıb, icazənin olduğunu bildirdi və ondan tez çıxmasını istədi.

Əbdülməlik ibn-Mühəlhəl saraya daxil olub, elə ayaq üstə salamlaşıb, dedi:

Əmirin işləri sahmanda olsun! Ötən gecə evə qayıdırdım. Gördüm ki azançı asılı məscid qarşısında azan verir və namaza səsləyir. Mən məscidə çıxmaq üçün yuxarı istiqamətdə getdim.

Bu zaman əmir Süleyman dedi: Gedib asimana çatdın və sonra nə oldu?

İbni-Mühəlhəl dedi: Sonra bir kişi gəldi bilmədim, kürd idi, sindli[93] idi, ya əcəm idi. Gəlib pişnamaz oldu. Sonra o elə bir söz dedi ki, anlamadım. Sonra belə (ayəni səhv) oxuyurdu: “Vəylun likulli həməzə zəmə malən və əddədəhu”[94]. Bu zaman camaat namazında arxada duran bir məst var idi və heç nə də anlamırdı, bu pişnamazın qiraətini eşidəndə əl-ayağını yerə çırpdı və özü belə oxumağa başladı: “İrəki dərkili, İrəki dərkili fi hirrəmi qarikə”[95]

---

[92] İkinci Abbasi xəlifəsi Mənsurun oğlu Süleyman, Hadi Abbasinin dövründə ordu sərkərdələrindən idi.

[93] Sind əyaləti—Pakistanın 4 böyük bölgəsindən biri. Mərkəzi Kəraçi şəhəridir.

[94] Bu naməlum pişnamaz Huməzə surəsinin birinci ayəsini ciddi səhvlərə yol verməklə oxuyurmuş. Əslində ayə belədir: “Vəylun li-kulli huməzətin lüməzəh. Əlləzi cəməə malən və əddədəh.”

[95] İfadənin xüsusi mənası əldə edilməyib, yalnız “İrə” və “hirrəmi” sözləri anlaşılır ki, onlar da pis söyüş olduğuna görə tərcümə edilməyib. Məst şəxsin bu işlətdiyi cümlə Məsudinin Murucuz-Zəhəb əsərində də başqa formada və

Bunu eşidən əmir Süleyman o qədər güldü ki, yatağa uzandı və qəhqəhədən qıvrıldı. Əmir Əbdülməlikə dedi: Ey Əba-Məhəmməd mənə yaxınlaş! Allaha and olsun ki, sən Məhəmmədin ümmətinin ən yaxşısı və ən ürəyə yatanısan!

Əmir sonra bir xələt gətizdirib, ona verdi və dedi: Bizim sarayımızın adamı ola bilərsən. Hər gün günorta bura gəl.

Əmir sonralar da ona məhəbbət göstərib, özünə yaxınlaşdırardı.

Şahların xasiyyət və rəftarını bilənlər bilir ki, onlar belə olur. Onların xasiyyətinə bələd olanlar şahların rəftarının bir haldan digər hala dəyişməsindən təəccüblənməzlər. Elə iki bərabər və şərik şəxsin və iki dostun əxlaqı və rəftarı da bir-birindən fərqlənir və eyni qalmır. Ola bilər bir şəxsin dosta və şərikə ehtiyacı olmasın, amma heç kimin bütün şərqi-qərbi, qaranı-ağı, azad və qulu, yuxarı və aşağı rütbəlini, qədir-qiymətli və rəzilləri nəzarətdə saxlayan şaha ehtiyacı olmaya bilməz.

## Ədəbləndirmə zamanı etinasızlığın faydası

Ola bilər şahın dostunu və həmsöhbətini ədəbləndirməsi üçün etinasızlıq etməsi, onunla ünsiyyətdə olmaqdan daha effektiv olsun. Etinasızlığa məruz qalan adam bundan narazı qalsa, bu faydalı ola bilər. Hər halda bunun faydalarından biri də bu olar ki, etinasızlığa məruz qalan şəxs işlərini həyata keçirmək üçün öncə tapa bilmədiyi fürsətləri və vaxtı əldə edə biləcək. Həm də o, əgər dastançılardandırsa, bu etinasızlığa məruz qalandan sonra vaxt tapıb, kitablar oxumaqla, digər insanlarla görüşməklə və müşahidələr aparmaqla, əlavə hekayələr və baməzə söhbətlər əxz edə bilər ki, öncədən məşğuliyyəti çox olduğuna görə bunu edə bilmirdi. Bu minvalla öz məlumatını artıra bilər. Həm də şahın etinasız yanaşması həqiqətən də qarşı tərəfə böyük ədəb verə bilər. Bundan əlavə o şəxs ki, şah onunla oturmağı qədir-qiymətli bilir və o adamla çox oturur, deməli belə bir şəxsin biraz tək

---

anlaşılmayan şəkildə gəlibdir. Çox güman ki, kitab yığılan və çapa hazırlanan zaman bu cümlə Cahizin yazdığı originaldan fərqli çıxıb.

qalmağa və rahat olub, özü ilə məşğul olmağa ehtiyacı vardır. Əksinə o adam ki, çox vaxt şahdan uzaq olub və ünsiyyəti də az olub, belə biri onsuz da həmişə şahla həmsöhbət olmağı istəyəndir. İnsanın təbiəti və fitrəti bu şəkildə formalaşıb.

Bəzən insan istədiyi o boş vaxtı əldə edəndə, hansı ki, ağlına gəlməzdi və şahın etinasızlığı nəticəsində hasil olub və hansı ki, ondan yorular və qaçardı, amma yeni vəziyyətdə öncəki haləti istəmiş olacaq.

Şahın qeyd edilən addımının məmləkətə bir faydası da budur ki, etinasızlığa məruz qalan şəxs hansısa bir yüksək vəzifəli əmr sahibi ola bilər, zamanında camaat ona üz tutub və ondan ehtiyatlanıblar. Amma elə ki, şahın etinasızlığına məruz qalır, tanıyanlar ondan üz döndərir, ona itaət edənlər isə itaətsizliyə yol verirlər. Bu adamın yaxşılıq etdiyi insanlar isə qayıdıb ona cəfa edirlər.

Bundan əlavə şahın bir şəxsə etinasızlığı onda camaatla bağlı mərhəmətin yaranmasına səbəb olur və etinasızlığa məruz qalan üçün nikbinliyə gətirib çıxarır.

Şah bir nəfərə qəzəblənib, ona etinasız yanaşsa və sonra razılıq nümayiş etdirsə, bu şəxs gərək Allaha şükür etsin ki, şahın qəlbinə mərhəmət ilham edib. Bu şəxs gərək sədəqə verib, əta etsin, oruc tutub, namaz qılsın.

Şahın bütün işləri müsbətdir, istər razı olsun istər qəzəblənsin, istər versin, istər verməsin, rifah halında olsun ya sıxıntı halında, fərq etməz. Amma bilici və təcrübəli adam bütün gücü ilə çalışmalıdır ki, şahın nəzərində orta vəziyyətdə qalsın. Yəni nə çox yaxın olmalıdır, nə də çox uzaq. Çünki məhz bu vəziyyət nemətlərin və statusun davamiyyəti üçün münasibdir. Bu vəziyyətdə olan rəqabətdən uzaq olar, paxıl və söz gəzdirən insanların ədavətindən amanda qalar.

## Şahın yaxınlarının xüsusiyyətləri

Şahın xüsusiyyəti belədir ki, yalnız dəyərli insanları, elmli, nəcabətli, əmanətdar və mədəniyyətli adamları özlərinə yaxınlaşdırmırlar. Qeyd edilən bu insanlar başqa cürdürlər və həmişə

şahın onlara vacib ehtiyacı olur. Məsələn şahın fiqhi anlayan düzgün hakimə, sənətində məharətli olan və bacarığına güvənən həkimə, kəlamları bilən və kəlmələri düzgün və dolğun istifadə edən katibə və bunu kimilərinə möhtacdır. Amma nədimlər, şah məclisində oturanlar, onun həmsöhbətləri, dastançılar, təlxəklər və bunu kimi yaxınlar şahdan asılı olanlardır. Hansı yerdən və hansı təbəqədən olur olsun.

Biz əcəmlərin kitablarında və onların şahlarının həyat yollarında da belə görmüşük. O cümlədən I Xosrov Ənuşirəvandan nəql edildiyi kimi. O deyirdi: Sənin dostun ətəyindən yapışandır.

Həmçinin Kəlilə və Dimnə əsərində şah barədə deyilir ki, o üzüm ağacı kimidir ki, ən yaxşı ağaca deyil, ən yaxınında olana bağlanır. Bunun əyani sübutunu bütün dövrlərdə görmüşük.

## Şahın səxavət və mərhəməti

Şahın əxlaqını göstərən əlamətlərdən biri də səxavətli və mərhəmətli olmasıdır. Bu ikisi yer üzündə bütün şahların ayrılmaz xislətləridir. Əgər biri desə ki, bu iki xüsusiyyət şahların qəlbində, bədənlərində olan bədən üzvləri kimi yer alıb və əgər desə ki, bu iki xüsusiyyət onların yaradılışının təkmilləşməsinin zərurətidir, doğru deyib. Belə bir adam haqqı çatır ki sözünü isbat etmək üçün əcəm şahlarını misal olaraq qeyd edib, desin:

"Bundan öncə keçmişdə olan şahlar barədə, məsələn əcəm şahları, "Təvaif-i Müluk"[96] və onlardan öncəkilər və sairləri barədə eşitməmişik ki, simic, insafsızlıq edən və mərhəmətsiz olduqları deyilsin"

Amma səxavətə gəldikdə, əgər deyilsə ki, bu xüsusiyyət şahların təbiətində olmur, onda hökmən seçilmək istəyən şah gərək onu əldə etsin və səxavətə adət etmiş olsun. Çünki bir malla bağlı səxavətli addım atmağın faydası, həmin o malı digər yerə

[96] Müsəlmanların İspaniyada yaratdığı Əndəlus dövlətinin hökmranlığı dönəmində xüsusilə də onun zəiflədiyi zaman dövlətin 22 kiçik əmirliyə bölünərək müxtəlif tayfalar tərəfindən idarə edilməsi zamanına deyilir. Bu XI əsrə təsadüf edir.

məsrəf etməkdən daha çox olacaq. Elə isə hər bir şahın əxlaqında səxavət xisləti olarsa, o, tərəfdarlarına baxmaq məsələsində, bəxşişi və yaxşılığı hamıya, hətta üz döndərmiş şəxslərə şamil etmək məsələsində, ona uzaq və ya yaxın olan xidmətçilərin mükafatlandırılması, yoxsul və biçarələrə məhəbbət bəsləmək mövzusunda da problemi olmaz və istər istəməz hamıya baxar.

Amma insaflı və güzəştli olmaq mehribanlığın bir növüdür.

Əgər şah özünü rəiyyətin başçısı kimi görürsə onda rəiyyətinə mərhəmət göstərsin. Əgər özünü imam kimi görürsə tərəfdarları ilə riqqətli qəlblə davransın. Əgər özünü ağa kimi görürsə onda qulları ilə mərhəmətli olsun.

Bəzən adi camaat və yaxın adamların çoxu şahlarla bağlı səhvlərə yol verirlər. Onları başqa adlarla adlandırır və onlarda olmayan xislətləri onlara nisbət verirlər. Onlar şahlara simiclik nisbətini verirlər. Bəzən şahları iqtisadiyyatla bağlı qaydalara əməl edəndə və ya infaq etmək məsələsində ədalətə riayət edəndə onları simic adlandırırlar. Amma bu ittihamı ünvanlandıranlar Mütəal Allahın peyğəmbərinə (Allahın salamı olsun ona) hansı şəkildə ədəb təlim etdiyindən qafildirlər. Belə ki, mütəal Allah buyurub:

"Nə əldən çox bərk ol, nə də əlini tamamilə açıb israfçılıq et. Yoxsa həm qınanarsan, həm də peşman olarsan!"[97]

Həmçinin Mütəal Allah digər bir ayədə əməli saleh bəndələrindən, maliyyə və yardım məsələlərində orta yola riayət edənləri mədh edir. Bu ayədə onlara təlim edilir ki, Allahın ən çox razı qaldığı halət normal həddə və orta yola[98] riayət etməkdir. Belə ki, buyurulur:

---

[97] Qurani-Kərim, İsra surəsi, 29

[98] Cahiz burada orta yol məfhumunu çatdırmaq üçün "iqtisad" kəlməsindən istifadə edir. Hansı ki, zaman keçdikcə bu ifadə cəmiyyətin və dövlətin maliyyə məsələləri ilə bağlı sahə olan iqtisadiyyat barədə istifadə edilməyə başladı. Hazırda ərəb dilində də iqtisadiyyat Azərbaycan dilindəki kimi eyni mənanı ifadə edir. Lakin klassik dini mətnlərdə "iqtisad" orta həddi qorumaq və israfa yol verməməyə deyilir.

“Onlar (mallarını) xərclədikdə nə israfçılıq, nə də xəsislik edər, bu ikisinin arasında orta bir yol tutarlar.”[99]

Bəzi məlumatsız insanlar xəsis və simic şahlarla bağlı yazılmış kitabda[100] bildirirlər ki, Hişam ibn Əbdülməlik (691-743), Mərvan ibn Məhəmməd (691-750) və Əbu-Cəfər əl-Mənsur (714-775) və qeyriləri də belə xəsislərdən olublar. Biz o kitabı yazanın məlumatsızlığını isbat etməyi lazım bilməsəydik, bəzi şahların simic və xəsis adlandırılması məsələsinə etiraz etməz və ona qayıtmazdıq. Mənsuru necə xəsis adlandırmaq olar?! Halbuki, İslam xəlifələri və digər xalqların və dinlərin şahları arasında ondan başqa bir milyonluq mükafat verən olmayıb.[101] Mənsur həmin şəxsdir ki, ailəsinin üzvləri arasında iki milyon dirhəm payladı. Bu, Heysəm ibn Ədiyy və Mədaininin dediyi rəvayətə əsasəndir.[102]

Bizim dostlarımızdan bəziləri Mənsurun sərkərdəsi İsa ibn Nihikin nökəri olan Zeyddən nəql edib deyirlər:

Ağam öləndə Mənsur məni çağırıb dedi: Ey Zeyd!

Mən, eşidən kimi ləbbeyk dedim.

Mənsur dedi: Əbu-Zeyd nə qədər miras qoyub gedib? Dedim ki, min dinar və ona yaxın.

Daha sonra mən, həmin məbləğin xanım Hürrə[103] tərəfindən mərhumun yasında xərcləndiyini bildirdim. Mənsur bu addımı israf bilib dedi:

---

[99] Qurani-Kərim, Furqan surəsi, 67

[100] Cahizin də “əl-Büxəla” (Xəsislər) adlı kitabı var. Bu əsəri hollandiyalı şərqşünas Van Volten 1900-cü ildə cəm edib və çapa hazırlayıb. Lakin Cahizin burada nəzərdə tutduğu görünür başqa kitabdır.

[101] Abbasi xəlifəsi Mənsur dörd əmisinin hər birinə bir milyonluq mükafat verib. (Təbəri, 3,421)

[102] Cahiz, Mənsurun öz qohum-əqrəbasına iki milyon paylamasını səxavətli addım kimi qiymətləndirir. Ola bilər bu onun subyektiv fikridir. Lakin bu addımı səxavət adlandırmağın başqa fəsadları ola bilər. Belə ki, bir qism bu addımı dövlətin və ümumi əmlakının mənimsənilməsi və bir qrup arasında əsassız şəkildə paylanılmasını, qohumbazlıq kimi qiymətləndirə bilər.

[103] Hürrə ad deyil, Əməvilər və Abbasilər dönəmində əmirlərin xanımlarına verilən ləqəb idi. Eynilə türklərin əmirlərinin xanımlarına verilən Xatun ləqəbi kimi.

“Onun matəmində min dinar xərcləyib?! Bu çox təəccüblüdür. Onun neçə qızı var?

Altı, deyə cavab verdim.

Başını aşağı salıb fikrə getdi və sonra başını qaldırıb dedi: Sabah sübh Mehdinin qapısında hazır ol.

Mən onun dediyini edib, səhər ora getdim. Məndən neçə qatır gətirdiyimi soruşdular.

Bildirdim ki, qatırların gətirilməsi barədə mənə göstəriş verilməyib. Hansı işə görə çağırıldığımı da bilmirəm.

Zeyd sözünü belə davam edir: Mənə 180 min dinar verildi və göstəriş verildi ki, İsanın qızlarının hər birinə 30 min dinar verim. Mən də belə etdim.

Mənsur yenə məni çağırtdırıb, soruşdu: Əba-Zeydin qızları üçün ayırılmışları təhvil aldın?

Dedim: Bəli ey möminlərin əmiri.

Mənsur dedi: Sabah mənim yanıma gəl və özünlə elə adamları gətir ki, məqam və əsli nəsəb baxımından Əba-Zeydin qızlarının şənində olsunlar. Bunu et ki onları ərə verim.

Zeyd sözünü belə davam edir: Növbəti gün mən sərkərdə Əkiyyin üç oğlunu və qızların əmisi oğulları hesab edilən Nihik nəslindən üç nəfəri özümlə Mənsurun hüzuruna apardım. Qızların hər birini otuz min dirhəm mehriyyəli kəbinlə ərə verdi. O, sonra bildirdi ki, mehriyyələr xəlifənin özünün əmlakından olsun. Mənə əmr verdi ki, onların hər biri üçün nəzərdə tutulan 30 min dinarla onlar üçün əkin sahələri alınsın ki onunla dolana bilsinlər.

Elə isə Mənsura simic deyən cahil və xain hansısa bir ərəb və əcəmin belə bəxşiş etməsi barədə eşidibmi?! Əgər Mənsurun bu məsələdə yaxşı xüsusiyyətlərini sadalasaq, kitabın mətləbi uzanacaq və məlumatlar çox olacaq.

Çox nadir hallarda olur ki, ümumi camaat və ya şahın xüsusi adamları belə məsələlərdə pisi yaxşıdan ayıra bilsinlər. Ümumiyyətlə bu məsələdə təqlid etməyi üstün tuturlar. Çünki təqlid edib, birinə o şəkildə münasibət bəsləmək zəhmət və xərc tələb etmir və nadanlığın ən mühüm sübutudur. Ümumi camaatın (çoxunun) cahil olmasını göstərmək üçün bu kifayət edər ki, onlar

eybi, iradı olsa belə kökü fəzilətli arıqdan üstün bilirlər. Onlar uzun boylunu qısa boyludan üstün bilirlər. Uzunluğa görə deyil, nəyə görədirsə biz də onu bilmirik. Onlar atın üstündəki adamı qatırın üstündəki adamdan üstün bilir, qatıra minəni ulağa minəndən üstün tuturlar. Çünki seçim təqlid üzündəndir, çünki bu növ seçimin əldə edilməsi asandır.

### Şahın xəstələnməsi

Şah xəstələnəndə haqqı çatır ki, gecələr və gündüzlər yaxın adamları onun yanına buraxılmasın. Hətta icazəni ziyarətə gəlmək istəyənlərlə bağlı şahın özü verməlidir. Pərdəçi də gərək, ziyarətə gələnləri özü müəyyənləşdirməsin. Əgər şahın özü pərdəçiyə belə bir səlahiyyət verərsə mümkündür. Əgər icazə verilərsə yuxarı təbəqə ilə aşağı təbəqə bir yerdə daxil olmamalıdır. Həmçinin bu təbəqədən bir dəstə, başqa təbəqədən bir dəstə bir yerdə şaha baş çəkmək üçün daxil ola bilməzlər. Pərdəçi gərək onları ayrı ayrılıqda içəri buraxsın. Birinci mərhələdə yuxarı təbəqənin nümayəndələri bir yerdə daxil olmalı, şahın hüzuruna müşərrəf olanda hərə öz yerində durmalı, salamı da verməməlidirlər ki, xəstə şah cavab verməyə məcbur qalmasın. Elə ki bildilər şah onları gördü, müxtəsər onun üçün dua edib, çıxsınlar. Sonra ikinci təbəqə xəstə şahın ziyarətinə müşərrəf olacaqlar. Onlar da məxsus yerdə durmalı, içəridə birinci təbəqədən az qalmalı, duaları da birincilərdən müxtəsər olmalıdır. Sonra üçüncü təbəqə müşərrəf olacaq və onların qalacağı müddət də şahın onlara nəzər salacağı qədərdir. Şah sarayı ilə bağlı adət belədir ki, bu təbəqənin adamları baş çəkməyə gələndə durub, ona baxıb dua etməməlidirlər. Onların rütbəsi elə bu qədərdir ki, onu görüb qayıtsınlar.

Eyni zamanda şahın hüquqlarından biri də budur ki, bu təbəqələrin nümayəndələri xəstə şahın vəziyyətindən hali olmayana qədər həmin gün öz evlərinə getməsinlər. Yaxşı olar ki, onların hər biri öz ağasının və sərvərinin olduğu dərgahı tərk etməsinlər və onun ağır vəziyyətdən çıxmasını gözləsin-

lər. Həmişə onlar gərək, şahın sağlamlığı və səhiyyə durumundan hali olsunlar.

**Şah tərəfdarlarının mükafatları**

Şahın üzərində, xüsusi adamlarının və tərəfdarlarının mükafatlandırılması ilə bağlı öhdəliklər var. Bu öhdəlik aylıq və illik formasında da olsa həyata keçirilməlidir.

Gərək şahın yaxşı xüsusiyyətlərindən biri də bu olsun ki, onların mükafatlarının və haqlarının verilməsilə bağlı bir nəfəri vəkil tutsun və bu vəkil mükafatlandırma zamanını şaha xatırlatsın. Belə etməlidir ki, tərəfdarların məktub yazmağa, hansısa bir xatırlatmanı etməyə və kinayələrə ehtiyacları olmasın. Çünki belə bir halət ayıq-sayıq və diqqətli şaha yaraşmaz.

Sasani şahları bu məsələdə elə addım atıblar ki, metodları hələ də xatırlanır və dünyanın sonuna qədər də yaddaşlarda qalacaq.

Sasani şahları öz xüsusi adamları və tərəfdarları üçün elə bir aylıq nəzərdə tuturdular ki, onların ümumi və xüsusi ehtiyaclarını orta həddə təmin etmək üçün kifayət etsin. Bu məvacib nə çox idi, nə az. Məsələn əgər ayda 10 min dirhəm verilsəydi və o adamın yeri və mülkü olsaydı belə, şah göstəriş verərdi ki, hər 30 gündən bir onun qonaqları üçün, nəfəqələr və digər ehtiyacların qarşılanması üçün daha 10 min dirhəm ödənilsin.

Şah belə birisinə deyirdi: Biz bunu bilirik ki, sənə verdiyimiz sabiq mülk, keçmişdə göstərdiyin xidmətə görədir və verilən o mülk bizim tərəfimizdən bir təşəkkürdür. Elə isə rəva olmaz ki, bizim xidmətimizdə qalasan, xərclərini və ehtiyaclarını yenə də sabiq zəhmətlərinə görə verilən mülklə təmin edəsən. Sən indi həmin mülkün bəhrəsini gələcək üçün gələcəkdə baş verə biləcək hər hansı bir hadisə üçün, ölüm məsələləri, zamanın və güzəranın dəyişiklikləri üçün yığ saxla, amma indi sənin xərc-məxaricin bizim öz malımızdan təmin ediləcək.

Sasanilərin dövründə hər üç təbəqənin nümayəndələrilə də eyni sistem və eyni qaydalarla rəftar edilirdi. İyirmi il keçirdi, heç kim ağzını açıb bir dirhəm belə istəmirdi. Çünki o, həyatın-

dan razı, şahın yaxşılıqları və bəxşişlərindən xoşhal idi. Bu səbəb olurdu ki, nəyisə istəməsin, şikayət və giley-güzar etməsin və razı qalsın.

### Novruz və mehregan[104] hədiyyələri

Novruz və Mehregan bayramlarında şaha hədiyyələr təqdim etmək lazımdır. Çünki bu ikisi ilin mühüm iki fəslidir. Mehregan qışın və soyuqların gəlməsindən ibarətdir. Novruz isti mövsümün başlamasının əlamətidir. Novruzda bir sıra məziyyətlər var ki, Mehreganda yoxdur. O cümlədən yeni ilin qarşılanması, bac-xərac yığımının çatması, əkinin başlaması, nəzarətçilərin və işçilərin dəyişdirilməsi, dirhəm və dinar sikkələrini zərb etmək, atəşgahları təmizləmək və abrizan[105] mərasiminin keçirilməsi, qurban boyun almaq və kəsmək, abadlıq və təmir işlərini görmək və sairlərin olduğu zamandır. Bu deyilənlər Novruzun Mehregana olan üstünlüyüdür.

Belə məqamlarda şahın haqqı var ki, sülaləsinin nümayəndələrindən və xüsusi adamlarından hədiyyələr alsın.

Onların ayini bundan ibarət idi ki, hər kəs istədiyini şaha hədiyyə edirdi. Məsələn əgər yuxarı təbəqədən və saray əhlindəndirsə və müşk sevəndirsə elə müşk hədiyyə edəcək. Əgər ənbər sevirsə ənbər hədiyyə edəcək. Əgər libas və xələt sevəndirsə, ondan verəcək. Əgər şücaətli sərkərdələrdən və döyüşçülərdəndirsə, at, nizə və qılınc hədiyyə edə bilər. Əgər atıcıdırsa, adət budur ki, kaman və ox hədiyyə etsin. Əgər varlı biridirsə, qızıl-gümüş hədiyyə etsin. Əgər şahın işçilərindəndirsə, köhnə ildən

---

[104] Mehregan (fars. مهرگان)— İran xalqları və zərdüştilikdə müqavilə, dostluq və sevgi ilahı Mehrin (fars. مهر) şərəfinə keçirilən bayram. Mehregan təqvim ilinin 196-cı günü ilə üst-üstə düşür. Təqvim ilinin başlanğıcı adətən Novruz bayramı günü (21 mart) götürülür və Mehregan bayramı 2 oktyabra təsadüf edir.

[105] Abrizan və ya “Ab paşan” və ya “Ab tireqan” Sasanilər dönəmindən öncə də həyata keçirilən bir ayin idi. Bu ayin tir ayının 13-də həyata keçirilir və həmin zaman insanlar bir-birinə su və gülab səpirdilər. Səfəvilərin dövrünə qədər davam edib.

öhdəsində qalmış vergilərdən, ipəkdən toxunmuş kiçik kisələrə yığıb, onu gümüşü rəngli ipək lentlə bağlasın, ənbərlə möhürləyib, şaha göndərsin.

Məmur və işçilərdən hər hansı biri öz yığdığından və məvacibinin yerdə qalan hissəsindən hədiyyə etmək istəsəydi, şaha bağlılığını, doğruluğunu və əmanətdar olduğunu göstərmək istəsəydi, bunu edərdilər. Şairlər öz şeirlərindən, xətiblər xütbələrindən, nədimlər fərqli töhfələrdən, maraqlı lətifələrdən və hətta nübar meyvə və tərəvəzlərdən hədiyyə edərdilər.

Amma şahın xanımları və xüsusi cariyələri əzizlədikləri və üstün bildikləri nə varsa, eynilə kişilər haqda deyildiyi kimi, ondan şaha hədiyyə versinlər. Şahın xanımlarının hər birinə vacibdir ki, şahın, görəndə xoşhal olduğu və xoşladığı kənizi onun üçün ən yaxşı vəziyyətdə, ən ali halda bəzəyib, hədiyyə etsinlər. Şahın xanımlarından biri belə etsə, şahın o xanımla bağlı öhdəliyi yaranar və onu digər xanımlardan üstün tutar və istər istəməz məqamı qalxar. Xanım bilməlidir ki, bu işi ilə şahın istəklərini öz istəklərindən üstün tutub və ona elə bir hədiyyə edib ki, fədakarlıq hesab edilir. Bu iş çox nadir qadınların edə biləcəyi işdir.

Xüsusi və yaxın adamların verdiyi hədiyyələrlə bağlı şahın öhdəliyində də bir sıra haqq-hüquqlar var və onlardan biri də, hədiyyələrin nümayiş etdirilərək, təqdim edilməsi və ədalətli şəkildə qiymətləndirilməsidir.

Əgər hədiyyənin qiyməti 10 min dirhəmdirsə xüsusi adamların dəftərində qeydiyyata alınardı. Əgər bu hədiyyəni verən adam malın mənfəət və bəhrəsini gözləyən və təvəqqe edən biri olsaydı, sonra bir problemə düşsəydi və ya özünə ev tikmək istəyən biri olsaydı, qonaqlara böyük süfrə açmaq istəsəydi, toy etmək istəsəydi, oğlunu evləndirmək və ya qızına cehiz alıb ər evinə göndərmək istəsəydi, yəni hər hansı bir köməyə ehtiyacı olsaydı, divanda onun adında olan sabiq hədiyyənin məsələsinə yenidən baxardılar. Bu iş üçün xüsusi adam təyin etmişdilər. O adamın hədiyyəsinin işinə baxar, dəyəri 10 min dirhəmə çatsaydı, iki qatını ona qaytarardılar ki, üzləşdiyi problemlə bağlı ehtiyacını aradan qaldırsın.

Əgər bir şəxs ox və kaman hədiyyə edibsə və ya hətta bir dirhəm, alma və ya ağac qovunu hədiyyə edibsə, hər halda divanda qeydə alınmalı idi. Əgər haçansa problemlə üzləşsə, onunla bağlı şaha məlumat verərdilər. Bu zaman şah ona kömək etməli idi. Xüsusilə də əgər sərkərdə, döyüşçü, tərəfdar və həmsöhbətlərdən biri olarsa. Belə olan halda şaha hökmən xəbər verilərdi ki, filan şəxsin hədiyyə verdiyi kaman, dirhəm, ağac qovunu və ya alma divanda qeydiyyata alınıb. Şah da göstəriş verərdi ki, bir alma ya ağac qovununu götürüb, içinə səliqəli şəkildə dinarları yığsınlar və o şəxsə göndərsinlər. Hədiyyəsi ox və kaman olan adamla bağlı atılan addım bu idi ki, hədiyyəni saxlanılan yerdən çıxarar, adını ox və kamanın üzərinə yazar, bir yerə qoyardılar və onun hündürlükdə şah xələtləri və digər paltarları çinləyərdilər. Çinlənən şah paltarları oxun hündürlüyünə çatanda həmin adamı çağırar və paltarları ona verərdilər. O da istədiyi kimi ehtiyaclarına sərf edərdi.

Əgər bir şəxs Novruz və ya Mehregan bayramında kiçik ya böyük, az ya çox olan bir hədiyyə versəydi, sonra problemlə üzləşdiyi zaman Şah tərəfindən ona bir dəstək gəlməsəydi, o şəxs saraya getməli və özünü onlara xatırlatmalı idi. O gərək bu qaydanı və bu adəti yaddan çıxarmasın. Əgər bu yaddan çıxarma, bir hadisəyə görə və ya bir maneəyə görə olsa ona irad tutulmaz. Amma bilə-bilə saraya getməsə və özünü onlara xatırlatmasa, bu zaman şah onun payını altı aylığa kəsə bilər. Əgər düşməni olsa payı düşməninə də verilə bilər. Çünki problemi ola-ola saraya müraciət etməyibsə, şahın məqamına xələl gətirən iş görüb və sanki bir növ məmləkətin rəhbərliyinə etibar etməyən iş görüb.

Ərdəşir ibn Babəkan, Bəhram Gur və Ənuşirəvan Novruz və Mehregan bayramında xəzinədə olan nə geyim varsa, onların çıxarılmasını tapşırardılar və hamısını şahın yaxınları və xüsusi adamlarına, sonra da dərəcələrinə görə digər camaata paylanılması göstərişini verərdilər.

Onlar deyirdilər: Şahın qışda yay paltarına, yayda da qış paltarına ehtiyacı yoxdur. Paltarlarını xəzinədə gizlətmək və bu

məsələdə camaatla eyni xasiyyətdə (simiclik) olmaq şah əxlaqından deyil.

Onların adəti bu idi ki, Mehregan bayramında xəz dərisindən, ipək materialdan yeni və rəngarəng paltar geyinirdilər. Göstəriş verirdilər ki, yay paltarları qeyd edilən formada camaata verilsin. Novruz bayramı gələndə yüngül və nazik paltarlar geyinər, qış paltarlarının paylanılması göstərişini verərdilər.

Onlardan sonra bu adət-ənənəyə riayət edən yalnız (Abbasilərin Xorasan üzrə valisi) Abdullah ibn Tahiri (798-844) tanıyırıq. Mən Məhəmməd ibn əl-Həsən ibn Məsəbdən[106] eşitdim, deyirdi ki, Abdullah Novruzda və Mehrganda bunu edirdi. O xəzinəsində yalnız geyindiyi paltarı saxlayırdı. Bu onun fəziləti barədə bizə deyilən ən yaxşı xəbərlərdəndir.

## Şahların əyləncə və içkisi

Şahların xasiyyətində əyləncə də var. Şahların ən xoşbəxti odur ki, bu iş üçün xüsusi vaxt təyin etsin və bu proqramdan çıxmasın. Əgər belə etsə əyləncə və yumor xoşuna gələr. Amma bu işi adət halına gətirsə, həmişə əyləncə ilə məşğul olacaq. Bu zaman (müvəqqəti) əyləncə (daimi) vərdişə çevrilər və nəticədə şah onu tərk edə bilməz. Belə olan halda əyləncə ləzzətbəxş ola bilməz. Bu xoşbəxt şah üçün xoşagələn hal deyil.

Hər kəs dünya ləzzətlərindən birinə adətkərdə olsa, o ləzzətə vərdiş etməyən adamın aldığı qədər həzz ala bilməz. Biz bunu əyani şəkildə görmüşük. Məlumdur ki, qida və təamların ən ləzzətlisi şiddətli aclıq zamanı qəbul ediləndir. Ən yaxşı yaxınlıq subaylığın uzun sürdüyü və şəhvətin çox olduğu zamandadır. Ən şirin yuxu yorğunluqdan, uzun sürən oyaqlıqdan və yuxusuzluqdan sonra olur. Dünyanın bütün ləzzətləri belədir.

---

[106] Məhəmməd ibn əl-Həsən ibn Məsəb Tahirilər sülaləsindən dövlət xadimidir. O həmin şəxsdir ki, xəlifə əminin başını Məmuna apardı. O və Məsəb Zübeyri fərqli şəxslərdir.

Bu məziyyətə görə idi ki, köhnə dövrün şahları gecə və gündüzlərinin bir vaxtını ləzzətlərə məxsus edərdilər.

Xoşbəxt şah gərək gününü bir neçə hissəyə bölsün: Gününün birinci hissəsini Allahı yad etmək, təzim və ibadət etməyə, naharı isə rəiyyətə və onların işlərini yoluna qoymağa həsr etsin. Günortadan sonranı yeməyinə və yatmağına, günün axırını isə əyləncəsinə həsr edə bilər. Amma hər gün əyləncə ilə məşğul olmağa vərdiş etməsin. Əgər deyilən bu məşğuliyyətlərin hər biri həddən ziyadə olsa, nə əyləncəsi ləzzətbəxş olar, nə də dünya nemətlərinin dadı olar.

Sasani şahları həftədə bir gün içirdilər. Amma Bəhram Gur, V Artaban (vəfat ili: 224) və II Şapur (309-379) hər gün içməyə vərdiş etmişdilər.

Amma Numan ibn əl-Munzir (öldürüldüyü il: 609) kimi əl-Hirənin[107] ərəb şahları və tayfa əmirləri sutkada bir dəfə içirdilər.

İslam əmirlərindən isə Yezid ibn Müaviyə idi ki, şərab içməyə vərdiş etmişdi. Hər gecə məst olub yatır, duranda da xumar vəziyyətdə olurdu.

Digər əməvi hökmdarı Əbdülməlik ibn Mərvan ayda bir dəfə içir və elə içirdi ki, məstlikdən göydə ya yerdə olduğunu bilmirdi. O, deyirdi: "Bunu içməkdən məqsədim ağılı parlatmaq, hafizəni gücləndirmək və fikiri aydınlatmaqdır."

O, məstliyin ən şiddətli olduğu zamana çatanda içdiyini qaytarırdı və daxilində heç nə qalmırdı. Bu zaman o, yüngülləşir, huşu və ağlı başına gəlir, aktiv və güclü olurdu.

Əməvi hökmdarı Vəlid ibn Əbdülməlik iki gündən bir içirdi.

Digər Əməvi hökmdarı Süleyman ibn Əbdülməlik üç gecədən bir içirdi.

Amma Əməvi hökmdarı Ömər ibn Əbdüləziz xəlifə olandan ta dünyadan köçənə qədər içmədi və bu dövrdə o musiqi və qina da dinləmədi.

---

[107] Miladi təqvimi ilə 300-602-ci illərdə İraqda hakim olmuş ərəb əmirliyinin adı əl-Hirə idi. Mövcud olduğu dövrdə çox vaxt Sasanilərə tabe olan bu əmirlik Ləxmilər sülaləsinə aid idi. Varlığı İslamdan öncəyə təsadüf edir.

Hişam ibn Əbdülməlik hər cümə məst olurdu.

Sülalənin digər hökmdar və əmirləri Yezid ibn Vəlid və Vəlid ibn Yezid ümumiyyətlə içki içən idilər. Yezid ibn Vəlid yalnız iki halətdə görünürdü. O, ya məst olurdu, ya da xumar.

Mərvan ibn Məhəmməd həftənin çərşənbə axşamı və şənbə gecələri içirdi.

Abbasi hökmdarlarından Əbul-Əbbas Səffah yalnız çərşənbə axşamı içərdi.

Digər Abbasi hökmdarları Mehdi və Hadi iki gündən bir içərdilər.

Harun ər-Rəşid hər cümə günü iki dəfə içərdi. Bəzən bunu qabağa və ya təxirə salardı. Amma heç kim onun hamının gözü qarşısında və açıq-aşkar şəkildə içdiyini görməyib. Həftədə içdiyi iki dəfənin hər ikisini də pərdə arxasında nədimlərilə birgə keçirərdi.

Məmun hökmdarlığının ilk günlərində çərşənbə axşamı və cümə günləri içərdi. Sonra (hicri-qəməri təqvimi ilə) 215-ci ildə Şam istiqamətdə irəliləyən zamanlarında içkiyə qurşandı. Ta ölənə qədər belə oldu.

Abbasi hökmdarı Mötəsim cümə axşamı və cümə günləri içmirdi.

Vasiq də deyəsən şərab düşgünü olmuşdu və davamlı içirdi. Amma cümə günü və gecəsi içmirdi.

## Şahların geyimi

Şahların adət və xüsusiyyətləri geyimdə və ətriyyat istifadə etmək məsələsində fərqlidir. Bəzi şahlar köynəyi bir gün və bir saatdan çox geyinmirlər. Adətləri bu idi ki, bir dəfə əynindən çıxardılarsa daha onu geyinməzdilər.

Onlardan bəziləri köynək və cübbəni[108] bir neçə gün geyinər, rövnəqdən düşən kimi onu daha geyinməz və atardılar.

---

108 Üstdən geyilən uzun ətəkli, enli, düyməsiz geyim. Keçmişdə qocalar həm də cavanlar geyərdilər. Xalata bənzəyir. Cübbənin qolları, boynunun arxası, yaxası, bəzən də qabaq ətəyi zərbaf naxışları ilə bəzədilərdi.

Ərdəşir ibn Babəkan, Yezdəgird, Bəhram Gur, Xosrov Pərviz, Ənuşirəvan və I Qubad köynəyi yuyulması lazım olana qədər geyinər, yuyulandan sonra yenidən geyinər, yenidən yuyulana qədər geyirdilər. Üç dəfə yuyulandan sonra geyinməzdilər. Bu köynəklər övlada, əmilərə, əmi uşaqlarına, qardaş və qardaş uşaqları kimi yaxınlara veriləcək xələtlərin arasında qoyulurdu. Adətləri belə idi ki, geydiklərini yalnız hakim ailənin üzvlərinə xələt kimi verərdilər. Bunu digərlərinə verməzdilər. Amma digər təbəqələrin nümayəndələri və adi camaat üçün ayrılan xələtlər şahların geyindiyindən deyildi.

Ərəb şahlarından[109] bəziləri köynəklərini davamlı şəkildə geyinərdilər. Bir neçə dəfə yuyulardı və geyinərdilər. Müaviyə ibn Əbu-Sufyan, Əbdülməlik, Süleyman, Ömər ibn Əbdüləziz, Hişam, Mərvan ibn Məhəmməd, (Abbasi hökmdarlarından) Əbul-Əbbas Səffah, Əbu-Cəfər əl-Mənsur və Məmun bu qəbildən olublar.

Amma Yezid ibn Müaviyə, Vəlid ibn Yezid, Yezid ibn Vəlid, (Abbasi hökmdarlarından) Mehdi, əl-Hadi, Harun ər-Rəşid, Mötəsim, Vasiq, bunlar isə köynəyi yalnız bir dəfə geyinərdilər. Əgər köynək nadir və cəlbedici olsaydı bir neçə dəfə geyinərdilər.

Amma şahlar cübbə və çəpkən kimi üst geyimlərini bir il ya biraz çox geyinərdilər. Onlardan bəziləri dəridən olan üst geyimlərini bir neçə il geyinirdilər. Məlumdur ki, cübbə və çəpkən altdan geyinilən paltarlar kimi deyil. Çünki köynək və şalvar altdan geyinilən paltarlardır və digər paltarlar üstdən

---

[109] İslamdan sonra xilafət dövründə adətən ərəb hökmdarlarına xəlifə deyə xitab edirdilər. Lakin burada Cahiz elə Müaviyə ibn Əbu-Sufyan da daxil olmaqla Əməvi hökmdarlarına "ərəb şahları" deyə xitab edir. Tarixi faktlara əsasən Müaviyə özünü şah adlandırırdı və idarəçilik sistemini də tədricən şahlıq rejiminə çevirmişdi. IX əsrin şafei alimi Şahabuddin Məhəmməd bin Əhməd Əbul-Fəth Əbşuvəyh "Əl-Müstətrəf fi kulli fənnin müstəzrəf" əsərində (c 1, səh 213) yazır ki, Müaviyə öz addımları ilə digər şahlar kimi onun şahlıq şəninin də qorunmasını tələb edirdi. Onu da qeyd etmək lazımdır ki, bu əsərdə Cahiz İslam xilafətinin ilk beş xəlifəsindən demək olar ki, söz açmayıb. Bu qənaətə gəlmək olar ki, Cahiz onları digərlərilə müqayisədə müqəddəs bilərək, şahların cərgəsinə qatmaq istəməyib.

geyinilir. Bəziləri də var idi ki, üst paltarları yenidən və davamlı geyinməzdilər.

Ətriyyat istifadə etməkdə şahların müxtəlif adət-ənənələri var idi. Onlardan bəziləri özlərinə ətir və ya müşkü-ənbər vursalar, iy paltarlardan getməyənə qədər yenisini vurmazdılar.

Onlardan bəziləri ətir və müşkü-ənbər istifadə edər, burnuna iy gəlsə və paltarı xoş ətirli olsa belə yenə göstəriş verərdi ki gülab gətirib başına töksünlər və beləcə gülab bədəninə qədər axardı. Növbəti gündə də həmin şeyi edərdi.

Bəziləri isə paltarından xoş qoxu kəsilməyənə qədər ətir və müşkü-ənbər istifadə etməzdilər. O cümlədən Sasani şahlarından Ərdəşir ibn Babəkan, Qubad ibn Firuz ibn Yezdəgird, Xosrov Pərviz və Ənuşirəvan. Ərəb şahlarından isə Müaviyə ibn Əbu-Sufyan, Əbdülməlik, Vəlid, Süleyman, Ömər ibn Əbdüləziz, Hişam və Mərvan ibn Məhəmməd. Abbasi xəlifələrindən isə Əbu-Cəfər əl-Mənsur və Məmun.

Mötəsim nadir hallarda ətir istifadə edirdi. Bunun əvəzində fiziki gücünü möhkəmləndirirdi ki döyüş qabiliyyəti artsın. Döyüş zamanı Mötəsimə yaxınlaşan adam onun bədənindən silahın dəmir və pas iyinin gəldiyini hiss edirdi.

## Şahın öz yaxın adamlarını ziyarət etməsi

Şahın adətlərindən biri də budur ki, hörmətə layiq, rütbəsi və məqamı yuxarı olan adamları ziyarət edir.

Şahın ziyarəti 4 növdür; Biri nədimlərilə həmsöhbət olmaq və süfrə başına oturmaq üçün, ikinci xəstəyə baş çəkmək, üçüncü baş vermiş müsibətə görə başsağlığı vermək, dördüncü şahın sırf təzim və hörmət etmək məqsədilə birinə baş çəkməsi. Dördüncü digər qismlərlə müqayisədə daha üstündür. Qeyd edilən üç qism isə adətən ziyarət olunan şəxsin şahdan istəyi yolu ilə baş tutur və bir növ şahın o adama lütf və mərhəmət göstərməsidir.

Bu da ola bilər ki, şah vəzirinə lütf edərək, onu özünə yaxınlaşdırıb və digər tərəfdarlarından və yaxınlarından üstün tutub. Bu zaman vəzir də hiylə işlədərək, özünü xəstəliyə vurur ki, şah ona

başçəkməyə gəlsin. Bu yolla o istəyir ki, şahın yanında olan məqamını, rütbəsini və digərlərindən öndə olduğunu camaata göstərsin və xalqın gözündə daha çox hörmət-ehtiram qazansın.

Digər tərəfdən də nadir hallarda olar ki, vəzir, ordu başçısı və ya digər dövlət adamı şahdan onu ziyarət etməsini istəsin və şah onun xahişini yerə salsın. Xüsusilə də əgər şah o dövlət adamının bu xahişdən məqsədini bilərsə və belə bir ziyarətin baş tutması ilə məqamını, hörmətini və ad-sanını qaldırmaq istəyərsə.

Elə isə əgər şahın birinə baş çəkməsi həmin ilk üç qismdən birinə görədirsə, deməli məqamını və ad-sanını qaldırmaq talibində olan dövlət adamı artıq arzusuna çatıb.

Amma şahın başqasının ziyarətinə sırf ona təzim məqsədilə getməsi, ziyarət olunanın istəyi və xahişi ilə olmur. Vəzirlərin, əyan və əşrafın əxlaqında belə bir şey yox idi ki, şaha, bizə təzim məqsədilə və camaatın gözündə qalxaq deyə, ziyarətə gəl, desinlər.

Əgər haçansa bir şahın belə bir addımı öz istəyi üzündən atdığını görsək, onda bilərik ki, bu, vəzirlərə, əyan və əşrafa verilmiş ən böyük məqam və ən fəzilətli dərəcədir.

Ərdəşir və Ənuşirəvan öz vəzirlərinə və dövlət adamlarına yalnız öz istəkləri üzündən təzim məqsədilə baş çəkərdirlər. Farslar bu növ ziyarətin baş verdiyi tarixi yazar və bu mühüm hadisə ilə bağlı ətraf bölgələrə məlumat xarakterli məktublar göndərərdilər.

Adət və ənənə belə idi ki, şahın təzim məqsədilə baş çəkdiyi şəxsin sahələrindən və məhsullarından vergi alınmazdı. Onun atları və qatırlarını damğalayar və dağ vurardılar ki, kotana, şuma və digər ağır işlərə cəlb edilməsin. Şahın qvardiyasının komandirinin müavini hər gün üç yüz atlı və yüz piyada əsgərlə onun sarayı qarşısında axşama qədər qaravul çəkərdilər. Əgər bir yerdə getsəydi, atlılar arxadan piyadalar qabaqdan yola düşərdilər. Onun qoruyucuları və xüsusi adamları cinayətə görə həbs edilmirdi. Qullarının heç biri barədə məhkəmə hökmü verilməzdi. Əgər onun tərəfdarlarından birinə cəza tətbiq edilməli olsaydı, onun öz yanına göndərərdilər ki, hökmü özü icra etsin.

Onun vergiləri gecikə də bilərdi. Bəzən bu gecikmələrə baxmayaraq mərkəz tərəfindən tələb irəli sürülməz, şəxs sonda özü gələr ödəyərdi. Onun şaha göndərdiyi Novruz və Mehregan hədiyyələri hamının hədiyyələrindən öndə verilirdi. O həmişə şahın yanına ilk girən olurdu və pərdəçi ilk ona icazə verirdi. Padşah miniyə minəndə sağ tərəfində o gedirdi. Oturanda da sağında otururdu. Əgər bu şəxs sarayda olmasaydı kimsə onun yerində oturmazdı.

Sasani şahları qeyd edilən dörd səbəbdən hər hansı birinə görə olursa olsun, birinə baş çəkməyə gedirdilərsə, qayıdanda hansısa bir hədiyyəni, ətriyyat, xələt, kəniz və ya qul hədiyyəsini qəbul etməzdilər. Amma adətən şah bura gələndə, onun üçün gözəl bir atı qızıl qaşlarla bəzədilmiş yüyənlə və bütün ləvazimatı ilə birgə hazırlayardılar ki, geri dönəndə ona təqdim etsinlər.

Bu adət Yezdəgir oğlu Bəhram Gurun zamanına qədər davam edirdi. O əyan və əşrafdan olan sərkərdələrlə həmsöhbət olanda da, hər saatda hədiyyələr təqdim edilirdi. Təqdim edilən çalğıçı cariyəni, müğənni cariyəni, rəqqasəni götürüb aparardı. İlk adam idi ki belə şeydə əlini geri qaytarmırdı. Həqiqətən də əylənmək onun nəfsinə qalib olmuş və istəklərini önə çəkmişdi.

Amma ondan öncəki şahlar bəyan etdiyimiz kimi (gözütox) idilər.

## Bayramlarda camaatın şah tərəfindən qarşılanması

Şahın adətlərindən biri də, Mehregan və Novruz bayramlarında camaatla birgə olması idi. Bu iki gündə heç kimi hüzura qəbul etməkdən məhrum etməzdi, istər böyük olsun, istər kiçik, istər cahil olsun, istərsə də əyan və əşraf.

Adət belə idi ki, şahlar bayram günündə xalqla birgə oturmaqdan bir neçə gün öncə göstəriş verərdilər ki, elan verənlər camaatı həmin günə hazırlıq üçün məlumatlandırsınlar. Hər kəsin nə demək istədiyi var idi hazırlayardı. Biri məktubunu hazırlayar, biri haqsızlığa məruz qalması ilə bağlı sənəd-sübut toplayar, digəri də elə ki, ondan şaha şikayətin olacağını hiss edirdi,

şikayət edənlə razılaşmağa çalışardı. Həmin gün çatanda şah rahibə göstəriş verərdi ki, etibar etdiyi adamlarını saraya gəlmək istəyən camaatı qarşılamaq üçün orada durdursun. Bunu edirdi ki, kimsə şahın hüzuruna gəlməkdən məhrum qalmasın. Elan verən çağırışçı belə nida edərdi: Bu gündə hər kim digərinə, şahın hüzuruna gedib şikayətini deməyə mane olsa, elə bil Allaha qarşı və şahın qoyduğu adət-ənənələrə zidd çıxıb. Hər kəs ki, Allaha qarşı çıxsa, sanki ona və şaha qarşı müharibə elan edib.

### Şahdan şikayət etmək

Sonra camaata görüş üçün icazə verilər, şikayət məktublarına baxılardı. Əgər orada şahdan şikayət varsa birinci ona baxılar və digər şikayətlərdən önə salınardı. Bu zaman şah göstəriş verərdi ki, baş rahib və atəşgahın baş kahini gəlsin. Sonra elan verən ucadan belə nida edərdi: Şahdan şikayəti olanlar bir tərəfə keçsinlər. Onlar da ayrılıb bir tərəfə keçərdilər.

Şah və ondan şikayət edənlər bir yerdə baş rahibin qarşısında dizə çökərdilər. Bu zaman şah deyərdi: Allah dərgahında ən böyük günah şahın günahıdır. Allah şahı rəiyyətin üzərində qoyub ki, zülmü onlardan dəf etsin, məmləkətin sərhəd və torpağını, camaatın mal və namusunu, ona əl uzadanlardan və zalımların zülmündən qorusun. Əgər onun özü zalım olarsa, ondan aşağıdakıların haqqı çatır ki, atəşgahları dağıtsınlar, qəbirlərdə ölülərin kəfənlərini çıxarıb oğurlasınlar. İndi mənim yerim burda sənin qarşında və özüm də bir alçalmış bəndə kimiyəm. Həmin vəziyyət ki, sabahkı gün sən də Allahının qarşısında olanda düşəcəksən. Elə isə Allaha baxıb, onu üstün tutsan, o da səninlə eyni rəftarı edəcək. Amma şahı üstün tutacaqsansa o zaman Allahın səni cəzalandıracaq.

Bu zaman rahib deyərdi: Allah bəndələrinin xoşbəxtliyini istəyəndə, yer üzündə yaratdıqlarının ən yaxşısını o insanların üzərinə təyin edər. Allah bəndələrə o insanın qədir-qiymətini göstərmək üçün, indi şahın dediyi bu sözləri onun dilinə də salar.

Sonra şahla bağlı işə və qarşı tərəfin şikayəti məsələsinə haqq-ədalət əsasında baxılardı.[110] Əgər şahın üzərində hər hansı bir öhdəliyin olduğu sübuta yetsəydi, icraya qoyulardı. Əgər şahın öhdəliyində hər hansı bir haqqın-hüququn olduğu sübuta yetməsəydi, ona qarşı iddia qaldıran adam həbs edilərdi. Bu zaman elan edilərdi ki, bu şəxs, şahın pisliyini və məmləkətin zəifliyini istəyib.

Şah, barəsində qaldırılan şikayətə baxıldıqdan və icraya qoyulduqdan sonra ayağa qalxıb, Allaha uzun-uzadı həmd və səna edərdi. Sonra tacı başına qoyub, şahlıq kürsüsünə oturar, yaxınlarına, qoruyucularına və tərəfdarlarına baxar və deyərdi:

Mən buna görə birinci özümdən başlayıb, digərinin haqqını ödədim ki, kimsə kimsənin haqqına tamah salmasın. Sizdən hər birinizin boynunda kiminləsə bağlı öhdəliyi varsa, razılaşma yolu ilə ya hər hansı bir yolla olur olsun, qarşı tərəfi razı salmalıdır.

Həmin gün ən uzaq şəxs haqq-hüquq baxımından şaha yaxın olacaq və vaxtilə güclü hesab edilənlər ən zəif hesab ediləcəklər.

Ərdəşir ibn Babəkin zamanında və sonralar da camaat bu hüquqlardan bəhrələnirdi. Ta ki, cinayətkar Yezdəgird şah oldu. O şahlıq kürsüsünə oturandan sonra Sasanilərin ayinlərini dəyişdirdi, fəsad törətdi, rəiyyətə zülm etdi və zorakılığa rəvac verdi.

O deyirdi ki, rəiyyətin liderdən, bazar adamlarının şahdan şikayət etməyə, aşağı dərəcəlilərin yuxarı səviyyəlilərlə haqq-batil işində eyniləşməyə haqları çatmır.

Əcəmlər öz şahları haqda tarix və bioqrafiya kitablarında belə yazıblar: Yezdəgird Qəsrin eyvanında taxtda oturmuşdu. Camaat da təbəqələr və dərəcələrinə görə onun qarşısında oturmuşdular. Birdən qəsrin qapısından yəhərli-yüyənli bir at daxil oldu. O qədər gözəl at idi ki, onu kimi tam təchizatlı və gözəli

---

[110] İslamda şahların, əmirlərin və xəlifələrin öz qaziləri və camaat qarşısında mühakimə edilməsi barədə çoxlu faktlar var. əl-Müstətrəf, İqdul-Fərid, əl-Məhasin və əl-Məsavi, Muhadarat Rağib və Azərbaycan dilinə tərcümə edilmiş Əli ibn Əbu-Talibin qəzavətləri və digər tarixi əsərlərdə oxşar hadisələr qeyd edilmişdir.

görünməmişdi. Heyvan cani Yezdəgirdin olduğu qəsrə girəndə atçılar durdular ki, onun qarşısını alıb, şahdan uzaqlaşdırsınlar. Lakin at, yaxınlaşanı təpikləyib, yerə yıxırdı. At yenə şah istiqamətdə gedirdi. Nəhayət Yezdəgir qalxıb, qoyun at gəlsin mənə sarı, deyib, səsləndi.

At Yezdəgirdə yaxınlaşdı və sanki onu tanıyırdı. Tam ram olmuşdu. At o qədər rahat qaldı ki, şah ona mindi. Minəndən sonra bir neçə addım onu daşıdı və əvvəlki yerinə qaytardı. Yezdəgird atdan düşüb, əli ilə onun belini və sinəsini sığallamağa başladı. At şahı tam qarşısında və qafil vəziyyətdə olduğunu görüb, bir təpiklə ürəyindən çırpdı və onu öldürdü.

Farslar deyirdilər ki, bu, Allahın at simasında göndərdiyi mələklərdən biri idi. Göndərmişdi ki, Yezdəgirdi, rəiyyətə etdiyi zülmə və yer üzündə törətdiyi fitnə-fəsada görə öldürsün.

Yezdəgirdin oğlu Bəhram Gur əl-Hirənin əmiri ən-Numan ibn əl-Munzirin yanında qalırdı. Atası onu burda qoymuşdu ki, ərəblərin adət-ənənələrini, tarixini, proseslərini və dilini öyrənsin. Atasının başına gələn hadisə ilə bağlı xəbər ona çatdı. Həm də xəbər çatdı ki, farslar sasanilərin övladlarından olmayan birini şah təyin ediblər.

Bəhram Gur Numan ibn Munziri çağırdı və dedi: Mənim sənin boynunda bir haqqım var. Çünki sənin övladlarından biri olmuşam (ya da övlad qismində olmuşam). İndi atam ölüb və farslar şah nəslindən olmayan birini bu taxta təyin ediblər. Əgər sən məni tək qoysan, Sasani ailəsi bitmiş olacaq.

Numan dedi: Məndən Sasani ailəsinə nə?! Onlar şahlardı, mənsə rəiyyət. Amma mən bunu edə bilərəm ki, ordumla sənin arxanda yola düşüm, qərar və planını dəstəkləyək. Bir də ki, tayfana sən daha layiqsən, mən deyil. Onlar da sənə daha layiqdirlər.

Bəhram Gur dedi: Elə mənim istəyim də budur.

Numan Bəhram Gurla birgə yola düşdülər, ta ki Mədainə çatdılar. Onların gəlməsi xəbəri farslara çatdı. Bəhramın qarşısına çıxdılar və dedilər: Nə istəyirsən?

Bəhram Gur dedi: Atamın mülkünü və Sasani ailəsinin irsini istəyirəm.

Cavab verdilər: Sənin atan şahlığı dövründə bizə zülm edib. Allah onu məhv etdi. İndi bizim onun xələfinə ehtiyacımız yoxdur.

Bəhram Gur dedi: Atamın zülmünə və cövrünə görə məni kimsə danlaya bilməz. Buna görə kimsə məni günahlandıra bilməz. Siz məni sınağa çəkməmiş barəmdə tərif və ya tənqid deyə bilməzsiniz!

Onlar dedilər: Artıq biz birini təyin etmişik və ondan razıyıq.

Bəhram Gur dedi: Sizin addımınız məmləkətin işində fəsada səbəb olacaq, çünki əhli olmayan birini təyin etmisiniz. Madam ki belə bir iş tutmusuz, onda məni də, onu da sınağa çəkin, görək kim məmləkətin rəhbərliyinə layiqdir?!

Onlar necə imtahan ediləcək deyə soruşdular. Bəhram Gur dedi: İki şiri bir araya gətirin və o ikisinin arasında şah tacını qoyun. Seçdiyiniz şəxsə deyin o tacı iki şirin arasından götürsün. Əgər götürə bilsə deməli məmləkətin rəhbərliyinə layiqdir, yox əgər imtina etsə və bu işi görməsə və mən bunu etsəm o zaman şahlığa mən layiq olacağam.

Onlar bildirdilər ki, bu təklifi həmin adama çatdıracaqlar.

Ona deyən kimi, aciz olduğunu bildirdi və belə əlavə etdi: Bəhrama deyin ki, bu işi görsün və əgər tacı iki şirin arasından götürə bilsə, şahlığa o layiq görüləcək.

Tacı götürüb iki şirin yanına qoydular. Şirləri bir müddət ac saxladılar və sonra Bəhrama, növbə sənindir, dedilər.

Bəhram Gur atdan düşüb döyüş baltasını götürdü. Şirlərə sarı getdi. Sonra yadına nəsə düşdü, baltanı gizlədib, irəlilədi. Şirlər ona sarı gəldilər. (Baltanı çıxarıb) başlarına zərbə endirdi. Hər ikisini öldürüb, tacı götürüb, başına qoydu.

Farslar onu şah etdilər. Numan da dönüb əl-Hirəyə getdi. Bəhram onlarla bağlı ədalətli rəftar etdi və ölkəninin idarəçiliyini yaxşı irəli apardı. O yerə qədər ki, Sasanilərin ən sevimli şahı oldu. Lakin əylənmək və eyşi-işrət onun nəfsinə də qalib gəlmişdi.

**Şahın camaatın əhvalını araşdırması**

Xoşbəxt şahın adətlərindən biri də yaxınları və xüsusi adamlarının əhvalı və sirlərindən hali olmaqdır. Şahın gözləri xüsusilə yaxınlarının, ümumilə rəiyyətin üzərində olmalıdır.

Elə rəiyyətlə münasibətdə şahın “rai” (çoban) adlandırılması buna görədir ki, onların bütün xırda məsələlərini və gizlin niyyətlərini bilməlidir. Əgər şah rəiyyətinin sirlərindən qafil olsa və onlarla bağlı xəbərləri araşdırmasa, bu zaman “rai”likdən onda yalnız sürət, şahlıqdan isə yalnız quru ad qalar.

Xoşbəxt şahın adəti belədir ki, hər bir sirri və bağlı işi açır və onu dəqiqliklə bilir. O, hər şəxsi elə tanımalıdır ki, rəftarı, işi və sözlərilə bağlı naməlum şey qalmasın. Onun siyasətində və idarəçilik sistemində camaatın əhvalını və xəbərlərini dərindən bilmək hər şeydən mühümdür.

Bu məsələdə Ərdəşir ibn Babəkdən çalışqan və ehtiyatlı davranan heç vaxt olmayıb.[111] Barəsində deyilir ki, səhər açılanda gecə vaxtı şəhər sakinlərinin başına gələn bütün yaxşı və pis hadisələri, axşam olanda isə gündüz bütün baş verənləri bilirdi. Lazım olan zamanda ölkənin ən yüksək rütbəli və ya ən aşağı rütbəli adamını çağırıb, “bu gecə sən onu-bunu etdin, yanına filankəslər gəlmişdi”, deyə, olanları səhərə qədər onlara deyirdi.

Buna görə bəziləri deyirdilər ki, onun yanına mələk gəlir və xəbərləri ona çatdırır. Təbii ki, bu, onun ayıq-sayıq təbiətli olması, rəiyyətinin işi ilə bağlı öhdəlik və məsuliyyət hissi keçirdiyinə görə idi.

O, təkcə olduğu şəhərdə deyil, məmləkətin bütün bölgələrinin insanları haqda da belə məlumatlı idi.

Deyilir ki, əcəmlərin Ərdəşir ibn Babəkdən qorxub çəkindikləri kimi heç bir xalq keçmişdən indiyə qədər öz şahlarından belə qorxub çəkinməyib. Eləcə də İslam dönəmində (ərəblər)

---

[111] Bəziləri isə bildirir ki, Sasani şahları arasında Xosrov Ənuşirəvan rəiyyətin sirlərini ən dərindən bilən hökmdar idi. (Şahabuddin Məhəmməd inbi Mənsur əl-Əbşihi, əl-Müstətrəf c 2, səh 114)

Ömər ibn Xəttabdan qorxub çəkindikləri kimi heç bir xəlifədən çəkinməyiblər.[112]

Ömər öz adamlarının və rəiyyətinin fərdləri barədə o qədər məlumatlı idi ki, sanki, onlarla bir yorğan-döşəkdə yatır. Məmləkətinin şəhər və nahiyələrində olan bütün adamlarının və ordu başçılarının üzərində belə gözü var idi və bu göz onlardan ayrılmazdı. Məşriq və məğribdə gedən söhbətlər hər səhər-axşam ona çatırdı.

Sən bunu, onun öz adamlarına və adamlarının adamlarına yazdığı məktublarda görə bilərsən. İş o yerə çatırdı ki, adamları, özlərinə ən yaxın və ən xüsusi olanları belə casusluqda ittihamlandırırdılar. Ömər rəiyyətin gizli məsələlərini araşdırmaqda Ərdəşir ibn Babəkin siyasəti kimi siyasət yürütdü.

Sonra Müaviyə də onun metodundan istifadə etdi. Buna görə idarəçilik işi qaydasında oldu və hökmdarlığı da uzun çəkdi.

Ziyad ibn Əbihi də Müaviyənin yolunu davam etdirdi, Necə ki, Müaviyə də Ömərin yolunu gedirdi. Onun barəsində deyilir ki, bir dəfə bir kişi ehtiyacının aradan qaldırılması ilə bağlı onun yanına getdi. Bu kişi elə bilirdi ki, Ziyad onu tanımır və özünü tanıtdırmağa başladı: Allah əmirin yardımçısı olsun! Mən filankəsin oğlu filankəsəm.

Bunu eşidən Ziyad güldü və dedi: Özünü mənə tanıtdırırsan?! Mən səni o qədər tanıyıram ki, sən heç atanı o qədər tanımırsan! Allaha and olsun mən səni də, atanı da, babanı da, ananı da tanıyıram. Sənin əynində olan bu geyimi də tanıyıram, filankəsin oğlu filankəsə məxsusdur.

Kişi mat-məəttəl qaldı, titrəməyə başladı və az qaldı özündən gedə.

Əbdülməlik ibn Mərvan və Həccac ibn Yusif də belə idi.

Bu şəxslərdən sonra kimsə siyasətdə belə olmadı. Ta ki Mənsur hökmdarlığa çatdı. Onun ən çox məşğul olduğu iş camaatın işləri və məsələlərilə maraqlanmaq idi. O dərəcədə ki, düşmənini dostundan, səmimi və doğru insanı ikiüzlüdən ayıra

---

112 Bu iddia "əl-Məhasin və əl-Məsavi" əsərində (səh 153) qeyd edilib.

bilirdi. Rəiyyəti bu şəkildə idarə etdi və onları uzun illər sınağa çəkdi. Camaatın məsələləri onun üçün gün kimi açıq-aydın idi. Sonra bu siyasət və bu metod tərk edildi. Harun ər-Rəşid xilafətə çatanda bu qayda yenidən dirilmiş oldu. Rəşid hamıdan çox rəiyyətin məxfi işləri və sirlərinin aşkarlanmasına can atır və hamıdan çox bu məsələni diqqətdə saxlayardı. O bu məsələdə digər şahlardan daha uzaqgörən və ehtiyatlı biri idi.

Məmun da öz hökmranlığı dövründə belə idi. Buna sübut, onun Şamda olarkən Bağdad üzrə əmiri İshaq ibn İbrahimə, fəqihlər və mühəddislərlə bağlı yazdığı məktubudur. O bu məktubda, onların hər birinin eybləri, işləri, gizlin məsələləri, yaxın və uzaq adamları haqda məlumatlar vermişdi.

Mən bu zamanda bu məsələdə sultanlardan qeyriləri arasında İshaq ibn İbrahim kimisini tanımıram. O, sirləri ciddi araşdırar, məxfi işlərlə o qədər məşğul olurdu ki, bu məsələdə sona çatmış, maksimum irəliləmiş, gecə-gündüzünü buna sərf edən yeganə insan olmuşdu.

İshaqın nədimlərindən olan Musa ibn Saleh ibn Şeyx deyir:

Ailəmizin qadınlarından birinin vəziyyətilə bağlı onunla söhbət etdim və istədim ki, onun məsələsinə baxsın. İshaq Mənə dedi: Ey Əba-Məhəmməd bu qadının məsələsi elə deyil belədir. Vəziyyəti belə, əməli isə elədir.

O, qadının vəziyyətini mənə elə açıqladı ki, mat-məəttəl qaldım.

Şair Əbul-Bərq deyir: İshaq beytül-maldan mənim üçün aylıq pay nəzərdə tutmuşdu. İshaqın yanına getdim və qəsidəmi oxuyandan sonra məndən soruşdu:

Sən hər ay bu qədər un və bu qədər odun istəyirsən. Əhli-əyalın neçə nəfərdən ibarətdir?!

O, bunu deyib, evimin içindəki vəziyyəti mənə elə açıqladı ki, özüm onların bəzilərindən xəbərsiz idim.

Onunla bir yerdə olanlardan biri mənə dedi: İshaqa, aylığımın ödənilməsilə bağlı məktub yazdım. O məndən, evimdə neçə nəfər çörəkyeyənin olduğunu soruşdu. Mənsə olduğundan çox dedim. O mənə, yalan deyirsən, deyə bildirdi.

Mən təəccüb etdim və öz-özümə soruşurdum ki, yalan dediyimi haradan bilir?! Bununla yanaşı bir ilə qədər deyilən məsələ ilə bağlı onunla danışmağa cürətim çatmırdı. Bir müddət keçdikdən sonra ona ərizə yazdım və yenidən məvacibimin ödənilməsini istədim. Məndən yenə evimdə neçə nəfər çörəkyeyənimin olduğunu soruşdu. Dörd nəfərin olduğunu bildirəndən sonra mənə doğru dediyimi bildirdi. Sonra məktubumun altında, ailəmə filan məbləğdə ödənişin edilməsini yazıb, tapşırdı.

İshaq və onunla bağlı xatirələr haqda yazılarımız uzun çəkməsəydi, onun haqda çoxlu hekayələri deyərdik. O həqiqətən də bu cür idi. Onunla bağlı bu qədər dediklərimizlə kifayətlənirik.

Elə isə şah gərək öz dost və düşmənlərini ayırd edə bilsin. Bunun üçün adamlarının sirlərini və xəbərlərini dəqiq araşdırmalı, lazım olsa hansınınsa gecəni harada keçirtdiyini və orada nələri etdiyini öyrənsin.

Dünyada nə qədər insi-cin var və digər xalqların nə qədər başçıları var, gəlib şaha itaət etsələr belə, yenə də rəiyyətin qəlbində şah əzəməti və xofu yer alan deyil. Bu yalnız o halda ola bilər ki, şahın rəiyyətin üzərində nəzarəti çox olsun, onların məxfi məsələləri barədə araşdırma aparsın. Necə ki, ana tək qalmış övladına daima qayğı göstərərək, onun oturub, durmasını gözdən qoymur.

## Şahlığın müddətinin ömrünü uzadan addımlar

Keçmiş əsərlərdə şahlarla bağlı öyüd-nəsihətlərdə deyilir ki, əgər şahda bu dörd adət və xislət olarsa onun hökmdarlıq müddəti uzanar.

Birincisi odur ki, özü üçün bəyəndiyi və özünə rəva bildiyini rəiyyət üçün də bəyənib rəva bilsin. İkinci budur ki, nigaran olduğu işi, sabah-birigün deyib, təxirə salmasın. Üçüncü budur ki, təyin etmək istədiyi vəliəhd xoşladığı deyil, rəiyyətin razı qalıb, seçdiyi adam olsun. Dördüncü isə budur ki, rəiyyətinin işlərinin sirləri və məxfi məsələlərini daima araşdırsın. Necə ki, ana südəmər körpəsinin vəziyyətini daima nəzarətdə saxlayır.

Tarixdə bunun örnəklərini çox görüb, müşahidə etmişik. Şəxsən mən bir ərəb və əcəm şahının hökmdarlığının uzun olmasının əsas səbəbini məxfi məsələləri və sirləri araşdırılmasında görmüşəm. Bu o dərəcədə idi ki, rəiyyətin işləri onlar üçün gün kimi aydın idi.

## Təhlükəli hadisələr zamanı şahın öhdəlikləri

Şahın adəti belə olmalıdır ki, ölkədə,sərhədlərin pozulması, ordu başçısının öldürülməsi, dövlətin, qanunun və ölkənin ziddinə qalxan düşmənin və üsyanın peyda olması kimi təhlükəli hadisələr baş verdikdə, əyləncə vaxtlarını tərk edib, onun yerinə ordusunu təchizatlandırmaq və qarşı tərəfin planlarını aradan aparmaq üçün tədbirlərə başlasın. O bundan sonra bütün boş vaxtlarını buna sərf etməlidir. Necə ki, əcəm şahları və qeyriləri də belə edirdi. Artıq belə bir zamanda işləri sabah-birigün deyib təxirə salmamalı, işin başını, arzu və nikbinliyə qapılıb, buraxmamalıdır. Əks təqdirdə şah acizliyini göstərmiş, dövləti süstlüyə və zəifliyə aparmış olacaq.

Əgər qeyd edilən təhlükəli hadisələrdən biri baş versəydi əcəm şahları həmişə salınan gündəlik uzun süfrələrin yığışdırılması əmrini verər, yalnız kiçik süfrə salınar, orada da bir neçə mühüm adam oturardı. Bu süfrəyə yalnız çörək, duz, sirkə və tərəvəz qoyulardı. Şah və yanındakılar yalnız bir neçə kiçik tikə kəsərdilər. Sonra çörəkçi odda bişmiş biraz ət, kərə və yumurta gətirib şahın qarşısına qoyardı. Bir tikə ondan alar, sonra süfrə yığışdırılardı. Bundan sonra şah döyüş məsələlərinə, ordu qüvvələrinin səfərbərliyi və tədarükünə başlayardı. O, bu işi pozulmuş sərhəd bərpa edilənə və düşmənin olduğu cəbhədən sevindirici xəbər gələnə qədər davam etdirərdi. Elə ki, sevindirici xəbər gələrdi, süfrələrin əvvəlki kimi salınmasını istəyərdi. Bu zaman xüsusi adamların və ümumi camaatın hazır olmasını tapşırar, birinci növbədə xətiblər durub ona təbriklər deyər, şaha verilən bu qələbə və zəfərə görə Allaha şükür edərdilər. Sonra baş rahib durub danışar, ardınca vəzirlər də xətiblərin çıxışı kimi çı-

xış edər, davamında camaat rütbə və dərəcələrinə uyğun olaraq sıra ilə əllərini süfrəyə aparardılar. Camaatın yeməyi bitəndə onlar üçün sarayın eyvanının qarşısında xalçalar sərilərdi. Xüsusi adamlar üçünsə eyvanın özündə şahın hüzurunda sərilərdi. Şah xüsusi adamların başında oturduğu kimi, polis rəisi də camaatın başında oturardı. Sonra müğənnilər və əyləndirənlər çağırılardı.

Əcəm şahları belə deyirdilər: Nemətə görə şükür etməyin haqqı budur ki, gərək onun təzahürü və əsərləri görünsün.

Lakin xəlifələr və əmirlər bir hadisə baş verəndə minbərlərə çıxar, camaatı itaətə və birliyə səsləyərdilər.

Müaviyə haqqında bildirilir ki, o belə deyirdi: Mən Siffeyn döyüşü günlərində ət, piy, şirni və turşu dadmadım. İstədiyim baş tutana qədər yediyim ancaq, çörək pendir və duz idi.

Əbdülməlik ibn Mərvan barəsində də belə nəql edilir ki, bir dəfə xilafətin Afrika üzrə valisi ona gözəl sürətli və gözəl əndamlı bir cariyə göndərdi. Cariyə Əbdülməlik ibn Mərvanın hüzuruna gələndə, ona baxdı və gözəl olduğunu gördü. Əbdülməlik əlində olan əsanı yerə atdı və dedi ki, cariyə onu götürsün. Cariyə onu götürmək üçün əyildi. Əbdülməlik öndən və arxadan ona baxıb dedi. Sən həqiqətən də arzulayanın arzususan!

Bunu eşidən cariyə dedi: Ey əmirəl-möminin, madam ki mən sənin vəsf etdiyin kimiyəm, elə isə sənə nə mane olur (ki mənə yaxınlaşmırsan?!)

Əbdülməlik şair Əxtəlin şeirini belə dilə gətirdi:

"Onlar elə bir qövmdür ki, döyüşə məşğul olanda, qadınları pak olsalar belə paltarlarını özlərinə bükər və onlara yaxınlaşmazlar."

Sözügedən bu döyüş Əbdürrəhman ibn Məhəmməd ibn Əşəsin[113] üsyana qalxdığı zamana təsadüf edirdi.

---

[113] Əbdürrəhman ibn Məhəmməd ibn Əşəs əl-Kindi Əməvi sülaləsinin İraqda olan sərkərdələrindən biri idi. O əvvəl Əməvilərin tərəfində olsa da Yusif ibn Həccac Səqəfinin İraqda yürütdüyü siyasətə etiraz olaraq, əks cəbhəyə keçdi. O Həccacın dövründə çoxsaylı üsyanlara əl atdı və sonda 704-cü ildə üsyanı yatızdırılaraq, öldürüldü.

Əbdülməlik sonra göstəriş verdi ki, bu cariyəyə xidmət göstərib, ona baxsınlar. Əbdülməlik döyüşdə qələbə əldə edəndən sonra yanına çağırdığı ilk cariyə bu qadın idi.

Mərvan ibn Məhəmməd əl-Cədi[114] barədə də belə deyilir ki, o ömrünün son 30 ayında heç bir qadın və cariyəyə yaxın durmadı. Haçan bir cariyə ona yaxınlaşmaq və özünü göstərmək istəsəydi, məndən uzaqlaş, deyərdi.

O belə deyərdi: Nə qədər ki, valimiz Nəsr ibn Səyyarın Xorasandakı vəziyyəti çətindir və nə qədər ki, Əbu-Mücrim[115] onu sıxışdırmaqdadır, heç bir qadına yaxın durmaz və şalvarımın bağını açmayacağam.

## Şahların müharibədə hiylə və taktikaları

Müharibələrdə hiylələrə əl atmaq və taktikalar işlətmək şahların adətidir.

Buna görə deyilir: Xoşbəxt şah odur ki, müharibəyə ən son hiyləsi və taktikası olaraq əl atsın. Çünki hər şeyin xərcini maldan-mülkdən ödəmək olar, lakin müharibənin bədəli və xərcini ancaq canlarla ödəmək mümkündür. Əgər şah hiyləsilə bəyənilmiş nəticəni müharibə etmədən əldə edə bilsə o xoşbəxt adamdır. Çünki həm əsgərlərini qoruyub, həm də mal-mülkünü. Amma hiylə və taktikadan istifadə edilməsə müharibə qaçılmaz ola-

---

[114] Əməvilərin sonuncu hökmdarı (691-750), İraq və Şamda aparılan döyüşlərdə məğlub olduqdan sonra Fələstinə qaçdı. Təqib edildiyini görəndə Misirə qaçdı. Misirdə öldürüləndən sonra başı bədənindən ayrıldı və onun başını Abbasi hökmdarı Səffaha gətirdilər.

[115] Əməvilər Abbasilərin əfsanəvi sərkərdəsi Əbu-Müslim Xorasanini belə adlandırırdılar. Məhz o idi ki, Xorasandan başlatdığı qiyamlarla Əməvilərin dayaqlarını bir-bir aradan götürdü. Onun rəhbəri olduğu qüvvələr Əməviləri yıxıb hakimiyyətə Abbasiləri gətirdilər. Sonra Abbasilər Əbu Müslimin xalq kütlələri arasında artan nüfuzundan qorxaraq, onu hakimiyyətin devrilməsində təqsirləndirib, 755-ci il fevralın 15-də xəlifə əl-Mənsurun əmri ilə edam etdilər. Əbu Müslimin qətli Xilafətin bütün ərazisində, o cümlədən Azərbaycanda da Abbasilərə qarşı üsyanlara səbəb oldu.

caq. Elə isə ən xoşbəxt şah odur ki, düşməninə hiylə, taktika və məkrlə qalib gələ bilsin.

Peyğəmbərimizdən (Allahın salamı olsun ona) bu fikiri dəstəkləyən və təsdiq edən bir kəlamı var. Peyğəmbər buyurub: Müharibə hiylədən ibarətdir.

Əcəm şahlarının işlətdiyi hiylə və taktikanı heç kim işlətməyib. Bu haqda çoxlu məlumatlar var. Lakin biz bu haqda bir ya iki hekayə ilə kifayətlənəcəyik.

Bu hekayələrdən biri Bəhram Gur haqdadır. Deyilir ki, o, atası Yezdəgirddən sonra şahlıq məqamına çatanda, xəbər gəlir ki ölkənin bir nahiyəsi alınıb və düşmən onu ələ keçirib. Bəhram bu məsələyə ciddi yanaşmadı və onu bəsit bir məsələ sandı. Düşmənin gücü artdı və məmləkətdə xof salmağa başladı. Hər zaman ki, bu düşmən haqda xəbər verirdilər, şah onları heçə sanır və gücsüz olduqlarını deyirdi. Sonra ona dedilər ki, artıq düşmənin ordusu paytaxtına qədər irəliləyib. Bəhram yenə dedi: Boşlayın onları bir iş görə bilməzlər.

Vəzirlər şahın, düşmənin irəliləməsinə belə səhlənkarlıqla yanaşdığını və bunu kiçik sandığını müşahidə etdikdə, toplantı keçirdilər və dedilər: Şahın düşmənlə bağlı səhlənkar yanaşması və onları heçə sanması, idarəçilik və şahlıq adət-ənənələrindən deyil, halbuki düşmən paytaxta yaxınlaşıb və günbəgün də irəliləyir və gücü artır.

Bəhram dedi: Boşlayın bu söhbəti! Mən onların gücsüz və kiçik olduqlarını sizdən daha yaxşı bilirəm.

O bunu deyib, yenidən əyləncəyə və eyş-işrətə başladı və düşmənin qarşısında müqavimət göstərməyi və onlara qarşı hərəkətə keçməyi nəzərə almadı. Düşmən şəhərə çatanda və nəzarəti ələ keçirməyə yaxınlaşanda vəzirlər və dövlət adamları paytaxtın süqut etməsindən qorxdular. Qərara gəldilər ki, onun yanında gedib, tənqid etsinlər, vəziyyətin çətinləşdiyilə bağlı ona xəbərdarlıq etsinlər və bildirsinlər ki, hamı həlak olmaq və ölkə viran qalmaq astanasındadır.

Xəbər şaha çatdı. Şah əmr verdi ki, iki yüz kəniz və cariyə müxtəlif rəngarəng paltarlar geyinsinlər, başlarına güllərdən tac-

lar qoyaraq və heyvana minmək kimi qamışlara minərək hazır olsunlar. Şah da onların etdiyini etdi və onlar kimi rəngli paltar geyinib bir qamışa "mindi". Vəzirlərə də bu şənliyə qatılmaq icazəsi verildi. Onlar gəlib çıxan kimi, Bəhram, (paraddakı nümayiş tək) hərəkət etsinlər deyə kənizlərin başına qışqırdı. Sonra Bəhram da kənizlərin arxasına düşüb, avaz oxuya oxuya və oynaya-oynaya hərəkət etdi.

Bu səhnəni görən vəzirləri şahdan tam naümid oldular və qərara gəldilər ki onu tutduğu məqamından kənarlaşdırsınlar. Onların bu qərarı şahın qulağına çatdı və xüsusi kənizlərindən birini yanına çağırıb, dedi: Əgər mənim edəcəyim bu iş barədə kimsə xəbərdar olsa onda vay sənin halına!.

Bunu deyib, cariyəyə göstəriş verdi ki, onun başını qırxsın. Cariyə onun başını qırxdı. Göstəriş verdi ki, geyinmək üçün yundan bir yapıncı gətirsin. Şah gecə ikən kaman və oxlarını götürüb şəhərdən çıxdı və cariyəyə tapşırdı ki, bu məsələ gizli qalsın və soruşsalar desin ki, şah xəstədir.

Şah tək özü yola düşdü və ta düşmənin ordusunun olduğu əraziyə gəlib çatdı. Yolun üstündə bir gizli yerdə pusqu qurdu. Orda uçan və keçən bütün quş və heyvanların hamısını tək-tək vurdu. Ovladığı bütün ovları elə qarşısında bir yerə topladı və nəticədə böyük bir yük alındı.

Bu arada düşmənin ordusunun komandirlərindən biri ordan keçəndə ovlanmış heyvanların toplanmış böyük yükünü gördü və mat-məəttəl qaldı. Yaxınlaşdı və Bəhramı tutub, vay olsun sənə, sən kimsən, nəçisən, haradan gəlmisən?!, deyə soruşdu.

Bəhram bildirdi ki, əgər amanda qalacaqsa, məlumat verəcək. Düşmənin komandiri ona aman verəcəyini bildirdi. Bəhram dedi: Mən bacarıqlı bir xidmətçiyəm. Ağam mənə qarşı xoşrəftar idi, amma sonra mənə qəzəblənib, vurdu, paltarımı çıxarıb başımı qırxdı və mənə bu yapıncını geyindirib, ac saxladı. Mən də bir anda onun qəflətindən istifadə edib, aradan çıxdım və indi də yemək üçün ov ovlayıram. Ovlamaq xoşuma gəldi, ona görə yerdə qalan oxlarımı da atıram və sonra çıxıb gedəcəyəm.

Onu tutub düşmən tərəfinin şahının yanına apardılar və olanları dedilər. Şah Bəhrama dedi: Elə mənim qabağımda at görüm necə atırsan!

Bəhram şahın qabağında atmağa başladı, nə quş və nə heyvan var istədiyi yerdən hamısını vurub yerə saldı. Mat-məəttəl qalmış şah dedi: Vay olsun sənə de görüm bu məmləkətdə səni kimi atan var?!

Bəhram gülərək dedi: Ey şah mən onların ən aşağı səviyyəlisi və ən naşı atıcısıyam. Amma buna baxmayaraq başqa növ atıcılığı da bilirəm.

Şah soruşdu: O hansıdır?

Bəhram dedi: Mənim üçün iynələrin[116] gətirilməsi göstərişini verin!

İynələri gətirdilər və onlardan birini götürüb özündən 10 zira uzağa atdı. Ardınca daha birini atdı və oxla onları bir-birinə bağladı. Növbəti dəfə bunu təkrarladı. Sanki bunlardan bir-birinə bağlı olan bir silsilə zəncir düzəltdi.

Təəccübdən şahın gözü kəlləsinə çıxmışdı. Ürəyinə xof düşməyə başladı.

Şah dedi: Sizin şah necə də qəflətdədir! O məgər bilmir ki, mən onun paytaxtına yaxınlaşmışam?!

Bəhram gülüb dedi: Əgər şah mənə aman versə ona bir nəsihət verərəm.

Şah dedi: O amanı sənə verdim.

Bəhram dedi: Bizim şah sənin gəlməyinə əhəmiyyət verməyib, çünki səni güclü bilmir və kiçik sanır. O bilir ki, sən onun çəngindən çıxa bilməyəcəksən. Çünki mən onun məmləkətində ən naşı və ən tanınmamış biriyəm. Gördüyün kimi əgər mən min oxla min nəfəri öldürürəmsə, onda şah barədə təsəvvür necə olmalıdır?! Halbuki indi onun paytaxtında yüz min qulu var ki, onların ən aşağı səviyyəlisi məndən yüksəkdir.

---

[116] Çox güman ki burada "iynə"dən məqsəd atların yüyənləri və kəndirlərinin bağlanıldığı və adətən otlaqda yerə vurulan xüsusi mismarlara və başı halqalı çarmıxlara deyilir.

Şah dedi: Doğru deyirsən və mənə düzgün nəsihət vermiş oldun. Bəhramın məni kiçik sanması haqda elə bir şeylər eşitmişəm ki sənin dediklərinlə üst-üstə düşür. Əbəs yerə deyil ki, o, mənim bura qədər irəliləməyimə imkan yaradıb. Hökmən sən dediyini nəzərində tutub.

Şah bunu deyib, ordunun başçısına oradan getməklə bağlı göstəriş verdi. Ordu qüvvələri və onlarla birgə gələnlərə köç etməklə bağlı çağırış edildi. Şah Bəhramı buraxdı və ordusu ilə birgə arxaya baxmadan oranı tərk etdi.

Üç gündən sonra Bəhram gecə ikən öz sarayına daxil oldu. Səhər açılanda gəlib sarayda camaatın qarşısına çıxdı. Vəzir və əyanlar daxil oldular. Bəhram onlardan, düşmən barədə nə xəbərləriniz var, soruşduqda, onlar düşmən ordusunun bölgəni tərk etdiyini bildirdilər.

Bəhram dedi: Axı mən sizə demişdim ki, onun şəni aşağı, gücsüz və əhəmiyyətsiz biridir.

Sonralar da heç kim bilmədi ki, düşmənin oradan getməsi nəyə görə idi?!

Bəhram Gurdan sonra müharibələrdə düşmənlərinə qarşı hiylə, məkr və taktikalardan ən çox yararlanan Xosrov Pərviz idi. O bu yolla onları məğlub edirdi.

Xosrov Pərviz sərkərdə Şəhrvarazı (vəfat ili: 630) rumlularla döyüşə ezam etdi. O, yürütdüyü fikirlərilə, şücaəti, comərdliyi, gücü və ümidverici addımları ilə şahın yanında digərlərindən seçilirdi. Şəhrvaraz bu döyüşdə Rum imperatorunu o dərəcədə sıxışdırdı ki, imperator ödəmələr qarşısında sülhə nail olmaq istədi. Çünki, onunla müharibədən də yorulmuşdu. Amma Şəhrvaraz qəbul etmədi. İmperator bunu görüb, naçar bütün hazırlıqlarını görüb, ən yuxarı səviyyədə müharibəyə hazırlaşdı. Saysız-hesabsız ordu ilə onun qarşısına çıxdı. O bu ordu üçün dənizdə bütün imkanatı hazırlamış, qida, silah, at və qeyrilərini gətirmişdi. Gəmilərdə hər şey var idi və hər şeylə təchizatlanmışdılar. Amma bu arada güclü külək qalxdı və gecələrin birində gəmiləri bağlayan kəndir və mismarları yerindən çıxartdı. Külək bu gəmilərin hamısı Şəhrvaraza tərəf gətirdi. Bu minvalla bütün o gə-

milər, silah-sursatlar və imkanlar Şəhrvarazın əlinə keçdi. Rum imperatorunun silah-sursatının, xəzinə və mal-mülkünün çoxu əlindən çıxdı. Şəhrvaraz o təchizat və xəzinələri Xosrov Pərvizə göndərdi. Xosrov Pərvizin gözü sərkərdənin göndərdiklərinə düşəndə, şahın yanındakı məqamı və qəlbində olan sevgisi daha da artdı. Sərkərdə şahın gözündə daha da böyümüş oldu.

Şah dedi: Burda heç kim Şəhvaraz qədər tərifə və təşəkkürə layiq deyil. O elə bir iş görüb ki, heç kim edə bilməyib. Hələ indiyə qədər kimsə o mal-mülkdən gözünü və qəlbini çəkə bilməyib.

Şah öz vəzirlərini topladı. Göstəriş verdi ki, həmin malları və xəzinələri onların qarşısına qoysunlar. Şah bu göstərişi verib dedi: Sizdən kimsə əmanətdarlıqda, cah-cəlalda və məqamda Şəhrvarazdan üstün olan birini və ondan çox təşəkkürə layiq olan bir şəxsi tanıyırsız?!

Vəzirlər növbə ilə qalxdılar və Allaha həmd-səna edəndən sonra şaha alqışlarını, xoş sözlərini və təbriklərini dedilər. Sonra Şəhrvaraz barədə, onun ümidverici addımları, dürüstlüyü, işində ciddiyyəti və nəcibliyi haqda bildiklərini dedilər. Onların sözləri bitəndə Xosrov Pərviz göstəriş verdi ki, həmin mallar və xəzinələr sayılsın və saxlanılsın.

Pərviz bu məclisdən qalxıb qadınlarının yanına keçdi. Onun Rəstə adında bir qulamı var idi ki, Şəhrvara qarşı bədbinliyi var idi. O şaha üz tutub dedi: Ey Şahənşah bu qədər, ucuz, az və müxtəsər şey, necə qədirli-qiymətli və baha görünə bilər axı?! Halbuki Şəhrvaraz şahənşaha xəyanət edib və özünü ondan üstün tutub. Şəhrvaraz əldə etdiyi çox şeydən azını şah sarayına göndərib. Şahənşah bu uzaqgörənliyi və zirəkliyi ilə əgər fikirləşsə ki, Şəhrvaraz bu işdə dürüstlüklə və əmanətdarlıqla rəftar edib, onda deyə bilərəm ki, şahın gümanı həqiqətdən uzaqdır, şansı da azdır və yanılır.

Rəstənin dediyi Pərvizin ürəyində şübhə oyatdı. Pərviz dedi: Məncə düz deyirsən, bəs onda fikrin nədir?

Rəstə dedi: Sən ona bir məktub yaz və məsələni belə izah et ki, bir problem çıxıb və məşvərətə ehtiyac var. Elə yaz ki, guya problemi məktubda açıqlamaq olmaz. Əgər o gələsi olsa ordakı

malları da gətirməli olacaq. Çünki, birdə ora qayıdacağını bilməyəcək deyə, nə var götürüb gələcək. O zaman sən də o malları gözünün qarşısında görəcəksən.

Pərviz Şəhrvaraza onun yanına qayıtması haqda məktub yazdı. Yazdı ki, məktublar vasitəsilə açıqlanması mümkün olmayan məsələ ilə bağlı məsləhət və məşvərət etməlidir.

Birinci elçi məktubu apardı. Şah ikinci elçini də başqa məktubla göndərdi. İkinci məktubda belə yazılmışdı: "Mən sənə yazmışdım ki, mühüm bir işlə bağlı məsləhətləşmək üçün bura gələsən. Amma indi baxıb görürəm ki, sənin orada qalmağın düşməni məhv və xar etmək, məmləkətə və şaha fayda vermək baxımından daha münasibdir. Elə isə olduğun yerdə qal, düşməndən qafil olma, onun sənə əks-hücumunu da diqqətdə saxla və ehtiyatı əldən vermə!. Çünki hər şeyi əlindən çıxan adam özünü düşmən sıralarına vurar ki, ya qalib olsun ya da məhv olsun. Vəssalam!"

Xosrov Pərviz sonra fərqli məzmunda başqa bir məktub yazdı. Məktubda deyilirdi:

"Sənə yazmışdım ki, mənə sarı yola çıx. Amma gözümüz yolda qaldı və nəsə gəlməyin gecikir. Biz anladıq ki, bu təxir, düşmənə qarşı bir taktika işlətmək və ya özünü hazırlamaq üçündür. Əgər məktubumuz sənə çatıbsa, öz qardaşını yerinə təyin et və sürətlə bizə sarı gəl və heç nə ilə məşğul olma!"

Şah bu iki məktubu ikinci qasidə verib dedi: Əgər, Şəhrvarazın bizə sarı hərəkət etdiyini görsən və görsən ki, hərbi qüvvələri də bu işi görür, o məktubu verərsən. Əgər görsən ki, gəlmək üçün hazırlaşmır və gəlmək niyyəti də yoxdur onda birinci məktubu verərsən.

İkinci Qasid Şəhrvarazın yanına gəlib çatanda gördü ki, hərəkət etmək niyyətində deyil. Buna görə qasid şahın birinci məktubunu ona verdi.

Şəhrvaraz məktubu oxuyandan sonra dedi: Həyata keçirilən hər qətlin özünəməxsus hiyləsi var.

Şəhrvaraz Pərvizin niyyətini anlamışdı. Çünki onun sarayda olan yardımçısı, qulam Rəstənin şaha dediyi məsələ ilə bağlı ona

məlumat çatdırmışdı. Yardımçısı onu, şahın sərkərdəyə bədgüman olması haqda agah etmişdi.

Xosrov Pərviz Şəhrvarazın gəlmədiyini görəndə əsəbindən daha bir məktub yazdı və ondan istədi ki, hüzuruna gəlsin.

Şəhrvaraz üçüncü məktubu oxuyub dedi: İndiyə qədər məsələ üstüörtülü idi, amma indi hər şey aydındır.

Xosrov Pərviz sərkərdəsinin niyyətinin xarab olduğunu görəndə və biləndə ki artıq o hüzura gələn deyil, növbəti məktubu Şəhrvarazın qardaşına yazdı və dedi: Mən həmin o ordunun komandanlığını və Rum imperatoru ilə döyüşü sənə tapşırmışam. Əgər Şəhrvaraz sənə tabe olarsa nə gözəl!. Əgər tabe olmasa onunla döyüşmək lazımdır.

Xosrov Pərvizin məktubu sərkərdənin qardaşına gəlib çatanda onu Şəhrvaraza göstərdi və bildirdi ki, şah komandanlığa onu təyin edib və əmr verib ki, əgər Şəhrvaraz tabe olmasa onunla savaşsın.

Şəhrvaraz qardaşına dedi: Mən Xosrov Pərvizi səndən yaxşı tanıyıram. O hiyləgər və məkrlidir. Artıq o bizim hər ikimizə qarşı bədgümandır. Əgər məni bu gün öldürsə, sabah da səni öldürəcək. Əgər səni bu gün öldürsə, məni sabah hökmən öldürəcək.

Şəhrvaraz Xosrov Pərvizin addımlarından qorxaraq, Rum imperatoru ilə sülh bağladı. Şəhrvaraz və Rum imperatoru bir-birinə xatircəmlik verdilər və Pərvizlə döyüşmək üçün sözlərini bir yerə qoydular.

Şəhrvaraz ona dedi: Mən onunla savaşacağam. Mən onun hiylə, taktika və eyblərini daha yaxşı bilirəm.

Rum imperatoru bunu qəbul etməyib dedi: Sən mənin məmləkətimdə qal, onunla mən özüm savaşacağam.

Şəhrvaraz dedi: Mənim döyüşməyimi istəməirsənsə, onda sənin üçün bir sıra xəritələr çəkəcəyəm ki, onun əsasında hərəkət edərsən.

Şəhrvaraz Rum imperatoru üçün xəritələr çəkdi və bu xəritələrdə onunla Pərviz arasındakı yolun üzərində ordunun oturaq edəcəyi və dayanacağı bütün yerləri müəyyənləşdirdi. Hansı yollardan gedəcəyini, haralardan keçməli olacağını, gündüzlər yolda

haralarda qala biləcəyini də yazdı və dedi: Nəhrəvana[117] çatanda, onu keçmə, dayan və çadırlarını qur!. Pərvizə bundan artıq yaxınlaşma, ordunu və ona göndərəcəyin təchizatı da buradan göndər!.

Rum imperatoru Xosrov Pərvizə sarı hərəkətə başladı. Xəbər Xosrov Pərvizə çatdı. Şah özü çox narahat oldu və işləri də dolaşığa düşdü. Onun əsgərlərinin çoxu ruzi qazanmaq üçün dağılışmışdılar. Çünki şah onların ərzaq və ərazilə təmin edilməsilə bağlı öhdəliyini yerinə yetirə bilməmişdi. Şah cansız, təchizatsız və ac ordu ilə qalmışdı.

Rum imperatoru bütün yol boyu Şəhrvarazın xəritələri əsasında hərəkət edirdi. Ordusu Nəhrəvana çatanda çadırlarını burada qurdu. O, artıq Pərvizlə "görüşməyə" hazır idi. Rum imperatoruna xəbər çatmışdı ki, Pərvizin ordusunun sayı az, əsgərləri pərakəndə, qalanlarının vəziyyəti də pisdir. Amma onun 400 minlik ordusu, bölgədə olan bütün yolları, dərələri və səhranı tutmuşdu. İstəyi Pərvizi öldürmək idi və zəfər qazanacağı haqda da şəkk-şübhəsi yox idi.

Pərviz bir xristian kişini yanına çağırdı. Pərvizin ata-babaları o kişinin xristian babalarına dəstək olmuş, Maninin və manilərin[118] qətlə yetirilməsi zamanı onların köməyinə gəlmiş və onları xilas etmişdilər.

Pərviz ona dedi: Bilməmiş olmazsan ki, bizim sülaləmiz keçmişdə və indilərdə də sizə necə dəstək olmuşuq!

Xristian kişi dedi: Elədir ey şahım. Mən buna görə sənə də, əcdadına da şakirəm.

Pərviz dedi: Elə isə al bu əsanı Şəhrvaraza apar. O Rum imperatorunun paytaxtındadır. Bunu apar əlbəəl ona ver.

---

[117] İraq paytaxtının yaxınlığında yerləşir. İnzibati baxımından Bağdad əyalətinin əl-Mədain qəzasının nahiyələrindən biridir.

[118] Manixeizm və ya Manilik (bəzən Maniçilik də adlanır) - qnostik dini təlim olub və Mani (216-277) tərəfindən qurulmuşdur. III əsrdə Babildə ortaya çıxmış olan bu təlim bütün dünyada və xüsusilə Şimali Afrikada yayılmışdır. Xristianlıq başda olmaq üzrə; Məzdəkilik, Buddizm və Mesopotamiya dinlərindən bir çox ünsürləri içinə aldığından eyni zamanda sinkretik bir xüsusiyyət daşımaqdadır. Maniçilik əslində Zərdüşt dualizmi, Babil folkloru, Buddist əxlaq prinsipləri və xristian ünsürlərin qarışığından ibarətdir.

Bu zaman Pərviz içiboş bir əsa gətizdirdi və onun içinə, "Şəhrvaraza çatdırmaq" üçün kiçik bir kağız yazıb yerləşdirdi. Bu məktubda belə yazılmışdı:

"Mən sənə bir məktub yazıb, əsanın içinə qoymuşam. Bu məktub sənə çatanda Rum imperiyasının paytaxtını yandır, döyüşən kişilərini öldür, qadın və uşaqları əsir götür, əmlaklarını isə qarət et! Orada heç bir görən göz, eşidən qulaq və döyünən ürək saxlamamalısan. Əgər saxlayırsansa hökmən sənə itaət etməlidirlər. Bil ki, mən filan gündə Rum imperatoruna hücum edəcəyəm. Həmin gündə də mənim fərmanımı yerinə yetirməlisən."

Pərviz xristian kişiyə lazımi maddi vəsaitin və təchizatın verilməsini əmr edib, dedi: Yolda diqqətini başqa şeyə yönəltmə, bir gün belə dayanma və irəlilə! Məbada bu əsanı Şəhrvarazdan başqasına verəsən! Əlbəəl onun özünə verməlisən!

Şah xristian kişi ilə sağollaşdı. O da yola düşdü. (Rum Ordusunun olduğu) Nəhrəvandan keçəndə xristianların kilsə zənglərinin çalınması zamanına təsadüf edirdi. Xristian kişi həmin zamanda bəlkə də on min zəngin çalınmasını eşidirdi. Gözləri yaşardı və öz-özünə dedi: Mən necə də pis adamam! Xristian dininə qarşı olan şəxsə yardım edir, bu zalım və diktatorun əmrlərinə itaət edirəm!

Xristian kişi Rum imperatorunun yanına getdi. Daxil olmaq üçün izn istədi. Ona izn verildi. Xristian kişi Pərvizin məsələsini kəlmə-kəlmə olduğu kimi açıqladı. Sonra əsanı ona uzatdı. Rum imperatoru əsanı alıb, baxdı. Əsanın içindəki məktub çıxarıldı və imperator üçün oxundu.

Rum imperatoru bir ah çəkib, dedi: Şəhrvaraz məni aldatdı. Əgər gözüm onu görsə, məhv edəcəyəm.

Sonra əmr verdi ki, çadırları yığsınlar və dərhal köç etmək göstərişini verdi və dayanmadan yola düşdü.

Pərviz də bura adam göndərmişdi ki, olanlardan onu agah etsin. Pərvizin casusu qayıtdı və Rum imperatorunun tələm-tələsik heç bir yerdə dayanmadan çıxıb getdiyini dedi.

Pərviz gülərək dedi: 400 min nəfəri məğlub və onları qaçmağa məcbur edən söz, necə də dəyərli və uca sözdür!

## SON SÖZ

Artıq kitabımızın sonuna gəlib çatdıq. Burada şahların əxlaq, adət və öhdəlikləri haqda, eləcə də onunla bağlı rəiyyətin boynunda olan öhdəliklər barədə gücümüz çatan qədər məlumat verdik. Bu kitaba, onu yazmağa sövq edən şəxsin xatirəsini anaraq xitam veririk. O şəxs ki, kitabın yazılmasında və cəm edilməsində açar rola malik olub.

Bunu deməliyik ki, mübarək Abbasi dövlətinin əvvəlindən indiyə qədər, ümumiyyətlə onun tarix və keçmişində möminlərin əmiri, sərvərimiz, əmir Fəth ibn Xaqan[119] kimi, şahların fəzilətlərini, adətlərini, gözəl xüsusiyyətləri və sifətlərini özündə cəm edən qəhrəman görməmişik. O şəxsiyyət ki, Bəni-Haşimə tərəfdar olmaqla, nəcib Abbasi xəlifələrinin xüsusi adamlarından olmaqla, Mötəsim Billahın, onun əməli-saleh qardaşlarının, imamların və sonuncu peyğəmbərin varisləri yanında boya-başa çatmaqla tanınmışdır.

Qoy bu hədiyyə edilmiş nemət ona nuş olsun, nemət sahibi onu bərəkətli və faydalı qılsın. Nemətini elə artırsın ki, ən uca məqam, zirvə və dərəcələrə nail olsun. Ona uzun ömür nəsib edib, həyatın şər-xətasından, zəmanənin bədbəxtliklərindən amanda saxlasın! Çünki o mərhəmətli və kəramətlidir!

---

[119] Cahiz kitabının sonunda Abbasi xilafətinin tanınmış dövlət adamlarından olan əmir Fəth ibn Xaqana, ona verdiyi dəstəyə görə minnətdarlığını bildirir. O təkcə bu kitabında deyil, digər əsərlərində də əmirə davamlı şəkildə təşəkkürlərini bildirmişdir.

# ƏDƏBİYYAT


1 *Əl-Asar əl-Baqiyə fil-qurun əl-Xaliyə*, Əbu Rehyan əl-Biruni, Çap edən: Şərqşünas Zaxay Karl Eduard, Almaniya, 1878
2 *Əl-Bidayə vən-Nihayə*, İbni-Kəsir, Dar İhya ət-Turas əl-Ərəbi, Beyrut, 1408 hicri-qəməri
3 *Əl-Buxəla*, Əbu-Osman Əmr bin Bəhr əl-Cahiz, Çap edən: Hollandiyalı şərqşünas Van Volten, Leyden, 1900
4 *Əl-Bəyan vət-Təbyin*, Əbu-Osman Əmr bin Bəhr əl-Cahiz, Qahirə, 1313 hicri-qəməri
5 *Əl-Cahizu fil-Bəsrəti və Bəğdad və Samirra*, Charles Pellat, Darul-Yəqzal- Ərəbiyyə nəşriyyatı, Dəməşq, 1961
6 *Əl-Əğani*, Əbul-Fərəc əl-İsfahani, ət-Təqəddum mətbəəsi, Qahirə 1905
7 *Əl-Əuzan vəl-Məqadir*, Şeyx İbrahim Amili Bəyyazi, Sur əl-Hədisə mətbəəsi, Livan, 1962
8 *Fəzailus-Səhabə*, Əhməd ibn Hənbəl, Camiət Ümmul-qura mətbəəsi, Səudiyyə Ərəbistanı, 1983
9 *Əl-Həyvan*, Əbu-Osman Əmr bin Bəhr əl-Cahiz, Darul-kutub əl-elmiyyə mətbəəsi, Beyrut, 2003
10 *İran dər zəmane Sasaniyan*, Artur Emanuel Kristensen, Entişarate Neqah nəşriyyatı, Tehran, 1998
11 *Əl-İstiab fi mərifətis-səhabə*, Yüsif bin Abdullah Əbdül-Birr əl-Qurtubi, Darul-kutub əl-ilmiyyə nəşriyyatı, Beyrut, 2010
12 *Əl-Kamil fit-tarix*, İbn əl-Əsir, Beytul-Əfkar əd-Dəuliyyə nəşriyyatı, Amman, 2009
13 *Kitabul-Əlam*, Xeyruddin Zirkili, Darul-Elm lil-məlayin nəşriyyatı, Beyrut, 2002
*14 Qurani-Kərim*
15 *Lisanul-Ərəb*, İbni-Mənzur əl-Ənsari, Dar ihya ət-Turas əl-Ərəbi nəşriyyatı, Beyrut, 1994
16 *Muhazarat əl-Udəba*, Rağib İsfahani, Dar Məktəbət əl-Həyat nəşriyyatı, Beyrut, 1961

17 *Murucuz-zəhəb*, Əbul-Həsən Əli əl-Məsudi, Məktəbət əl-Musənna nəşriyyatı, Bağdad, 1990
18 *Müstətrəf fi kulli fənnin müstəzrəf*, Şahabuddin Məhəmməd bin Əhməd Əbul-Fəth Əbşuvəyh, Məhəmməd Mustafa mətbəəsi, Qahirə, 1300 hicri-qəməri
19 *Mucam əl-Buldan*, Yaqut Həmavi, Dar Sadir nəşriyyatı, Beyrut, 1993
20 *Musənnəf İbni Əbu-Şəybə*, Abdullah ibn Məhəmməd əbi-Şəybə, Faruq əl-Hədisə lin-nəşr nəşriyyatı, Qahirə, 2008,
21 *Muxtəsar Tarix Diməşq*, İbni-Mənzur, Darul-Fikr nəşriyyatı, Dəməşq, 1984
22 *Əl-Məvaiz vəl-İtibar bi-zikri-xitəti vəl-asar*, Əhməd ibn Əli ibn Əbdülqadir Miqrizi, Dar əl-Kutub əl-İlmiyyə nəşriyyatı, Beyrut, 1418 hicri-qəməri
23 *Məhasinul-müluk fi tarixil-xüləfai vəl-müluk,* Məhəmməd Ğənim, Mətbəətul-Ülum mətbəəsi, Qahirə, 1938
24 *Əl-Müstədrək ələs-Səhihəyn*, Hakim Nişaburi, Dar kutub əl-İlmiyyə nəşriyyatı, Beyrut, 2002
25 *Əl-Məhasin və əl-Məsavi*, İbrahim ibn Məhəmməd əl-Beyhəqi, Dar Səduddin lin-Nəşr nəşriyyatı, Suriya, 2007
26 *Ən-Nihayə fi ğəribil-hədis*, Mübarək ibn Məhəmməd əl-Cəzri İbni-Əsir, Dar ibnl-Cəuzi nəşriyyatı, Səudiyyə Ərəbistanı əd-Dəmmam, 1421 hicri-qəməri
27 *Səhih əl-Buxari,* Məhəmməd ibn İsmail Buxari, Dar ət-Təsil nəşriyyatı, Qahirə, 2012
28 *Siyər Əlam ən-Nübəla*, Şəmsuddin Zəhəbi, Müəssəsət ər-Risalə nəşriyyatı, Beyrut, 1982
29 *Əl-Tac fi əxlaqil-müluk*, Əbu-Osman Əmr bin Bəhr əl-Cahiz, əl-Əmiriyyə mətbəəsi, Qahirə, Birinci çap, 1914
30 *Tənbihul-müluk vəl-Məkayid*, Əbu-Osman Əmr bin Bəhr əl-Cahiz, Dar əl-Kutub əl-İlmiyyə nəşriyyatı, Beyrut, 2005
31 *Tarixe Xilafəte Əbbasi*, Əhmədrza Xızrı, “Sazeman Motalee və Tədvine kotobe ulume Ensani” nəşriyyatı, Tehran, 1384 hicri-şəmsi

32 *Tacul-Ərus min cəvahiril-qamus*, Məhəmməd əl-Mürtəza əz-Zubeydi, Küveyt Mətbəəsi, Küveyt, 2008
33 *Tarixul-Yəqubi*, Əhməd əl-Yəqubi, Leyden, 1860
34 *Təvzihul-Məsail Came*, Seyid Əli Sistani, Ayətullah Sistaninin Dəftərxanası, Nəcəf, 2007
35 *Tarix ət-Təbəri*, Məhəmməd ibn Cureyr ət-Təbəri, Darul-Məarif nəşriyyatı, Qahirə, 1967
36 *Şərq təbabətinin min bir sirri*, Fərid Ələkbərli, Elm, Tarix və Mədəniyyət saytı, http://www.alakbarli.aamh.az/index.files/160.htm 2006
37 *Şəzəratuz-Zəhəb fi əxbarin min zəhəb*, İbnul-İmad əl-Hənbəli, əl-Qudsi mətbəəsi, Qahirə, 1350 hicri-qəməri
38 *Vəfəyatul-Əyan,* İbn-Xəllikan, ən-Nəhdə əl-Misriyyə mətbəəsi, Qahirə, 1949.

Əbu-Osman Əmr bin Bəhr əl-Cahiz
(767-868)

# “Əl-Tac fi əxlaq əl-müluk”
# (Şahların əxlaqı haqda Tac əsəri)

Kompüter tərtibçisi: *Rəna Seyid-Rzayeva*
Bədii tərtibat: *Şəlalə Məmməd*

Formatı: 60x84 $^{1}/_{16}$
Həcmi: 10,5 ç.v.
Sifariş: 8
Tirajı: 200
Qiyməti müqavilə
əsasında

Red N Line MMC tərəfindən hazır diapozitivlərdən
istifadə olunmaqla çap edilmişdir.